Nəzakət İmamverdiyeva,
Nərminə Mirzəliyeva

# YENİYETMƏLİK VƏ YETGİNLİK YAŞINA ÇATMIŞ UŞAQLARIN SOSİALLAŞMASINA AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN TƏSİRİ



**Nəzakət İmamverdiyeva,**
**Nərminə Mirzəliyeva**

# YENİYETMƏLİK VƏ YETGİNLİK YAŞINA ÇATMIŞ UŞAQLARIN SOSİALLAŞMASINA AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN TƏSİRİ

**(metodik vəsait)**

*Bakı Dövlət Universitetinin "Sosial elmlər və psixologiya" fakültəsinin 22 sentyabr 2022-ci il tarixli Elmi Şura iclasının (protokol № 1) qərarı ilə metodik vəsaitin çap olunması məqsədəuyğun hesab edilmişdir.*

**BAKI – 2022**

***Vəsaiti tərtib edənlər:***

**Nəzakət Bəylər qızı İmamverdiyeva**

*- pedaqogika üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin pedaqogika kafedrasının dosenti*

**Nərminə Seyfəl qızı Mirzəliyeva**

*- Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının Disertantı*

***Rəyçilər:***

***Ləzifə Nağı qızı Qasımova*** *-pedaqoji elmlər doktoru, professor, BDU-nun pedaqogika kafedrasının müdiri*

***Rüfət Lətif oğlu Hüseynzadə*** *-pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim*

***Hikmət Əbdül oğlu Əlizadə*** *- pedaqogika üzrə elmlər doktoru, Bakı Dövlət Universitetinin professoru, Şöhrət ordenli*

***Elmi və texniki redaktoru***

***Vaqif Həsən oğlu Mahmudov*** *- pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar müəllim, Qabaqcıl təhsil işçisi*

**Nəzakət B. İmamverdiyeva, Nərminə S. Mirzəliyeva. Yeniyetməlik və yetginlik yaşına çatmış uşaqların sosiallaşmasına ailədaxili münasibətlərin təsiri *(metodik vəsait).*** Bakı: “Müəllim” nəşriyyatı, 2022. – 207 s.

**ISBN 978-9952-435-34-8**

**© N.B.İmamverdiyeva, N.S.Mirzəliyeva, 2022**

## MÜNDƏRİCAT


| № | MÖVZULAR | səh. |
|---|---|---|
| | Ön söz | 4 |
| 1 | Psixi inkişafın yaş dövrləri | 12 |
| 2 | Müxtəlif yaş dövrlərində şəxsiyyətin inkişafının xüsusiyyətləri | 16 |
| 3 | Şəxsiyyətin formalaşmasında ailədaxili münasibətlərin rolu | 24 |
| 4 | Ailə tərbiyəsinin pedaqoji və psixoloji xüsusiyyətləri, ailədə valideyn-övlad münasibətlərinin psixologiyası | 30 |
| 5 | İctimailəşmə dövründə valideynlərin yetkinlik yaşına çatmış fərdlər üzərində təsiri | 40 |
| 6 | Ailədaxili münasibətlərin yeniyetmələrin formalaşmasına təsiri | 46 |
| 7 | Yeniyetmələrin ailə tərbiyəsində sosial amillərin rolu | 57 |
| 8 | Ailədaxili münaqişələrin yeniyetmələrin sosiallaşmasına təsiri | 66 |
| 9 | Asosial davranışlar və onun korreksiyası | 72 |
| 10 | Məktəb tərəfindən ailələrlə aparılan iş | 92 |
| 11 | Asudə vaxtın təşkili metodları | 94 |
| 12 | Yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkili məsələləri | 99 |
| 13 | Yeniyetmələrin təlim-tərbiyə prosesində yaranan problemlər | 134 |
| 14 | Uğursuz ailələrdə formalaşan yeniyetmələrin tərbiyə işinin imkan və yolları | 196 |
| | Ədəbiyyat | 205 |

# ÖN SÖZ

Uşaq şəxsiyyətinin formalaşmasında ailənin rolu əvəzedilməzdir. Gənc nəslin tərbiyəsi ailənin başlıca, valideynlərin isə ən mühüm vəzifələrindən biridir.

Valideynlər gənc nəslin tərbiyəsində nəyə xüsusi diqqət yetirməlidirlər?

Tərbiyə sözü adətən iki - dar və geniş mənada işlənilir.

Dar mənada tərbiyə - tərbiyə edənin tərbiyə olunana məqsədyönlü təsiri prosesidir. Tərbiyə edən həmişə müəyyən məqsəddən çıxış edir; o, tərbiyə olunan ictimai təcrübəni aşılamaq, onda yaxşı və pis haqqında təsəvvür yaratmaq, bu və ya digər hadisəyə münasibət formalaşdırmaq, davranış və rəftar norması ilə tanış etmək, mənəvi keyfiyyətlər aşılamaq məqsədilə müxtəlif üsullarla təsir göstərir.

Heç bir ailədə uşaq kortəbii şəkildə tərbiyə edilmir. Hansı valideyn olur olsun, o, uşaqların tərbiyəsində mütləq müəyyən pedaqoji məqsədi rəhbər tutur. Burada əsas həmin məqsədin nə dərəcədə doğru və ya səhv olmasıdır.

Valideynlərin bir qisminin pedaqoji məqsədləri çox vaxt aydın xarakter daşımır, dəqiq olmur. Bu da uşaqların tərbiyəsi işinə böyük ziyan vurur. Lakin bununla yanaşı, qeyd etmək lazımdır ki, ata-ananın böyük əksəriyyətinin öz qarşısına qoyduqları pedaqoji məqsədlər dəqiqliyi ilə seçilir.

Pedaqoqlar tərəfindən valideynlər arasında "siz öz uşaqlarınızda, hər şeydən əvvəl, şəxsiyyətin hansı keyfiyyətlərini tərbiyə etmək istərdiniz?" sualı əsasında anket sorğusu keçirilib. Əksər valideynlər belə cavab veriblər: düzlük, xeyirxahlıq, kollektivdə yaşamaq və işləmək bacarığı, böyüklərə hörmət, əməyə məhəbbət, vətəndaşlıq.

Uşağın yaxşı adam olmasını istəmək ülvi hissdir, lakin qənaətbəxş deyil. Bu "yaxşı adam" anlayışına hansı xarakter əlamətlərinin, hansı vərdiş, bacarıq, adət, hiss və s. daxil olduğunu bu və ya digər dərəcədə dəqiq aydınlaşdırmaq, uşağı

"yaxşı adam" kimi böyütməyin üsul və vasitələrini bilmək lazımdır.

Şəxsiyyətin formalaşması ictimai münasibətlər sistemi ilə bilavasitə bağlıdır. Tərbiyədən geniş mənada danışanda məhz bu cəhəti - ictimai münasibətlər, o cümlədən, ailə münasibətləri sisteminin insana təsirini nəzərdə tuturlar. Ailədə uşaqların sosial inkişaf şəraiti müxtəlif amillərlə şərtlənir.

Birinci tip amillərə ailə münasibətləri - ata ilə ana, valideynlərlə uşaqlar, bacı ilə qardaş, və s. arasındakı münasibətlər daxildir. Ailənin maddi vəziyyəti, mənzil şəraiti, quruluş ikinci tip amillər sırasına daxil edilir.

İkinci tip amillər uşaqların tərbiyəsinə bu və ya digər dərəcədə təsir göstərir. Lakin psixoloji tədqiqatlardan görünür ki, onları gənc nəslin tərbiyəsində həlledici hesab etmək olmaz. Ailə münasibətlərinin uşaqların tərbiyəsində roluna xüsusi diqqət yetirilməlidir. Ailədə böyüməkdə olan nəslin tərbiyəsi prosesində valideynlərin istifadə etdikləri ən mükəmməl tərbiyə üsulları belə, ailə münasibətlərinin tərbiyəvi səmərəliliyini əvəz etmir və edə də bilməz.

Ailə münasibətləri hər şeydən əvvəl, uşaqların emosiya və hisslərinə təsir göstərir. Onların yaşı artdıqca həmin münasibətləri mənimsəyirlər, bu zəmində də oğlan və qızların xarakter əlamətləri və s. formalaşır.

"Əzizim əziz, tərbiyəsi ondan əziz" atalar sözünün hikməti aydındır. Uşaqların tərbiyəsinə xüsusi diqqət yetirilməlidir. Bunu hər bir valideyn bilir və bilməlidir.

Əhalinin təhsil - mədəni səviyyəsinin köklü surətdə yüksəlməsi valideynlərin pedaqoji mədəniyyətinə də mühüm təsir göstərib. İxtisasından asılı olmayaraq onların böyük əksəriyyəti ailə tərbiyəsi problemləri üzrə qəzet və jurnallarda ardıcıl surətdə dərc olunan məqalələri maraqla oxuyur, televiziya və radioda ölkəmizin, o cümlədən, respublikamızın tanınmış psixoloq, pedaqoq və həkimlərin söhbətlərinə diqqətlə qulaq asırlar. Son zamanlar ailə tərbiyəsi problemlərinə dair

kitab və kitabçalara da maraq artmışdır. Lakin bir çox ailələrdə, xüsusilə gənc ailələrdə uşaqların tərbiyəsi sahəsində biz ciddi nöqsanlara rast gəlirik. Onlar, əlbəttə, təsadüfi xarakter daşıyır və müəyyən səbəblərlə bağlıdır.

Son illər valideynlərin pedaqoji mədəniyyəti məsələlərini öyrənmək məqsədilə müxtəlif tədqiqatlar aparılmışdır. Alimlər müəyyən etmişlər ki, ata-anaların bir çoxunun ailə tərbiyəsi haqqındakı bilikləri çox ümumi, hətta bəzən səthi xarakter daşıyır. Belə valideynlər ailə tərbiyəsinin ən sadə məsələlərini belə yoluna qoymaqda çətinlik çəkirlər, buna görə də uşaqla "ağlı necə kəsirsə, elə də rəftar edir". Bu zaman o, öz "tərbiyə üsullarının" nəticələrini əslində görmür, özünün atalıq və analıq borcunu pedaqoji baxımdan düzgün qiymətləndirə bilmir.

Adətən ailə tərbiyəsi məsələlərini biz özümüz başqalarına - uşaq vaxtı ata və anamıza, sonralar isə qonum-qonşuya baxa-baxa çox vaxt onların səhvlərini təkrar edə-edə öyrənirik.

Ailə münasibətlərinin gənc nəslin tərbiyəsindəki rolunun nəzərə alınmaması ailə tərbiyəsində yol verilən nöqsanlar içərisində xüsusi yer tutur. Bir sıra ailələrdə uşağa verilən mənəvi tələblərlə valideynlərin öz əməlləri uyğun gəlmir.

Evin məişət qayğılarında ata-ananın eyni dərəcədə iştirak etməməsi, hətta bu əsasda əmələ gələn söz-söhbət və münaqişələr uşaqlarda kişilik və qadınlıq haqqında təsəvvürlərin formalaşmasına mənfi təsir göstərir. Bəzən ata uşağa bir, ana başqa cür, nənə isə tamamilə fərqli yanaşır. Tərbiyəvi təsirlərin vəhdətdə olmaması uşaqların münasibətlər sisteminin və qiymət meyarlarının formalaşması prosesini çətinləşdirir.

Ailənin tərbiyə vəzifələri və imkanları haqqında da yanlış təsəvvürlərə də az təsadüf olunmur. Bir çox ailələrdə əmək tərbiyəsinin əhəmiyyətsiz yer tutması, oyunlardan və birgə inkişaf etdirici məşğələlərin digər formalarından az istifadə edilməsi məhz bununla bağlıdır.

Gənc nəslin yaş, cins və fərdi xüsusiyyətlərinin, tələbat və imkanlarının hesaba alınması sahəsində də ciddi nöqsanlar var. Məsələn, psixoloqlar müəyyənləşdirmişlər ki, 5-6 yaşında uşaqlar dil öyrənməyə çox həssas olurlar, onlar ana dili ilə yanaşı, rus dilini, hətta üçüncü bir dili öyrənə bilərlər. Lakin təəssüflə, bildirməliyik ki, ailələr çox zaman bu böyük imkandan səmərəli istifadə etmirlər.

Uşaqların təbii imkan və qabiliyyətlərinin vaxtında üzə çıxarılması sahəsində də ciddi nöqsanlara yol verilir. Valideynlər çox zaman uşağı heç bir əsas olmadan incəsənət sahələrinə təhrik edir, texnika sahəsinə isə maraq yaratmırlar.

Bəzi ailələrdə özünü göstərən əşya xəstəliyi uşaqların mənəvi tərbiyəsinə xüsusilə mənfi təsir edir. Ata-anaların bəziləri, hətta uşaqlar üçün "peşə seçəndə" belə onun "maddi cəhətdən sərfəli" olmasına diqqət yetirirlər. Valideynlərin özlərinin maraqlarının məhdud olması, mənəvi kasadlığı istər-istəməz uşaqların dünya, ailə, insan haqqında təsəvvürlərində əks olunur.

Ailə tərbiyəsinə quru nəsihətçilik halları da az ziyan vurmur. Uşaqlarda ünsiyyətin az və yeksnəsək olması da diqqəti cəlb edir. Bir çox hallarda isə valideynlərin uşaqlarla ünsiyyəti sadəcə olaraq adi güzəran söhbətinə çevrilir, səthi və məhdud xarakter daşıyır.

Asudə vaxtın, ailədə gün rejiminin düzgün təşkilindən çox şey asılıdır. Bu, bəzi hallarda vali-deynin iradəsindən asılı olmur. Həmin işdə məktəb, ictimai təşkilatlar ailənin köməyinə yetməyə borcludu.

Müşahidələr göstərir ki, uşaqlar ən çox sərbəst olduqları, məktəbdən və ailədən gəzib-dolandıqları vaxt pozulurlar. Yaşadığı məhəllənin, küçənin yerləşdiyi ərazinin yaxınlığı, dostluq, yoldaşlıq etdiyi uşaqların əxlaqı həddi-buluğa çatmamışlara güclü təsir edir. Məhəllə uşaqları arasında daha nüfuzluları olur. Digər uşaqlar onun ətrafında cəmlənir, məsləhəti ilə

oturub dururlar. Həmin yeniyetmənin şəxsiyyətini müəyyənləşdirmək, sonra əməli tədbir görmək valideyn üçün zəruridir.

Yeniyetmələrin hədsiz əzizlənməsi, hər cür tələblərinə güzəştə gedilməsi bəzi hərəkətlər və davranışlarında onlara sərbəstik verilməsi də pis nəticələnir. O, məktəbdən yayınır, siqaret çəkməyə, içki içməyə, yaşlılara məxsus oyunlar oynamağa, evə gec gəlməyə başlayır.

Ailə tərbiyəsinin çox mühüm bir xüsusiyyəti var: valideynlərlə uşaqlar arasında münasibətlər şəxsi-emosional xarakter daşıyır. Ana uşaqla hisslərin dili ilə danışır. Ata məhəbbəti də şirindi. Övladların qəlbini riqqətə gətirir. Ailə tərbiyəsinin üstünlüyü də, zərifliyi də məhz buradadı.

Fiziki və psixoloji cəhətdən yaxşı inkişaf etmək üçün uşağa, hər şeydən əvvəl, valideyn məhəbbəti gərəkdir. Ata-ananın məhəbbəti uşağı inkişaf etdirməlidir. Onun nəinki bugünkü, həm də sabahkı xoşbəxtliyinin rəhni olmalıdır.

Müasir ailələrdə uşaqların əzizlənməsi müxtəlif formalarda özünü göstərir: uşağı əmək qayğılarından azad edirlər, hamı onun canına and içir, adi sözünə əməl edir, istəkləri həmin an yerinə yetirilir, bərkə-boşa salinmır, adi çətinlikləri belə onun üçün ata və ya ana aradan qaldırır... Bir də xəbər tuturlar ki, uşağın iddiası yerə-görə sığmır. Artıq böyük oğlandı, lakin ailənin dərdi-səri ilə maraqlanmır, yalnız özü haqda fikirləşir.

Tutduğu xoşagəlməz hərəkətlərə görə evdə heç bir cəza almayan, hətta valideynlərdən biri tərəfindən müdafiə edilən övladlar da var. Onlarda belə bir fikir yaranır : "Madam ki, ona hər şeyə icazə verilir, mane olan, xətrinə dəyən yoxdur, o, nə istəsə edə, hətta qanunu da poza bilər". Nəvaziş və qayğının həddi gözlənilməlidir.

Çox zaman uşaq həddindən artıq əzizləndiyi zaman "çətin" olur. Uşağı tez-tez, özü də yersiz tərifləmək, onun pis əməllərini alqışlamaq lazım deyil. Təəccüblü odur ki, bəzi valideynlər bu mətləbi başa düşsələr də, yenə də uşağı

həddindən artıq qayğı ilə bürüyürlər, çünki bu çox asan yoldur. Uşağı əzizləməyə nə var ki, lakin onunla hər hansı bir əsəri müzakirə etmək, ona dil öyrətmək və s. isə çox çətindir. Çünki bu valideyndən təkcə vaxt yox, həm də bilik, bacarıq, pedaqoji səriştə tələb edir. Biz hər hansı bir qayğıdan uşağı azad etməklə onu həyata hazırlamırıq, bahalı şey almaqla onun sadəcə başını qatırıq. Əslində isə onu başımızdan edirik, öz ümidinə buraxırıq, yəni tərbiyəsi qayğısına qalmırıq.

Bir çox ailələrdə isə uşaqlara qarşı həddindən ziyadə tələbkarlıq göstərilir, cəzanın ədalətli olmasını gözləmirlər. Bəzi hallarda cəza müstəsna dərəcədə sərt xarakter daşıyır, uşağı qorxudur, onda inamsızlıq hissi yaradır.

Bəzi ailələrdə isə uşaq nadinclik etdikdə, sözə baxmadıqda, dərslərini öyrən-mədikdə, xoşagəlməz iş tutduqda valideyn yerli-yersiz onu döyür. Bu isə uşağın düzgün tərbiyəsinə son dərəcə mənfi təsir göstərir, eyni zamanda valideyn uşağın gözündə nüfuzdan düşür.

Fiziki cəzaya əl atan valideyn uşağa təkcə fiziki zədə deyil, həm də psixi zədə yetirir. Psixoloji tədqiqatlar göstərir ki, artıq yeniyetməlik dövründə uşaqların mənlik şüuru inkişaf edir, onlar özlərini bir şəxsiyyət kimi yüksək qiymətləndirir, öz ləyaqət və şərəflərini bütün aydınlığı ilə başa düşürlər. Buna görə də uşaqları qətiyyən döymək olmaz.

Uşağı döymək, onu təhqir etmək, ləyaqətini alçaltmaq, şəxsiyyətini tapdalamaq deməkdir. Lakin bu o demək deyil ki, uşağı cəzalandırmaq olmaz. Cəzanın müxtəlif növləri var. Onların bir çoxu ailə tərbiyəsində də bu və ya digər dərəcədə istifadə olunur.

Cəza məqsəd deyil, vasitə olmalıdır. Həm də uşağı addımbaşı danlamaq, utandırmaq və ya hədələmək yaramaz. Düzgün cəzalandırma valideyndən xüsusi məharət tələb edir.

F. E. Dzerjinski yazırdı ki, çubuq onların bədənini ağrıda bilər. Əgər onların qəlbləri inciyirsə, əgər bu kötək uşaqları öz arzularına zidd olan tərzdə hərəkət etməyə vadar edirsə, o

zaman müəyyən bir müddətdən sonra çubuq uşaqları öz zəifliyinin əsirinə çevirəcək, onların üzərinə əbədi əziyyət verən ağır bir daş kimi çökəcək və hər cür əzab-əziyyətə dözməyə qadir olmayan ruhsuz, satqın, "vicdanlı" adamlara çevriləcək.

Ailədə tez-tez bədən cəzasına məruz qalan uşaq özgələşir, sırtıq, kobud və qəzəbli olur. Fiziki cəza uşağın qəlbində zəriflik və həssaslığı məhv edir. Düzgün tərbiyə isə xoş rəftar və tələbkarlıqla yanaşı gedir.

Tələbkarlıq - uşağın şəxsiyyətinə və ləyaqətinə təzyiq kimi deyil, ona etibar və hörmət zəminində olmalıdı. Valideyn ilk gündən öz uşağında düzgün adət və vərdişlər formalaşdıra bilibsə, uşaq bircə sərt baxışdan səhvini anlayacaq, yaxşı işi ilə "günahını" yumağa çalışacaqdır.

Tutduğu əməllərə görə uşaqla elə söhbətlər aparılmalı, ona elə təsir göstərilməlidir ki, o, həmin pis hərəkətin onun üzvü olduğu, kollektivə, valideynlərə, ailənin şərəfinə, nüfuzuna, ümumiyyətlə, cəmiyyətə nə kimi zərər vurduğunu şüurlu surətdə dərk etsin, öz hərəkət və davranışına düşüncəli nəzarət etsin, yaşlıların xeyirxah məsləhətlərinə qulaq assın. Bunun üçün isə valideynlər, ilk növbədə, tərbiyənin məqsədini aydın təsəvvür etməlidir.

A.S. Makarenko göstərir ki, bəzi ailələrdə bu məsələyə daim etinasızlıqla yanaşırlar: "Valideynlər və uşaqlar sadəcə bir yerdə yaşayırlar və valideynlər ümid edirlər ki, hər şey öz-özünə qaydaya düşəcək. Belə valideynlərin nə aydın məqsədi, nə də müəyyən proqramı var." Əlbəttə belə hallarda tərbiyənin nəticəsi də həmişə təsadüfi olur və çox vaxt valideynlər sonra təəccüb edirlər ki, nə üçün onların maraqları korlanıb? Nəyə nail olmaq istədiyini bilmədən heç bir işi yaxşı görə bilməzsən.

Evdəki mebellərə qayğı göstərən uşaq avtobusdakı oturacaqları kəsir, məktəbdə pəncərə şüşəsini sındırır, ictimai yerdə tum çırtlayıb yeri zibilləyir və s. Ana isə üstəlik, irad

tutan vətəndaşların, ictimaiyyətin "acığına" oğluna tapşırır ki, onlara fikir verməsin, dediklərini qulaq ardına vursun.

Avtobusda yaşlı adamın ayaq üstündə durduğu halda uşağın özünü görməməzliyə vurması bizi narahat edir. Lakin valideyn özü buna şərait yaratdıqda vəziyyət dözülməz olur. Valideyn, əvvəla, pedaqoji cəhətdən düzgün hərəkət etmir. İkincisi, öz övladına etinasızlıq, saymazlıq və laqeydlik kimi məni keyfiyyətlər aşılayır.

İnsan anadan olduğu gündən ömrünün sonuna kimi tərbiyəvi təsirlərin əhatəsində yaşayır. Bunun üçün valideynlər uşağı ilk gündən elə tərbiyə etməlidir ki, onun hansı yaşındasa yenidən tərbiyəsinə ehtiyac qalmasın. O, cəmiyyət üçün faydalı adam kimi böyüsün.

A.S. Makarenko deyirdi: "Tərbiyə işinin əsl mahiyyəti heç də sizin uşaqla təklikdə söhbət etmənizdən, uşağa düzgün təsir göstərməyinizdən ibarət deyil, ailənizin, şəxsi və ictimai həyatınızın təşkilindən, uşağın həyatını təşkil etməkdən ibarətdir".

Böyüməkdə olan nəslin tələbat-motivasiya sahəsinin, əxlaqi şüurunun və s. formalaşmasına xüsusi diqqət yetirilməlidir. Uşaqda özü haqqında aydın təsəvvür yaradılmalıdır. O, özünün müsbət və mənfi keyfiyyətlərini düzgün qiymətləndirməyi öyrənməli və vaxtında özünütərbiyə ilə məşğul olmalıdır. Bundan ötrü isə bir tərəfdən uşağı ictimai münasibətlər sisteminə daha geniş cəlb etmək, ətrafdakı adamlarla onun ünsiyyətini dolğunlaşdırmaq, digər tərəfdən isə onun fəaliyyət sahəsini genişləndirmək zəruridir.

*Müəlliflərdən*

## 1. Psixi inkişafın yaş dövrləri

Psixoloji ədəbiyyatda uşağın inkişaf prosesi haqqında iki müxtəlif nöqteyi-nəzər mövcud olmuşdur. Bunlardan birinə görə bu inkişaf prosesi fasiləsiz, digərinə görə diskret - qeyri-bərabər xarakter daşıyır. Birinci fikrə görə inkişaf dayanmadan, sürətlənmədən, ləngimədən baş verir. Ona görə də bir mərhələni digərindən fərqləndirəcək hər hansı dəqiq sərhəddi müəyyənləşdirmək mümkün deyildir. İkinci nöqteyi-nəzərə görə inkişaf qeyri-rəvan, qeyri-bərabər şəkildə gedir. Onun sürəti gah arta, gah da azala bilir. Bu isə inkişafın keyfiyyətcə bir-birindən fərqlənən mərhələlərini, yaş dövrlərini müəyyənləşdirməyə imkan verir. Bu fikrin tərəfdarları hesab edirlər ki, hər bir mərhələdə inkişaf səviyyəsini şərtləndirən əsas, aparıcı amillər mövcuddur. Bununla yanaşı, fərdi xüsusiyyətlərindən asılı olmayaraq bütün uşaqlar inkişafın hər bir mərhələsini, onlardan heç birini buraxmadan, qabağa qaçmadan keçirlər.

Psixi inkişafın yaş dövrləri haqqında həmin konsepsiya psixoloji ədəbiyyatda özünə geniş yer tapmış və uşaqların təlim-tərbiyəsində geniş istifadə olunan konsepsiyadır.

Adətən insan bütün həyatı boyu özünün tələbatlarını ödəmək üçün bir çox fəaliyyət növlərindən istifadə edir. Lakin müəyyən yaş dövründə həmin fəaliyyət növlərindən biri digərlərinə nisbətən "əsas”, "aparıcı” fəaliyyət növü hesab olunur. Əsas fəaliyyət növü uşağın müəyyən inkişaf mərhələsində onun tələbatlarını ödəyən, onun psixi proseslərinin və şəxsiyyətinin fərdi psixi xassələrinin inkişafını şərtləndirən fəaliyyət növüdür. Uşağın əsas

fəaliyyət növünün dəyişməsi onun yeni yaş mərhələsinə keçməsini göstərən əsas amildir.

D.B.Elkoninə görə uşaq anadan olandan 17 yaşa qədər olan dövrdə ardıcıl olaraq aşağıdakı əsas fəaliyyət növlərindən istifadə edir və buna müvafiq olaraq yaş dövrləri müəyyənləşdirilir:

- ✓ Bilavasitə-emosional ünsiyyət;
- ✓ Əşyavi-manipulyativ fəaliyyət;
- ✓ Rollu oyunlar;
- ✓ Təlim fəaliyyəti;
- ✓ İntim-şəxsi ünsiyyət;
- ✓ Təlim-peşə fəaliyyəti.

Həmin əsas fəaliyyət növlərindən istifadəyə əsaslanaraq D.B.Elkonin müvafiq şəkildə uşağın anadan olandan orta məktəbi qurtarana qədər aşağıdakı altı yaş dövrünü keçdiyini qeyd etmişdir:

**1. Körpəlik dövrü: anadan olandan bir yaşa qədər.**

Bu dövrdə bilavasitə emosional ünsiyyət aparıcı fəaliyyət rolunu oynayır. İkinci ayda meydana gələn kompleks canlanma uşağın böyüklərlə ünsiyyətinin mürəkkəb forması kimi özünü göstərir. Böyüklərlə bu cür emosional ünsiyyət uşağın əşyalarla müstəqil olaraq manipulyasiya aparmağa başladığı dövrə qədər davam edir.

**2. Erkən uşaqlıq dövrü: bir yaşdan üç yaşa qədər.**

Bu dövrdə əşyavi-manipulyativ fəaliyyət aparıcı fəaliyyət olur. Bu zaman bir növ xüsusi əşyavi fəaliyyətə keçid baş verir. Eyni zamanda uşağın böyüklərlə verbal ünsiyyət forması inkişaf edir.

Aparılmış tədqiqatlar göstərmişdir ki, bu dövrdə uşaqlar nitqdən təfəkkür aləti kimi deyil, insanlarla birgə fəaliyyət zamanı əməkdaşlığı təmin etmək üçün əlaqə vasitəsi kimi istifadə edirlər.

**3. Bağça yaşı dövrü: 3 yaşdan 6 - 7 yaşa qədər.**

Bu dövrdə oyun aparıcı fəaliyyət rolunu oynayır, uşağın psixika və davranışının bütün cəhətlərinin inkişafı üçün şərait yaradır.

Xüsusi oyun tərzlərindən istifadə etməklə uşaq bir növ böyüklərin rolunu öz oyunlarında təkrar edir, insanlar arasındakı qarşılıqlı münasibətləri özünəməxsus şəkildə mənimsəyir. Bu zaman rollu oyunlar fəallığın növü kimi özünü göstərir.

**4. Kiçik məktəb yaşı dövrü: 6 – 7 yaşdan 10 -11 yaşa qədər**.

Bu dövrdə uşaqların psixi inkişafında təlim aparıcı fəaliyyət kimi özünü göstərir. Təlim prosesində əqli və idrak qabiliyyətləri formalaşmaqla, təlimin köməyi ilə uşağı əhatə edən adamlarla onun münasibətlər sistemi şərtlənir.

**5. Yeniyetməlik dövrü: 10 - 11 yaşdan 14 - 15 yaşa qədər.**

Bu dövrdə əmək fəaliyyəti, eləcə də xüsusi ünsiyyət forması olan intim-şəxsi ünsiyyət meydana gəlir və inkişaf edərək aparıcı fəaliyyət rolunu oynayır.

Ünsiyyətin başlıca məqsədi yoldaşlıq və dostluğun elementar normalarının aşkara çıxarılması və mənimsənilməsindən ibarət olur. Ünsiyyətin bütün formalarında yoldaşlığın özünəməxsus kodeksinə tabe olmaq müna-sibəti müşahidə olunur.

**6. İlk gənclik (yeniyetməlik) dövrü: 14 - 15 yaşdan 17 yaşa qədər.**

Bu dövrdə təlim - peşə fəaliyyəti aparıcı rol oynayır. Yeniyetməlik dövründə meydana gələn intim - şəxsi ünsiyyət inkişafda mühüm əhəmiyyət kəsb edir. İlk gənclik dövründə həyata baxışlar, peşə və şəxsi özünütəsdiq inkişaf edir.

Psixoloji ədəbiyyatda insanın bütün həyat silsiləsini əhatə edən aşağıdakı yaş dövrlərinin təsnifi verilmişdir:

**Yaş dövrləri (**kişi cinsi, qadın cinsi):

**Yeni doğulan:** 1 - 10 gün

**Südəmər uşaq:** 10 gün - 1 il

**Erkən uşaqlıq:** 1 - 2 il

**Uşaqlığın ilk dövrü:** 3 - 7 il

**Uşaqlığın ikinci dövrü:** 8 - 12 il və 8 - 11 il

**Yeniyetməlik dövrü:** 13 - 16 il, 12 - 15 il

**Gənclik dövrü:** 17 - 21 il və 16 - 20 il

**Orta yaş:**

*Birinci mərhələ:* 22 - 35 il və 21 - 35 il

*İkinci mərhələ*: 36 - 60 il və 36 - 55 il

**Yaşlı adamlar:** 61 - 75 il və 56 - 75 il

**Qocalıq yaşı:** 76 - 90 il

**Uzunömürlülük:** 90 ildən yuxarı

## 2. Müxtəlif yaş dövrlərində şəxsiyyətin inkişafının xüsusiyyətləri

İnsan öz inkişafında müxtəlif yaş dövrlərindən keçir və hər bir dövr şəxsiyyətin inkişafına müəyyən təsir göstərir.

Pedaqogika tarixində insanın yaş dövrləri ilə bağlı müxtəlif mülahizələr irəli sürülmüşdür. (Aristotel, N.Gəncəvi, Y.A.Komenski, C.C.Russo və b.).

Məsələn, Y.A.Komenski dörd fəslə müvafiq olaraq insan həyatını dörd dövrə bölmüşdü: həyatın bahar dövrü (uşaqlıq), yay dövrü (gənclik), payız dövrü (orta yaş), qış dövrü (qocalıq).

C.C.Russo uşaq və gənclik illərini dörd yaş dövrünə bölmüş və hər dövr üçün səciyyəvi tərbiyə sahəsini göstərmişdir:

I. Fiziki inkişaf dövrü (0-2 yaş);

II. Hisslərin inkişafı dövrü (2-12 yaş);

III. Zehni inkişaf dövrü (12-15 yaş);

IV. Əxlaqi inkişaf dövrü (15-18 yaş).

Yaş dövrlərinin göstərilən bölgüləri elmi bölgü hesab edilə bilməz. Hazırda pedaqoji, psixoloji və herontoloji baxımdan insanın aşağıdakı yaş dövrləri müəyyən edilmişdir:

- çağalıq və körpəlik dövrü (0-3 yaş);
- məktə-bəqədər dövr (3-6 yaş);
- kiçik məktəbli dövrü (6-10 yaş);
- yeniyetməlik dövrü (10-15 yaş);
- gənclik dövrü (15-30 yaş);
- yetkinlik dövrü (30-60 yaş);
- ahıllıq dövrü (60-75 yaş);

- qocalıq dövrü (75-90 yaş);
- uzunömürlülük dövrü (90-150 yaş).

Hər yaş dövrü özünə məxsus xüsusiyyətlərə malikdir. Tərbiyəçi bu xüsusiyyətlərdən çıxış edərək şəxsiyyətin formalaşmasını düzgün istiqamətləndirə bilər.

**Məktəbəqədər yaşlı uşaqların xüsusiyyətləri.**

Bu dövrdə bir sıra *anatomik-fizioloji xüsusiyyətlər* özünü göstərir. Uşaq fiziki cəhətdən inkişaf edir: erkən uşaqlıq dövründə (1-3 yaş) onun boyu ildə orta hesabla 4-5 sm, çəkisi 1-2 kq, 5-6 yaşda isə boyu 5-6 sm, çəkisi 2-2,5 kq artır. Bu yaşda uşaqların sümük-əzələ sistemi xeyli inkişaf etsə də, sümükləri elastik olur. Odur ki, uşağın düzgün oturmasına, yatmasına, ağır yük götürməməsinə nəzarət etmək lazımdır.

Bu yaşda uşağın beyin çəkisi artır (1350 qrama çatır), beyin yarımkürələrinin tənzimləmə funksiyası bir qədər güclənir. Lakin uşaqlarda beyinin qabıqaltı sahəsinin təsiri böyük olduğu üçün onlar öz hisslərinə nəzarət etməkdə çətinlik çəkirlər.

Bu yaşda uşaqlarda müəyyən *psixoloji xüsusiyyətlər* də özünü göstərir: duyğu, qavrayış, hafizə, nitq inkişaf edir. İdrak maraqları artır, uşaq hər şeyi öyrənməyə can atır, böyüklərə çoxlu suallar verir.

Məktəbəqədər yaşlı uşağın iradəsi zəif olur: onda yamsılama güclüdür, təsir altına tez düşür. Yaşlıların, xüsusən valideynlərin müsbət nümunəsi, sözü onun üçün böyük əhəmiyyət kəsb edir. Oyun, idman, əmək, rejim iradəni möhkəmlətməkdə, çətinlikləri aradan qaldırmaqda kömək gös-tərir.

3-6 yaşlı uşaqların hissi-emosional aləmi zəngin olur. Onlar şən oyunları, əyləncələri, nağıl və yumoru

xoşlayırlar. Onların təsiri ilə uşaqlarda əxlaqi - estetik hisslər formalaşır.

Bu yaşda uşaqlarda xarakterin bünövrəsi qoyulur. Uşağı hədsiz dərəcədə əzizlədikdə, ona daim güzəştə getdikdə, yersiz (şıltaq) tələblərini ödədikdə onda eqoizm, şıltaqlıq, kobudluq, ərköyünlük, dəcəllik baş qaldıra bilər. Bunun qarşısını almaq üçün uşağa qarşı hörmət və tələbkarlığı uzlaşdırmaq lazımdır.

Uşaqlarda qabiliyyətlərin ilk əlamətləri özünü büruzə verir (musiqi duyumu, rəsm, rəqs və b.). Onları vaxtında aşkara çıxarmaq və inkişafı üçün qayğı göstərmək vacibdir.

Üç yaşda uşaqlarla böyüklərin münasibətlərində müəyyən çətinliklər yaranır: uşaq müstəqilliyə can atır, hər şeyi özü sərbəst etmək istəyir («Mən özüm»), valideynlər isə onun müstəqilliyini məhdudlaşdırır, çox şeyi qadağan edirlər. Uşaq tərslik edir, hər şeyi tərsinə etməyə çalışır. Bununla da o, böyüklərin tələblərinə öz neqativ münasibətini bildirir. Psixoloqlar bunu «3 yaşın böhranı» adlandırırlar. Valideynlər uşağa müəyyən sərbəstlik verməli, onu müxtəlif növ oyunlara cəlb etməli, onunla birlikdə oynamağa çalışmalıdırlar.

Məktəbəqədər yaşda *əsas fəaliyyət növü oyundur.* Uşaq oyunlarına rəhbərlik zamanı diqqət yetirmək lazımdır ki, oyun təkcə əylənmə vasitəsi olmasın; uşaq oyunda həyatı öyrənsin, tərbiyə olunsun və psixi cəhətdən inkişaf etsin.

**Kiçik məktəb yaşlı uşaqların xüsusiyyətləri.**

Bu yaşda orqanizmin *anatomik-fizioloji inkişafı* yeni mərhələyə qədəm qoyur: uşaqların boyu ildə orta hesabla 3-4 *sm,* çəkiləri 2-3 *kq* artır. Skeletin sümükləş-

məsi başa çatmadığından onların partada düzgün oturmasına diqqət yetirmək lazımdır. Bu yaşda ürək-damar sistemi zəif inkişaf edir. Buna görə də uşaqların hərəkətdə olmasına ehtiyac duyulur.

Kiçik məktəblilərin özlərinə məxsus *psixoloji xüsusiyyətləri* vardır: bu yaşda qeyri-ixtiyari diqqət, mexaniki hafizə, konkret təfəkkür üstünlük təşkil edir. Onların nitq bacarığı da zəif olur. Çox vaxt şagirdlər mətnləri şer kimi əzbərləyir, mexaniki yadda saxlamağa çalışırlar. Bunun qarşısı alınmasa, onlarda əzbərçilik yarana bilər. Buna görə müəllim şagirdləri mətni öz sözləri ilə danışmağa, plan tutmağa, suallara cavab tapmağa, sərbəst mövzularda kiçik inşalar yazmağa daha çox cəlb etməlidir.

Bu yaşda *əsas fəaliyyət növü təlimdir:* təlimdə uşaq biliklərə yiyələnir, tərbiyə olunur və psixi cəhətdən inkişaf edir. Müəllim şagirdlərə öz təlim əməklərini düzgün təşkil etməyə, öyrənmənin səmərəli yollarını öyrətməyə çalışmalıdır.

K.D.Uşinski bunu ibtidai təlimdə bilik verməkdən də vacib vəzifə hesab edirdi.

Kiçik məktəblilərlə təlim-tərbiyə işində bu yaşın xüsusiyyətlərini nəzərə almaq mühüm əhəmiyyət kəsb edir. Onlardan başlıcaları aşağıdakılardan ibarətdir:

*a) Kiçik məktəblilər hər şeyi öyrənməyə can atırlar; bunu nəzərə alıb şagirdlərdə mütaliə tələbatı formalaşdırmaq lazımdır;*

*b) Uşaqlar şən, emosional təbiətə malikdirlər; müəllim və valideynlər bədii əsər və filmlərdən, canlı sözdən istifadə edib onlarda yüksək mənəvi hisslər (vətənə məhəbbət, xeyirxahlıq, qayğıkeşlik, diqqətlilik və s.) aşılamağa çalışmalıdırlar;*

*c) Kiçik məktəblilərdə ünsiyyət tələbatı güclüdür; bunu nəzərə alıb uşaqları kollektiv tədbirlərə, birgə oyuna, əməyə cəlb etmək, onlarda kollektivçilik, yoldaşlıq, dostluq, nəzakətlilik, qızlara qarşı diqqətlilik kimi keyfiyyətlər aşılamaq lazımdır;*

*ç) Uşaqlar təsir altına tez düşür, müəllimə inanır, onun dediklərini sözsüz yerinə yetirirlər. Bundan şagirdlərin düzgün tərbiyəsi üçün istifadə edilməlidir;*

*d) İbtidai sinif şagirdləri müəllimin tapşırıqlarını böyük həvəs və səylə yerinə yetirirlər. Müəllim və valideynlər müəyyən tapşırıqlar sistemi tətbiq etməklə, uşaqları həvəsləndirməklə onlarda müsbət keyfiyyətlər tərbiyə etməyə nail ola bilərlər.*

**Yeniyetmə yaşının xüsusiyyətləri.**

Yeniyetməlik dövründə bir sıra *anatomik-fizioloji* xüsusiyyətlər özünü göstərir: boy sürətlə (ildə 6-8 sm) artır, ürək-damar sistemi isə zəif inkişaf edir, cinsi yetişmə baş verir. Nəticədə yeniyetmələr tez yorulur, bəzən də hövsələsiz və əsəbi olurlar.

Bu yaşda *psixi inkişafda* yeni keyfiyyət dəyişiklikləri baş verir: yeniyetmələrdə məntiqi hafizə, ixtiyari diqqət, mücərrəd təfəkkür, təxəyyül inkişaf edir.

Yeniyetmə yaşında bəzi yeni *psixoloji törəmələr* özünü göstərir. Buraya böyüklük hissi, qızlarla oğlanların dostluğu, kollektivdə yaxşı mövqe tutmaq və məşhurlaşmaq meyli, özünüdərketmə tələbatı və s. daxildir.

Yeniyetmələr özlərini böyüklər kimi aparmağa çalışır, özlərinə qarşı böyüklər kimi münasibət tələb edirlər. Bəzən müəllim və valideynlər onların bu *«böyüklük hissi»* ilə razılaşmır, onlara uşaq kimi yanaşır, hər addımlarına nəzarət edir, yoldaşlarının yanında xoşagəlməz sözlər

işlədirlər. Yeniyetmə oğlan və qız çox vaxt bu səbəbdən böyüklərə cavab qaytarır, bəzən mübahisə, hətta kobudluq edir. Onların bir qismi böyükləri yamsılamaqla bəzi neqativ hərəkətlərə (məktəbli formasından imtina etmək, papiros çəkmək, spirtli içki içmək və s.) yol verirlər.

Yeniyetmələrdə *ünsiyyət və özünütəsdiq tələbatı* güclüdür. Buna görə də məktəb və ailə onları birgə tədbirlərə, ictimai-faydalı işlərə, əmək və ünsiyyətə geniş cəlb etməklə bu əsas tələbatın ödənməsinə şərait yaratmalıdır.

Yeniyetmələr *kollektivdə layiqli mövqe tutmağa* can atırlar. Bu, özünütəsdiqin bir vasitəsidir. Yoldaşlarının yanında nüfuzdan düşmək, şərəf və ləyaqətini itirmək - yeniyetmə üçün ən böyük faciədir. Buna görə də yeniyetmə yoldaşlarının yanında deyilən qeyri-taktiki sözlərə, ədalətsizliyə, təhqirə dözmür, onlara kəskin reaksiya verir. Bu zəmində bəzən ciddi münaqişə yaranır.

Yeniyetmələrin həyatında kollektivin ictimai rəyi, yoldaşların fikirləri böyük təsirə malikdir. Müəllim onlar üçün əvvəlki yaşlardakı qədər nüfuz sahibi deyildir. Buna görə də tərbiyəçi sağlam kollektiv rəyin yaranmasına, təlim-tərbiyə işində ona istinad etməyə çalışmalıdır.

Bu yaşda *yoldaşlıq və dostluq hissi* güclənir və yeni məna kəsb edir. Yeniyetmələr dostluğa yüksək tələblər verirlər. Qızlarla oğlanların dostluğu baş qaldırır. Bu, böyüklük hissi və başqa cinsi öyrənmək tələbatı ilə bağlıdır. Belə dostluqdan qorxmaq lazım deyil; bu, sevgi yox, əsl dostluqdur, bacı-qardaş münasibətinə bənzəyir.

Yeniyetmələrin açıq, kollektiv dostluğuna şərait yaratmaq lazımdır. Qızla oğlanın dostluğunu ələ salmaq,

qadağan etmək olmaz. Əks halda o, xəlvəti dostluğa çevrilər və arzuolunmaz nəticələr verə bilər.

Yeniyetmələrdə hisslər güclü təzahür edir: onlarda adətən hövsələsizlik, çılğınlıq, tündxasiyyətlilik özünü göstərir. Bəzi yeniyetmələrin özlərini ələ ala bilməməsi, davranış və rəftarlarında kobudluq və kəskinlik, özünənəzarətin zəifliyi bununla bağlıdır. Yeniyetmə neqativizmi çox zaman yorğunluqdan, ədalətsizlikdən, kollektiv və yoldaşlarının mənfi münasibətindən irəli gəlir. Müəllim və valideynlər mənfi emosiyaları aradan qaldırmaqda və müsbət hisslərin möhkəmlənməsində yeniyetməyə kömək göstərməlidirlər.

Yeniyetmələrin müəyyən qismində (xüsusən oğlanlarda) təlimə maraq azalır. Bunun qarşısını almaq üçün onlarda təlimə müsbət motivlər, təlimə maraq və tələbat aşılamaq, özünütəsdiq tələbatını ödəmək, xarici və daxili stimulları gücləndirmək, onları özünənəzarətə, kiçik məktəblilərin təliminə köməyə cəlb etmək faydalıdır.

Yeniyetmələr arasında bəzən *intizamsızlıq, qanunpozma halları* müşahidə olunur. Bu isə, adətən, ailələrdə qeyri-normal tərbiyə şəraiti ilə, münaqişələrlə, yeniyetmə nəzarətsizliyi, onların mənfi küçə təsiri altına düşməsi ilə (xuliqanlıq, oğurluq, sərxoşluq, narkomaniya və s.) bağlıdır. Belə halların qarşısını almaq üçün yeniyetmələrin asudə vaxtını səmərəli təşkil etmək, onları idmana, incəsənətə, mütaliəyə, ictimai işlərə, sosial ünsiyyətə cəlb etmək lazımdır.

Yeniyetmə neqativizmini bəzən yaşın «böhranı» kimi səciyyələndirirlər. Əslində isə, bunu yaşın çətinlikləri kimi izah etmək daha düzgündür.

Yeniyetməlik uşaq-lıqdan gəncliyə keçid dövrüdür: onlarda həm uşaqlıq, həm də gənclik əlamətləri özünü göstərir. Keçid dövrü müəyyən çətinliklərlə bağlıdır. Əsas çətinlik böyüklərlə yeniyetmələrin münasibətindəki çətinlikdir.

Yeniyetmələrin yaş xüsusiyyətlərini nəzərə almaqla, onların tələbatlarını ödəmək üçün şərait yaratmaqla, onlarla düzgün ünsiyyət qurmaqla, onları faydalı işlərə cəlb etməklə bu çətinlikləri aradan qaldırmaq mümkündür.

**Erkən gənclik yaşının xüsusiyyətləri.**

Bu dövrdə (15-18 yaş) orqanizm anatomik-fizioloji cəhətdən sürətlə inkişaf edir, yeniyetməlik dövründə müşahidə olunan qeyri-mütənasib inkişaf normal hala düşür. Boy artımı səngiyir, əzələ gücü qüvvətlənir.

Erkən gənclik şəxsiyyətin əsas keyfiyyətlərinin formalaşdığı və ictimai fəallığının artdığı dövrdür. O, vətəndaşlıq və seçib-seçilmək hüququ qazanır.

Bu yaşda bir sıra yeni keyfiyyətlər meydana gəlir: özünüdərketmə, özünüqiymətləndirmə və mənlik şüuru inkişaf edir; əxlaqi görüş və əqidənin, dünyagörüşünün formalaşması baş verir; müstəqillik, özünütəsdiq və özünütərbiyə meyli güclənir və s.

Erkən gənclik yaşında təlimə maraq artır. Bu isə onlarda yeni ictimai motivlərin və özünütəhsil tələbatının yaranması ilə bağlıdır. Fənnə maraq çox vaxt elmə olan marağa çevrilir.

Bu yaşda gəncləri özünütərbiyəyə geniş cəlb etmək, tərbiyə işində mənəvi məsələlərə, ailə, məhəbbət və peşəyönümü işinə diqqəti artırmaq lazımdır.

## 3. Şəxsiyyətin formalaşmasında ailədaxili münasibətlərin rolu

Yeniləşmə və qloballaşma şəraitində informasiyaların sürətli inkişafı, kütləvi kommunikasiya və təbliğatın genişlənməsi, cəmiyyətdə özünü göstərən bu və ya digər proseslər ailədaxili məsələlərə də təsir göstərir. Bu kontekstdə ailədaxili və şəxsiyyətlərarası münasibətlər məsələsi də müasir pedaqogika və psixologiyanın aktual problemlərindən birinə çevrilib.

Ailədaxili münasibətlərin sağlam peadqoji, psixoloji əsaslar üzərində, qarşılıqlı hörmət və məhəbbət əsasında qurulması cəmiyyətin inkişafını şərtləndirən amillərdəndir. Ailədaxili münasibətlər əsasən ata və ananın ailədəki rolu və münasibəti ilə şərtlənir. Bu münasibətlər həm ailənin möhkəmliyinə, həm də uşaqların tərbiyəsinə xüsusi təsir göstərir.

V. A. Suxomlinski qeyd edirdi ki, uşaqların əsas tərbiyə məktəbi ər və arvad, ata və ana arasındakı qarşılıqlı münasibətdir. Odur ki, ailədə tərəflərin əsas, başlıca rolu bir-birini qavramaq və anlamaqdır. Bu anlama və münasibət ailənin gələcək planlarını qurmaqda vacibdir.

Ailədaxili münasibətlər kontekstində valideynlərin uşaqları ilə münasibəti də önəmli əhəmiyyət kəsb edir. Bu məsələ hələ lap kiçik yaşlarından, məktəbəqədər dövrdən başlayır.

Uşaqların şəxsiyyətinin formalaşmasında, psixi inkişafında, ətrafdakılarla rəftar və davranışında, idrak fəallığının inkişafında valideyn-övlad münasibətləri mühüm rol oynayır.

Bu münasibətlər uşağın öz yerini, ailədəki rolunu müəyyənləşdirməkdə və özünü dərk etməsində, qabiliyyət və bacarıqlarını inkişaf etdirməkdə önəmlidir.

Ailədaxili münasibətlər kontekstində valideyn-uşaq münasibətləri tarixən milli xüsusiyyətlərin tələblərinə uyğun olaraq, eyni zamanda valideynlərin özlərinin düçüncə tərzinə, fərdi xüsusiyyətlərinə uyğun əsaslar üzərində qurulur.

Uşaqların şəxsiyyətinin formalaşmasında və psixi inkişafında aparıcı rol oynayan ünsiyyət tələbatı da məhz bu münasibətlərin gedişində bu və ya digər dərəcədə ödənilir. Qeyd etdiyimiz kimi sağlam, düzgün münasibət - sağlam, formalaşmış gələcəyə yol açır. Bəzi vaxtlarda isə ailədaxili münasibətlərin (ər-arvad) nizamsızlığı uşaqların taleyində neqativ izlər buraxır.

Uşaqlarla rəftar və davranış zamanı valideynlər bəzi vaxtlarda birtərəfli iştirak edirlər. Valideynlərdən birinin uşağı çox əzizləməsi, yaxud tez-tez onun üçün "havadarlıq" etməsi, "hələ uşaqdır düzələr" və s. bu kimi mühafizəkar mövqeləri uşaqların tərbiyəsində birtərəfli ölçülərə gətirib çıxarır. Çünki ailənin tərbiyə imkanları valideynlərin və uşaqların qarşılıqlı əlaqəsi ilə müəyyən olunur.

Pedaqoji ədəbiyyatlarda ailədə düzgün aparılmayan tərbiyənin əsas tipləri sırasında yer alan hiperqəyyumluğun bir növü olan "pərəstiş" tipinə uyğun xarakteristika belə izah edilir:

"Pərəstiş növdə uşaq daim diqqət mərkəzində olmağa adət edir, onun bütün arzu və tələbləri qeyd şərtsiz yerinə yetirilir, onu daim tərifləyirlər. Belə bir münasibətə görə, o, böyüyəndə öz imkanlarını düzgün qiymətləndirə,

eqosentrizmini dəf edə bilmir, kollektiv isə onu başa düşmür. Bu hisslər ona pis təsir edir, nəticədə o, hamını təqsirləndirir, öz səhvləri barədə qətiyyən düşünmür və bu səhvlər onda ömür boyu xoşagəlməz hiss, həyəcan gətirən xarakter formalaşdırır".

Ailədə uşaqların düzgün tərbiyəsi həm ailə üçün, həm də cəmiyyət üçün əhəmiyyətlidir. Görkəmli pedaqoq A. S. Makarenko demişdir: "Düzgün tərbiyə bizim xoşbəxt gələcəyimizdir, pis tərbiyə bizim gələcək göz yaşlarımız, əzabımızdır."

1989-cu ildə qəbul olunmuş Uşaq Hüquqları Konvensiyasının əsas ideyası uşaq şəxsiyyətidir.

Konvensiyanın mühüm prinsipi uşaqlara hörmət etmək, onların hüquqlarının qorunmasıdır. Uşaqlar irqindən, dərisinin rəngindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən asılı olmayaraq dünyanın hər yerində öz hüquqlarından istifadə etməlidirlər.

Bu hüquqların qorunması ilk növbədə ailədən başlayır. Ailə uşaqların mənəvi, əxlaq tərbiyəsinə böyüк təsir göstərir, onda vətənpərvərliк hissi, Vətənə sevgi, əməyə məhəbbət tərbiyə etməкlə, dostluq, yoldaşlıq, böyüкlərə hörmət, doğruçuluq, sadəlik və təvazöкarlıq, qənaətçilliк, intizamlılıq və s. кimi müsbət insani кeyfiyyətlər formalaşdırır.

Ailə münasibətlərinin əsasını ər və arvad münasibətləri təşkil edir. Onlar ailənin qoşa qanadlarıdır. Ailədə ata-ana əsas sima olduqları üçün onların arasında yaranmış münasibət uşaqların bu günü və gələcəyi üçün istiqamətləndiricidir.

Azərbaycan ailəsində bu münasibətlər daha çox diqqəti cəlb edir. Özünəməxsus spesifik çalarları ilə

xarakterizə olunan Azərbaycan ailəsi kökə, nəslə, uşağa bağlı olduğu üçün həmişə bütövlüyündə, ülviliyində seçimli olub.

Ər və arvad arasındakı münasibətin məzmununu qarşılıqlı hörmət və qayğı, səmimiyyət və mehribanlıq təşkil edir. Odur ki, bir-birinin nüfuzunu saxlamaq, uşaqların tərbiyəsində vahid tələbləri gözləmək ailədaxili münasibətlərdə əsas faktordur. İnsan anadan olduğu gündən ömrünün sonuna kimi tərbiyəvi təsirlərin əhatəsində yaşayır.

Pedaqoji və psixoloji tədqiqatlardan aydın olub ki, uşağın sağlam psixoloji inkişafa malik olması üçün onun ana ilə ünsiyyəti (emosional ünsiyyət), xüsusən də, ilk 3 ildə əhəmiyyət kəsb edir.

Uşağın psixoloji ehtiyacını sevgi, məhəbbət, qayğı, ülvi hisslərin məcmusu kimi qiymətləndirmək mümkündür. Bu dövrlərdə əmək və oyun fəaliyyətinin inkişafı da uşaqların psixikasına müsbət təsir göstərir.

Ailədə uşaqların mənəvi-psixoloji inkişafının əsas göstəricilərindən biri də onların idrak fəallığının inkişafıdır ki, bu da zamanının tələbidir. Artan informasiyalar, siyasi və sosial-iqtisadi həyatdakı irəliləyişlər uşaqların istedad və zehni qabiliyyətlərinin genişlənməsi məqsədini qarşıya qoyur.

Zehni, intellektual inkişaf psixoloji prosesdir. Bu prosesin anadangəlmə və irsiyyətlə bağlılığı fikri ilə yanaşı alimlər qeyd edirlər ki, sağlam psixoloji mühit və şəraitin yaradılması da aparıcı şərtlərdən sayılır. Bu mənada müasir dövrdə valideynlərin pedaqoji savadı və mədəniyyətinin yüksəldilməsi vacibdir.

Xüsusilə də, anaların savadlı olması övlad tərbiyəsində, ailədaxili münasibətlərin düzgün qurulmasında zəruridir.

Ailədaxili münasibətlər, ailənin psixoloji iqlimi, "ər-arvad", "valideyn-uşaq" və "uşaq-uşaq" münasibətləri ailə tərbiyəsinin əsaslarıdır. Çünki ailədaxili və onun ətrafdakı psixoloji iqlim şəxsiyyətin formalaşmasında mühüm əhəmiyyət kəsb edir və şəxsiyyətlərarası münasibətlərin özünəməxsus sahəsini təşkil edir.

Ailə tərbiyəsinin əsas prinsiplərindən biri uşaqlara hörmət və tələbkarlıqdır. Uşaqlara hər yaşda, hər cür şəraitdə hörmət edilməlidr. Onların şəxsiyyət və ləyaqətləri tapdanmamalıdır. Uşaqları ələ salmaq, təhqir etmək, pərt etmək, gülünc vəziyyətə salmaq, aldatmaq, onlara qarşı kobudluq etmək, psixi və fiziki zorakılıq etmək, başqalarından üzr istəməyə məcbur etmək qətiyyən yol verilməzdir.

Ailədə uşaqlar məhəbbətlə idarə edilməlidir. Belə olduqda uşaqlar da valdeynlərinin getdikləri yolla gedir və çox nadir hallarda bir-biri ilə kobud danışırlar.

Daim əmr şəklində tapşırıqların verildiyi, tez-tez kəskin iradlar eşidildiyi və sərt cəzaların yerinə yetirildiyi bir çox ailələrdə tərbiyə işi düzgün qurulmur.

Kobud sözlər uşaqların xarakterini sərtləşdirir və ürəklərini yaralayır, çox vaxt bu yaraları sağaltmaq çətin olur. Ən kiçik səhvlərə görə uşağın ciddi şəkildə cəzalandırılması ilə müşayiət olunan sərt tərbiyə uşağı daim qorxu içərisində saxlayır".

Uşaqlar ən kiçik ədalətsizliyi belə hiss edirlər və bu hal bəzilərini o dərəcədə bədbinliyə gətirib çıxarır ki, artıq

onlara əmr edən yüksək, əsəbi səsə fikir vermirlər və cəzalanmaqdan qorxmurlar.

Uşaqları əhəmiyyətsiz xətalara görə həddindən artıq sərt tənqid etmək çox təhlükəlidir. Həddindən artıq ağır tənqid və sərt qaydalar bütün qayda-qanunlara hörmətsiz yanaşmağa gətirib çıxarır və bu cür şəraitdə tərbiyə olunmuş uşaqlar çox tezliklə hər cür qanunlara hörmətsizlik göstərəcəklər.

Valideynlər yalnız əxlaqlı həyat sürməklə və təmkin göstərməklə övladlarına hörmətlə yanaşdıqda düzgün xarakter formalaşdıra bilərlər.

Əgər ana uşağına ehtiramla yanaşır, onu əzizləyirsə, ona qarşı kəskin sözlərdən və hərəkətlərdən çəkinirsə, bu zaman uşaq valideynlərinin kiçik iradından təsirlənib, öz səhvini etiraf edəcək və özünü yaxşı aparmağa çalışacaqdır.

Sadalanan bu fikirlərin təməlində valideyn sevgisi və valideynlərin şəxsiyyətlərarası münasibətlərinin necə təşkili məsələləri dayanır. Bu mənada tərbiyə prosesində valideynlər arasında fikir ayrılığı olmamalı, bir-birini təkzib etməməlidirlər.

Ata və ana heç vaxt uşaqların yanında mübahisə etməməli, bir-birinin plan və fikirlərinə tənqidi yanaşmamalıdır.

Əgər valideynlər fikir birliyinə gələ bilmirlərsə, onda öz məsələlərini uşaqların yanında müzakirə etməməlidirlər.

## 4. Ailə tərbiyəsinin pedaqoji və psixoloji xüsusiyyətləri, ailədə valideyn - övlad münasibətlərinin psixologiyası

Bildiyimiz kimi şəxsiyyətin formalaşması ictimai münasibətlər sistemi ilə bilavasitə bağlıdır. Tərbiyədən geniş mənada danışanda məhz bu cəhəti - ictimai münasibətlər, o cümlədən, ailə münasibətləri sisteminin insana təsirini nəzərdə tuturlar. Ailədə uşaqların sosial inkişaf şəraiti müxtəlif amillərlə şərtlənir, onlardan ikisini ayrıca qeyd etmək mümkündür:

*1) Ata ilə ana, valideynlərlə uşaqlar, bacı ilə qardaş, və s. arasındakı ailə münasibətləri.*

*2) Ailənin maddi vəziyyəti, mənzil şəraiti.*

Bu tip amillər uşaqların tərbiyəsinə bu və ya digər dərəcədə təsir göstərir. Lakin psixoloji tədqiqatlardan görünür ki, onları gənc nəslin tərbiyəsində həlledici hesab etmək olmaz.

Hər bir cəmiyyətdə tərbiyə həmin cəmiyyətin başlıca vəzifələrindən birini təşkil edir. İnsan amilinin əsas yer tutduğu hazırki dövrdə gənc nəslin elmi dünyagörüşünə, yüksək əxlaqi keyfiyyətlərə malik olan, ahəngdar inkişaf etmiş, ictimai cəhətdən fəal olan, mənəvi zənginliyi, əxlaqi saflığı və fiziki kamilliyi özündə birləşdirən şəxsiyyət kimi tərbiyə olunması, formalaşdırılması ən vacib, təxirəsalınmaz bir vəzifə kimi qarşıda durur.

Tərbiyə sözü adətən iki - dar və geniş mənada işlənilir. Dar mənada tərbiyə - tərbiyə edənin tərbiyə olunana məqsədyönlü təsiri prosesidir. Tərbiyə edən həmişə müəyyən məqsəddən çıxış edir; o, tərbiyə olunana ictimai təcrübəni aşılamaq, onda yaxşı və pis haqqında təsəvvür

yaradaraq, bu və ya digər hadisəyə münasibət formalaşdırmaq, davranış və rəftar norması ilə tanış etmək, mənəvi keyfiyyətlər aşılamaq və s. məqsədilə müxtəlif üsulların köməyilə təsir göstərir.

Uşaq şəxsiyyətinin formalaşmasında ailə tərbiyəsinin rolu əvəzedilməzdir. Gənc nəslin tərbiyəsi ailənin başlıca funksiyalarından biridir, valideynlərin isə ən mühüm vəzifələrindəndir. Biz yaxşı və pis uşaqlar haqqında danışırıq. Onların hər ikisinin atası da var, anası da. Lakin valideynlərin öz-özlüyündə xeyirxah arzularından asılı olmayaraq, bir evdə yaxşı, digərində isə pis uşaq böyümüşdür.

Son illər valideynlərin ailə tərbiyəsi haqqında fikirlərini öyrənmək məqsədilə müxtəlif tədqiqatlar aparılmışdır. Alimlər müəyyən etmişlər ki, ata-anaların bir çoxunun ailə tərbiyəsi haqqındakı bilikləri ümumi, hətta bəzən səthi xarakter daşıyır. Belə valideynlər ailə tərbiyəsinin ən sadə məsələlərini belə yoluna qoymaqda çətinlik çəkirlər. Son zamanlar ailə tərbiyəsi problemlərinə dair kitab və kitabçalara da maraq artmışdır.

Lakin bir çox ailələrdə, xüsusilə gənc ailələrdə uşaqların tərbiyəsi sahəsində biz ciddi nöqsanlara rast gəlirik. Onlar, əlbəttə, təsadüfi xarakter daşıyır və müəyyən səbəblərlə bağlıdır. Bu haqda aydın təsəvvür əldə etmək üçün bəzi məsələləri xüsusilə göstərmək gərəkdir.

Uşağın gələcəkdə kişi və qadın kimi formalaşmasının əsasları da ailədə qoyulur. Qızlar qadınlıq etalonlarını, hər şeydən əvvəl, ana ilə dialoq şəraitində mənimsəyirlər. Oğlan uşaqlarına isə kişiyə məxsus xarakter əlamətləri, xüsusilə iradi keyfiyyətlər aşılanır. Onlarda təmkinlilik, dözümlülük, mərdlik və s. keyfiyyətlər tərbiyə

olunur. Atanın bir kişi, ananın isə qadın kimi nümunəsi uşaqların oğlan və qız kimi formalaşmasında eyni dərəcədə zəruridir. Bu baxımdan, valideynlərin uşaqlarına münasibətinin xarakteri də əhəmiyyətlidir.

Oyuncaqları ilə qızlar «evcik-evcik» oynayar, gəlinciyini bələyər, layla çalar, yatırardılar. Beləliklə, qızlar böyüyər, öz kiçik bacı-qardaşlarına qulluq edərdilər. Bu minvalla onlarda analıq hikməti baş qaldırardı.

Elə ailələr də olur ki, uşaqlar arasında ayrıseçkilik qoyulur. Uşaqların biri və ya ikisinə o birilərinə nisbətən daha çox qayğı göstərilir. Hansısa uşaq sevilir, o birisi isə daim danlanılır. Uşaq valideynin sevgisini hiss etmir. Əksinə valideynin aqressiyası ona qarşı yönəlir.

Ailə həyatı şəxsiyyətin inkişafına bütövlükdə təsir göstərir. Məlumdur ki, insanın xarakterinin, əməyə, mənəvi, ideya və mədəniyyət sərvətlərinə münasibətinin əsasları ailədə formalaşır. Heç bir ailədə uşaq kor-koranə, kortəbii şəkildə tərbiyə edilmir.

Hansı valideyn olur-olsun, o, uşaqların tərbiyəsində mütləq müəyyən bir məqsədi rəhbər tutur. Həmin məqsəd nə dərəcədə doğrudur və ya səhvdir? Valideyn öz məqsədini necə həyata keçirir. Bu suallar ətrafında fikirləşmək lazımdır.

Valideynlərin bir qisminin məqsədi çox vaxt aydın xarakter daşımır, dəqiq olmur. Bu, uşaqların ailə tərbiyəsi işinə böyük ziyan vurur. Lakin bununla yanaşı, qeyd etmək lazımdır ki, ata-ananın böyük əksəriyyətinin öz qarşısına qoyduqları məqsədlər dəqiqliyi ilə seçilir. Bu zaman o, öz "tərbiyə üsullarının" nəticələrini əslində görmür, özünün atalıq və analıq borcunu psixoloji baxımdan düzgün qiymətləndirə bilmir.

Ailə tərbiyəsi məsələlərini biz özümüz başqalarına - uşaq vaxtı ata və anamıza, sonralar isə qonum-qonşuya baxa-baxa, çox vaxt onların səhvlərini təkrar edə-edə öyrənmişik və öyrənirik.

Ailə münasibətlərinin uşaqların tərbiyəsində roluna xüsusi diqqət yetirilməlidir. Ailədə böyüməkdə olan nəslin tərbiyəsi prosesində valideynlərin istifadə etdikləri ən mükəmməl tərbiyə üsulları belə, uşaqların min bir tellə bağlı olduğu ailə münasibətlərinin tərbiyəvi səmərəliliyini əvəz etmir.

Ailə münasibətlərinin gənc nəslin tərbiyə-sindəki rolunun nəzərə alınmaması ailə tərbiyəsində yolverilən nöqsanlar içərisində xüsusi yer tutur. Bir sıra ailələrdə uşağa verilən mənəvi tələblərlə valideynlərin öz əməlləri uyğun gəlmir.

Evin məişət qayğılarında ata-ananın eyni dərəcədə iştirak etməməsi, hətta bu əsasda əmələ gələn söz-söhbət və münaqişələr uşaqlarda kişilik və qadınlıq haqqında təsəvvürlərin formalaşmasına mənfi təsir göstərir.

Uşaqların yanında mübahisə açmamaq, açıq söhbət üçün münasib vaxt tapmaq, həyat yoldaşının etiraz və iradlarına diqqətlə qulaq asmaq, onun bütün "dəlil-sübutlarını" aydınlaşdırmaq, mübahisəli məsələləri ağıllı surətdə həll etmək, həmişə xeyirxah mövqe tutmaq vacibdir.

Ailə bəzən uşaqlar üçün öz əhəmiyyətini itirir. Uşaqlar, xüsusilə oğlanlar özlərinin ünsiyyət tələbatını küçə qruplarında təmin etməyə başlayırlar.

Dəqiq müəyyən edilmişdir ki, çətin tərbiyə olunan, cinayət xarakterli əməllərə uyan uşaqların böyük əksəriyyəti məhz natamam ailələrdə böyümüşdür.

Valideynləri boşanmış uşaqların yarısı özlərinin inkişaf səviyyələrinə görə öz həmyaşıdlarının çoxundan geridə qalır. Onların bir çoxu-nun nitqində pozğunluqlar müşahidə edilir. Dərsdə fikirli olurlar, diqqətləri tez-tez yayınır. Onların çoxu adamlara düşmən gözü ilə baxırlar. Onlar məktəbdə də, evdə də çox vaxt asanlıqla kobudluq edir, münaqişəyə girir, dava-dalaş salırlar. Qızlar isə, əksinə, sözəbaxan olurlar, analarının yanında olmağa çalışırlar və ev işlərində ona yaxından kömək göstərirlər.

Elə insanlar var ki, valideyn nə qədər qəddar olsa da, onunla son bağları qırmağa gücü çatmır, vicdan əzabı çəkir və özünü günahkar hiss edir. Amma bəzi hallarda valideynlə münasibətə son qoymaq yeganə çıxış yolu olur. Bu isə münasibətlər və ailədaxili konfliktlər ifrat dərəcəyə çatdıqda, insan ağır psixoloji zərbə aldıqda baş verir.

Bəzən ata uşağa bir tərzdə, ana başqa cür, nənə isə tamamilə fərqli şəkildə təsir edir. Tərbiyəvi təsirlərin vəhdətdə olmaması uşaqların münasibətlər sisteminin və qiymət meyarlarının formalaşması prosesini çətinləşdirir.

Ailənin tərbiyə vəzifələri və imkanları haqqında da yanlış təsəvvürlərə də az təsadüf olunmur. Bir çox ailələrdə əmək tərbiyəsinin əhəmiyyətsiz yer tutması, oyunlardan və birgə inkişaf etdirici məşğələlərin digər formalarından az istifadə edilməsi məhz bununla bağlıdır.

Böyüməkdə olan nəslin tələbat - motivasiya sahəsinin, əxlaqi şüurunun və s. formalaşmasına xüsusi diqqət yetirilməlidir. Uşaqda özü haqqında aydın təsəvvür yaradılmalıdır. O, özünün müsbət və mənfi keyfiyyətlərini düzgün qiymətləndirməyi öyrənməli və vaxtında özünütərbiyə ilə məşğul olmalıdır. Bundan ötrü bir tərəfdən, uşağı ictimai münasibətlər sisteminə daha geniş cəlb

etmək, ətrafdakı adamlarla onun ünsiyyətini dolğunlaşdırmaq, digər tərəfdən isə onun fəaliyyət sahəsini genişləndirmək zəruridir.

Valideynlər uşaqların təbii imkan və qabiliyyətlərinin vaxtında üzə çıxarılması sahəsində də ciddi nöqsanlara yol verirlər. Onlar çox zaman uşağı heç bir əsas olmadan incəsənət sahələrinə təhrik edir, texnika sahəsinə isə maraq yaratmırlar.

Müşahidələr göstərir ki, uşaqlar ən çox sərbəst olduqları - məktəbdən və ailədən uzaq gəzib-dolandıqları vaxt pozulurlar. Yaşadığı məhəllənin, küçənin yerləşdiyi ərazinin yaxınlığı, dostluq, yoldaşlıq etdiyi uşaqların əxlaqı həddi-buluğa çatmamışlara güclü təsir edir. Məhəllə uşaqları arasında daha nüfuzluları olur. Digər uşaqlar onun ətrafında cəmlənir, məsləhəti ilə oturub dururlar. Həmin yeniyetmənin şəxsiyyətini müəyyənləşdirmək, sonra əməli tədbir görmək valideyn üçün zəruridir.

Tərbiyənin məqsədi müxtəlif formalarda – ideya-siyasi tərbiyə, əmək tərbiyəsi, əqli tərbiyə, mənəvi tərbiyə, estetik tərbiyə, ekoloji tərbiyə, hüquq tərbiyəsi, fiziki tərbiyə və s. kimi həyata keçirilir. Bu sahədə ailənin öz imkanları və xüsusiyyətləri, uşaq bağçalarının, məktəbin isə öz imkanları və xüsusiyyətləri vardır. Lakin buna baxmayaraq onlar vəhdət təşkil etməlidir.

Bir məsələ də mühümdür. Əmək tərbiyəsi, mənəvi tərbiyə və ya əqli tərbiyənin ayrı-ayrılıqda özünəməxsus məzmunu, vəzifələri və üsulları vardır. Ata və ana onları yaxşı bilməlidir. Nəzərə alınmalıdır ki, şəxsiyyət hissə-hissə tərbiyə olunmur. Onun formalaşması sistemli xarakter daşıyır.

Tərbiyənin göstərilmiş bu tərkib hissələrinin hamısı bir məqsədə - şəxsiyyətin formalaşdırılması məqsədinə xidmət edir. Buna görə də ailə tərbiyəsində onların qarşılıqlı əlaqəsinə diqqət yetirmək vacibdir.

Ailə münasibətləri hər şeydən əvvəl, uşaqların emosiya və hisslərinə təsir göstərir. Onların yaşı artdıqca həmin münasibətləri mənimsəyirlər, bu zəmində də oğlan və qızların xarakter əlamətləri və s. formalaşır. Belə ki, ailə tərbiyəsinin çox mühüm bir xüsusiyyəti vardır: valideynlərlə uşaqlar arasında münasibətlər şəxsi-emosional xarakter daşıyır. Ana uşaqla hisslərin dili ilə danışır. Ata məhəbbəti də şirindir, övladların qəlbini riqqətə gətirir. Ailə tərbiyəsinin üstünlüyü də, zərifliyi də məhz buradadır. Fiziki və psixoloji cəhətdən yaxşı inkişaf etmək üçün uşağa, hər şeydən əvvəl, valideyn məhəbbəti gərəkdir. Ancaq bir şərtlə: ata-ananın məhəbbəti uşağı inkişaf etdirməlidir. Onun nəinki bugünkü, həm də sabahkı xoşbəxtliyinin rəhni olmalıdır. Tutduğu xoşagəlməz hərəkətlərə görə evdə heç bir cəza almayan, hətta valideynlərdən biri tərəfindən müdafiə edilən övladlar da vardır. Onlarda belə bir fikir yaranır: "Madam ki, ona hər şeyə icazə verilir, mane olan, xətrinə dəyən yoxdur, o, nə istəsə edə, hətta qanunu da poza bilər". Nəvaziş və qayğının həddi gözlənilməlidir. Çox zaman uşaq həddindən artıq əzizləndiyi zaman "çətin" olur. Uşağı tez-tez, özü də yersiz tərifləmək, onun pis əməllərini alqışlamaq lazım deyil.

Uşağın, xüsusi ilə yeniyetmələrin hədsiz əzizlənməsi, hər cür tələblərinə güzəştə gedilməsi bəzi hərəkətlər və davranışlarında onlara sərbəstik verilməsi də pis nəticələnir. O, məktəbdən yayınır, siqaret çəkməyə, içki içməyə,

yaşlılara məxsus oyunlara oynamağa, evə gec gəlməyə başlayır. Təəccüblü odur ki, bəzi valideynlər bu mətləbi başa düşsələr də, yenə də uşağı həddindən artıq qayğı ilə bürüyürlər, çünki bu çox asan yoldur. Uşağı əzizləməyə nə var ki, lakin onunla hər hansı bir əsəri müzakirə etmək, ona dil öyrətmək və s. isə çox çətindir. Çünki bu valideyndən təkcə vaxt yox, həm də bilik, bacarıq, pedaqoji səriştə tələb edir. Biz hər hansı bir qayğıdan uşağı azad etməklə onu həyata hazırlamırıq, bahalı şey almaqla onun başını qatırıq, əslində isə onu başımızdan edirik, öz ümidinə buraxırıq, yəni tərbiyəsi qayğısına qalmırıq.

Müasir ailələrdə uşaqların əzizlənməsi müxtəlif formalarda özünü göstərir: uşağı əmək qayğılarından azad edirlər, hamı onun canına and içir, adi sözünə əməl edir, nə desə o da olmalıdır, bərkə-boşa salmırlar, adi çətinlikləri belə onun üçün ata və ya ana aradan qaldırır… Bir də xəbər tuturlar ki, uşağın iddiası yerə-görə sığmır. Artıq böyük oğlandır, lakin ailənin dərdi-səri ilə maraqlanmır, yalnız özü haqda fikirləşir.

Bir çox ailələrdə isə uşaqlara qarşı həddindən ziyadə tələbkarlıq göstərirlər. Cəzanın ədalətli olmasına fikir vermirlər. Bir çox hallarda cəza müstəsna dərəcədə sərt xarakter daşıyır. Uşağı qorxudurlar. Onda inamsızlıq hissi yaradırlar. Bəzi ailələrdə isə uşaq nadinclik etdikdə, sözə baxmadıqda, dərslərini öyrənmədikdə, xoşagəlməz iş tutduqda valideyn yerli-yersiz onu döyür. Bu isə uşağın düzgün tərbiyəsinə son dərəcə mənfi təsir göstərir, eyni zamanda valideyn uşağın gözündə nüfuzdan düşür. Fiziki cəzaya əl atan valideyn uşağa təkcə fiziki zədə deyil, həm də psixi zədə yetirir.

Psixoloji tədqiqatlar göstərir ki, artıq yeniyetməlik dövründə onlar özlərini bir şəxsiyyət kimi yüksək qiymətləndirir, öz ləyaqət və şərəflərini bütün aydınlığı ilə başa düşürlər. Buna görə də uşaqları qətiyyən döymək olmaz. Uşağı döymək, onu təhqir etmək, ləyaqətini alçaltmaq, şəxsiyyətini tapdalamaq deməkdir. Lakin bu o demək deyil ki, uşağı cəzalandırmaq olmaz.

Cəzanın müxtəlif növləri vardır. Onların bir çoxu ailə tərbiyəsində də bu və ya digər dərəcədə istifadə olunur. Lakin cəza məqsəd deyil, vasitə olmalıdır. Həm də uşağı addımbaşı danlamaq, utandırmaq və ya hədələmək yaramaz. Cəzalandırma valideyndən xüsusi məharət tələb edir.

Ailədə tez-tez bədən cəzasına məruz qalan uşaq özgələşir, sırtıq, kobud, qəzəbli və cinli olur. Fiziki cəza uşağın qəlbində zərifliyi və həssaslığı məhv edir. Düzgün tərbiyə isə xoş rəftar və tələbkarlıqla yanaşı gedir. Tələbkarlıq uşağın şəxsiyyətinə və ləyaqətinə təzyiq kimi deyil, ona etibar və hörmət zəminində olmalıdır.

Valideyn ilk gündən öz uşağında düzgün adət və vərdişlər formalaşdıra bilmişdirsə, uşaq bircə sərt baxışdan səhvini anlayacaq, yaxşı işi ilə "günahını" yumağa çalışacaqdır.

Tutduğu əməllərə görə uşaqla elə söhbətlər aparılmalı, ona elə təsir göstərilməlidir ki, o həmin pis hərəkətin onun üzvü olduğu, kollektivə, valideynlərə, ailənin şərəfinə, nüfuzuna, ümumiyyətlə, cəmiyyətə nə kimi zərər vurduğunu şüurlu surətdə dərk etsin, öz hərəkət və davranışına düşüncəli nəzarət etsin, yaşlıların xeyirxah məsləhətlərinə qulaq assın.

Bunun üçün isə valideynlər, ilk növbədə, tərbiyənin məqsədini aydın təsəvvür etməlidir. Uşaqlarda ictimai mülkiyyətə, ətraf aləmə, təbiətə, insanlara qarşı münasibətdə özünü büruzə verən qəddar və rəhmsiz münasibətlər vaxtında valideyni ciddi düşündürməlidir.

Heyvanlarla qəddarcasına rəftar edən, yaşıllığı korlayan, gözəlliyə xor baxan, quşları güdən əli sapandlı uşaqlarla demək olar ki, hamımız qarşılaşırıq. Çox vaxt həmin sapandı, quş tutmaq üçün tələni valideynlər özləri düzəl-dirlər.

Tərbiyə prosesində nənə-babanın rolu böyük əhəmiyyət daşıyır. Çünki ailə tək ata, ana və uşaqdan ibarət deyil. Hər bir qohumla olan münasibətin belə uşağa təsiri olur. Nənə-baba tərbiyəsi isə birinci növbədə qayğı, müdriklik və həyat təcrübəsi deməkdir. Uşaq onlarla münasibət nəticəsində yaşlı nəsilə davranış qaydalarını öyrənir.

Ümumiyyətlə, hesab olunur ki, nəvə və nənə-baba arasında sanki sehrli bir əlaqə var və bu uşaq psixologiyasına müsbət təsir edir. Məsələn, bir nağılı uşağa həm ana, həm nənə söylədikdə onun üçün nənənin söylədiyi nağıl daha maraqlı olur. Həm də bu əlaqədə ciddi tələb və cəzalanma qorxusu olmur.

Amma, nənə-baba bəzən bilmədən uşağı çox ərköyün etməklə tərbiyəsinə mənfi təsir göstərə bilir. Valideynlər uşağı ilk gündən elə tərbiyə etməlidirlər ki, onun hansı yaşındasa yenidən tərbiyəsinə ehtiyac qalmasın. O, cəmiyyət üçün faydalı adam kimi böyüsün, ailə, kollektiv, ümumiyyətlə xalq üçün ağır yükə çevrilməsin.

## 5. İctimailəşmə dövründə valideynlərin yetkinlik yaşına çatmış fərdlər üzərində təsiri

Fərd dünyaya gəldiyi andan etibarən, ailə daxilində və ailədən kənarda ictimailəşmə dövrünə də daxil olur. Bu dövrdə, uşağın ictimailəşməsində ən böyük məsuliyyət sahibi olan adam anadır. Bu zaman ananın təhsil və mədəniyyət səviyyəsi uşağın ictimailəşməsində olduqca təsirli rol oynayır.

Uşağın bəslənməsi, baxımı, ona göstə-rilən maraq, əlaqə, şəfqət və sevgi kimi davranışlar da uşağın başqalarına qarşı güvən duyğusu qazanmasında təsirli olur. Beləcə uşaq gözlənilən dərəcədə və sürətlə ictimai bir varlıq halına gələ bilir.

Ailə, uşağı ictimailəşdirərkən, uşaqlara cəmiyyətin dəyər və normalarına uyğun bir fərd olmağı öyrədir və beləliklə onların ictimailəşmələrinə köməkçi olarkən, uşaqlar da ictimailəşmənin təməl dəyərlərini mənimsəməklə nəsillər arası mədəniyyət formalarını reallaşdırır. Cəmiyyətə məxsus mədəniyyətin nəsildən nəsilə keçidi ailədə başlayıb, məktəbdə və ətrafda davam edir.

Ogburnun (Göy tərəfindən, 2004: 188) fikrinə görə aşağıdakılar ailə vəzifələrinə aiddir:

1. *Ailənin varlığını qoruyan nəsilin davamını təmin edən bioloji vəzifə;*

2. *Hər cür maddi ehtiyacların qarşılanması üçün iqtisadi vəzifə;*

3. *Qoruyuculuq vəzifəsi;*

4. *Romantik vəziyyətlərin qorunması üçün psixoloji vəzifə;*

5. *İctimailəşdirilmənin təmin edilməsi üçün təhsil vəzifəsi.*

İctimailəşmə - bir adamın aktiv bir vətəndaş və bir fərd olaraq yetişmə dövrüdür.

Yetkinlik dövrü 11-12 yaş ilə 14-15 yaş arasıdır. Yetkinliyin ilk illəri (12-14 yaş) qarşıdurmanın qaçınılmaz olduğu illərdir. Fərdi fərqlər olmaqla birlikdə bu dövr fiziki dəyişmənin ən sürətli olduğu dövrdür. Hormonlardakı dəyişmələr həm bioloji böyüməyə, həm də romantik reaksiyalara sıx olaraq təsir etməkdədir.

Bu dövrdə yetkinlər duyğularının idarə idarə edilməsində çətinlik yarana bilər. Duyğu vəziyyətlərində isə ani dəyişmələr baş verər, tənqidə qarşı olduqca həssaslıq yaranar. Həmçinin uşaqda olduqca həssas və kövrək mənlik hissləri yaranır.

Yetkinlik dövrü ilə birlikdə düşünmə və problem həll etmə bacarıqlarının da inkişafı gözlənilir. Uşaqlıq dövründə onların düşüncə sistemində konkret olanlara maraq yaranır. Məsələn, obyektləri qruplarkən uşaqlar ilk olaraq rənglərinə ya da şəkillərinə görə qruplaşdırmağı seçərlər, amma yetkinlik dövründə uşaqlar mücərrəd düşünmə bacarığının inkişafı ilə hadisələrin fərqli istiqamətlərini də qiymətləndirməyə başlayırlar. Amma bu bacarıqlar təbii ki, bir anda qazanılmaz.

Yetkinlik dövrünə "dönüş nöqtəsi" və "böhran dövrü" də deyilir. Uşaq həyatının bir mərhələsindən digərinə keçər. Eyni zamanda, həm fiziki, həm də zehni inkişafda sürətli irəliləmə hiss olunur.

Yetkinlərin təməl problemlərindən biri valideynləri tərəfindən səhv başa düşülmələridir.

Yetkinlərin adətən ehtiyac duyduqları və düşündükləri aşağıdakılardır:

1) *Müstəqillik və sahib olma;*

2) *Fərdi gizlilik və fərdiliyə hörmət;*

3) *Qərar verməkdə və səhv etmədə müstəqil olmaq;*

4) *Yoldaşları ilə daha çox vaxt keçirmək və daha yaxın əlaqələr qurmaq;*

5) *Valideynləri, bacı və qardaşları ilə daha az vaxt keçirmək.*

Əhəmiyyətli bir inkişaf mərhələsini əhatə edən yetkinlik dövründə ata-analara və ətrafa böyük vəzifələr düşür.

Məktəblər yetkinliyin inkişafına böyük təsir edir. Yetkinlik dövründə fərdiliyin diqqətə alınması vacibdır. Çünki bütün yetkinlərdə zehni, psixoloji və ictimai inkişafın yaşanma dərəcələri fərqlidir.

Ailənin iqtisadi və ictimai vəziyyətindən asılı olaraq onların davranışına müsbət və mənfi təsirlər edilir. Uşaqlarda getdikcə öz fərdi təhlükəsizliyini təmin etməkdə, öz yoldaşlarını seçməkdə, öz zamanlarını istifadə etməkdə, öz işlərini görməkdə məsuliyyətlərinin artma məcburiyyəti yaranır.

Ailə daxilində romantik və ictimai qarşılıqlı təsir baxımından müvəffəqiyyətli bir uşaqlıq dövrü keçirən fərd, yetkinlik dövrü problemlərini daha asanlıqla həll edə bilər.

Cinsiyyət faktoru üzrə diqqətə aparılann araşdırmalarda, qızların kişilərdən daha çox narahat olduqları kəşf edilmişdir. Ancaq qızların müəyyən işlərin görülməsində daha çox səy göstərdikləri müəyyən olunmuşdur.

Frances E. Jensen Adolesan Psixologiyası adlı kitabında valideynlərinin uşaqlarına hər hərəkətinə reaksiya vermədən əvvəl 10-a qədər sayması lazım olduğunu yazır. Kitabda uşaqların ruhi hal dəyişmələrində onların səhvi olmadığını, bunların beyinlə əlaqədar olduqlarını ortaya qoyur. Ailədə özünə inam qazanan bir gənc, onu gerçək həyata inteqrasiya edər, məktəbdə hörmət qazanar.

Ailə, yetkinlərin cəmiyyətdə uyğun bir mövqe qazanmalarına kömək etməkdə əhəmiyyətli bir rol oynayır.

Əslində valideynlərin uşaqlarına özlərini etibarlı hiss etmələri üçün öz dünyalarını kəşf etmələrinə icazə vermələri lazımdır. Bəzi ipucları valideynlər və uşaqlar arasında hər hansı bir qarşıdurmanı nizamlamaq üçün istifadə edilə bilər.

Valideynlər uşaqlarının fikirlərinə diqqət yetirməli, onları maraqlandıra biləcək mövzulara toxunmamalı, paltarlarına və görünüşlərinə müdaxilə etməməli, uşaqları olduqları kimi qəbul etməlidirlər.

Valideynlər bəzən yeniyetmələrin hərəkətlərini kobudluq, hörmətsizlik hesab edər və müstəqillik meyllərini nizamlamağa çalışar. Bu isə səhv əlaqələrin meydana gəlməsinə və ailənin yetkinlərin ictimailəşmə dövründə mənfi təsirinə gətirib çıxarar.

Valideynlərin uşaqlarını anlamaları, onlara qarşı səbirli olmaları və yalnız valideyn olaraq deyil, yoldaş olaraq da rəftar etmələri daha məqsədə uyğundur. Belə olduqda, yetkinlər valideynlərinin özləri haqqındakı fikirlərini anlayar, yaxşını və pisi daha yaxşı təhlil edə bilərlər. Ailəsi onu səhv etdiyi zaman xəbərdar etdikdə, gənc öz

səhvini düşünər, bundan dərs götürər, işin doğrusunu öyrənər və valideyinlərinin fikirlərinə hörmət edər.

Əks halda, gənc hər zaman özünü istənilən dövrdə haqlı hesab edər, valideynlərinin onu anlamadığını düşünər. Beləcə, digər tərəflə səhv tapmağa çalışar, ancaq öz səhvlərini görə bilməz. Həm də gənclərin özlərini ailələrindən uzaq tutmasına səbəb olar.

Yetkinlərin ailədə ictimai olaraq yetişdirilməsi dövründə istək, arzu və mənfəətləri göz önündə saxlanılmalı, cəmiyyətdə aktiv ola bilmək üçün onların qabiliyyətləri üzə çıxarılmalıdır.

Yetkinlik yaşdakı uşaqların anlamaları çox çətin olduğundan bir çox hallarda onlar tənqid olunur. Tənqid edənlər bunun faydalı olduğunu düşünürlər. Amma belə yanaşmalar hər gün onları valideynlərindən uzaqlaşdırır.

Ailələrindən ayrılan yetkinlər, xarici dağıdıcı qruplara meylli olur, bu da mənfi vərdişlər əldə etmələrinə gətirib çıxarır. Bu ən pis nəticədir.

Valideynlər, yeniyetmənin təzyiqi altında, öz şəxi fikirlərinə qarşı çıxar və daha əvvəl icazə vermədiklərinə icazə verərsə, həm də bu vəziyyətdə, gənc və valideynlər arasındakı qarşıdurmaların sayı azalsa da, bunlar təkrar olunduqda valideynlər ümidsiz bir vəziyyətə düşə bilər. Bu cür problemi nə gənc nə də valideynləri anlaya bilmir. Gənc nələrin edə biləcəyi və ya edə bilməyəcəyinini valideynlərinə də izah edə bilmir.

Ən doğru davranış şəkli zaman keçdikcə, valideynlərini artıq gəncə bir uşaq olaraq yanaşmamasıdır. Bu zaman isə başqa problemlər ortadan qalxa bilər.

Yeniyetmə və valideynlər arasındakı qarşıdurmaları aradan qaldırmaq üçün, valideynlər və müəllimlər yeni-

yetmənin şəxsiyyətinə və fərdi keyfiyyətlərinə görə davranmağı bacarmalıdırlar.

Yeniyetməlik dövründəki uşaqlarının dəyişmə və inkişaf müddətində, valideynlər tərəfindən mənimsənənilən məqamlar, ailədaxili əlaqələrə və ailənin ictimai həyatına təsir edən əhəmiyyətli bir faktor olaraq ortaya çıxır.

Ailə ictimai həyatın xüsusi bir sahəsini meydana gətirir və bu sahə daxilində ilk olaraq qəbul edilən yaxın əlaqələr ailə üzvləri arasında qarşılıqlı asılılıqdan ibarətdır.

Bu asılılıq xüsusilə ailə üzvlərinin ictimai və bioloji olaraq movcud olduqlalarını davam etdirə bilmələri baxımından çox əhəmiyyətlidir.

Ancaq bu qarşılıqlı asılılıq uşaq sahibi olan ailələrdə bərabərlik zəmnində reallaşmalıdır. Bu funksiyaların yerinə yetirilməsində valideynlərin öhdəlikləri olduqca çoxdur.

Ana və ata özlərinin fiziki, ruhi və ictimai sağlamlığını qorumaqla yanaşı uşaqlarının inkişafının hər dövründə onların şəxsiyyətinin inkişafında da mühüm rol oynayırlar.

Ana və atalar bütün ailə fərdlərinin fiziki, ruhi və ictimai baxımdan sağlam olmasını təmin etməklə, həm də nəsilin davamlılığının təmin edilməsində funksional bir rol oynayır.

## 6. Ailədaxili münasibətlərin yeniyetmələrin formalaşmasına təsiri

Yeniyetmələr, kimlərdir? Uşaqlar ya böyüklər? Bəzən ədəbiyyatda "yetkin uşaqlar" anlayışına rast gəlmək olur ki, bu da yeniyetmələrin spesifik bioloji, tibbi və sosial xüsusiyyətləri və ehtiyyacları ilə müəyyən edilmiş yaş qrupu kimi obyektiv olmasını inkar edir.

Bir insanın fizioloji, psixoloji, əxlaqi, sosial formalaşması yeniyetmə uşaq populyasiyasında təcrid üçün əsas hesab olunur və buna görə də, bir qayda olaraq bir insanın bir şəxs olmaqla "yenidən doğulması" kimi xarakterizə olunur. Bu yaşda bədənin morfoloji və funksional quruluşlarının yetkinləşməsi, reproduktiv sistemin formalaşması, yenidən qurulması ilə sürətli bir böyümə, sıçrayış baş verir.

Beləliklə 18-19-cu əsrlər Alman klassiklərinin əsərlərində (Goethe və Schiller) gənclik, başqalarına "qəribəlik, idealizm, qaranlıq və çox əzabla birlikdə" olaraq təqdim olunur. Corc Stanley Hall "yeniyetmələrin atası" hesab olunur, çünki yeniyetmələri araşdıran, onların psixologiyasını, yaş xüsusiyyətlərini, davranışlarının tətqiqatlarına elmi yanaşma tətbiq edən ilk psixoloq idi. Gənclərin emosional sürət olduğuna daim inanmışdır. Bir anlıq romantika, sonra ki, dövrlərdə də depresiyaya uğrayır, bu gün laqeydlik sabah isə ifadəli olmaqla əvəz olunur. Emosional hədd arasındakı bu dalğalanmalar, Hallın fikrincə 20 ilə qədər davam edir. Üstəlik, bu barədə heç bir şey edilə bilməz, çünki onlar genetik olaraq kodlaşdırılmışdır. Psixoloqlar bir müddət Hall-un bu fikirləri ilə razilaşmayaraq bəzi mübahisələr aparmişlar. Lakin illər

keçdikcə Hall deyən fikirlər öz əksini tapmağa başlamışdır. Zaman keçdikcə isə artıq digər psixoloqlar da bu elmi araşdırmadan ruhlanmağa başlamışlar.

Xarakter ayrı-ayrı şəraitlərdə ona məxsus davranışlar sərgiləyən fərdi psixoloji xüsusiyyətlərin məcmusudur. Bu xüsusiyyətlər cəmiyyətdə və ailədə formalaşır. Ailə çoxfunksiyalı mürəkkəb bir sistemə malik olan sosial institutdur. Bu sistem özünə ailədə rol bölgüsünü, qarşılıqlı təsir mexanizmlərini, empatiya, kommunikativ proseslər və s. birləşdirir. "Ailə ər-arvad və qohumluq əlaqələri əsasında qurulan, birlikdə yaşayan, ümumi təsərrüfata malik olan vacib kiçik sosial qrupdur". Ailə istər ayrı-ayrı fərdlərin, istərsə də cəmiyyətin həyatında mühüm rol oynayır. Ailənin daha əhəmiyyətli xarakeristikası onun funksiyası, strukturu və dinamikası ilə bağlıdır.

Ailənin tərbiyəedici funksiyası ailə üzvlərinin hər birinin şəxsi tələbatlarının ödənilməsi ilə xarakteristizə olunur. Bura ata və ananın valideynlik tələbatı, övladları ilə qarşılıqlı münasibətlərin qurulması, onların tərbiyəsi və s. daxildir.

Qeyd edək ki, sosioloqlar və psixoloqlar tərəfindən yaradılmış müxtəlif nəzəriyyələrə əsasən məlum olur ki, ailə xarakterin yetişdiyi ilk və ən mühüm toplumdur. Xarakterin əsas bünövrəsi ailədə qoyulur. Övlad valideynlərin davranışını müşahidə edərək, onların hansı üsullara tabe olduqlarına diqqət yetirir. Görkəmli tətqiqatçı Ribelə görə, ata, ana və uşaq münasibətlərində emosional rabitə məhəbbətin, və bağlılığın əsasını təşkil edir. O göstərir ki, ananın övlada hədsiz məhəbbəti, yaxud fiziki tənbehi və

ya etinasızlığı gələcəkdə xoşagəlməyən, mənfi davranışların əsas səbəbinə çevrilə bilər.

Tərbiyə üsulunun uşaq və yeniyetmələrin xarakterinin düzgün formalaşmasındakı əvəzsiz rolunun şahidi olaraq bu araşdırmanın da necə önəmi olduğunu görə bilərik.

Tətqiqat bir neçə mərhələ üzrə aparılmışdır. Tədqiqatda ailələrin tərbiyə üsulları araşdırılaraq, yeniyetmələrin xarakter tipləri də məhz buna əsasən öyrənilmişdir. Təbii ki, bu faktorların hamsını əhatə etmək mümkün deyil. Ona görə də biz tətqiqatın predmentinə uyğun olaraq yeniyetmələrin ailədaxili münasibətləri üzərində dayanacağıq.

Yeniyetmənin ailədaxili münasibətləri ilk növbədə valideynləri, bacı və qardaşları ilə qurulur. Müəyyən vaxtlarda bura nənə, baba, əmi, dayı və s. digər yaxın qohumları aid etmək olar. Bu münasibətlərdə hər hansı bir pozulma halı baş verdikdə, bu da yeniyetmədə psixogenin yaranma mənbəyinə çevrilir.

Psixogen yunan mənşəli olub psixikanın pozulması kimi başa düşülür. Psixogen qısa müddət ərzində çox böyük fəsadlar törədə bilər. Psixogenin baş verməsi orqanizmin zəifləməsi, uzunmüddətli psixi gərginlik nəticəsində də yarana bilər.

Klassik və müasir pedaqoji psixologiyada ailə tərbiyəsi ilə bağlı bir çox yanaşmalar vardır. Psixoloqlar belə hesab edirlər ki, uşağın şəxsiyyətinin inkişafında valideynlərin uşağa münasibəti ən mühüm amillərdən biridir. Bu baxımdan valideynləri üç əsas qrupa ayırırlar.

1. *Demokratik tərbiyə üsulu* ailədə uşağa sərbəstlik verilməsini, şəxsiyyətinə hörmətlə yanaşmasını, isti münasibətlərin olmasının əsas götürür.

Demokratik tərbiyə mühitində uşaqların azad, yaradıcı və fəallıq qabiliyyətlərinin inkişafı üçün əlverişli şərait təmin olunduğundan bu tip ailələrdə böyüyən uşaqlarda əməkdaşlıq etmək, başqaları ilə münasibət qurmaqda çətinlik çəkməmək kimi keyfiyyətlər özünü göstərir. Qarşılıqlı hörmət, sevgi və məhəbbət hissləri bu üslubda daha üstün mövqe tutur.

2. *Avtoritar-tərbiyə üsulu* müasir ailələrdə daha çox təsadüf olunur. Bu üsul ciddi surətdə məcburi intizama yönəlmiş tərbiyədir.

Avtoritar valideynlər yeniyetmələrdən qayda-qanuna tam əməl etməsinə, valideynlərin tələblərini qeyri-şərtsiz qəbul etməsini tələb edirlər. Belə uşaqlar daim idarə olunmağa adət etdiklərindən sərbəst heç bir işi görə bilmir, özünəqapalı, qətiyyətsiz, ünsiyyətsiz olurlar. Bəzən belə ailələrdə daha çox gün rejiminin düzgün planlaşdırılmaması halı ilə qarşılanır. Bu isə uşaqların kompüter qarşısında çox vaxt keçirməsinə və vaxtı düzgün bölə bilməməyə gətirib çıxarır.

3. *Liberal-tərbiyə üsuluna* malik olan valideynlər övladlarına qarşı hədsiz, laqeyd olurlar. Onlar öz övladlarına çox az, bəzən isə demək olar ki, heç bir zaman vaxt ayırmırlar. Lazimi diqqət və qayğı göstərilmədiyindən belə uşaqlar özbaşına böyüyürlər. Bütün bunlar da özünü yeniyetməlik çağında daha qabarıq büruzə verir. Hansı ki, həmən uşaqlar lazimi diqqət və qayğını digər insanlarda axtarmağa başlayırlar. Belə olduğu halda isə böyük təhlükənin ilk addımları atılmış olur. Azyaşlı cinayətkarlar

və qanunpozanlar arasında məhz belə ailələrdən çıxmış uşaqlar çoxluq təşkil edir.

Bir çox ölkələrdə müasir ailə çox ciddi təsirlərə məruz qalır. Boşanma hallarının artması, yerdə qalan ailələrin yarısında münaqişələr və s. kimi problemlər ciddi problemlərdəndir. İldən-ilə atasız və ya anasız böyüyən, natamam ailələr və s. səbəblərdən internat məktəblərinə atılan uşaqların sayı artır.

Ailə tərbiyəsinin xüsusiyyətləri, valideynlərin şəxsi keyfiyyətləri, tərbiyə üslübu, yeniyetmələrə münasibəti, onların əqli inkişafında iştirakı, inkişafetdirici hekayələr, bu və digər amillər kompleks şəklində onlara təsir göstərir. Bununla belə sübut olundu ki, tərbiyə işində xüsusilə psixi inkişafın və davranışın formalaşmasında ən mühüm yeri ailə tutur. Yeniyetmənin ailədən aslılığı çox güclüdür. Onun tələbatlarının böyük bir qismi, məhz ailədə ödənilir. Bəzi tələbatların ödənilməməsi açıq və ya daxili (gizli) narahatlığa gətirib çıxarır.

Yeniyetmənin sosial davranışına nəzarət də ailənin vacib vəzifələrindəndir. Çünki yeniyetməlik yaşında sosiallaşmaya, müstəqilliyə tələbat son dərəcə güclənir, lakin cəmiyyətin tam hüquqlu üzvü olmaq üçün lazimi keyfiyyətlər hələ kifayət qədər formalaşmır. Yeniyetmənin bu tələbatı ödənilmədikdə və ya ailə bu tələbatı ödəmək iqtidarında olmadıqda, o, ya sosial normaları pozur, ya da psixika və şəxsiyyətin inkişafının formalaşmasında problemlər yaranır. Pozuntular ilkin əlamət hesab olunsa da zaman keçdikcə daha da dərinləşər, şizofreniya, depressiya, psixoza və s. kimi bir çox psixoloji problemlərə yol açar.

Aparılan araşdırmalar nəticəsində A.E.Liçko və K.Leonhardın tətqiqatları yeniyetmələrdə baş verən bir çox pozuntuların başında valideynlərlə pozulan münasibətlər durur. Valideynlər yeniyetməni nəzarətsiz qoyduqda, onu başlı başına buraxdıqda, lazım gəldikdə köməklik göstərmədikdə, işləri (fəaliyyətləri) ilə maraqlanmadıqda artıq onlarda üzərlərində nəzərət hiss etməməklə bağlı bu və buna oxşar hallar baş verməyə başlayır.

Demək olar ki, çətin tərbiyə olunan yeniyetmələrin başında məhz münasibətlərin pozulması durur. Bu istiqamətdə bir sıra tətqiqatların müəllifi olan Kuper Smitt valideyn tərbiyəsinin əhəmiyyəti barədə apardığı araşdırmanın nəticəsində yazır: ”Özünə inanan oğlan uşaqları, özlərinə inanan və emosiyalara hakim olan valideynlərə mənsubdurlar. Bu valideynlər ilə övladları arasında tərbiyə məsələləri ilə bağlı tam uyğunluq mövcuddur”.

Qeyd etmək olar ki, xarakterin formalaşmasında ataların rolunun öyrənilməsi ilə bağlı aparılmış tətqiqatlar göstərmişdir ki, insanların uşaqlıq dövründə ataları ilə münasibətləri onların gələcək evliliklərində həyat yoldaşları ilə münasibətlərinə birbaşa təsir edir.

Həmçinin avtoritar valideynlərin tərbiyəsi oğlanlar üzərində qızlara nisbətən daha mənfi nəticələrə gətirib çıxarır. Bu uşaqlar qavrama baxımından və cəmiyyətə uyğunlaşma səviyyəsinə görə aşağı pillədə durur, təhsil və yaradıcılıq qabiliyyətləri azalır, həmyaşıdları ilə münasibətlərində liderlik, yaradıcılıq və özünə inam hissi zəifləyir.

Görkəmli tətqiqatçı və psixoloq Saymond demokratik ailələr üzərində apardığı tətqiqatlarda yazır ki, bu ailələrin uşaqlarının dərs qiymətləri və intellekt indeksi

başqalarından, digər tərbiyə üsulları ilə müqayisədə daha üstündür. Bu uşaqlar yaradıcı, araşdırıcı olub, həmyaşıdları arasında çox sevilirlər. Hər zaman liderlik xüsusiyyətinə malikdirlər.

Görkəmli tədqiqatçılar Geld və Martin Yanef 134 məktəb şagirdi olan yeniyetmə üzərində müşahidə aparmış və onlardan ana sevgisini qiymətləndirib, anaların onların həyatı üzərində hakimiyyətlərinin nə dərəcədə müsbət simvol olduğunu söyləmələrini istəmişlər. Yeniyetmələrdən həmçinin, ən səmimi dostları ilə münasibətlərini və dostlarına nə qədər bənzəmək istədiklərini soruşmuşlar. Əldə olunan nəticələr göstərmişdir ki, anaları ilə səmimi münasibətlərə malik olan, onu özlərinə simvol seçən qızlar öz rəfiqələri ilə daha mehriban və səmimidirlər. Əksinə olduqda isə, yəni anaları ilə düzgün münasibət qura bilməyən qızlar yaşıdları ilə münasibətdə də bacarıqlı deyillər.

Ailənin demokratik baxışları uşaqların inkişaf səviyyəsinə maksimum şəkildə təsir göstərir. Faktlar da sübut edir ki, çalışan anaların uşaqları digər uşaqlar ilə müqayisədə məktəblərdə daha münasib sosial və şəxsi davranış sərgiləyirlər.

"Tərbiyə korluğu" modeli yeniyetmənin psixikasının inkişafında, şəxsiyyətin formalaşmasında bir sıra neqativ təsirlərə malik olur. Valideynin səhv mövqeyinə yaxud tələblərinə qarşı yeniyetmə kobud şəkildə qaydaları pozmaqla cavab verir. Yeniyetmə aqressib davranış nümayiş etdirir, bunula bacarmayan valideyn geri çəkilməyə məcbur olur. Nəticədə isə yeniyetmə tədricən nəzarətdən çıxır. Valideynlərin səhv mövqeyi, tədricən geri çəkilmələri, nöqsanları düzəltməyə çalışmaları əks nəticə verir.

Nəticədə yeniyetmə və valideyn arasında uzaqlaşma, soyuqluq yaranır. Uşaq neqativizmi formalaşır.

Valideynlərin digər səhvi isə bir çox hallarda, onlar hadisələri qabaqlamağı, sanki yeniyetmələri tərslik etməyə məcbur etmələridir. Hər hansı məsələdə onların fikrini öyrənməmiş: "O, bunu bacarmaz", "O, bunu etməz" və s. kimi fikirlər söyləyərək sanki bir növ qıcıq yaratmış olurlar.

Ailədaxili münasibətlərdə təzahür edən neqativ tendensiyalaradan biri də valideynlərin yeniyetməyə qarşı emosional soyuqluğu ilə bağlıdır. Digər bir problem isə valideynlərin öz aralarında olan münaqişəli vəziyyət ilə bağlı olur. Ər-arvad arasındakı narazılıqda bir tərəf digərini haqsız çıxarmaq üçün daim yeniyetmədən istifadə edir. Bu isə onlar üçün xoş olmayan bir hal hesab olunur.

Bir çox hallarda isə valideynlər yeniyetmələrə körpə uşaq kimi baxırlar. Hətta bəzi valideynlər etiraf edirlər ki, böyük uşaqlarla (yeniyetmələrlə) münasibət qurmaq çətin, həm də maraqsızdır. Övladının artıq böyüməsi sanki onlarda bir növ qorxu yaradır, və bunu qəbul etmək istəmirlər. Yeniyetmələr üzərində də bu hal baş verdiyindən valideyn ona qarşı tələbkarlığı azaltmış olur.

Valideynin övladına qarşı məhəbbət hissinin olmaması və ya zəif olmasının bir çox səbəbləri ola bilər. Onlardan biri də valideynin uşaq vaxtı eyni hal ilə öz valideynləri tərəfindən məruz qalması, digəri isə valideynin xarakterindən irəli gəlir. Gənc ailələrdə yaşlılarla müqayisədə övlada məhəbbət bir qədər az olmuş olur.

Bir çox hallarda valideynlər yeniyetmənin xüsusiyyətlərini nəzərə almadan öz təsəvvürlərinə əsaslanaraq ümumilikdə qadına və ya kişiyə aid olan keyfiyyətlər

baxımından yanaşırlar. Bu kimi münasibətlər də tərbiyədə öz əksini tapır. Ailədaxili münasibətlər o zaman daha effektiv olur ki, onun hər bir üzvü digərlərinə təsir edə bilsin, müxtəlif məsələlərin həllində hər kəsin fikri dinlənilsin və ümumi bir rəy formalaşsın.

Ailənin yeniyetmənin sosial davranışına nəzarəti isə daim diqqət mərkəzində olmalıdır. Ailənin yeniyetməyə təsirini müşahidə etməklə bir sıra nəticələrə gəlirik.

Diqqəti cəlb edən vacib məsələlərdən biri isə valideynin yeniyetməyə qarşı tələbkarlığının az olması ilə bağlıdır. Belə tərbiyə sistemini valideynin qətiyyətsizliyi və ya onun şəxsi keyfiyyətlərinin zəif nöqtəsi kimi adlandırmaq olar. Hətta bəzən vəziyyət elə bir həddə çatır ki, valideyn qətiyyən güzəştə getməməli olduğu halda o, güzəştə gedir. Bu vəziyyət ona görə baş verir ki, yeniyetmə valideyni sınaqdan keçirir, onun zəif nöqtələrini taparaq ondan öz lehinə istifadə edir. Belə ailələr üçün xarakterik olan cəhət ondan ibarətdir ki, yeniyetmə özünün haqlı olduğuna inanır, bunun üzərində inamla təkid edir. Valideyn isə qətiyyətsizlik göstərir, baş verən pozuntulara görə isə yalnız özünü qınayır. Lakin artıq bunun bir önəmi qalmamış olur.

Ailə tərbiyəsində, ailədaxili münasibətlərin qurulmasında buraxılan səhvlərdən biri də övladını "itirmək qorxusudur". Bu tip valideynlər öz hərəkət və davranışlarında qətiyyətsizlik göstərir, övladlarına sanki körpə, çarəsiz kimi baxırlar, onların hər an köməyə ehtiyacı olduğunu düşünərək qayğısına qalmağa çalışırlar. Bu isə özünü müxtəlif səbəblərdə göstərir.

Ən vacib səbəblərdən biri uşağın çox əziyyətlərdən sonra, yaxud bir neçə ildən sonra dünyaya gəlməsi, digər

səbəb isə uşağın xəstə və zəif doğulması olur. Bunların hər biri valideynlərdə onları itirmək fobiyası yaradır. Məhz buna görə də əksər valideynlər ən azından bunu kompensasiya etmək üçün uşağın hər dediyini etməyə başlayırlar. Nəticədə isə uşaqda arxayınlıq və bir növ rahatlığa alışma hissi güclü formada inkişaf edir.

Valideyn və yeniyetmə arasında olan pozuntuların dəqiq səbəbini öyrənib, onu aradan qaldırmaq üçün bütün ailənin tərkib hissəsi ilə tanış olub dərindən araşdırma aparmaq lazımdır. Bu münasibətləri öyrənmək olduqca mürəkkəb prosses hesab edilir, və bunun üçün kifayət qədər vaxt tələb olunur.

Ailənin problemi həll edə bilmək qətiyyəti olmadıqda orada vəziyyət daha da mürəkkəbləşir və yeni-yeni neqativ situasiyalar meydana çıxır. Ailədə kommunikativ ünsiyyətə xüsusi fikir verilməlidir. Ən mühüm şərt isə motivasiyadır.

Ailə mühitinə neqativ təsir göstərən amillərdən biri də ailədə son dərəcə ciddi qaydaların olmasıdır. Bu halda ailə üzvlərinin təşəbbüskarlığı, müstəqilliyi itir, sonda isə stressli vəziyyət yaranır. Eyni zamanda sosial izolyasiya yaranır ki, bu da yeniyetmənin sosiallaşmasına mənfi təsir göstərir. Bəzən xırda görünən bir faktor daha ciddi problemlərə səbəb ola bilər.

Şübhəsiz ailə, tərbiyə və davranışla bağlı bir çox vəzifələri yerinə yetirərək, öz daxilində bir sıra rolları özündə ehtiva etmişdir. Həmin rollardan ən önəmlisi, yeniyetmələrin boya-başa çatdırılması, onlarda sosial, mənəvi-psixoloji, emosional ünsiyyətin formalaşdırılmasıdır. Nəticədə uşaq və gənclərdə müxtəlif mövqelər, uyğunlaşma, həmçinin davranış stereotipləri yaranır.

Ailədə tərbiyə bütövlükdə bütün icra edilən vəzifələr, istifadə edilən üsullar və metodların imkanlarından asılı olaraq, yeniyetmələrin necə böyüməsinə təsir göstərir. Bütün bunlarla yanaşı qeyd edilməlidir ki, bunların icrasına uşaq yeniyetməlik dövrünə gəldiyi zaman deyil, hələ körpəlikdən başlamaq lazımdır. Ən böyük yük isə valideynin üzərinə düşür. Məsələn, Ribel uşaqlar və valideynlər arasında formalaşan münasibətləri hiss, duyğu və məhəbbət baxımından təhlil etməyi təklif edir. Onun fikrincə, ananın bəzi hərəkətləri, məsələn, qorxutması, uşaqlara qarşı fiziki cəza tətbiq etməsi, saymazlıq və bunun kimi digər xüsusiyyətlərin olması uşaqlarda inciklik və digər mənfi hərəkətlərə səbəb olur.

Qızlar öz hərəkətləti ilə adətən analarına oxşamaq istəyirlər. Evdə ana ilə səmimi münasibət qura bilməyən yeniyetmə həmin səmimiyyəti həmcins və ya əks cinsin nümayəndələrində axtarmağa başlayır, hansı ki, yaxşı nəticələnməyə bilər.

Yeniyetmələr bir şəxsiyyət kimi daha çox özlərinə qarşı hörmət hissinin göstərilməsini istəyir. Daha çox neqativ hallar atalarla özünü biruzə verir (biganəlik, yadolma, dözümsüzlük, kobudluq), hesab olunur ki, onun səbəbi həm atada, həm də uşağın özündə axtarılmalıdır.

Şübhəsiz ki, müxtəlif ailələrdə böyüyən yeniyetmələrin öz valideynlərinə olan münasibətləri də müxtəlif olur. Ata-ananın işi, təhsili, ictimai fəallığı, asudə vaxtının keçirilmə formaları, öz aralarında və digər insanlarla ünsiyyət yaratmaq bacarıqları baxımından həmin ailədə böyüyən uşaqların qeyd edilən hallar haqqında təsəvvürləri müxtəlif olur.

## 7. Yeniyetmələrin ailə tərbiyəsində sosial amillərin rolu

Yeniyetmə ailədə sosial münasibətlərə daxil olur, onların vasitəsilə insan, dünya, mənəvi sərvətlər haqqında tasavvürlərə və anlayışlara yiyələnir, başqa adamları başa düşməyi, yaşlılara, qadın və kişilərə, kiçik uşaqlara hörmət və kömək etməyi, öz nöqsanlarını görməyi öyrənir. Ailə üzvləri arasında qarşılıqlı münasibətlərin yaranması və bu münasibətlərin obyektiv qiymətləndirilməsi böyük əhəmiyyət kəsb edir. Ailədə ata-ana, ana-uşaqlar, ata-uşaqlar, gəlin-qayınana, bacı-qardaş, bacı-baci, qardaş-qardaş arasındakı normal münasibətlərin hamısı böyük tərbiyəvi əhəmiyyətə malikdir.

Yeniyetmə yaşa dolduqca onun münasibətlər sistemi şaxələnir və daha da mürəkkəbləşir. Yeniyetmə tədricən ailə münasibətləri normalarına yiyələnir. Onda "yaxşı nadir, pis nədir?" haqqında təsəvvürlər formalaşır. Yeniyetmənin motivasiya sahəsində köklü dəyişikliklər əmələ gəlir. Özü haqqında təsəvvürləri formalaşdıqca, uşağın davranış və rəftarı da dəyişir. Yaşlılarla və yaşıdları ilə ünsiyyət şəraitində yeniyetmənin xarakteri formalaşmağa başlayır. Bu məqsədlə də valideynlərlə yeniyetmələr arasındakı münasibətlər həlledici əhəmiyyət kəsb edir.

Bir tədqiqatın nəticələrinə müraciət edək.

Psixoloqlar kollektivdə öz davranış və rəftarı ilə bir-birindən kəskin surətdə fərqlənən şagirdləri iki qrupa ayırmışlar. Birinci qrupa özünün kollekivçiliyi, məsuliyyət hissi, aktivliyi, özünə tənqidi yanaşması və s., ikinci qrupa isə əks keyfiyyətlərlə fərqlənən uşaqları daxil etmişlər. Bundan sonra psixoloqlar həmin uşaqların valideynləri ilə

münasibətlərinin xarakterini müqayisəli sürətdə öyrənmişlər. Məlum olmuşdur ki, birinci qrupa daxil olan uşaqların valideynləri onların hissləri ilə yaxından maraqlanır, onlarla təmkinlə rəftar edir, özlərinin asudə vaxtlarını onlarla birlikdə keçirir, onların mənəvi inkişafına təsir göstərirlər. Beləliklə, tədqiqatın nəticəsi aydın göstərir ki, valideynlərin uşaqlarla münasibətləri nəinki məktəbəqədər və kiçik məktəbli yaşı dövrlərində, həm də yeniyetməlik və gənclik yaşı dövrlərində da onların bir şəxsiyyət kimi inkişafının başlıca əsasını təşkil edir.

Qeyd etmək lazımdır ki, ailənin yeniyetməyə təsirinin öyrənilməsində müxtəlif yönümlər özünü göstərir. Bir qayda olaraq valideynlər öz övladlarının inkişafı məqsədilə təlim-tərbiyə prosesini üç əsas və bir çox prinsiplər üzərində qururlar:

- *Himayə etmək prinsipi;*
- *Azadliq prinsipi;*
- *İntizam prinsipi.*

Tədqiqatçıların fikrincə bu üç prinsip bir-birilə ziddiyət təşkil etmir, bir-birini tamamlayır va hər bir yeniyetmə şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Çünki, uşaq yalnız azad, təhlükəsiz bir şəraitdə əminliklə addım atır, cəsarətli olur, təşəbbüskarlıq nümayiş etdirir. Bu cür inkişaf isə məhz nizam-intizam prinsipinin tətbiqi sayəsində mümükün olur va yetkin bir şəxsiyyətin formalaşması ilə nəticələnir.

Yeniyetmələr cəmiyyətin adət-ənənəsini, dəyərlərini, sosial normaları cəmiyyətdəki insanlarla əlaqə vasitəsi ilə, hər şeydən əvvəl isə ailə üzvlərindən öyrənirlər. Bu proses az-çox valideynin uşaqlara, yeniyetmələrə rəsmi göstərişi və həmçinin valideynlər tərəfindən uşağın

rəftarına nəzarət etmək məqsədi ilə cəzalandırılması və mükafatlandırılması haqqında qəbul etdikləri tədbirlər vasitəsi ilə həyata keçirirlər.

Uşaqlar ətrafdakıların rəftarlarını müşahidə edir və onları təqlid edirlər və öyrənirlər. Bununla yanaşı qeyd etmək lazımdır ki, ilk vaxtlar uşaqlarda valideynlərinə qarşı sonsuz bir güvən mövcud olur. Buna gora da valideynlərin yeniyetmələrə hərtərəfli təsir gücü vardır. Valideynin təsiri müəyyən dərəcədə valideynin övladları ilə ictimai əlaqələrinin intensivliyindən və dominantlıq səviyyəsindən asılıdır.

Görkəmli fizioloq A.Arşavski uşağın ailə qayğısından məhrum edilməsinin onun şəxsiyyət kimi formalaşmasına mənfi təsir göstərməsi qənaətinə gəlir. Alimin rəyinə görə, uşağın dünyaya fiziki və mənəvi sağlam gəlməsi valideynlərin bir-birinə qarşılıqlı məhəbbəti və övladın dünyaya gəlməsinə münasibətindan də asılıdır.

A.Arşavskinin fikrincə, yetimlik valideynlər öləndə və uşağın tərbiyəsini dövlət öz üzərinə götürdüyü andan deyil, valideynlər və ailənin digər üzvləri tərəfindən doqquz aydan sonra dünyaya gələcək insanı taleyin ən qiymətli neməti kimi deyil, ağır yük əzab-əziyyət kimi qəbul edildiyi andan başlayır. Xeyirxah uşaqlar valideynlər tərəfindən dünyaya gəlişi səbirsizliklə gözlənilən uşaqlardır.

Ailənin yeniyetmənin inkişafina tasirini müəyyənləşdirərkan ilk növbəda tərbiyə quruluşuna diqqət yetirmək lazımdır. Məlumdur ki, yeniyetmənin psixi inkişafında ailənin rolu tərbiyədən başlayır. Tərbiyə prosesinin ardıcıl hayata keçirilməsindən asılı olaraq yeniyetmənin psixi inkişafının özünəməxsus xüsusiyyətləri var.

Tərbiyə üsulları içərisində avtoritar tərbiyə üsulu da mühüm əhəmiyyət kəsb edir. Bu üsulla valideyn öz ailəsində xüsusi təlim-tərbiyə üsullan, qayda-qanunları yaradır və bu qayda-qanunlar ailədə hökmranlıq edir. Yeniyetmə ailədə qoyulmuş qayda-qanunları pozması hallarında isə cəzalandırılır. Bu tərbiyə üsulu onun müstəqilliyinin əlindən alınması ilə yanaşı uzlaşma olunmadıqda çox mənfi nəticələrə gətirib çıxarır. Digər tərəfdən isə bu tərbiyə üsulunda yeniyetmənin arzu olunan davranışa təşviq olunmasına və həvəsləndirilməsinə bir o qədər əhəmiyyət verilmir.

Ailədə yeniyetmənin tərbiyə olunmasında liberal tarbiyə üsuluna da rast gelinir. Bu tərbiya üsulu avtoritar tərbiyə üsulunun tam əksidir. Ailədə uşağın təlim-tərbiyəsi, tadrisi üçün xüsusi qayda-qanun qoyulmur. Onlar ailədə ailədə hökmranlıq edən qayda-qanunları pozarkən cəzalandırılmır və arzu olunan, tələb olunan davranış və raftarlara görə də mükafatlandırılmırlar. Bu tərbiyə üsulunda nizam-intizam, yəni cəzalandırma və rəğbətləndirmə qayda-qanunları münasib şəkildə mövcud deyildir. Əgər yeniyetmənin davranış və rəftarı böyüklər tərəfindən dəstəklənərsə özünü daha inamlı hiss edir. Yeniyetmənin valideyin va müəllimlər tərəfindən təqdir olunması onun bacarıq və qabiliyyətinin çiçəklənməsinə səbəb olur, onda ləyaqət hislərini daha da möhkəmləndirir.

Faktlar göstərir ki, uşaqlar özlərini valideynlərinə oxşadırlar, onlardan öyrənirlər və onları təqlid edirlər. Məhz bu təmaslar vasitəsi ilə yeniyetmə cəmiyyətin onlardan gözlədiklərini başa düşürlər. Bu əlaqələr fonunda əsasən fərdin şəxsiyyəti və əxlaqı formalaşır. Bundan əlavə məlumdur ki, yeniyetmə məhz ictimai əlaqələr

vasitəsi ilə ətraf mühiti və necə hərəkət etməyi öyrənirlər. Onların zehni inkişafı güclənir. Uşağın bir şəxsiyyət kimi formalaşmasında onun yaşadığı camiyyətin davranış normalarına yiyələnməsi xüsusi önəm daşıyır.

A. Bakıxanov yazırdı: "Hər kəs hər hansı bir cəmiyyət içərisində yaşarsa o, cəmiyyətin əxlaqını mənimsər, yaxud da cəmiyyatə zidd olmaqla öz zərərini və ona yaxınlaşmaqda xeyrini güdər, özünü onlara bənzədər.

Qeyd etmək lazımdır ki, ailənin yeniyetmənin psixi inkişafına təsiri mövcud ailələrin xarakterindən asılı olaraq hayata keçirilir. Ailələrin quruluşu, tərkibi fərqlidirsə ailə üzvlərinin təsiri də o qədər fərqli olacaqdır. Yəni bir geniş ailədə ola bilsin ki, onun ulu babalarının övladlara böyük təsiri olsun. Lakin bəzi monoqram ailələrdə bu təsir çox azdır.

Ümumiyyətlə, ailə birliyi vasitəsilə ailə dəyərləri, davranış və əxlaq normaları. müxtəlif sosial rollar və adət-ənənələr bir nəsildən başqa bir nəslə keçirilir. Ailə uşağın ictimai əlaqə mərkəzidir. Adətən, yeniyetmə ailə şəraiti daxilində valideyninin tərbiyə üsulları istiqamətində kollektiv həyat tərzinin tələblərini öyrənir. Valideynin seçdiyi uğurlu tərbiyə üsulu yeniyetmədə yüksək səviyyəli əxlaqın yetişməsinə səbəb olur.

Aparılmış tədqiqatların nəticələrinə əsasən qeyd etmək olar ki, yüksək mənəvi keyfiyyətlərə malik olan valideynlərin övladlarının da əxlaqı, iradəsi yüksək səviyyədə olur. Bu isə yeniyetmələrə daha da müstəqil və yaradıcı olmağa imkan verir. Həmçinin, belə valideyn öz uşaqlarının hüquq və əqidələrinə hörmət edir, onlara müstəqil və yaradıcı olmağa şərait yaradırlar. Hətta onların ailənin bəzi qəraraları qəbul etməsində iştirak

etməsinə də imkan yaradırlar. Ona görə də əlverişli tərbiyə üsulunun seçilməsi üçün səy göstərmək lazımdır.

Çoxsaylı tətqiqatlar göstərir ki, güclü iradə, əxlaqi keyfiyyətlər təhsil uğursuzluqlarının, öyrənməklə əlaqədar problemlərinin, cinayət törətməyin, narkotik maddələrdən sui-istifadə hallarının qarşısını alır. Valideynin davranışı, təfəkkür tərzi yeniyetmənin rəftarının formalaşmasında çox əhəmiyyətlidir. Valideynlə övlad arasında arzu olunan əlaqələrin olması yeniyetmədə sevincli, şadlıq halları yaradır va onda narahatlığı minimum həddə endirir.

Valideynlə övlad arasında məhəbbət əlaqəsinin olması bəyənilən yüksək əlaqə göstəricisidir. Etimad, təhlükəsizlik, arxayınlıq kimi yüksək göstəricilər yeniyetmələri valideynləri ilə məsləhətləşməyə, onlara müraciət etməyə hazırlayır, valideynlə yeniyetmə arasında təqdir edilən, bəyənilən əlaqə hesab olunur.

Arzu olunan, müstəqil əlaqələr ailə mühitində elə əlverişli şərait yaradır ki, yeniyetmələr onun sayəsində tam azad şəkildə öz istədiklərini ifadə edərək elə bir fərdi inkişafa nail olurlar ki, məhz bu inkişaf sayəsində həyat və onun müxtəlif amilləri ilə uyğunlaşa bilirlər, rəğbətlə, arzu və istəklə ailənin məsuliyyətini qəbul edirlər. Digər bir tərəfdən isə uşağı ilə düzgün və arzu olunan münasibətə malik olmayan valideyn yeniyetmələrin öz başına olmasına səbəb olur.

Bir sıra hallarda ailə üzvlərinin narkotik maddə qabul etməsi uşaqların psixi inkişafını sarsıdır, ailənin təməlini silkələyir. Bu cür ailələrdə uşaqlar öz uşaqlığından başlayaraq ailəni qorumaq üçün mümkün olan hər şeyi edirlər. Ailənin mövcud olması üçün müxtəlif rolları öz öhdələrinə götürürlər. Bu qərar qəbul etmə

seçim deyil, aşkar va gizli ehtiyaclar vasitəsi ilə ailə nizamı onlara təhkim olunur.

Valideyn tərəfindən spirtli içkilərin qəbul edilməsi də yuxarıda qeyd olunan halları yaradır. Alkoqol qəbul edən ailələrdə valideynin stressi ilə ailə ziddiyyətləri, ailə pozğunluqları uşaqlar üçün problemlər yaradır. Belə vəziyyət uşaqların psixi inkişafını ləngidir, ya da davranışında asosiallığa yol verməsinə zəmin yaradır.

Fərd ailədə böyüyür, inkişaf edir, onun şəxsiyyətinin əsasları, uşaqlıqda psixoloji sağlamlığı həmin ailə mühitində formalaşır.

Professor B.A.Əhmədov yazır: "Şəxsiyyət - şüura malik olan, ətraf aləmi dəyişdirmək üçün şüurlu fəaliyyət göstərən adam deməkdir, aktiv fəaliyyətin subyektidir"

Qeyd olunduğu kimi ailənin şəxsiyyətə və onun psixoloji xüsusiyyətlərinə təsiri çox genişdir və davamlıdır. Yeniyetmələr davranış normalarını, baxışları, etiqadları öz dəyərlərinin əksəriyyətini ailədə atadan, anadan, bacı-qardaşdan və s. öyrənir. Bu öyrənmələr bir haşa va dolayı yolla onların psixoloji sağlamlığına tesir göstərir. Ailə yeniyetmələrin psixoloji sağlamlığına ailə mühitində xarici - dünya mühitinə məktəbə, yaşıdlarına və nəhayət cəmiyyətə daxil olması ilə təsir edir və xarici mühitdə daha çox özünü biruzə baş verir.

Aparılmış tatqiqatlar göstərir ki, yeniyetmənin tərbiyəsində və əxlaqi inkişafında müxtəlif amillərin inkişaf dərəcəsi müxtəlifdir. Uşaqların pisixoloji inkişafinin əsasən iki mexanizmi vardır: mənimsəmə və özünü bənzətmə mexanizmi. Mənimsəmə mexanizmində uşaq bəzi əxlaqi düşüncə, əqidə, arzu və istəkləri öz-özünə qəbul edir və ya mənimsəyir. Özünü bəzətmə prosesi

zamanı isə bir çox aşkar suallar, xüsusiyyətlər, psixoloji reaksiyalar va uşağın təhrikedici xüsusiyyətləri, sosial öyrənmə və özünə verilmiş suallar nəticəsində inkişaf edir. Valideynlərin əxlaqca, mənəviyyatca təmiz olduğu ailələrdə uşaqlar da təmiz axlaqlı, yüksək mənəviyyatlı böyüyürlər. O ailələrdə ki, valideynlər halal əməklə dolanır, ata da, ana da zəhmətkeşdir, uşaqlar da erkən yaşlarından zəhmətə alışır, sadə, səmimi və həqiqətpərəst insanlar kimi böyüyürlər.

Qeyd etmək lazımdır ki, uşağı erkən yaşlarından zəhmət və ləyaqət yoluna istiqamətləndirmək həmişə pedaqogikanın əsasını təşkil etmişdir. Bəzi valideynlər öz uşaqlarını yerli-yersiz tərifləməklə korlayırlar. Belə valideynlər ətrafdakıları inandırmağa çalışırlar ki, onların uşağı hamıdan ağıllıdır, hamıdan istedadlıdır, hamıdan gözəldir. Onlar belə uşağı əlini ağdan-qaraya vurmağa qoymur, onun nazı ilə oynamağı, hər şıltaqlığını ödəməyi özlərinin valideynlik borcu hesab edirlər, hətta bununla öyünürlər də. Nəticədə bu borcu almağa çalışan uşaq böyüdükcə hamını özünə borclu bilir, özünü nəinki valideyn qarşısında, hətta vətən, xalq qarşısında borclu saymır, ətraf mühitə etinasız və laqeyd yetişir.

Əlbəttə, heç bir valideyn öz uşağına şüurlu surətdə pis keyfiyyətlər aşılamaz. Lakin bir çox valideynlər özləri belə hiss etmədən öz çatışmayan, qüsurlu və eyibli cəhətlərini uşaqlarına aşılayırlar.

Ailədə valideyn-övlad münasibətlərinin səmərəli olması, qarşılıqlı hörmət va anlamaya, müsbət, emosional ab-havaya əsaslanan sağlam psixoloji mühit yeniyetmələrin şəxsiyyət kimi formalaşmasına əlverişli şərait yaradır. Əksinə, lap kiçik yaşlarından valideynləri ilə kifayət

qədər ünsiyyat imkanına malik olmayan uşaqlar sonralar çox vaxt öz valideynlik vəzifələrini icra etməkdə çətinlik çəkirlər. Valideyn nüfuzu övlad üçün çox əhəmiyyətli olduğundan onun həyata, cəmiyyətə, mənəvi sərvətlərə, ictimai hadisələrə münasibəti, şəxsi keyfiyyələri uşağın inkişafına, şəxsiyyət kimi formalaşmasına olduqca böyük təsir göstərir.

Valideyn-övlad münasibətləri və yeniyetmələrin ailə tərbiyəsində sosial amillərin rolu çox əhatəli və olduqca mürəkkəb bir mövzudur. Onun yerinə hansısa bir aspektdən öyrənilməsi məqbul oluna bilmaz. Həmin problemin öyrənilməsinə kompleks yanaşılması və burada mövcud olan ümumi və spesifik cəhətlər aşkar edilməlidir.

Pedaqoji və psixoloji ədəbiyyatda ailə tərbiyəsi, yeniyetmələrin ailə tərbiyəsində sosial amillərin rolunun müxtəlif tərəflərini əhatə edə biləcək zəngin material vardır. Həmin materialların ayrılması və psixoloji aspektdən təhlil edilməsi valideyn-övlad münasibətlərinin lazımi istiqamətdə formalaşmasına təsir etmək baxımından çox faydalı ola bilər. Onu da qeyd etmək lazımdır ki, kitablarda valideynlərin yeniyetmələrlə münasibət qurmaqda onlara kömək edə biləcək konkret şablon münasibətlər tipi tapması mümkün deyildir. Çünki har bir ailənin öz durumu, öz psixoloji atmosferi vardır və hər bir insan fərdi xüsusiyyətlərə malikdir. Uşaqlarla problem bağça yaşlarından başlayaraq, müxtəlif yaşlarda meydana gəlir. Uşağın da öz arzusu, istəyi, cəhdləri, məqsədi, bir sözlə, öz həyat mövqeyi vardır.

## 8. Ailədaxili münaqişələrin yeniyetmələrin sosiallaşmasına təsiri

Ailədaxili münaqişələr yeniyetmələri ailədən uzaqlaşdırır. Bunun nəticəsində yeniyetmələr qeyri formal yaxşı olmayan qrupların təsirinə düşə bilərlər. Valideynlər bundan ehtiyat etməlidirlər. Yeniyetməlik yaş dövrün sosiallaşmağa daha çox ehtiyac yaranır buna səbəb ünsiyyətə təlabatın artmasıdır.

Uşaq və yeniyetmələrin sosial formalaşmasında ailə və məktəbin təşkil olunmuş pedaqoji təsirləri ilə yanaşı, sosial mühitdə gənclərin kortəbii həyat forması kimi sərbəst ünsiyyəti də mühüm rol oynayır. Şəxsiyyətin sosiallaşması institutu kimi küçə mühitinə müəyyən dərəcədə müxtəlif klublar, uşaq və gənclər mərkəzləri də qovuşur.

Beləliklə, yeniyetmələrin öz həmyaşıdları ilə birgə həyatı, sərbəst ünsiyyəti şəxsiyyətin formalaşmasının qüvvətli və eyni zamanda problematik amilini təşkil edir. Yeniyetmələr ailədən və məktəbdən kənarda dünyanı fəal dərk edirlər. Bu, bir tərəfdən, yaxşıdır: uşaq və yeniyetmələr geniş sosial həyata uyğunlaşır və inkişaf edirlər. Digər tərəfdən, belə sərbəst həyat və ünsiyyət müəyyən çətinliklər doğurur: hələ formalaşmamış yeniyetməni "pis" yola çəkə bilər. Təsadüfi deyildir ki, valideynlər və məktəb küçənin və "pis" dostların təsirindən həmişə qorxur və ehtiyat edirlər.

Küçənin mənfi təsirinə qarşı uşaq və yeniyetmələrin müqaviməti zəifdir. Yeniyetmələr bu cəhətdən yaşlı insanlardan fərqlənirlər: onların öz davranışı üçün ictimai qaydaların gözlənilməsi üçün məsuliyyət hissi hələ kifayət

qədər inkişaf etməmişdir. Həm də onların hərəkətləri üçün daha çox valideynləri cavab verir.

Yeniyetmələr həmişə cəmiyyətin fərqli sosial qrupunu təşkil etmişlər, lakin müasir dövrdə xüsusi yeniyetmə mədəniyyəti formalaşmaqdadır.

Yeniyetmə və gənclərin sərbəst qrup mədəniyyəti dedikdə, onların davranış normaları, ünsiyyət formaları, zövqləri və dəyərlər sistemi başa düşülür. Bu dəyərlər keçən əsrin orta-larından daha çox inkişaf etməyə başlamışdır. Bu da müəyyən səbəblərlə bağlıdır: təlim müddətinin artırılması, işsizlik, akselerasiya və s.

Yeniyetmə və gənclərin sosial dəyərləri mürəkkəb və ziddiyyətli sosial hadisə olub, yeniyetmələrə heç də birmənalı təsir etmir: o, bir tərəfdən, gəncləri ümumi, "böyük" mədəniyyətdən müəyyən qədər aralayır, digər tərəfdən isə yeni dəyərlərin, norma və sosial rolların mənimsənilməsinə kömək edir, yeniyetmələrin həyata daxil olmasını asanlaşdırır.

İnsanın dünyaya gəldiyi andan etibarən böyüməsi, inkişafı və sosiallaşmasında ailənin rolu qaçılmazdır, bir sözlə fərd cəmiyyətin bir parçasıdır. Bir yeniyetmənin inkişafında ilk dəfə sosiallaşdığı yer ailə; ilk əlaqə qurduqları insanlar ailə üzvləridir. Uşaq dünyaya gəldiyi andan etiabarən şəxsiyyətinin və mənəvi quruluşunun təməlləri məhz ailəsi ilə qarşılıqlı əlaqəsindən əldə etdiyi təcrübələrin nəticəsidir. Uşaq yalnız qidalanma üçün deyil, həm də qayğı və sevgi üçün valideynlərə ehtiyac duyur.

Yeniyetmənin davranışında, sosial münasibətlərində və cəmiyyətə uyğunlaşmasında göstərdiyi müsbət keyfiyyətlər onun sevgi dolu, dinc bir ailə mühitində böyüməsindən xəbər verir. Bu səbəbdən valideynlərin

övladlarına qarşı münasibətləri və davranışları yeniyetmələrin sosial inkişafına təsir göstərir.

Ailə inkişaf imkanlarının mənbəyi olmaqla yanaşı, ən böyük emosional narahatlıqların, gərginliyin və münaqişələrin də mənbəyi ola bilər. Ailədaxili münaqişələrin bütün fərdlər üçün mənfi təsirləri olsa da, ən çox zərər görən uşaqlardır.

Münaqişə yaşayan ailələr bəzən bunun uşaqlara hiss etdirmədiklərini, onları qoruduqlarını desələr də münaqişələrin olduğu hər bir ailədə yeniyetmə uşaqların da mənfi nəticəni gördükləri müəyyən olunmuşdur. Münaqisələr olan ailələrdə böyüyən yeniyetmələrdə çəkinmə, qorxu, ünsiyyət problemi, məktəb həyatındakı uğursuzluq, ailəsi ilə bağlı sual verilməsindən çəkindikləri üçün məktəbə belə getmək istəməmək kimi davranışlarla özünü göstərir.

Ailədəki münasibətlər sisteminin pisləşməsi, ər-arvad münasibətlərinin kəskinləşməsi, gələcəkdə böyüklər kimi müxtəlif sosial rol və funksiyalar alacaq uşaqların psixososyal sağlamlığına mənfi təsir edir. Sevgi və hörmətə əsaslanan bir ailə mühitində yaşayan, böyüyən yeniyetmə ilə rədd edilmiş və ehtiyacları ödənilməyən yeniyetmə arasındakı davranış fərqləri araşdırılmış və belə bir nəticəyə gəlinmişdir: Sevgi və hörmətə əsaslanan bir ailə mühitində böyüyən yeniyetmə özünü olduğu kimi qəbul edən, ictimai münasibətlərdə insanlara qarşı humanist mövqey tutan fərd olduqları, bunların olmadığı bir ailə mühitində böyüyən yeniyetmələrin isə içərilərinə qapanıq, ətrafındakı insanlara, yoldşlarına qarşı aqresiv olduqları müşahidə edilmişdir.

Ailədaxili münaqişələrin yaranmasının çox səbəbləri var. Ən başlıca səbəb evlənməmişdən öncə qızla oğlan bir-birinin xasiyyətlərinə yaxşı bələd olmamalarıdır. Ərlə arvadın xasiyyətlərinin uyuşmamaları ailə daxili konfliktlərə gətirib çıxarır və bu da ailə bağlarının qopmasına səbəb olur. Əgər ərlə arvad arasında mübahisə yaranarsa onlar bunu öz aralarında həll edib ortaq məxrəcə gəlməli, bir-birlərinə güzəştə getməyi bacarmalıdırlar.

Yeni evlənən gənclər bəzən öz ailələrinin tamlığını qorumaq üçün cəmiyyət qarşısında ciddi məsuliyyət daşıdıqlarını dərk etmirlər. Halbuki, bu insan həyatında ən məsuliyyətli iş sayılır. Çünki nigahın əsasını məhəbbət hissi ilə borc və məsuliyyət hisslərinin vəhdəti təşkil edir.

İdeal ailə yoxdur, çünki hər ailənin öz probləmləri öz çatışmazlıqları vardır. Ancaq valideynlər elə etməlidirlər ki, uşaqlar öz ailəsini ideal ailə kimi görsün. Mübahisələrini onların yanında etməsinlər.

Ata-ana boşandıqdan sonra yeniyetmələrin tərbiyəsində yeni çətinliklər meydana gəlir: məktəbə getmək, təhsilini davam etdirmək istəməyən pozulmuş oğlan və qızın tərbiyəsi problemi ilə ana (və ya ata) üzbəüz qalır, təklikdə bu problemin öhdəsindən gələ bilmir.

Tədqiqatlar göstərir ki, boşanmış ailələrin 60%-i uşaqlarla tamamilə görüşmür, 30%-i seyrək əlaqə saxlayır, ancaq 10%-i uşaqların tərbiyyəsində fəal iştirak edir. Belə vəziyyət ailənin, o cümlədən, yeniyetmələrin mənəvi-psixoloji və maddi durumuna ciddi mənfi təsir göstərir.

Tədqiqatçılar ailədaxili münaqişələr törədə biləcək səbəblərin sırasını dörd səviyyədə ifadə etməyi məqsədəuyğun sayırlar:

*1) psixofizioloji səviyyə;*

*2) psixoloji səviyyə;*

*3) sosial rollar səviyyəsi;*

*4) sosiomədəni (mənəvi) səviyyə.*

Psixoloqlar bir qayda olaraq, psixofizioloji uyğunluğu sağlam, ahəngdar ailə münasibətlərinin təməli kimi qiymətləndirirlər. Prinsip etibarı ilə bu fikri dolayısı ilə rədd edənlər və ya onu kəskin polemika, müzakirə mövzusuna çevirənlər az deyil. Lakin psixofizioloji uyğunluğun ailədə tərəf müqabili olan şəxslərin qarşılıqlı münasibətlərində həlledici rola malik olması heç kəsdə şübhə doğurmur.

Ailə qurularkən tərəf müqabilləri üçün psixofizioloji uyğunluq nə qədər böyük əhəmiyyət kəsb edirsə, əlverişli psixoloji iqlim də ailənin qorunub saxlanması və möhkəmlənməsi üçün bir o qədər zəruri olur. Başqa sözlə, ailədə münasibətlərin psixoloji səviyyəsi ailənin müqəddəratını və gələcəyini bir çox cəhətdən təyin edir.

Sosial rollar səviyyəsi ailədə məişət-təsərrüfat işlərinin düzgün bölüşdürülməməsi, ailədaxili məsuliyyətsizlik və intizamsızlıq ilə sıx bağlıdır. Belə ailələrdə adətən ümumi narazılıq mühiti, qarşılıqlı laqeydlik hökm sürür. Ailədə tərəf müqabili olan şəxslərdən biri, bəzən hər ikisi üzərinə düşən məsuliyyəti lazımınca qiymətləndirmir. Bu isə ailədə ciddi böhranın yaranmasını, bəzi hallarda isə ailənin dağılmasına gətirib çıxarır. Ailədaxili münaqişələrin sosiomədəni (mənəvi) səviyyəsi qarşılıqlı anlaşılmazlıqdan, tərəf müqabillərinin fikirlərinin, düşüncəsinin, dünyagörüşünün uyğun gəlməməsindən doğur. Ailədə maraqların toqquşması, qadın və ya kişi üçün həyati əhəmiyyət kəsb edən dəyərlərin, onun tərəf müqabili üçün qəbuledilməz olması, onların ünsiy-yət, fikir mübadilə-

sində ortaq məxrəcə gələ bilməmələri ailə mühitinin harmoniyasını pozur, ciddi narazılığa, kəskin fikir ayrılığına səbəb olur. Ailədaxili münaqişələri doğuran səbəblər kifayət qədər mürəkkəb və rəngarəngdir.

Ailənin mahiyyətini, insanın, cəmiyyətin, doğulan körpələrin həyatında necə mühüm əhəmiyyət daşıdığını anlamaq ailənin dayaqlarını sarsıtmağa qoymur, ər-arvad qarşılıqlı münasibətlərini, ailə daxilindəki ünsiyyət və rəftarını, davranışını düzgün qurur, yaranan ixtilaflar zamanı hissin hökmünə tabe olmağı deyil, ağlın hökmünü əsas tutur.

Tədqiqatlar göstərir ki, müxtəlif ailə tiplərində özünü büruzə verən ailə münaqişələrinin təzahürləri və aradan qaldırılması sosial - psixoloji mexanizminə görə stereotipləşdirmə və identikləşdirmə üsulu ilə açılır.

Münaqişələrin həllində sosial - sirayət, təqlid və s. kimi sosial - psixoloji üsullardan istifadə də çox faydalı olur. Ailə münaqişələrinə, sosial - psixoloji amillərlə yanaşı maddi - iqtisadi vəziyyət, ailə üzvlərinin maddi ehtiyaclarının ödənilməsi səviyyəsi və imkanları çox ciddi təsir göstərir.

Ailə münaqişələrinin hər saat ailənin dağılması, yəni boşanma ilə nəticələnməsinin səbəb və mexanizmləri barədə məlumatlardan, xüsusən də şəhərlərdə ailə məsləhətxanalarında istifadə edilməsi də çox faydalı olardı. Bu məsələdə ailəyə ailə psixologiyası problemləri ilə məşğul olan mütəxəssislərin yaxından köməyi çox əhəmiyyətli olardı.

Gənclərin ictimai - siyasi inkişafına valideynlər mühüm təsir göstərirlər. Uşağın gələcək kişi və qadın kimi formalaşmasının əsasları da ailədə qoyulur.

## 9. Asosial davranışlar və onun korreksiyası

Bütün ailələr kiçik bir dövlətdir. Bu dövlət ailə üzvlərindən təşkil olunmuşdur. Üzvlər hər gün eyni mənzilə gəlir, bir qapıdan içəri girir, birlikdə yaşayır, sevinc və kədərlərini bir-birləri ilə bölüşürlər. Onlar birlikdə yemək yeyir, şirin söhbət edir, əylənirlər.

Əhalinin nəsilartırma meyarlarını va sosial - psixoloji tamlığını nəzərə alan sosioloq A. Q. Xarçevin verdiyi tərifə görə, ailə həyat yoldaşları, valideynlər və övladlar arasında tarixən konkret münasibətlər sistemi, üzvləri nikah va qohumluq əlaqələri, ümumi məişət və qarşılıqlı məsuliyyətlə birləşmiş, sosial vacibliyi, əhalinin fiziki və mənəvi artımına cəmiyyətin tələbatı ilə şərtlənən kiçik qrupdur. Ailə sözü müştərək xüsusiyyətləri olan elmi, texniki va ictimai qruplar üçün də işlədilir.

Ölkəmizdə mənəvi və əxlaqi dəyərlərə yüksək dəyər verildiyi üçün bizdə valideynlərin övladlarına təsiri daha güclüdür. Lazımi həyati bilikləri, tacrübələri olmayan uşaqlar, xüsusilə məktəbəqədər yaşlı uşaqlar özlərini əhatə edən adamların işlərini və hərəkətlərini izləyir, onları təqlid edir və onlara oxşamağa çalışırlar. Ona görə də valideynlər və tərbiyəçilər öz hərəkətləri, əməlləri, adamlara yanaşma tərzləri ilə uşaqlara daim təsir etdiklərini unutmamalıdırlar.

Bildiyimiz kimi, nümunə ən təsirli vasitədir. Uşaqların şüurunun formalaşmasında, həm də bir şəxsiyyət kimi formalaşmasıda ətrafdakıların nümunəsi böyük əhəmiyyətə malikdir. Heç bir söz yaxşı və pisin nə demək olduğu haqqında nümunə qədər aydın, konkret təsəvvür

yarada bilməz. Onun tərbiyəvi gücünün pixoloji əsasını uşaqların böyüklərə oxşamaq, onlar kimi olmaq meyli və qabiliyyəti təşkil edir. Onun hər bir hərəkətində mənəvi gözəllik, yüksək ideyalılıq, vətənə sədaqət, vətənpərvərlik hissi olmalıdır.

Uşaq görməlidir ki, onun ailəsində vətənə, xalqa, doğma yurdun hər qarışına xüsusi hörmət, ehtiram vardır. Bunu valideyn öz sözlərində, hərəkətlərində, insan-lara münasibətində öz şəxsi nümunəsi ilə uşaqlara hiss eletdirməlidir.

Bəzən ailədaxili münasibətlərdə valideyn övlad münasibəti tam düzgün qurulmur. Bu zaman uşaqlar öz yaşıdları ilə ünsiyyətdə çətinlik çəkir ünsiyyətdən qaçırlar. Uşaqlarda asosial davranış son zamanlarda tadqiqatçıların nəzər obyektinə çevrilmişdir.

Psixoloji tədqiqatlarda asosial davranış problemi-nin fərqli tərəfləri haqqında müxtəlif fikir və müzakirələr olsa da, onlar indiki dövrümüzdə problemin əsasını bütün-lüklə aydınlaşdırmağa yol vermir. Ona görə ki, uşaqlarda asosial davranışın göstəriciləri fərqli tarixi mühitdə həmin şəkildə, həmin intensivlikdə, həmin çalarlarda özünü gös-tərmir. Çünki bu və digər yaş qruplarında asosial davranışı şərtləndirən əsas amillər və onun göstəriciləri biri digəri ilə eynilik təşkil etmir.

Asosial davranışı şərtləndirən bu əsas amillər toplusunu müəyyənləşdirərkən ictimai-tarixi və maddi-iqtisadi şərait amili ilə bərabər şəxsin yaş xüsusiyyətləri faktoruda öndə olur. Son zamanlarda uşaqlarda davranış pozğunluqları problemi gündəmdədir. Bu pozğunluqların patoloji formaları, günümüzdə müşahidə edilən cinsi yetkinlik və fiziki inkişaf ilə şərtlənir.

Ailə quruluşu uşağın xarakterinin formalaşmasındakı baş amillərdən biridir. Uşağın davranışları və münasibətlərinin formalaşması təməlin möhkəm bir quruluşda meydana gəlmədiyi təqdirdə onun ən kiçik bir şoka tab gətirə bilməyəcəyini və çökəcəyini göstərir.

Günümüzdə geniş ailələrin yerini kiçik ailələr almışdır. Evdə uşaqlar, demək olar ki, otaqdan otağa mesaj yazır, facebook, twitter, whatsapp kimi sosial şəbəkələrdə yaratdıqları profillər vasitəsilə özləri üçün virtual dünya qurur və qurulan virtual dünya zamanla real hayatı qabaqlamağa başlayır. Sosial şəbəkələrdə keçirilən saatlar artmağa başlayır, uşaqlar bir çox ehtiyaclarımı buradan qarşılayır. Ağıllı telefonu ilə yanaşı bir həyat tərzi içərisinə girən gənc buradan bağlandığı virtual aləmdə özünü doğrultma və olmaq istədiyi insanı orada yaratma səyi içərisinə girir. Bu vəziyyət gənci asosial bir quruluşa bürüyərək sosial şəbəkədən asılı bir quruluşa daxil edir. Gənc xoşbəxtliyi virtualda tapır və gəncin sosial şəbəkədə nə qədər çox izləyicisi və ya dostu varsa, o qədər xoşbəxtdir.

Gəncin sosial şəbəkədə sahib olduğu dostlarının bir çoxunu tanımaması va yaxud bir araya gəldikdə, salamlaşma ehtiyacı belə hiss etməməsinə baxmayaraq, bu insanlar virtual aləmdə gəncin paylaşdığı bir postu "bəyən" düyməsi ilə bəyənərək gənci xoşbəxt edir. Bu vəziyyəti xoşbəxtliyin virtuallaşması olaraq ifadə etmək yerinə düşər.

Asosiallıqdan xilas olmaq va hayatın axını içində özünə yenidən yer almaq üçün dost mühiti əldə etmək və sosial-mədəni fəaliyyətlərlə məşğul olmaq, müxtəlif hobbilər əldə etmək, idman mərkəzlərinə yazılaraq müntəzəm

olaraq idmanla məşğul olmaq kimi xilasedici metodlardan və texnologiyadan istifadə asosiallığın minimuma endirilməsinə kömək edir.

İnsanın komüter qarşısında keçirdiyi zamanları yavaş-yavaş azaldılması, sevdikləri ilə birlikdə vaxt keçirməsi və əhatəsi ilə sosiallaşma içərisinə daxil olma kimi səylər göstərməsi insanı asosiallıqdan xilas edəcək davranışlardır. Bundan əlavə, şəxsin bütün səylərinə baxmayaraq asosial davranışlardan xilas ola bilməməsi vəziyyətində olduqda, onun bir psixoloqa müraciət etməsi də lazımdır

İnsan inkişafının ən vacib mərhələlərindən biri yeniyetməlikdir. Buna görə də bu sahədə geniş bir bilik yığımı meydana gəlmişdir.

Ümumdünya Səhiyyə Təşkilati yeniyetməliyi 10-19 yaş arasındakı inkişaf dövrü olaraq təyin edir. Yeniyetməlik dövründə bir çox mübahisəli məsələlər var. Yeniyetmələrin fiziki inkişafını necə izləməli, onların müxtəlif vəziyyətlərdə necə davranmaları, problemləri necə həll etmələri, necə qərar vermələri, dostları ilə münasibətlərini necə qurmaları, yeni bacarıq və düşüncələri necə öyrənmələri, münasibət və bacarıqlarına təsir edən amillər kimi məsələlər nəzərdə tutulur.

Bir çox dəyişikliyin birlikdə meydana gəldiyi yeniyetməlik, uşaqlıqdan yetkinliyə keçiddə çox fırtınalı bir dövrdür. Yeniyetmələr bu dövrdə fiziki cəhətdən yetkinləşir, sosial və akademik məsuliyyətlərini artırmaqla sosial və psixoloji cəhətdən inkişaf edirlar. Bu dövrdə fərdin inancları va dəyərləri formalaşır, valideynlərin yeniyetmələrə təsiri azalır, digər tərəfdən həmyaşıdların təzyiqi artır. Bu vacib dövrün nəticəsi olaraq, yeniyetmə-

lərdə bir çox davranış dəyişiklikləri baş verir. Bu davranışlar həm yeniyetməlik dövründə, həm də sonrakı inkişaf dövrlərində fərdin həyatına əhəmiyyətli dərəcədə təsir göstərir. Cəmiyyətlərin gələcəyi olaraq görülən bu inkişaf dövrünü yeniyetmələrin sağlam bir şəkildə keçirmələri onların həm fərdi inkişafının, həm də sosial inkişafının vacib bir müəyyənedicisi olduğu anlamına gəlir.

Hormonal və fiziki bir dəyişikliyin yaşandığı yeniyetməlik dövrü psixoloji dəyişikliyin də yaşandığı bir dövrə çevrilir. Yeniyetmələr bədənlərinin qavranılması, fiziki fəaliyyət, həmyaşıdları ilə münasibətlər, mediada olan modellər va idealları ilə məşğul olurlar. Bu dövrdə yaşanan qorxu və ya qeyri-sabitlik, çox vaxt bu inkişaf prosesinin nəticəsi olan normal problemlar hesab edilə bilər.

Həmçinin yeniyetmələr eyni zamanda yaranan bu dəyişikliklərin anlaşılmaması və bunlara müdaxilə edilməməsi vəziyyətində nəticələri yetkinliyə qədər uzanan və şəxsin hayatına mənfi yöndə təsir göstərə biləcək bir çox riskli davranışa da yönələ bilirlər.

Bu çərçivədə, yeniyetməlik, bioloji, psixoloji va sosial baxımdan bir çox mühüm dəyişikliklərin baş verdiyi bir həyat dövrüdür. Bu dövrdə yeniyetmənin ətraf mühit amillərinə həssaslığı artır ki, bu da yeniyetmənin gələcək davranışlarına müsbət və ya mənfi təsir göstərə bilər. Buna görə riskli davranışların tezliyi, xüsusilə, yeniyetməlik dövründə artır. Digər inkişaf mərhələləri ilə müqayisədə, yeniyetməlik dövründə riskli davranışlar daha çox müşahidə olunur.

Riskli davranışlarar ümumiyyətlə sağlamlığa təhlükə yaradan və xəstəlik, yaralanma və ölümlə nəticələnə

biləcək həyatı təhlükəli davranışlara deyilir. Riskli davranışın başqa bir tərifi yeniyetmələrin rifahını təhdid edən və məsuliyyətli yetkin olmalarına mane olan davranışlardır. Bu çərçivədə bu davranışlar yeniyetmələrin hayatını ciddi şəkildə təhdid edə bilər. Nəticədə, bu davranışlar həm yeniyetmələrin fiziki, həm də psixoloji cəhətdən sağlamlığına təhlükə yarada bilər va psixososial baxımdan inkişafına zərər verə bilər.

Məsələn, Suna görə, riskli davranışlar yeniyetmələrdə məktəblə əlaqəli problemlərə, uğursuzluğa va sağlamlıqla əlaqəli fərqli davranışlara səbəb ola bilər. Yeniyetmələr bu davranışların nəticələrindən xəbərdar ola da bilər, olmaya da bilər. Nəticədə, yeniyetmələr və onların inkişafı və tərbiyəsi üçün məsuliyyət daşıyan valideynlər, müəllim və məktəb məsləhətçisi səviyyəsində məlumatlılığı artırmaq vacibdir.

Bu günə qədər bu mövzuda aparılan tədqiqatlar, əsasən, yeniyetmələrdə riskli davranışa səbəb olan amillərin va yeniyetmələrin risk amillərinə və riskli davranışlara meylli simptomların müəyyənləşdirilməsinə yönəldilmişdir. Nəticədə, yeniyetmələrdə bu cür davranışları azaltmaq və ya qarşısını almaq olar. Xüsusilə, bu yanaşma əsas profilaktik işlər üçün çox vacibdir və psixoloji məsləhət və rəhbərlik xidmətləri çərçivəsində aparılan asas profilaktik tədqiqatlarda problem yaranmazdan əvvəl bunun qarşısını almaq məqsədi daşıyır. Riskli davranışlar baxımından risk altında olan yeniyetmələrin müəyyənləşdirilməsi bu mənada profilaktik tədqiqatlar üçün faydalı ola bilər.

Reiningerin ifadə etdiyi kimi, yeniyetmələrdə riskli davranışlar və seçimlər sosial kontekstdə meydana çıxmağa meyllidir və bu davranışlar bir-birlərinə təsir edə bilər.

Tədqiqatlar göstərir ki, maddə istifadəsi cinayətkar davranış, məktəbdə davranış pozğunluğu, məktəbdən qaçma, zorakılıq və aqressiv davranış kimi bir çox riskli davranışlarla əlaqələndirilə bilər. Başqa sözlə, riskli davranış özü ilə digər riskli davranışlar gətirir. Bundan əlavə, Havkins, Katalano va Kostermana görə, uşağın və ya yeniyetmənin həyatında daha çox risk faktorunun olması onun daha çox problemli davranış sərgiləməsinə səbəb ola bilər.

Bu riskli davranışlar şagirdlərin məktəb həyatına mənfi təsir göstərir və bu baxımdan məktəblərin bütün istiqamətlərdə şagirdlərin ən yaxşı inkişaf etməsini hədəfləyən məqsədlərə çatmalarına mane olur.

Məktəblərin ən vacib hədəflərindən biri olan akademik müvəffəqiyyətin riskli davranışlarla əlaqəli olduğu və müvəffəqiyyəti az olan şagirdlərin daha çox maddə istifadəsi, şiddət və cinsi davranış kimi riskli davranışlara rast gəldiyi bildirilir. Buna görə, akademik müvəffəqiyyətin artırılmasının önündəki əngəllərdən biri də şagirdlərdə artan riskli davranışlar sayıla bilər. Yeniyetmələrin həyatlarında qarşılaşdıqları riskləri başa düşmək və onları azaltmaq üçün tədbirlər görmək vacib hesab olunur.

Yeniyetməlik illərinə təsadüf edən və bu səbəblə də riskli davranışların sıxlaşdığı dövr orta təhsil səviyyəsidir. Riskli davranışların artmasına paralel olaraq məktəblər artıq şagirdlər üçün təhlükəsiz yer ola bilməz. Buna görə şagirdlərin və onların riskli davranışlarını başa düşmək son dərəcə vacibdir.

Şagirdlərin inkişafına töhfə vermək üçün, antisosial davranışın qarşısını almaq, sağlam qidalanma vərdişləri qazanmaq, alkoqol və siqaret çəkmənin qarşısını almaq,

məktəbdən qaçmanın azaldılması kimi mövzularda Təhsil Nazirliyinin dəstəklədiyi profilaktik və müdaxilə proqramlarına ehtiyac var. Bu proqramların hansı proqrama aid olması və hansı məktəb üçün hazırlanmalı olduğu ilə bağlı aparılan tədqiqatları istiqamətləndirmək üçün əsasən təsviri tədqiqatlar aparıla bilər. Yeniyetmələrdə riskli davranışların nə olduğunu müəyyən etmək üçün ölçmə vasitəsi lazımdır.

Yeniyetməlik dövründə rast gəlinən riskli davranışları ölçən etibarlı bir ölçmə vasitəsinin inkişafı ilə bu cür davranışlar açıq şəkildə nümayiş oluna bilər, onların qarşısının alınması və müdaxiləsi çərçivəsində ediləcək yeni araşdırmalara rəhbərlik edilə bilər. Bu araşdırmadakı məqsəd orta məktəb şagirdlərində riskli davranışları müəyyənləşdirmək üçün ölçmə vasitəsi hazırlamaq olmalıdır. Belə bir vasitə təlim siyasəti üçün mənbələrin, harada və hansı növ proqramların effektiv olduğunu müəyyənləşdirməkdə faydalı ola bilər.

Bu cür vasitə ilə proqramların icraçısı olan maktab psixoloqları üzləşdikləri problemlərin cəmləşdikləri sahələri təyin edərək işlərinin səmərəliliyini artıra biləcəklər. Eyni zamanda, bu sahədəki tədqiqatçılar da hansı proqramların inkişafına ehtiyac olduğu mövzusunda fikir əldə edəcəkdir. Bu çərçivədə, bu işin elan edilmiş hədəfinə çatmaqla əhəmiyyətli töhfələr veriləcəyi düşünülür.

Yeniyetmələrdə riskli davranışların meydana gəlməsinin əsasında şəxsi və ətraf mühit kimi bir çox fərqli səbəb yer alır. Ətraf mühit amilləri arasında, xüsusən ailə, məktəb və həmyaşıdları ilə əlaqəli amillər riskli davranışların meydana gəlməsi üçün əsas yaradır. Buna görə də, yeniyetmələrdə riskli davranışların nələr olduğunu və

yayılma səviyyəsini müəyyənləşdirməklə yanaşı, bu davranışlara səbəb olan amillərin də müəyyən edilməsi bu davranışların dərk edilməsində və qarşısının alınmasında böyük əhəmiyyətə malikdir.

Bu yolla, riskli davranış baxımından risk altında olan yeniyetmələrin müəyyənləşdirilməsində, bu amillərin müəyyən edilməsi, bununla da lazımi tədbirlərin görülməsi üçün lazımi məlumat və sübutların verilməsi vacibdir. Bu çərçivədə, xüsusən də şagirdlərin bütün yönləri ilə ən yaxşı şəkildə böyüməsinə mane olan əngəllərin aradan qaldırılması üçün təşkil ediləcək işlərdə bu məlumatlara ehtiyac olacağı düşünülür.

Riskli (problemli) davranış, hüquqi və sosial normalara zidd olan, dominant mədəniyyət tərəfindən təsdiqlənməyən, ictimai quruluşda problem olaraq ifadə edilən nüfuza qarşı olan davranışlar olaraq tayin olunur. Cinayətkarlıq, riskli cinsi davranış gənclar və yeniyetmələr arasinda madda va alkoqol istifadasi kimi davranışlar riskli davranış kimi qiymətləndirilir.

Problemli davranış va ya təsdiqlənməmiş davranış, fərdin şəxsiyyət sistemi və fərdin qabul edilən ətraf mühit sistemi ila müəyyən edilir. Bu baxımdan, riskli davranış sosial normalara ziddir va bu davranışların ortaya çıxması sosial nəzarət mexanizmlərinin işə düşmasina sabab olur. Bundan əlavə, riskli davranışlar yeniyetmələrin inkişafına va hayatlarına mənfi tasir göstərdiyi ifadə edilir.

Jessora görə, bu cür davranışlar yeniyetmələrin sosial vəzifələrini yerina yetirməklə yanaşı, inkişaf vəzifələrini də yerinə yetirmələrinə, müvəffəqiyyət hissi yaşamağa və növbəti inkişaf dövrünə uğurla keçməsinə mane olur.

Ədəbiyyatda tez-tez rast gəlinən risk alma davranışı riskli davranışları doğursa. da, risk alaraq davranış və risk alma davranışı fərqlidir. Risk götürən davranışda, bu davranışı nümayiş etdirən insanların davranışlarının nəticəsi haqqında məlumatları olduğu vurğulanır. Riskli davranışlarda çox vaxt nəticələrini düşünmədən bu davranışları göstərirlər. Bildirilir ki, xüsusilə yeniyetməlik dövründə gənclər bu cür davranış nümayiş etdirərkən nəticə barədə hərəkət edirlər. Bu məzmunda, risk alma davranışına gəldikdə, yeniyetmələr bu davranışların nəticələrini bilməklə hərəkət edirlər, lakin problemli davranışların əksəriyyətinin nəticəni nəzərə almadıqlarını söyləmək olar.

Yeniyetmələrdə görülən riskli davranışların əsas xüsusiyyətləri, gəncin bioloji, psixoloji və sosial baxımdan inkişafına və həyatına zərər verən sosial qəbuledilməz davranış nümunələri olmasıdır. Bu çərçivədə nəzərdən keçirildikdə, riskli davranışların yeniyetmələrin hayatına mənfi təsiri bir daha ortaya çıxdı.

Yetkinlərin həyatını təhlükə altına alan və onların inkişafına mənfi təsir göstərən bir çox riskli davranış var. Əsas olanlar təcavüz-zorakılıq, maddə istifadəsi, antisosial davranış, özünə zərər, cinsi davranışlardır.

Yeniyetmələrdəki antisosial davranış davam edən sosial problem olaraq qəbul edilir. Antisosial davranış normalara, dəyərlərə və sosial prinsiplərə qarşı tətbiq olunan davranışlar kimi müəyyən edilir: Antisosial davranış anlayışına təcavüzdən oğurluğa qədər, əşyalara zərər vurmaqdan vandalizmə qədər müxtəlif davranış növləri daxildir. Bu davranış növləri oxşar bir nümuna göstərsə da, cinayətkar davranış, xüsusilə, qanuna zidd baxımından daha ifratdır.

Jessor apardığı ilk tadqiqatda antisosial davranışları, qəsdən digər insanların əşyalarına zərər vermə, məktəbdən və ya evdən qaçma və fiziki zorakılığı əhatə edən davranışlar olaraq toyin edir.

Pedaqoji prosesdə baş verən təcavüzkarlıq və zorakılıq şagirdlər və ya müəllimlər üçün fiziki, psixoloji və ya sosial olaraq qəsdən edilən və şəxslərin fiziki va psixoloji baxımdan zərər görməsinə səbəb olan hadisələr olaraq təyin olunur. Zorakılığı yalnız insana fiziki zərər verən hadisələr kimi təyin etmək düzgün deyil. Zorakılıq sözlə, emosional, iqtisadi və cinsi ölçülərə də malikdir.

Belə vəziyyətlər həm məktəbə, həm də ailə mühitinə ziyan vurur və şagirdin fiziki mənada hayatını təhdid etdiyi kimi, həm də psixi sağlamlıq baxımından zərərlidir. Bu baxımdan, dolayısi ilə və bilavasitə bu hadisələrdən təsirlənən şagirdlərin, ailələrin və müəllimlərin psixososial inkişafını dəstəkləmək və psixi sağlamlığını qorumaq, gündən-günə artan davranışları azaltmağın vacibliyi başa düşülür.

Maddə istifadəsi gənclərə təsir edən bioloji, sosial va psixoloji ölçüdə bir sağlamlıq problemidir. Asılılıq verən maddaə beyin funksiyalarına və bütün bədən quruluşlarına təsir göstərir, zamanla orqan sistemlərinə daimi zərər verir, hayat üçün lazım olmayan, təbii və ya süni şəkildə ləzzət verən maddələrdir.

Spirtli içki və siqaret, yeniyetmələr üçün ən asan əldə edilə bilən maddələr arasındadır. Yeniyetmələr bir çox fərqli səbəbdən spirtli içki və ya siqaret istifadə eda bilərlər, lakin xüsusən yeniyetmələrin şəxsiyyət əldə etmə prosesində özlərini və müstəqilliklərini qazanmaq üçün bu cür davranışlara daha tez-tez meyl etdikləri bildirilir.

Siqaretin ham yeniyetmələr, həm də böyüklər tərəfindən dünyada ən çox istifadə edilən asılılıq maddəsi olduğu bildirilir. Digər riskli davranışlarla müqayisədə daha az riskli sayılan siqaret çəkməyin qısamüddətli və uzunmüddətli mənfi təsirlərini nəzərə alaraq, bu riskin böyüklüyü aydın şəkildə başa düşülür.

Alkoqol istifadəsinin də yenə sağlamlığa mənfi təsiri ilə yanaşı yeniyetməlik dövründə digər riskli davranışlarla əlaqəli olduğu bildirilir. Spirtli içki istifadə edən yeniyetmələrin istifadə etməyən yeniyetmələrə nisbətən intihar düşüncələri və meylləri, şəxsiyyət problemləri, məktəbə adaptasiya problemlərinin və antisosyal davranışların daha çox olduğu bildirilir. Alkoqol və siqaret çəkmə tələbələrin sağlamlığına həm fiziki, həm də zehni olaraq mənfi təsir göstərir.

Intihar insanın öz mənliyinə təcavüzü və məhv etmə aktı olub, fərdin həvəslə həyatını sonlandırmasıdır. Ölən şəxs tərəfindən ölümlə nəticələnəcəyini bilməklə müsbət və ya mənfi davranışın birbaşa və ya dolayı nəticəsi olan hər hansı bir ölüm hadisəsinə intihar deyilir. İntihar davranışının duyğuların, düşüncə və ictimai münasibətlər, abstraksiya və depresiyaya dözülməyən vəziyyətlər nəticəsində meydana gəldiyi ifadə edilir. Bu səbəblə intiharın qarşısını almaqda bunları aşkar etmək vacibdir. İntihara meyli isə fərdlərdə var olan intihar etmə riskini ifadə edir. İntihar fikirləri, ümidsizlik, özünü mənfi qiymətləndirmə və özünə qarşı düşmənçilik hissi intihar ehtimalının göstəricisi kimi qəbul edilir.

50 il əvvəl yeniyetmələr əsasən təbii səbəblərə görə həyatlarını itirirdilər, amma bu gün qarşısı alına biləcək səbəblərə görə ölürlər. Bunun səbəblərindən biri inkişaf

etmiş və inkişaf etməkdə olan ölkələrdə intihar nisbətlərinin artmasıdır.

Yeniyetməlik dövrünün intihar davranışları üçün riskli bir dövr olduğu, dünyada edilən bir çox çalışmalar ilə ortaya qoyulmuşdur. Bu dövrdə ən yüksək intihar riskinin 14-25 yaş arasında olduğu bildirilir. İntihara cəhd edən yeniyetmələrin əksəriyyəti orta məktəb şagirdləridir. Tədqiqatlarda bütün intihar cəhdlərinin 20%-nin orta məktəb yeniyetmələri ilə əlaqəli olduğu və bütün bunların 30-35% -nin 14-15 yaş qruplarında baş verdiyi bildirilir. Son illərdə intihar nəticəsində həyatını itirən 5000 nəfər 15-24 yaş arasındadır. Bundan əlavə, bir çox araşdırmanın nəticələrinə görə, gənclərin 11 faizinin intihara cəhd göstərdiyi vurğulanır.

İntihar və intihar davranışı yeniyetməlik dövründə rast gəlinən vacib risklərdən biridir. Yeniyetmələrin zehni sağlamlığının qorunmasına yönəlmiş fəaliyyətlər bu cür davranışın azaldılmasında böyük əhəmiyyətə malikdir.

Məktəbi tərk etmə bir şagirdin məzun olmadan, davam etdiyi proqramı tamamlamadan məktəbdən ayrılması olaraq tayin olunur. Məktəb yeniyetmələrin inkişafını sağlam bir şəkildə tamamlaya bilməsi üçün çox vacib rol oynayır.

Məktəbi tərk etmə riski altında olan şagirdlər məktəbdə akademik və davranış problemləri göstərir. Ümumiyyətlə, belə şagirdlərin akademik uğurları azdır. Bununla birlikdə, ili təkrarlayan şagirdlərin digərlərindən daha yüksək məktəbi tərk etmə riski olduğu bildirilir.

Bundan əlavə, məktəbi tərk etmək, sinifdəki digər şagirdlərdən daha böyük şagirdlər üçün daha çox yayılmış bir haldır. Məktəbi tərk edən şagirdlərin 67% -nin

siniflərindəki digər şagirdlərdən daha böyük olduğu bildirilir. Bundan əlavə, məktəbi tərk etmə problemi qaybı çox olan və sinfi məhv edən şagirdlərdə daha çox müşahidə olunur.

Eynila və Vaşinqton məktəbi tərk etmə riski olan şagirdlərin asas xüsusiyyətlərinin qayıb çoxluğu, intizam problemləri və akademik uğursuzluqlar olduğunu bildirir. Bundan əlavə, şagirdin uzun müddət davam edən bioloji xəstəlikləri məktəbi tərk etməyə səbəb ola bilər.

Belə şagirdlərin tipik xüsusiyyətləri məktəb tədbirlərində iştirak etməkdən çəkinmə, dərslərdə iştirak etməmə, məktəbdən qaçma, deviant davranışlar sərgiləmə, hamyaşıdları ilə problem yaşama, ailədə problem yaşama, maddə asılılığı, hamiləlik, yoxsulluq, mədəni yoxsulluq, emosional problemlər kimi sıralanır. Göründüyü kimi, müşahidə olunan digər riskli davranışlar yeniyetmələrdə məktəbi tərk etmə riskini artırır.

XIX əsrin əvvəllərində ABŞ-da orta məktəbdə oxuyan şagirdlərin 85-90%-i məktəbi məzun olmadan tərk edir, bu nisbət növbəti 50 ildə 40%-ə, 1990-cı illərdə 15-25%-ə qədər azaldı. Steinberg ABŞ yeniyetmələrinin üçdə ikisinin orta məktəbə başladıqlarını, lakin bir çox şagirdin birinci ildən sonra orta təhsildə iştirak etmədiklərini və bunun çox güman ki, ehtiyacları ilə məktəb mühiti arasındakı qarşıdurma ilə əlaqəli olduğunu bildirir. Bu səbəblə, yeniyetmələrin yarısı istədikləri işə girmək üçün lazımi hazırlıq görmədən orta məktəbə getməyi dayandırırlar.

Məktəbi tərk etmə davranışı yeniyetməlik dövründə olan va hayata hazırlaşan gənclərin bir çox sahədə həyatına mənfi təsir göstərə biləcək bir davranışdır.

Yeniyetmə məktəbi məzun olmadan tərk edərkən, peşə və sosial sahələrdə müxtəlif problemlər yaşaya bilər və bu onun inkişafına mənfi təsir göstərə bilər.

Psixososial baxımdan riskli davranışları geniş bir perspektivdə ələ alan və izah edən problem davranış nəzəriyyəsi diqqətə layiqdir. Problemli davranış nəzəriyyəsi təxminən 35 il əvvəl Cessor tərəfindən hazırlanmışdır. Bu yanaşma sosial problem olaraq təyin olunan və sosial norma və qanunları pozan yeniyetmələrin davranışlarını izah edən psixososial perspektivdir.

Bu nəzəriyyədə riskli davranışlara erkən yaşda və problemli alkoqol istifadəsi, maddə istifadəsi, cinayətkar davranışlar və erkən cinsi əlaqə kimi davranışlar olaraq baxılır. Problem davranış nəzəriyyəsi son otuz beş ildə tətbiq olunan yeniyetmələrdə uyğunsuz və disfunksional davranışları izah etməkdə ən təsirli bir yanaşma olduğu ifadə edildi. Problem davranış nəzəriyyəsi, tibbi, bioloji və ya genetik olmaqdan daha əvvəl deyildiyi kimi, bir psixososial perspektiv taqdim edir. Bu, maddə istifadasi, riskli cinsi davranış va anormal davranış kimi yeniyetmələrin davranış nəticələrini izah etmək məqsədi daşıyan bir nəzəriyyədir.

Bu nəzariyyə fərqli sosial ünsürlərdən ibarət olan bir-biri ilə əlaqəli üç sistemi ahatə edir. Yeniyetmələrdə riskli davranışlar şəxsiyyət sistemindən, qəbul edilən sosial mühitdən, davranış sistemindən va bu üç sistemin bir-biri ila qarşılıqlı təsirindən asılı olaraq izah olunur. Bu sistemlərdən birincisi şəxsiyyət sistemidir və şəxsiyyət sistemi fərdin sosial düşüncələrini, şəxsi dəyərlərini, inanclarını və münasibətlərini özündə cəmləşdirir.

Qəbul edilmiş sosial mühit sistemi daxilində ailənin və yaşıdların yeniyetmələr üzərindəki təsiri ilə ifadə edilir. Davranış sistemi ənənələrə uyğun olan və problemli davranışları əhatə edən bir sistemdir. Hər bir sistemdə yeniyetmələr üçün qoruyucu amillər və yeniyetmələrin risk faktorları var.

Yeniyetmələrin ətrafında uyğun modellərin tapılması, valideynlər va dostların riskli davranışları üzərində nəzarəti təmin etməsi, ailə və dostlar tərəfindən qəbul edilən sosial dəstək həm birbaşa yeniyetmələri riskli davranışlara qarşı qorumaqda, həm də riskli amillərin təsirini azaltmaqdadır.

Yeniyetmələri riskli davranışlara yönəldən amillər sırasında gənclərin yaxın ətraflarında qeyd olunan problemli davranışları nümayiş etdirən insanların olması, yeniyetmələrin siqaret, alkoqol va ya narkotik kimi maddələri asanlıqla əldə etməsi və yeniyetmələrin bu cür davranışlara meyl etmələri göstərilir.

Profilaktik və korreksiya işləri deviant davranış sərgiləyən uşaq və yeniyetmələrlə müxtəlif istiqamətlər üzrə tətbiq olunur. Bu istiqamətlər sosial pedaqoji ədabiyyatda aşağıdakı şəkildə qeyd edilir:

- Sosial problemli davranışa malik olan yeniyetmə və uşaqların təlim və tərbiyəsinin profilaktikasında ana va atanın rolunun artırılması;

- *Valideyn təsirinin yüksəldilməsi;*

- *Gənc valideyn nümayəndələrinin gələcəkdə ailə münasibətlərinə və uşaqların tərbiyəsi məsələlərinə əvvəlcədən hazırlaşması;*

- *Ailədə müsbət mənəvi psixoloji mühitin təşkili;*

- *Ailə münasibətlərində yanlış davranışların aradan qaldırılması;*

- *Yeniyetmələrin özünütəhsil və özünütərbiyəyə sövq edilməsi;*

Təlim-tərbiyə (tədris) müəssisələrin əxlaqi-mənəvi rolunun yüksəldilməsi;

- *Təlim-tərbiyə keyfiyyətinin artırılması;*

- *Təhsil müəssisələrində sosial xidmətin təşkil;*

- *Problemli davranışlı yeniyetmə və uşaqların yenidən tərbiyəsi üzrə maxsusi müəssisələrin, sosial mərkəzlərin əhəmiyyətinin yüksəldilməsi;*

- *Yeniyetmələrlə təlim-tərbiyə üzrə icra hakimiyyətlərindəki komissiyalar, uşaq polis otağı və polis məmurlarının köməyi ilə sosial-neqativ davranış sərgiləyən yeniyetmə va uşaqlarla fərdi işin təşkili;*

- *Bu cür uşaq və yeniyetmələrin məktaəbdənkənar va sinifdənxaric fəaliyyətlərə, təhsil müəssisələrinin ictimai fəaliyyətlərinə, marağa görə klublara sövq edilməsi;*

- *Ana və ataların təlim-tərbiyə işlərində iştiraka cəlb edilməsi, onlarla əməkdaşlığın möhkəmləndirilməsi;*

- *Bələdiyyələr, sosial təşkilatlar və müəssisələrlə (turizm, idman, mədəni-maarif, bədii-estetik mərkəzlərlə) əlaqə yaratmaqmaqla yeniyetmə va uşaqların mənfi təsirlərdən uzaqlaşdırılması;*

- *Asosial davranış sərgiləyən gənc, uşaq və yeniyetmələrin sosial-neqativ davranış və hərəkətlərinin məhdudlaşdırılmasında onların yenidən tərbiyəsinə yardım göstərilməsi və özünütərbiyəyə sövq eedilməsi.*

Alimlərin bəziləri, məsələn Z.Freyd və s. kimi alimlər qeyd edirlər ki, insanın tabii əsəbi başlanğıcı ilə cinayətə meylliyi arasında müəyyən asılılıq var. Buna

baxmayaraq sosial-neqativ davranışın reallaşması düzgün olmayan həyat şəraiti və yanlış tərbiyə ilə şərtlənir.

Yeniyetmə və uşaqların sosial-neqativ davranışı bir çox amillərlə şərtlənsə da müxtəlif ailələrdə, yeniyetmələrin arzuolunmaz hərəkət və davranışları müəyyən səbəblərdən meydana gəlir. Asosial davranışı yaradan səbəbləri aydınlaşdırıb onların lağvi istiqamətində korreksiya və tərbiyə işinin tətbiqi lazımdır. Buna görə yeniyetmə cinayətinin motivləri ilə bağlı sosial-psixoloji ədəbiyyatda onların bir neçə tipi ayırd edilmişdir:

1) *Əqidə və inam əsasında, qəsdən qanunpozma.*

Belə uşaq və yeniyetmələr öz davranışları ilə özlərini haqlı hesab edir, tez təsir altına düşən gənc və yeniyetmələri ətrafına yığıb açıq-aşkar cəmiyyətə zidd çıxırlar, belə uşaq və yeniyetmələr ilə ciddi şəkildə yenidən tərbiyə ilə məşğul olunmalıdır;

2) *Mənəvi-estetik yöndən püxtələşməyən, səbatsız yeniyetmələrin qanunpozmaları:*

Bu cür uşaq va yeniyetmələrin şaxsi mövqeyi, əxlaqi inancı va idraki maraqları kifayət qədər inkişaf etməmişdir. Belələri nizam-intizam qaydalarına riayət etmir, dərslərini yaxşı oxumurlar.

Sosial-neqativ kimi problem davranışlı yetkinlik yaşına çatmayanların təlim-tədrisinin öyrənilməsi əsasında aydın olmuşdur ki, belə uşaqlar adi şagirdlərlə nisbətdə 5 dəfə çox dərsdən qalır. Pedaqoji proses zamanı dərs tapşırıqlarını həll etməyənlərin sayı isə 7 dəfə çoxdur. Bu cür yeniyetma və uşaqların hərəkətləri, əsasən, pedaqoji proses işlərinin düzgün qaydada təşkil olunmamasının nəticəsi kimi büruzə verilir;

3) *Təhrif olunmuş tələbatlar əsasında qanunpozmalar.*

Belə uşaqlar zəif iradəli yeniyetmələr olub, davranış və istəklərini idarə etməkdə çətinlik çəkir, etdikləri hər hansı əməllərdən peşmanlıq hissi keçirirlər. Bu tip yeniyetmə və uşaqların əxlaqi mövqeyinin və dünyagörüşünün inkişafı üzrə müxtəlif işlər görülməlidir;

4) *Narkomaniya, alkoqolizm və s. kimi tələbatlar əsasında qanunpozmalar.*

Bu cur uşaq və yeniyetmələr ilə psixoloji, tibbi, pedaqoji iş aparılmalıdır;

5) *Ailədə və dost əhatəsində təhqir edilən, yerini tapmaqda çətinlik çəkən, incidilən yeniyetmə və uşaqlarla bağlı olan qanunpozmalar.*

Bu cür uşaqlar yalnızlıq, tərk edilmişlik, özünütəsdiq və qorunmaq tələbatını ödəmək üçün qeyri-formal küçə qruplarına, qaydalara riayət etməyənlərin əhatəsinə çətinlik çəkmədən qoşula bilirlər.

Çox zaman bu cür yeniyetmə və uşaqlar özlərinin fərqli olduqlarını gös-tərmək, diqqət mərkəzində olmaq və özünü ətrafındakılara təsdiq etmək üçün şou xarakterli davranışın fərqli növlərini sərgiləyirlər.

Bu tip uşaq və yeniyetmələrlə təlim-tərbiyə prosesində belə xüsusiyyətləri göz ardı etməmək və həmin uşaqların kollektivdəki mövqeyini yüksəltmək, özlərini təsdiq və ifadə etmək üçün əlverişli mühit təşkil etmək lazımdır.

Gənc və yeniyetmələrin cinayətkarlıq motivasiyasının inkişaf etməsinə təsir göstərən fərqli həyat şəraitlərinin analizi bizə göstərir ki, həmin yeniyetmə və gənclərin asosial davranışlarının əsas səbəbi odur ki,

həyati dəyərlər barədə səhv olan təsəvvürlər yaradan və psixi narahatlıq halı doğuran məktəb və ailə tərbiyəsinin xətaları ilə əlaqəlidir.

Bundan başqa, yeniyetmə və uşaqlara aşılanan sosial-əxlaqi qayda va qanunlarla onların ətrafındakı insanların, xüsusilə, valideyn və müəllimlərin gerçək davranışları arasında olan ziddiyyətlər də bu baxımdan neqativ tasir edir.

Problemli davranış sərgiləyən yeniyetmə və uşaqlarla yenidəntərbiyə və tərbiyə prosesində fərqli metod və vasitələrdən istifadə olunmalıdır:

- *Yeniyetmə və uşaqları əmək, mədəni və ictimai həyata hazırlamaq;*
- *Uşaq və yeniyetmələrdə sosial-əxlaqi norma və qaydaları inkişaf etdirmək;*
- *Boş zamanları əlverişli keçirməklə uşaqların bekar qalmasına yol verməmək;*
- *Asosiallığa meylli gənc və yeniyetmələrlə motivlərinin tənzimlənməsi və onlarda müsbət davranışların aşılanması istiqamətində fərdl olaraq iş aparmaq.*

Uşaq və yeniyetmələrdə həm özününəzarət, həm də özünütərbiyəni stimullaşdırmaq və burada uşaq və yeniyetmə kollektivinin də yardımından geniş istifadə etmək vacibdir.

Qeyd olunan ümumi metod va vasitələr hər bir uşaq və yeniyetmənin fərdi davranışları nəzərdə saxlanılmaqla bütünləşdirilməli, onların uşaq və yeniyetmələr üzərində olan təsiri geniş bir şəkildə öyrənilməli və lazımi qaydada təkmilləşdirilməlidir.

## 10. Məktəb tərəfindən ailələrlə aparılan iş

Məlum olduğu kimi təlim fəaliyyətinin müvəffəqiyyəti, şagird şəxsiyyətinin formalaşması və inkişafı, onun böyüdüyü və tərbiyə aldığı ailə mühitinin xüsusiyyətindən çox asılıdır. Ailə və məktəb iki əsas sosial institut kimi uşaqların təlim-tərbiyə və sosiallaşma prosesinə, şəxsiyyətinin inkişafına əsaslı təsir göstərir. Ona görə də ailə tərbiyəsindən çox şey asılıdır.

Təcrübə göstərir ki, bəzi ailələrdə uşağın tərbiyəsi üçün zəruri olan psixoloji şərait yaradılmadığı, onun psixoloji xüsusiyyətləri nəzərə alınmadığına görə bir sıra psixi çətinliklər meydana gəlir. Bu cür çətinlikləri aradan qaldırmaqda ailəyə psixoloji xidmətin rolu böyükdür.

Şagirdlərə fərdi yanaşma, onların təlimdə çətinliklərinin aradan qaldırılması, uşaq şəxsiyyətinin inkişafındakı nöqsan və intizamsızlıq hallarının psixoloji səbəblərinin diaqnostikası və onların aradan qaldırılması üçün tədbirlərin müəyyən edilməsi, şagirdlərin tərbiyə və təlimi prosesində meydana çıxan çətinliklərin psixoloji profilaktikası üzrə iş - bunların hamısı məktəbdə psixoloji xidmətin vəzifələrinə daxildir.

Övladının daha yaxşı gələcəyini istəyən valideynlər onlarla maraqlanmalıdır. Bəzi problemli ailələrdə yaranan xoşagəlməz hallar şagirdlərə mənfi təsir göstərir.

Məktəb psixoloqu bu məsələni araşdırıb ara-sıra həmin valideynlərlə həm ayrılıqda, həm də birlikdə söhbət etməlidir. Onları başa salmaq lazımdır ki, mübahisələrini uşaqların gözü önündə etməsinlər. Bu hal uşaqlarda aqressiya yaradır.

Belə gərgin vəziyyətlər uşaqların yanlış mühitdə formalaşmasına, dərsə davamiyyətinin zəifləməsinə səbəb olur. Eyni zamanda neqativ davranışların yaranmasına gətirib çıxarır. Ona görə də, valideynlər bu problemlərin yaranmasına səbəbkar olmamaq üçün daha məsuliyyətli olmalıdır.

Valideynlərlə daşıdıqları məsuliyyət barədə da söhbətlər aparmaq lazımdır.

Valideynləri boşanmış ailələrdə uşaqların arzularına və bacarıqlarına etinasız yanaşmaqla onların gələcəyini təhlükə altında qoymuş oluruq. Odur ki, müəllimlər və psixoloqlar bu məsələyə xüsusi plan və proqramlarla yanaşmalıdır.

Ölkəmiz gündən-günə inkişaf edir. Kənd, şəhər, qəsəbə, demək olar ki, bu gün hər bir yerdə gözlə görünən inkişaf yaşanır. Ölkəmizdə geniş abadlıq-quruculuq işləri həyata keçirilir. İqtisadiyyat, incəsənət, elm, idman sahəsində böyük uğurlar qazanmışıq. Bu inkişafda, əlbəttə yeni təhsil islahatlarının, innovasiyaların, yeni işlənmiş psixoloji proqramların da öz yeri var.

Bu sahədə görüləsi işlər çoxdur. Ən əsası dövlətimiz, cəmiyyətimiz üçün normal, xalqını, dövlətini sevən, milli-mənəvi dəyərlərə sadiq vətəndaş yetişdirmək üçün əzmlə çalışmalıyıq.

Unutmaq lazım deyil ki, xoşbəxt uşaqların çoxalması təməli güclü olan xoşbəxt ailələrin sayının çoxalması deməkdir.

## 11. Asudə vaxtın təşkili metodları

Pedaqogika elmində çoxlu sayda təlim-tərbiyə metodları müəyyən edilmiş və onların təsnifatı verilmişdir. Y.A.Komenskidən başlamış bu günə kimi pedaqogikada belə qəbul olunmuşdur ki, təlim-tərbiyə metodları pedaqoji prosesin qanunauyğunluqları və prinsiplərini əks etdirir.

Asudə vaxt, fəaliyyətin xüsusi forması kimi təlim və tərbiyə ilə üzvü surətdə əlaqədardır. O, bir tərəfdən yeniyetmə və gənclərdə bu və ya digər hadisələr haqqında təsəvvürləri formalaşdırır, müəyyən bacarıq və vərdişləri inkişaf etdirir, digər tərəfdən isə şəxsiyyətdə mənəvi keyfiyyətləri - məqsədyönlülüyü, idrak fəallığını formalaşdırır, uşaqlarla qarşılıqlı əməkdaşlığa kömək edir.

Asudə vaxtın təşkilində inandırma, özünə inam, stimullaşdırma, emosional sferasına təsir, təlqin, oyun teatrlaşdırma, yarış, tələb, iradə sferasına təsir, əməkdaşlıq, tərbiyəedici situasiyalar, qabaqcadan hazırlanmış bilavasitə və bilvasitə təsir, korreksiya, çalışmalar, iki mümkün qərardan birini qəbuletmə və özünüifadə üsullarından istifadə olunur.

İnandırma üsulu yeniyetmə və gənclərin şüuruna, əqidəsinə, hisslərinə, ağlına, düşüncələrinə təsir olub, diskussiyaların aparılmasında, hər hansı bir bədii əsərin müzakirəsində istifadə olunur. İnandırma sözlə təsir metodudur.

Kinofilmlərin müzakirəsində, müxtəlif möv-zularda disputların keçirilməsində inandırma üsulundan istifadə etmək sərfəli nəticələr verə bilər. İnandırma özünəinamla tamamlanır, hər hansısa sosial problemin axtarışında yeniyetmə və gənclərdə kompleks baxışların, münasibətlərin,

məntiqi nəticələrin formalaşdırılmasında böyük əhəmiyyət kəsb edir.

Yeniyetmə və gənclərin asudə vaxtında onların emosional sferasına təsir metodu, onlarda özlərinin hisslərini, özlərinin emosional halətlərinin səbəbini dərk edib, idarəetmələrində ifadə olunur. Yeniyetmə və gənclər asudə vaxtın və istirahətinin təşkilindən fərəh hissi keçirir, özlərini gümrah hiss edirlər.

Təlqin - psixoloji metod olub, yeniyetmə və gənclərin emosional sferasına təsir edir, onların öz rəftar və davranışlarını nəzarətdə saxlamasına, bunlarla bağlı olan emosional halətləri ilə yaşamalarına şərait yaradır.

S.A.Şmakov asudə vaxtın təşkilinin aşağıdakı metodlarının təsnifatını vermişdir (Buraya o, oyun, teatrlaşdırma metodlarını, yarış, əməkdaşlıq, tərbiyəedici situasiyalar və imprevizasiya (əvvəldən hazırlanmış, ekspromt) üsulları daxil edir):

- Oyun metodu, uşaqların, yeniyetmə və gənclərin marağına əsaslanır və onların psixi funksiyalarının inkişafına xidmət edir. Oyun metodu oyun və oyun treninqlərində reallaşır. Oyun uşaq, yeniyetmə və gənclər üçün əsas fəaliyyət sahəsi hesab olunur. Nağıl, multfilm formalarında təşkil olunan oyun dəfələrlə təkrar olunaraq uşaqlar üçün tərbiyəedici treninq kimi çıxış edir. Oyun yeniyetmə və gənclərdə simpatiya, antipatiya münasibətlərini müəyyən edir. «Üçüncü artıqdır», «Bağban» oyunları bu mənada çox əhəmiyyətlidir. «Nə, harada, nə vaxt», «Pole çudes» oyunları yeniyetmə və gənclərin bilik və intellektual gücünü nümayiş etdirir. Oyun həm də onlarda çeviklik, hərəkətlərini koordinasiya etmək qabiliyyətlərini inkişaf etdirir.

- Teatrlaşdırma-səhnələşdirmə yeniyetmə və gənclərdə yaradıcı təxəyyülü inkişaf etdirir. Səhnələşdirmə oyun şəraitinin yaranmasına kömək edir, yeniyetmə və gənclərin adi vəziyyətdən uzaqlaşmasını asanlaşdırır, oyunu təşkil edərək onu pedaqoji nöqteyi-nəzərdən lazımi məcraya yönəldir, onu təkcə oyunçu üçün deyil, tamaşaçılar üçün də estetik sərvət olan bədii əsərə yaxınlaşdırır. Səhnələşdirilmiş tamaşada «aktyorla» tamaşaçı arasında, yaradıcılıqla həyati hadisə arasında sədd qoyulmur, əksinə, ünsiyyət formalaşır. Səhnələşdirilmiş oyun - yeniyetmə və gənclərin xüsusi oyun tərzi ilə tərtib edilmiş fraqmentdir. Rolları olan səhnələşdirilmiş oyun sərbəst həyata keçirilən bir zərurət kimi davranışın formalaşdırılması metodudur.

- Yarış metodu yeniyetmə və gənclərdə fiziki aktivliyi, cəldliyi, rəqiblə sağlam rəqabət aparmaq keyfiyyətlərini inkişaf etdirir, liderlik keyfiyyətini formalaşdırır. Yarış kollektivdə yeniyetmə və gənclərin fəaliyyətini təşkil etməyin və onu stimullaşdırmağın başlıca metodudur. Tərbiyə metodu kimi o, yeniyetmə və gəncləri sinif və ya kollektiv, ya məktəb kollektivində öz yerini tapmağa, seçilməyə çalışır və bu məqsədə çatmaq üçün səy göstərir, məşqlər edir, öz üzərində çalışır, mənalı istirahətə meyl edirlər.

- Tərbiyəedici situasiya - xüsusi yaradılmış şəraitdə yeniyetmə və gənclərin fəaliyyətinin, davranışının təşkili metodudur. Situasiyalar uydurulmuş olmamalıdır. Məktəb həyatında situasiyalar hər addımbaşı yaradılır.

- Əməkdaşlıq yeniyetmə və gənclərin yaşlılarla ənənəvi əməkdaşlığına əsaslanır. Buraya birlikdə mühakimələri, diskussiyaları, fəallaşdırıcı ünsiyyəti daxil etmək

olar. Yeniyetmə və gənclər müəllimlərlə və başqa adamlarla bərabər hüquqlu münasibətə girirlər. Pedaqoq və uşaqlar məktəb klubunda səhnələşdirilmiş tamaşalarda, xırda yaradıcı birliklərdə bərabərhüquqlu demokratik və humanist ünsiyyətə girirlər. Asudə vaxtın kollektiv təşkilində qarşı tərəf kimi iştirak edirlər.

- Tələb - Qoyulmuş qaydaların icrasını tələb etmək və onun icrasında axıra qədər təkid etməklə bağlıdır. Tələb müstəqil, dolayı, bilavasitə və bilvasitə ola bilər. Bilavasitə tələblər əmrlər, göstərişlər halında çıxış edir, onlar yeniyetmə və gənclərə işgüzar, qəti tonda təklif olunur, çox vaxt təlimati xarakter daşıyır.

Bilvasitə verilən tələblər tərbiyəçinin avtoritar mövqeyini gizlədir, məsləhət, xahiş, tələb etibar, tələb təqdir, tələb oyun, tələb eyham formalarında verilir.

Tərbiyə üsullarında tərz (priyom) anlayışından da istifadə olunur. Tərz üsulu tərkib hissəsi kimi, üsulu aktivləşdirir.

Pedaqoji tərzlərə yeniyetmə və gənclərdə kommunikativ bacarığı formalaşdırır. Buraya «Rollu maska», «Fikirlərin dayanmadan estafeti», «Özünü stimullaşdırma», «Sərbəst mövzuda improvizasiya», «Təklif olunan temanın improvizasiyası», «Ziddiyyətlərin aradan qaldırılması» və s. tərzlər daxil edilir.

- «Rollu maska». Yeniyetmə və gənclərə bir neçə rol tapşırılır. Yeniyetmə və gənclər rollarda öz adından deyil, personajın adından çıxış edir, rolları bölür, mövzuları korreksiya edir,

- Fikirlərin, rəylərin dayanmadan estafeti – uşaqlar irəli sürülən mövzu haqqında fikirlərini bir-birinə ötürür.

Biri başlayır, o biri davam etdirir, üçüncü dəqiqləşdirib tamamlayır.

- Özünüstimullaşdırma – Uşaqlar qruplara bölünür. Onlar bir-biriləri üçün müəyyən qədər suallar hazırlayırlar. Suallar kollektiv müzakirə olunur. Müəllim-tərbiyəçi yeniyetmə və gəncləri təlimatlandırır, rolları bölür, təşəbbüsləri müəyyən edir, funksiyaları göstərir, ünsiyyəti aktivləşdirir.

- Dilemma metodu. Yeniyetmə və gənclərin asudə vaxtını təşkil edərkən bu metoddan istifadə olunur. Uşaqlar hər hansı əxlaqi dilemi birlikdə müzakirə edirlər.

Dilemma mənəvi keyfiyyətlərin seçimi situasiyasıdır.

Uşaqlar hər bir suala öz mövqelərini bildirir.

Hər bir dilemmada insanın dəyər oriyentiri öz əksini tapır.

Hər bir müəllim yeniyetmə və gənclərin real həyat tərzinə münasibətini bildirməlidir.

Elə etmək lazımdır ki, uşaqlar mərkəzi sualı qiymətləndirə bilsinlər, uşaqlar suallara cavabın variantlarını müəyyən etməlidirlər. Məsələn: «Baş qəhrəman özünü necə aparmalıdır?». Belə dilemmalar sinifdə mübahisə yaradır, hərə öz fikrini sübut etməyə çalışır.

Yeniyetmə və gənclərin asudə vaxtını təşkil edərkən müəllim təlim və tərbiyənin göstərilən metodlarını yaradıcılıqla modelləşdirə bilməlidir.

Asudə vaxt fəaliyyətinin məzmununa uyğun seçilməli, asudə vaxtın forması və iştirakçıların yaşı nəzərə alınmalıdır. Asudə vaxt fəaliyyəti əməkdaşlıq, humanistlik əsasında qurulmalıdır.

## 12. Yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkili məsələləri

**Yeniyetmə və gənclərin asudə vaxtının düzgün təşkilində ailənin imkanları.**

Yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkilində ailənin rolu böyükdür. Yeniyetmə və gənclərin tərbiyəsi məişətdə insan fəaliyyətinin ən mühüm formalarından biridir. İctimai mənəviyyatı qoruyub inkişaf etdirmək işində bu fəaliyyət formasının əvəzsiz əhəmiyyəti vardır. Ailənin həyat tərzi, demoqrafik inkişafı və onunla əlaqədar məişət formalarının üstünlüklərindən biri adət və sərvətlərin möhkəm olmasından ibarətdir ki, həmin adət və sərvətlər uyğun olaraq valideynlər uşaqlarla gündəlik ünsiyyətə daha çox fikir verirlər. O da inkar edilməz faktdır ki, ailədə valideynlər kiçik yaşlı uşaqlarla (məktəb yaşına çatmamış və kiçik yaşlı məktəblilərlə) bilavasitə yeniyetmə və gənclərlə nisbətən sərf etdiklərindən təqribən bir dəfə yarım çox vaxt keçirirlər.

Müasir dövrdə şərait kökündən dəyişilmişdir. Yeniyetmə və gənclərin əsas kütləsi əmək fəaliyyətinə çox gec başlayır. Valideynlərin və uşaqların birgə əməyi bir qayda şəklini almayıb çox vaxt istisnaya çevrilir.

O da faktdır ki, bir çox hallarda yeniyetmə və gənclərin ərazicə ailədən ayrı həyata nisbətən tez başlayır. Sorğuların nəticəsi göstərir ki, on beş, on doqquz yaşlı şəhərlilərin bir onda beş hissəsi ailədən ayrı yaşayır. Təbii ki, belə şəraitdə yeniyetmə və gənclərlə valideynlərin kortəbii təsir mexanizmi bir nəticə vermir. Ümumiyyətlə, getdikcə daha aydın olur ki, şüurlu tərbiyəyə, bir növ şüurlu ailə pedaqogikasına keçid valideynlərin öz tərbiyə

funksiyalarını lazımi səviyyədə yerinə yetirməsi üçün zəmin yaradır.

Yeniyetmə və gənclərin asudə vaxtının təşkilində və mənəvi tərbiyədə gənc ailələr üçün yaşayış komplekslərinin tikilməsi çox böyük rol oynaya bilər. Bu cür komplekslər gənc ailələrin bir sıra problemlərini həll etməyə, onları daha da möhkəmləndirməyə imkan verməklə yanaşı, həm də mənəvi ünsiyyət mərkəzinə, ictimai şənliklərin birgə keçirilməsi və mədəniyyət tədbirləri üçün şərait yaradan bir mərkəzə çevrilər.

Məlum məsələdir ki, asudə vaxt sahəsindəki meyllərdən biri «Ev» asudə vaxtının xüsusi çəkisinin artmasından ibarətdir. Sosioloqların hesablamalarına görə, yeniyetmə və gənclər təlimdənkənar vaxtlarının üç onda yeddi faizini ev şəraitində keçirir. Bu yalnız kütləvi informasiya və təbliğat vasitələrinin məişətə tətbiq edilməsi, qeyri-formal ünsiyyətə tələbatın artması nəticəsi deyildir. «Ev» asudə vaxtına meyl xeyli dərəcədə onunla bağlıdır ki, bir tərəfdən, əmək kollektivləri, digər tərəfdən isə mədəni –maarif müəssisələri bütün əhalinin, xüsusən yeniyetmə və gənclərin yeni tələbatına, asudə vaxtın çoxalmasına, onların təhsil və mədəni səviyyəsinin yüksəlməsinə vaxtında, çevik reaksiya verə bilməməsindədir.

Yeniyetmə və gənclərin «Ev» asudə vaxtına meylinin əsas səbəblərindən biri, fikrimizcə, asudə vaxtın təşkilinə fərdi qaydada yanaşılması işinin zəifliyi, bu işin yaradıcı formalarına kifayət qədər diqqət yetirilməməsidir.

Müasir ailədə, görəsən, yeniyetmə və gənclərin istirahəti, asudə vaxtları necə təşkil olunur? Müasir cəmiyyətimiz üçün vətəndaşların asudə vaxtını, mədəni, əxlaqi-

estetik səviyyəsini müntəzəm olaraq yüksəltmək artıq səciyyəvi şəkil almışdır. Ailədə yeniyetmə və gənclərin asudə vaxtının və istirahətinin şən, mənalı və məzmunlu keçirilməsi ailə üzvlərinin sağlam və gümrah olmalarına şərait yaradır, zehni və fiziki yorğunluğu bərpa edir, ailə üzvləri arasında ünsiyyət münasibətlərinin səmimi olmasına kömək edir, xoş əhval-ruhiyyə təmin olunur. Belə olduqda uşaqlar dərslərə yaxşı hazırlaşır, ictimai işdə həvəslə və fəal iştirak edirlər.

Ailədə yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkilinə yalnız demoqrafik və əxlaqi amillər deyil, həm də psixoloji amillər ciddi təsir edir. Ailənin əsas tərbiyə imkanları, hər şeydən əvvəl, ailədaxili münasibətlərin, ilk növbədə, valideynlərlə uşaqların qarşılıqlı münasibətləri və psixoloji uyuşma və uyuzmazlıqla müəyyən olunur. Təbii ki, ailə üzvləri bir-birilərinə hörmət və qayğı ilə yanaşılarsa, qarşılıqlı kömək hissi hökm sürərsə, psixoloji iqlim əlverişli xarakter daşıyar. Ailənin psixoloji iqlimi valideynlər vasitəsi ilə uşaqlara sirayət edir.

Uşaqların həm fiziki, həm də mənəvi sağlamlığı ailənin psixoloji iqlimindən bilavasitə asılıdır. Psixoloji uyuşma olmayanda valideynlərin və digər ailə üzvlərinin uşaqlar üzərində nəzarəti zəifləyir, ailə daxilində, ailənin ətrafında gərginlik yaranır, valideynlər affektiv vəziyyətdə öz münasibətlərini aydınlaşdırır, bir-birilərini günahlandırır, evə dava-dalaş salır, uşaqları öz tərəflərinə çəkmək üçün hər cür kobud üsula əl atırlar. Yeniyetmə və gənclərin asudə vaxtının ailədə səmərəli təşkili, ailədə mədəni vərdişlər tərbiyəsinin normal qorunması ilə şərtlənir.

A.S.Makarenko yazırdı: «O ailədə ki, valideynlər özləri fəal, mədəni həyat sürürlər, qəzet və kitab, əyləncələr məişətin zəruri ünsürüdür, teatr və kino məsələləri hamını çox maraqlandırır, belə ailədə, hətta valideynlər ilk nəzərdə mədəni vərdişlər haqqında düşünməsələr də mədəni vərdişlər tərbiyəsi özünü mütləq göstərəcəkdir».

Ailədə mədəni vərdişlər tərbiyəsi yalnız şüurlu surətdə təşkil olunduqda, müəyyən planla, düzgün üsul və nəzarətlə müşayiət edildikdə faydalı olur. Yaxşı olar ki, valideynlər uşaqlar qarşısında yaxın, orta və uzaq perspektiv xəttinin planını cızsınlar, uşaqlarda bu plana maraq oyansın, planın yerinə yetirilməsinə kollektiv nəzarət etsinlər. Ailədə yeniyetmə və gənclərin asudə vaxtı təşkil edilərkən, çalışmaq lazımdır ki, mədəni vərdişlər tərbiyəsi işində yalnız əylənmək həvəsi, ləzzətli vaxt keçirmək qayğısı üstün yer tutmasın. Ailədə uşaqların sevinci böyük tərbiyə işi ilə ahəngdar aparılmalıdır. Hər bir ailədə uşaq üçün sağlam «Sosial inkişaf» şəraitinin yaradılması çox vacib problemdir. Bu mənada ailədə uşaqların asudə vaxtının səmərəli və məzmunlu təşkili yollarının izahı və valideynlərlə pedaqoji iş də mühüm yer tutur.

Valideynlərlə edilən söhbətdən sonra müzakirənin keçirilməsi hər bir valideynin məsələyə münasibətini, izah edilən məsələnin necə mənimsənilməsini aydınlaşdırmağa və onun fikirlərində müəyyən korrektə işləri aparmağa imkan verir. Ailədə yeniyetmə və gənclərin asudə vaxt və istirahətləri konkret işlə əlaqələndirdikdə nəticə daha sərfəli olur.

İbrətamiz bir neçə misal.

Ana qızına deyir: Aybəniz, sənəmin paltarını ütülə, yoxsa o, məktəbə əzik paltarda getməli olacaqdır. Bundan ruhlanan Aybəniz deyir: Ana, öz paltarlarımı da ütülüyə bilərəm. Əlbəttə, deyə ana bildirir. Sənin üçü çəkməyin xoşuma gəlir. Çox səliqəli iş görürsən. Vaxtın qalsa, mənim paltarlarıma da ütü çəkərsən».

Başqa bir valideyn: «On yaşında uşaq da ev işi görər, onun nə vaxtıdır ki, qab yuya, stəkan silə, ev süpürə. Yumağa qab versən sındırar, evi süpürsə toxu göyə qaldırar, paltar ütüləsə ya əlini, ya da paltarı yandırar. Bundansa işi özüm tez və səliqə ilə görərəm».

Başqa bir valideyn: «Ayişə məktəbdə təşkil olunmuş xoreoqrafiya dərnəyində iştirak edirdi. O, özünü son dərəcə şən və gümrah hiss edirdi: Dərnəkdə aparılan hər bir iş - mahnı oxumaq, musiqini dinləmək, rəqs etmək ona xüsusi zövq verirdi. Anası bunu bilib ona irad tutdu: «Evimizdə bir artistimiz çatmırdı. Vaxtının çoxunu uşaqlarla çalıb-oxumaqla keçirirsən. Bu gündən dərnəyi yadından çıxart».

Başqa bir misal: Ata tar çalır. On üç yaşlı Qızılgül musiqinin yatımlı təranələri altında asta yerişlə, əlləri yanında, başı sol tərəfə əyilmiş, gözləri isə yerə dikilmiş vəziyyətdə qarşıya çıxır, sol ayağını pəncə üzərində yüngülcə yerə vurub dairə ətrafında hərəkət edir, qollarını yavaş-yavaş yan tərəfdən çiyinlərinin bərabərinə qaldırır, təbəssümlü gözləri sol əlinə zillənmiş bu qızcığaz dairə vura-vura evin ortasına - ailə üzvlərinin qarşısına gəlir, o, uzundərə rəqsini ifa edir. Onun yumşaq, zərif, yüngül hərəkətləri insanın qəlbini riqqətə gətirir. Adam bu qızın oyununa hey baxmaq, baxmaq istəyir…

Yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli və dolğun qurulmasında ailə adət və ənənələri müstəsna əhəmiyyətə malikdir. Başlayaq toy adətlərindən. Toy şənlikləri böyük anlayışdır. Onda sevinc, şadlıq, təsəlli, ümid, inam, mehribanlıq, dostluq, qohumluq, bəxtiyarlıq, inkişaf, tərəqqi, səadət, xoşbəxtlik və s. hisslər, niyyətlər, amillər cəmləşmişdir. Əsil ailələr bu şərəfli, müqəddəs, çətin yolda ailə marafonunu ləyaqətlə başa vurur. İnamla demək olar ki, möhkəm təməl üzərində qurulmuş, həqiqi qarşılıqlı məhəbbətə, dostluğa, ürək və ağılın tələbinə əsaslanan ailələr finişə alnı açıq, üzü gülər, vicdanı təmiz çatır. Təbii ki, bütün bunlar yeniyetmə və gənclərdə ailə qüruru formalaşdırır, onlar ailədə narahat yaşamırlar, həyat və fəaliyyətlərini sevinclə qurur, yaxşı istirahət edir, şən olurlar. Adətən nadinc olan yeniyetmələr toyda öz rəftarı, hərəkəti, davranışı ilə nəcibləşir, mülayimləşir, hamıya yovuşan olurlar. Onlar belə bir günün onlar üçün də olacağına inanırlar. Bu prosesdə ailə ənənələri də böyük mahiyyət daşıyır. Çünki ənənə güclü tərbiyə vasi-təsi olmaqla ailənin tərbiyəvi məqsədlərinin müvəffəqiyyətli həllinə xeyli kömək edir.

Ailədə keçirilən ad günü ənənəsi, əsgərliyə yola salma ənənəsi, ilk maaş mərasimi, təqaüdə yola salma ənənəsi, bahar bayramı adət-ənənələri, baba günü, nənə gününün təntənəli qeyd olunması, əmək ənənələri yeniyetmə və gənclərin həyat və fəaliyyətlərində böyük rol oynayır. Onlar bu günləri təkrar-təkrar yaşamaq istəyirlər. Bəzən elə olur ki, ailə üzvlərinin ilin hər ayına ad günləri düşür. Bu səadətli anı böyükdən kiçiyə hamı gözləyir, hazırlıq işləri görülür, qohum-qardaşlar yığışıb təbrikə gəlirlər. Bütün ailə üzvləri bu tədbirin hazırlanması və

keçirilməsində iştirak edir, hamı özünü gümrah, şən hiss edirlər. Bahar bayramı - Novruz ənənəsi sırf milli xarakter daşıyır. Yeniyetmə və gənclər bu ənənənin hazırlanıb, həyata keçirilməsində fəal iştirak edirlər, asudə vaxtlarını şən keçirirlər.

Təbii sual yaranır? Uşağın səliqəli iş görmək, istirahətini daha mənalı və şən keçirmək haqqını əlindən almağa lüzum varmı? Bu işdə hər bir ailədə sağlam sosial inkişaf şəraitinin yaradılması nə kimi rol oynaya bilər?

Ailədə yeniyetmə və gənclərin asudə vaxtının səmərəli və məzmunlu təşkili və keçirilməsində «Sosial inkişaf şəraitinin yaradılması və optimallaşdırılması baxımından bir sıra nəticələri irəli sürmək olar və vacibdir:

«Sosial inkişaf şəraiti və sağlam tələbat tərbiyəsi» anlayışı özündə bir sıra pedaqoji-psixoloji və sosial amilləri birləşdirməklə inkişafda olan insanın tərbiyəsi, təlim və sağlamlığı üçün yaradılmış normal, əlverişli, inkişafetdirici sosial mühiti nəzərdə tutur.

Psixoloji amillər sırasında yeniyetmə və gənclərdə asudə vaxt üçün sağlam tələbat tərbiyəsi formalaşdırmaq da vacibdir. Tələbatın sağlamlığı, ağlauyğunluğunun meyarları ümumbəşəri əxlaq ölçüləri ilə qiymətləndirilir. Bu əxlaqın norma və tələbləri əsrlər boyunca formalaşmış, şifahi xalq yaradıcılığında, məişət mərasimlərində və dini mərasimlərdə, gündəlik həyat tərzində təcəssüm tapmışdır. Tələbat olmadan heç fəaliyyət sahəsində nailiyyətlər əldə etmək mümkün deyil. Hələ də yeniyetmə və gənclər özlərində yaşamaq, normal və şən istirahət etmək üçün psixoloji-mənəvi tələbat formalaşdıra bilməmişlər. Onlar bu vacib və həyatı problemin həllində yenə də kənar təsirlərə üstünlük verirlər. Yeniyetmə və gənclərin hələ də

bir qismi gözləmə mövqeyində durur, onların asudə vaxtını kimlərinsə təşkil edəcəyini gözləyirlər. Onu da qeyd etməyi vacib bilirik ki, yeniyetmə və gənclərin asudə vaxt və ictimai tələbatının strukturunda baş verən keyfiyyət dəyişiklikləri sosial-mədəni tələbatın birinci yerdə durduğunu, həyat fəaliyyətində bu tələbatın mühüm əhəmiyyət kəsb etdiyini bilmələri çox vacibdir. Onlar bilməlidirlər ki, ictimai həyat dəyişdikcə, ən zəruri ehtiyac və tələbat ödənildikcə, maddi və mənəvi tələbatın qarşılıqlı nisbəti dəyişir, sosial, yaradıcı, mənəvi tələbatın əhəmiyyəti və rolu getdikcə artır. Bu mənada, asudə vaxt yeniyetmə və gənclər üçün həm də mənəvi tələbatdır. Yeniyetmə və gənclərin asudə vaxtının səmərəli və məzmunlu keçirilməsinə, təbii ki, sosial şəraitin yaradılması da az əhəmiyyət kəsb etmir.

Sosial inkişaf şəraiti anlayışı özündə bir sıra pedaqoji, psixoloji və sosial amilləri birləşdirməklə daim, müntəzəm olan inkişaf və formalaşmaqda olan insanın tərbiyəsi, təlimi və sağlamlığı üçün yaradılmış normal, əlverişli, inkişafetdirici sosial mühiti nəzərdə tutur. Bu anlayışın struktur komponentlərinə insanın biogenetik təbiəti, fərdi-psixoloji xüsusiyyətləri, mühitin və ailənin etnomədəniyyəti, insanın yaşadığı konkret mühitin (kənd, şəhər, qəsəbə, tin, dalan və s.) real vəziyyəti, tərbiyə şəraiti və tərbiyə tərzi daxildir.

Sosial şəraitin normal qurulması, asudə vaxtın və istirahətin məqsədyönlü və şüurlu təşkili yeniyetmə və gənclərin inkişafına güclü təsir göstərir. Bu təsir yeniyetmə və gənclərin özünüifadə və özünü reallaşdırılması yaranan sağlam-mənəvi tələbat, maraq, arzu və münasibətlərin məzmunundan asılı olaraq dəyişə, yeni mahiyyət ala

bilər. Müasir şəraitdə ailənin tərbiyə sahəsində başlıca vəzifəsi bütün uşaqlar, xüsusən, yeniyetmə və gənclərin davranışının, tələbatının, arzu və meyllərinin yeni ictimai tələblərə uyğun, məqsədyönlü, düşünülmüş, ağıllı qaydada təşkili yollarını müəyyən etməsidir.

Hazırda yeniyetmə və gənclərin asudə vaxtının və istirahətinin təşkili ən aktual problemlərdən biridir. Müasir ailə tərbiyəsi və ailə mühiti ilə dəyişən cəmiyyətdə modernləşdirilmiş təhsil arasında məzmun eyniliyi, inkişafın tələblərdə vəhdət yaradılmalıdır. Məktəb və ictimaiyyət ailə mühitində yeniyetmə və gənclər üçün normal inkişaf şəraitinin yaradılmasına kömək etməlidir.

Araşdırmalar göstərir ki, müasir ailələrin sadələşməsi, nuklear ailə tipinə keçidlə bağlı həm cəmiyyətdə, həm də ailədə sosial inkişaf şəraitinin yeniləşməsinə baxmayaraq, valideynlərin yeniyetmə və gənclərin asudə vaxtının məzmunlu təşkili sahəsində apardıqları pedaqoji iş təcrübəsi müasir tələblərə əsaslı cavab vermir, onun müasirləşməsinə, yeniləşməsinə ciddi ehtiyac vardır. Xüsusən bu, valideynlərin uşaqlarla dərsdənkənar fəaliyyətində olan boşluqlarla bağlıdır.

Hər bir ailə bilməlidir ki, müasir dövrdə yeniyetmə və gənclərin asudə vaxtının və istirahətinin normal səmərəli və məzmunlu təşkilinə nəzarət hələ də cəmiyyətimizdə prioritet istiqamət olaraq qalmaqdadır. Hər bir valideynin əsas vəzifəsi yeniyetmə və gənclər üçün fəaliyyət növü seçmək azadlığı, sosial-pedaqoji, mədəni, idman salamlaşdırıcı, bədii-estetik tədbirlərdə iştiraka cəlb etmək, onların həyatının mənalı qurulması üçün lazım olan sosial, pedaqoji psixoloji şəraitin yaradılmasına kömək etməkdən ibarətdir.

**Ailədənkənar asudə vaxt sahəsi.**

Ailədə yeniyetmə və gənclərin asudə vaxtının mənalı keçməsi üçün əlverişli şərait yaradılmadıqda ünsiyyət əksər hallarda sağlam olmayan, bəzən də sosial cəhətdən təhlükəli formalar kəsb edir, onlar küçəyə, tin başına, əslində idarə olunmayan yerlərə və s. can atırlar. Sağlam ünsiyyət üçün lazımi sosial inkişaf şəraitinin yaradılmaması, idman məşğələlərinin və yaradıcılıq xarakterli məşğələlərin kifayət qədər səmərəli keçirilməsi yeniyetmə və gənclərin sərxoşluğa və alkokosizmə meyl etmələri ilə nəticələnir.

Öz asudə vaxtlarını və istirahətini məzmunlu keçirmək imkanından və şəraitindən məhrum olan yeniyetmə və gənclər neqativ ünsiyyətə meyl edirlər. Bu cür həyat tərzinin isə çox vaxt acınacaqlı nəticələrə, birgəyaşayış normalarının, hüquq qaydalarının pozulmasına, hətta cinayətkarlığa gətirib çıxarması hamıya yaxşı bəllidir.

Sosioloji və demoqrafik araşdırmalar göstərir ki, müasir ailədə onun bütün üzvlərinin, xüsusən, yeniyetmə və gənclərin ailədənkənar asudə vaxt sahəsi hiss olunacaq dərəcədə artmışdır. Yeniyetmə və gənclərin asudə vaxtının (ailələrin savad dərəcəsinin aşağı səviyyədə olması, uşağın asudə vaxtının səmərəli təşkilində bacarıq və vərdişlərin kifayət qədər olmaması, ailədə uşaqların asudə vaxtına və istirahətinə laqeyd münasibət göstərilməsi, uşaqların şəxsi təşəbbüsünün boğulması və s.) ailə daxilində keçirilməsi formaları tədricən əvvəlki ideallığını itirməkdədir.

Son dövrlərdə ululların (toy bayramları istisna olmaqla) yaratdığı ailə adət-ənənələrinin, xüsusən düşünülmüş mərasim və ritualların: valideynlərin, uşaqların

doğum günlərinin, «baba günü», «nənə günü»nün maddi vəziyyətdən asılı olaraq təntənəli keçirilməməsi, işlə bağlı valideynlərin vaxtının azlığı, yeniyetmə və gənclərin ailə daxilində yadlaşmasına gətirib çıxarır. Belə şəraitdə yeniyetmə və gənclər ailədən uzaqlaşırlar, təkliyə meyl edirlər, özlərini ailədə artıq adam kimi dəyərləndirirlər, əməkdaşlıq və həmrəylik hissini itirirlər, bu halətlər ciddiləşdikcə, adiləşdikcə, onların özləri və başqa adamlar haqqında da təsəvvürləri kəskin dəyişir. Onlar ailədə tapmadıqları nəvazişi, qayğını kənar yerlərdə axtarmağa səy göstərirlər.

V.D.Papova görə, bu, əsasən, nuklear ailə şəraitində «valideynlərlə uşaqlar arasındakı ünsiyyətin, informasiya mübadiləsinin azalması ilə bağlıdır. Ona görə ki, uşaqlar və valideynlər müxtəlif qəzet və kitablar oxuyur, müxtəlif tamaşa və filmlərə baxır, idmanın müxtəlif növləri ilə məşğul olur, müxtəlif tərzdə əylənir və istirahət edirlər. Onlar hətta eyni bir televizorda müxtəlif proqramlara baxmağa macal tapırlar». Bu mənada da asudə vaxt ailəni birləşdirmir, əksinə ayırır. Digər tərəfdən kompüterə və internetə aludəçilik ailədə uşaqlar arasındakı informasiya rabitələrini, canlı ünsiyyəti zəiflədir. Təbii ki, bu, uşaqlar arasında ünsiyyət tələbatının təmin olunmasına mənfi təsir göstərir. Yeniyetmə və gənclərin asudə vaxtlarını ailəndənkənarda, küçə qruplarında keçirməsini də, məhz bu aspektdə qiymətləndirmək lazımdır. Küçə həyat tərzi yeniyetmə və gənclərin asudə vaxt mədəniyyətinin səviyyəsini istər-istəməz aşağı salır. Bir sıra hallarda onların qrupdaxili fəaliyyəti antisosial xarakter daşımağa başlayır. Ailədə «xoş gün görməyən», «yeri gəldi, gəlmədi alçaldılan, hətta təhrif olunan», «əlindən heç bir iş

gəlməyən artıq adama çevrilməsi», bir sözlə, nəzarətdən kənar olan yeniyetmə və gənclərin küçə qruplarına qoşulmasına imkan yaradır. Belə uşaqların əksəriyyəti təlimdə çatdırmır, dərsdə müəllimə qulaq asmır, dərsdə kənar işlərlə məşğul olur, tez-tez dərsdən qaçır, bütün gününü öz «sadiq dostları və rəfiqələri» ilə keçirir, sinif kollektivindən təcrid olunurlar. Nəhayətdə, belə yeniyetmə və gənclər «çətin tərbiyə olunan», bəzi hallarda isə yetkinliyə çatmamış cinayətkara çevrilirlər. Küçə dostluğu «coğrafiyası»nın genişlənməsi nəticəsində onlar asudə vaxtlarını, ailədə, məktəbdə, sinifdə, kollektivdə, həyət və məhəllədə deyil, şəhərin, kəndin müxtəlif yerlərində keçirirlər. Onların sosial aktivliyi, sərvət meylləri, hətta dəyərlərin xarakteri başqa-başqa istiqamətlərə yönəlir.

**Yaşayış yerlərində yeniyetmə və gənclərin asudə vaxtının təşkili.**

Yeniyetmə və gənclərin həyat və fəaliyyətlərinin belə demək mümkünsə, daha çox hissəsi yaşayış yerində keçir. Bu, təbii haldır. Çünki bazar iqtisadiyyatı münasibətləri şəraitində hər iki valideyn işlədiyindən dərsdən sonra uşaqların asudə vaxtının təşkilində iştirak edə bilmirlər. Yaşayış yerində yeniyetmə və gənclər məktəbdən fərqli olaraq, daha müstəqildirlər və öz asudə vaxtlarını bacardığı və lazım bildikləri kimi keçirirlər.

Müşahidələrimiz və apardığımız sorğuya cavab olaraq yeniyetmə və gənclər bildirirlər ki, yaşayış yerində sağlam sosial şərait olmadığına görə onlar dərsdən sonrakı həyatlarını evdə keçirməli olurlar. Valideynlərin səriştəsizliyi də bu prosesdə az rol oynamır. Onlar istəsələr belə evdə və məhəllədə uşaqların asudə vaxtını səmərəli təşkil edə bilmirlər. Bu da əlavə çətinliklərin yaranmasına

səbəb olur. Təcrübə göstərir ki, yeniyetmə və gənclərin asudə vaxtının təşkilində məhəllə nümayəndə-ləri, mənzil istismar sahəsi işçiləri, polis, müxtəlif ictimai təşkilatlar - deputat qrupları, ev komitələri, xalq drujinaları, bələdiyyələr, yoldaşlıq məhkəmələri və başqaları iştirak etdikdə bu işdə müəyyən səmərə əldə edilir. Yaşayış yerlərində aparılan tərbiyə işinin miqyası və xüsusiyyətləri bu işə geniş ictimaiyyətin cəlb olunmasını tələb edir. Məsələn, gənclər şəhəri Sumqayıtda hər məhəllədə xeyir-şər müəssisəsi və kiçikdə olsa klublar fəaliyyət göstərir.

Bu yaşayış məhəlləsində, həm də hər mikrorayonda belə yerlərdə uşaqlarla, xüsusən yeniyetmə və gənclərlə görüşlər keçirilir. Belə görüşlər məhəllə və mikrorayon sakinlərini daha çox düşündürən məsələlər üzrə qabaqcadan hazırlanan və onların təklif və iradları ciddi surətdə nəzərə alınır. Belə görüşlərdə açıq, faydalı fikir mübadiləsi keçirilir, müəyyən məsələlərin həyatına aid bir çox məsələlər müzakirə olunur, nöqsanlar aşkara çıxarılır və məsul orqanlar həmin nöqsanların aradan qaldırılması üçün operativ tədbirlər görürlər. Son illər Bakı şəhərində və bölgələrdə «Səliqə səhmanlı nümunəvi ev», «Nümunəvi məhəllə» yaradılır ki, bu da orada yaşayanlarda fəallığı artırır. Yeniyetmə və gənclər asudə vaxtlarında həmin məhəllədə aparılan abadlıq işlərində təmənnasız işləyirlər.

Mənzil fondunun və həyət ərazilərini qayğı ilə qoruması, yaşıllıqların salınması, uşaq idman meydançalarının qorunması, sakinlərin qarşılıqlı hörmət əsasında bir-birlərinə dostcasına daha çox ünsiyyət etməsi yeniyetmə və gənclərin daha da fəallaşmasına səbəb olur. Bakı şəhərinin çoxmərtəbəli binalarına belə lövhəcik vurul-

duğunu görmək olar. «Burada binanın fəxri vətəndaşı yaşayır». Bu, çox böyük tərbiyə məktəbidir. Bəzi yaşayış yerlərində «Dəri top» və «Şahmat» klubları, «Axtarış», «Gözəllik aləmində» həyət kino klubları fəaliyyət göstərir. Burada yeniyetmə və gəncləri özünütərbiyəyə istiqamətləndirən, əsl vətəndaşlar hazırlanmasına yönəldilən kütləvi tədbirlər görülür, asudə vaxtın müxtəlif formalarından fəal istifadə olunur, şer, mahnı və hekayələrin oxucu təşkil edilir, yaxşı ifaçı üçün müsabiqələr keçirilir. Yaşayış yerlərində yeniyetmə və gənclərin asudə vaxtının təşkili, yaxşı olar ki, öz məntiqinə görə məktəblərdə aparılan işlərin davamı olsun, asudə vaxtda yeniyetmə və gənclərin milli mənəviyyatının fəal surətdə formalaşması vaxtı olsun. Yaşayış yerində asudə vaxt elə təşkil olunmalıdır ki, hər bir yeniyetmə və gənc deyə bilsin: bizim bina, bizim həyət, bizim məhəllə cəmiyyətimizin əsl özəyi, özüdür.

**Yeniyetmə və gənclərin asudə vaxtının təşkilində məktəbin imkanları.**

Kimliyindən asılı olmayaraq təhsil alan hər bir insanın həyat yolu məktəb mərhələsindən keçir. Hər bir şəxs bu mərhələni keçərkən məktəbin ab-havası, özünəməxsus aurası onun əqlinin, əxlaqi-mənəvi keyfiyyətlərinin, fiziki kamilliyinin formalaşmasına təsir göstərir, onu yaşadığı cəmiyyətin, zamanın kamil insanı kimi yetişdirir. Çünki, «məktəb bilik deməkdir, maarif deməkdir, savad deməkdir». Təbii ki, məktəb özünün cəmiyyət qarşısında olan bu məsul və şərəfli vəzifəni daha ləyaqətlə, şərəflə yerinə yetirmək üçün özünün bütün potensial imkanlarından istifadə etməli, ən başlıcası, cəmiyyət

qarşısında fəaliyyəti barədə hesabat verməli, həqiqi qiymətini almalıdır.

Qlobal dünyanın informasiya bolluğu şəraitində məktəbin, təhsilin vəzifələri dəyişir. Ağılın, intellektin inkişaf etdirilməsi ön plana keçir. Cəmiyyətimizin indiki mərhələsində gəncliyin ahəngdar inkişafında məktəbin rolu intehasirdır. Çünki məktəbdə şəxsiyyətin inkişafı üçün məqsədyönlü, planlı və mütəşəkkil tərbiyə işi aparılır. Yeniyetmə və gənclərdə mənəvi münasibətlər - yoldaşlıq, qarşılıqlı yardım, məsuliyyət, borc və prinsipiallıq, etimad və səmimiyyət, hörmət və s. məktəbdə formalaşır, məqsəd aydınlığı və ideyalılıq, sözlə əməlin vəhdəti, müsbət keyfiyyətlər məktəbin tərbiyəvi gücünü xeyli artırır.

Başqa sahələrdə olduğu kimi, yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkilində məktəb böyük imkanlara malikdir. Məktəbdə yeniyetmə və gənclərin asudə vaxtının məzmunlu, mənalı və səmərəli təşkili, küçənin, həyətin neqativ təsirlərinin aradan qaldırılmasında həlledici rol oynayır. Ümumtəhsil məktəblərində yeniyetmə və gənclərin asudə vaxtı hansı yollarla təşkil olunur?

Bu zaman neqativ demoqrafik təsirləri neytrallaşdırmaq üçün hansı cəhətlərə daha çox diqqət yetirilməlidir? Son dövrlərdə ümumtəhsil və ali məktəblərdə şagirdlərin (tələbələrin) asudə vaxtının, istirahətinin normal təşkilinə sosial, mənəvi, psixoloji və pedaqoji problem kimi daha çox diqqət yetirilir. Bu da təbiidir. Çünki şəxsiyyətin tərbiyəlilik səviyyəsini təyin etmək, onun nə etdiyinə, necə etdiyini, kim üçün etdiyini, nə iş gördüyünü, hansı üsullarla yerinə yetirdiyini bilmək çox

vacibdir. Təbii ki, şəxsiyyət nə etməsi ilə deyil, həm də necə etməsi ilə səciyyələnir. Şəxsiyyəti ən çox yüksəldən onun həyatda necə mövqe tutması, öz həyatını, boş, asudə vaxtını necə keçirməsidir. Ona görə də asudə vaxt və ondan səmərəli, dolğun və mənalı istifadə məsələsi çox vacib sosial-pedaqoji bir problemdir. Yeniyetmə və gənclərin asudə vaxtının və istirahətinin məzmunlu təşkili və keçirilməsində məktəbin xüsusi payı və mövqeyi vardır.

Lakin faktlar və araşdırmalar (A.Quliyev, V.Məhərrəmov) göstərir ki, həm ailədə, həm də məktəblərin iş təcrübəsində bu sahədə ciddi qüsurlar özünü göstərir.

Məktəblilərin asudə vaxt fondu artsa da, ondan lazımi şəkildə, səmərəli istifadə olunmur. Bu sahədə özünü göstərən ən ciddi nöqsanlar, birinci növbədə, yeniyetmə və gənclərin vaxt büdcələrinin düzgün bölünməməsi, onların dərs tapşırıqları ilə həddən artıq yüklənməsi, həm məktəbdə, həm də evdə onlar üçün sosial inkişaf şəraitinin yaradılmaması ilə, digər tərəfdən isə onlarda asudə vaxt mədəniyyətinin, istirahət mədəniyyətinin səviyyəcə aşağı olması ilə əlaqədardır. Bu sahədə məktəb müəllimləri, xüsusən, sinif rəhbərləri səriştəli iş apara bilmirlər. Onlar artan informasiya bolluğu şəraitində yeniyetmə və gənclərin maraq, arzu, qüvvə və qabiliyyətlərini nəzərə almırlar, onların təşəbbüsü ilə, sadəcə olaraq, hesablaşmırlar. Sinif rəhbərləri və rəhbərlik daha çox şagirdi əhatə edən kütləvi tədbirlərə: bayram günlərinin, turizm və ekskursiyaların keçirilməsinə üstünlük verir, yeniyetmə və gənclərin asudə vaxtını müəyyən reqlamentlə məhdudlaşdırır, daha çox «əyləncəli» və standart xarakter daşıyan tədbirlərdən istifadə edirlər.

Bütün təşkilatçılıq funksiyasını sinif rəhbəri öz üzərinə götürür, yeniyetmə və gənclərin çoxcəhətli şəxsi özünüifadəsinə imkan yaratmırlar. Ona görə də, asudə vaxt, istirahət onlar üçün ağır, mənasız, boş yerə sərf olunan bir mahiyyət alır, onların inkişafı üçün stimul yaratmır, bu da onların mənəvi cəhətdən təkmilləşmək səylərini məhdudlaşdırır.

Yeniyetmə və gənclərin mənəvi özünüifadəsində asudə vaxt kimi xüsusi rol oynayır. Cəmiyyət, hər bir ayrıca şəxsə getdikcə daha artıq miqdarda asudə, istirahət vaxtı verərkən onun bu vaxtdan necə istifadə etdiyinə əsla biganə qalmır, əksinə bu işə daha çox diqqət yetirir. Cəmiyyət üçün onun, vətəndaşlarının ağır zəhmətdən sonra mənalı, məzmunlu istirahət etməsi, zehni və fiziki əməyə sərf olunmuş enerjisini bərpa etməsində maraqlıdır. Yeniyetmə və gənclərdə mənəvi əqidənin, milli ruhun, milli şüurun, mənəvi motivlərin, mənəvi hisslərin, adət və vərdişlərin, mənəvi borc, şərəf və ləyaqətin, prinsipiallıq, mənəvi ideal kimi yüksək əxlaqi keyfiyyətlərin formalaşmasında asudə vaxtın və istirahətin necə böyük imkanlara malik olduğunu hər bir məktəb yaxşı bilir. Yeniyetmə və gənclərlə aparılan anket sorğularının təhlili göstərir ki, onlar vətənpərvərliyi, milli qürur və biliklərə yiyələnməyi, əməyə və əmək adamlarına məhəbbəti, əməkdə və ictimai həyatda fəal iştirak etdiyi insanlar arasında həmrəyliyi, kollektivçiliyi, iradəli və dözümlü olmağı, sadəliyi və təvazökarlığı daha çox qiymətləndirirlər. Əlbəttə, bu işdə məktəbdə, dərsdən sonra təşkil olunan fənn və marağa görə dərnəklərin, müxtəlif mövzularda təşkil olunan disputların, görüşlərin, bədii ədəbiyyat mütaliəsinin, şəhidlər xiyabanına və bayraq meydanına yürüşlərin və s. yeniyet-

mə və gənclərdə fəal həyat mövqeyinin, fəal həyat tərzinin, bir sözlə, vətəndaşlıq keyfiyyətlərinin formalaşmasında əvəzsiz rolu danılmazdır. Məktəbin bütün pedaqoji kollektivi yeniyetmə və gənclərin sinifdənxaric işlərdə asudə vaxtını daha səmərəli, daha mənalı, məzmunlu və dolğun keçməsini təşkil etməklə, onların meyl, arzu, qüvvə və bacarıqlarını inkişaf etdirilməsinə nail olmalıdırlar.

Məktəbdə, təlim fəaliyyəti çərçivəsindən kənarda yeniyetmə və gənclərin mənəvi və fiziki inkişafı davam edir, onların çox vaxt istər müəllimə, sinif rəhbərinə, rəhbərliyə, istərsə də valideynlərə məlum olmayan potensial imkanları məlum olur, idmanın, özfəaliyyətin ayrı-ayrı müxtəlif növlərində istedadları aşkara çıxır, habelə onların şəxsiyyətlərinin digər, xüsusi cəhətləri müəyyən olunur. Yeniyetmə və gənclərin daim artan hərtərəfli marağını və tələbatını formalaşdırmaq, həm də ödəmək kimi olduqca vacib iş məhz burada, məktəbdə həyata keçirilir. Müəyyən dərəcədə hökm vermək olar ki, şəxsiyyətin tələbatı necədirsə, onun özü də elədir, çünki tələbatın şəxsi strukturunda onun həyati meylləri, arzu və sərvət meylləri bariz şəkildə ifadə olunmuşdur.

Adi bir misal. Təcrübəli tələbə, dərsdənkənar tərbiyə işi ilə əlaqədar təhkim olunduqları on, on birinci sinif şagirdlərinin iştirakçı ilə məktəbdə ədəbi-bədii tədbir keçirməyi planlaşdırmışdılar. Müəyyən vaxtda bu plan həyata keçirildi. Yeniyetmə və gənclərin bir neçəsi şer söylədi, bir neçəsi S.Vurğunun «Vaqif», Z.Cabbarzadənin «Qatır Məmməd», C.Cabbarlının «Solğun çiçəklər» pyeslərindən səhnələşdirilmiş parçaları ifa etdilər. Gecə çox anşlaqla keçdi. Sonrakı gündə uşaqlar tənəffüs vaxtı

koridorlarda gəzərkən baş rollarda oynayanları göstərib: Vaqif gəlir, Qatır Məmməd gəlir, Əbdül əmi gəlir deyə həmin şagird yoldaşlarına ehtiram göstərirdilər. Onlar koridorda Qacarla Vaqifin görüş səhnələrini təkrar edirdilər:

- Şair, hökmdarın hüzurundasan?
- Bunu sizsiz belə düşünürəm mən!
- Bəs baş əymədiniz?
- Əymədim bəli, əyilməz vicdanın böyük heykəli!

Bu böyük bədii təsir idi. Axı, ədəbiyyat başdan-ayağa tərbiyə məktəbidir.

Təcrübəçi tələbə. Qacar rolunu ən nadinc şagirdə vermişdilər. Bütün məktəblərimizdə sinifdənkənar vaxtda belə tərbiyəvi tədbirləri keçirmək imkanları vardır. Sadəcə həvəs, arzu və sağlam tələbat tələb olunur.

**Məktəbdənkənar vaxtda yeniyetmə və gənclərin asudə vaxtının təşkili.**

Məktəbdənkənar tərbiyə işləri yeniyetmə və gənclərin maraq, meyl və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, fiziki cəhətdən sağlam böyümələri üçün əlverişli şərait yaradır, onların istirahətinin, asudə vaxtlarının mənalı təşkilini təmin edir.

Məktəbdənkənar təlim-tərbiyə işi könüllülük prinsipi əsasında qurulur, ailə, təhsil müəssisələri, ictimai təşkilatlar, yaradıcılıq birlikləri, cəmiyyətlər, fondlar, əmək kollektivləri ilə birlikdə, həmçinin ayrı-ayrı vətəndaşların köməyi ilə aparılır. Məktəbdənkənar tərbiyə - təhsil müəssisələrinə aşağıdakılar: uşaq-gənclər yaradıcılıq sarayları, evləri, klublar, bədii, estetik, texniki, ekoloji,

turizm və diyarşünaslıq yönümlü mərkəzlər, uşaq-gənclər idman və şahmat məktəbləri və s. daxildir.

Məktəbdənkənar tərbiyə müəssisələrində məşğul olan uşaqlar, yeniyetmə və gənclər, tələbələr həmin müəssisələrin xidmətlərindən pulsuz və güzəştlə istifadə edirlər.

Məktəbdənkənar tərbiyə - təhsil müəssisələrində işin növləri və formalarını həmin müəssisələrin şuraları müəyyən edir. Məktəbdənkənar tərbiyə və təhsil müəssisələrinin əsas fəaliyyət istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Dərnək məşğələləri;
2. Mədəni - kütləvi tədbirlərin, idman yarışlarının keçirilməsi;
3. Təlimati-metodiki işlər.

Məktəbdənkənar tərbiyə-təhsil müəssisələrində məşğul olan uşaq, yeniyetmə və gənclərlə istirahət, bayram və tətil günlərində aparılır.

Hazırda Elm və Təhsil Nazirliyi sistemində xeyli Uşaq və Gənclər Yaradıcılıq Mərkəzi tərbiyə işi ilə məşğuldur. Bu mərkəzlərdə əsasən «Bacarıqlı əllər», «Bədii qiraət», «Rəsm», «Xalçaçılıq», «Dram», «Bədii özfəaliyyət», «Məktəb teatrı», «Rəqs», «Gənc idmançılar», «Texniki estetika», «Xor», «Tar», «Heykəltəraşlıq», «Kukla teatrı», «Coğrafiya-diyarşünaslıq», «Foto», «Tarix-diyarşünaslıq», «Qarmon» və s. adlarda dərnəklər təşkil olunur. Bu yaradıcılıq mərkəzlərində bütün təqvim ili ərzində dərnək üzvləri ilə müxtəlif mədəni-kütləvi tədbirlər, idman yarışları, müsabiqələr, sərgilər, bayram şənlikləri, ekskursiyalar keçirilir, respublika və beynəlxalq səviyyəli tədbirlərdə iştirakı təmin olunur.

Yeniyetmə və gənclərin asudə vaxtlarını səmərəli təşkil etmək, qabiliyyət və istedadlarını müəyyənləşdirib düzgün istiqamətləndirmək, onlarda təlimə marağı artırmaq, bir sözlə, onları gələcək ictimai və əmək həyatına hazırlamaqda, onlarda texniki yaradıcılıq işi üzrə təlim tərbiyə işini təşkil etməkdə Texniki Yaradıcılıq Mərkəzləri müstəsna rol oynayır. Bu mərkəzlər yeniyetmə və gənclərdə elmə həvəs, istehsalata, texnikaya məhəbbət tərbiyə etməklə, onlarda elmi axtarış, səmərələşdirmə, texniki yaradıcılıq keyfiyyətləri formalaşdırır. Texniki yaradıcılıq mərkəzləri öz işlərini məktəb, ailə və ictimaiyyətlə birlikdə həyata keçirirlər.

Texniki yaradıcılıq mərkəzlə-rində əsasən «İbtidai modelçilik», «Radioelektrotexnika», «Elektrotexnika», «Bacarıqlı əllər», «İnformatika», «Texniki estetika», «Əyləncəli fizika», «Texniki ekoogiya», «Gənc konstruktorlar», «Avto», «Raket», «Təyyarə modelçiliyi», «Kimya» və s. adlarda dərnəklər fəaliyyət göstərirlər. Texniki yaradıcılıq mərkəzinə cəlb olunan uşaq, yeniyetmə və gənclərin texniki yaradıcılıq potensialları inkişaf etdirilir, onlar erkən yaşlardan səmərələşdiricilik və ixtiraçılıq işlərinə cəlb olunurlar. Bu müəssisələrdə məşğul olan məktəblilər ümumtəhsil məktəblərində fizika, kimya, riyaziyyat, informatika, astronomiya dərslərində aldıqları nəzəri bilikləri konstruktiv fəaliyyətləri zamanı daha yaxşı mənimsəyir, həm də asudə vaxtlarını şən, yorulmadan keçirirlər.

Yeniyetmə və gənclərin asudə vaxtının mənalı təşkilində respublikada yaradılan «Gənc Turistlər və diyarşünaslıq» mərkəzlərinin işi də diqqətəlayiqdir. Bu mərkəz öz işini əsasən:

- Bizim irs;
- İncəsənət aləmində;
- Azərbaycan Beynəlxalq aləmdə;
- Azərbaycanın müstəqilliyi uğrunda mübarizə;
- Təbiət sirlərinə doğru kütləvilikdən turizm ustalığınadək istiqamətlər üzrə qurur. Bu bölmələrdə aparılan işlərin əsas məqsədi tariximizi, soy-kökümüzü, mədəniyyət, ədəbiyyat və incəsənətimizi yeniyetmə və gənclərə öyrətmək, vətənimizin flora və faunası haqqında onlara bilik vermək, tarixi abidələrimizi qorumaq, vətənə məhəbbət hissi aşılamaqdır. Turizm, diyarşünaslıq və ekskursiyalar artıq yeniyetmə və gənclərin həyatına möhkəm daxil olmuşdur. Turist, diyarşünaslıq və ekskursiya yürüşlərində iştirak edən yeniyetmə və gənclərin dünyagörüşü genişlənir, peşəseçmə meylləri aydınlaşır, estetik zövqləri inkişaf edir.

Turizm müasir dövrdə hər bir məktəbin həyatına möhkəm daxil olmuş, asudə vaxtın müxtəlif pedaqoji problemlərini həll etməkdə müəllimlərə və sinif rəhbərlərinə yaxından köməklik edirlər. Turizmin çoxsahəli imkanlarından pedaqoji kollektivlər şagirdlərin asudə vaxtda ideya-siyasi, əmək, mənəvi, estetik, fiziki, ekoloji və hüquqi tərbiyə prosesində daha səmərəli istifadə edirlər.

Turizm səyahətləri məktəblilərdə özünəxidmət, özünütərbiyə, dostluq, yoldaşlıq, qarşılıqlı kömək, tapşırılmış işə cavabdehlik, mənəvi təmizlik və s. kimi hisslər aşılanır. Turizmə cəlb edilmiş məktəblilər içərisindən gənc geoloqlar, arxeoloqlar, tarixçilər, meşəçilər, yaşıl patrullar və s. yetişir.

Turist qrupları səyahətlər zamanı müxtəlif kolleksiyalar, herbarilər toplayır, bu isə dərslərdə alınmış bilikləri möhkəmləndirir, toplanmış materialların məktəb muzeyinə təqdim edilməsi məktəbin vasitələrlə zənginləşməsinə səbəb olur.

Görməli, gəzməli yerlərə, tarixi abidələrə, iri şəhərlərə turizm səyahətləri zamanı yeniyetmə və gənclərə bu yerlər haqqında maraqlı məlumatlar verilir ki, bu da onların yaşadığı yerlərə, bütünlükdə ölkəmizə məhəbbətini daha da artırır, günü-gündən çiçəklənən və gözəlləşən ölkəmiz onlarda iftixar hissi oyadır. Xüsusən bölgələrdən gözəl Bakımıza, Naxçıvana tez-tez turist səyahətləri təşkil edilir. Səyahət zamanı yeniyetmə və gənclərə hər iki şəhərin tarixi, mədəniyyəti, sənayesi, ali məktəbləri, muzeyləri haqqında məlumatlar verməklə yanaşı, şəhərlərimiz haqqında digər xalqların nümayəndələrinin, görkəmli adamların, yazıçı və şagirdlərin, siyasi xadimlərin ümumiyyətlə respublikamız, xüsusən gözəl Bakımız haqqında rəyləri onlarda qüsur və şərəf hissini formalaşdırır. Turizm zamanı məktəblilərdə kollektivçilik hissləri daha tez formalaşır. Çadırın qurulması, tonqalın hazırlanması, naharın tədarükü və digər işlərin yerinə yetirilməsi. Məktəblilər arasında bərabər əmək bölgüsü, yoldaşlıq hissi, qayğıkeşlik kimi xeyirxah hisslər yaranır. Turizm gəzintiləri zamanı məktəblilər bir-birinə tez isinişir, bir-birini yaxşı tanıyır, çətin anlarda bir-birinə kömək edir, lazım gəldikdə ümumi işin xeyrinə öz qüvvələrinə tirləşdirirlər. Turizm səyahətləri məktəblilərdə eqoistlik, tənhalıq, qorxaqlıq və s. kimi mənfi halların aradan qaldırılması üçün əlverişli şərait yaradır, uşaqlarda romantizm, çətinlikdən qorxmamaq, təbii çətinliklərlə

üzləşdikdə öz qüvvələrini sınamaq vərdişləri tərbiyələndirir. Turizm əmək tərbiyəsi və idmanla çox sıx bağlıdır. Turizm yürüşləri zamanı məktəblilərdə cəldlik, çeviklik, qətiyyətlilik, dözümlülük kimi əxlaqi iradi keyfiyyətlər formalaşır.

Turizm, diyarşünaslıq və ekskursiyalar, gəzintilər də asudə vaxtın mənalı, məzmunlu, dolğun keçməsində çox böyük əhəmiyyətə malikdir. Təbiətşünaslıq ekskursiyaları öz tərbiyəvi və idrak məzmununa görə dəyərli hesab olunur. Ekskursiyalar zamanı yeniyetmə və gənclər təbiətin müxtəlif hadisələri ilə bilavasitə tanış olur, onun sirlərini öyrənirlər. Ədəbi mövzular, təsviri sənət, musiqi, kino, arxitektura, teatr mövzularına həsr olunmuş ekskursiyalar gözəlliyi hiss edib başa düşmək qabiliyyətini formalaşdırır, bədii zövq, mənəvi ideal hissi, yüksək mənəvi keyfiyyətlər tərbiyə edir. Yaxşı təşkil edilmiş ekskursiyalar dövrlər və nəsillər arasında qırılmaz əlaqələr olduğunu daha dərindən başa düşməkdə yeniyetmə və gənclərə kömək edir, onlarda öz xalqının şanlı tarixi, zəngin mədəniyyəti üçün iftixar hissi oyadıb, onu inkişaf etdirir, nəticə etibarilə onların ruhən daha da zənginləşdirir və mənən daha da saflaşdırır.

Asudə vaxtın fəal və mənalı keçirilməsində idmanın rolu da misilsizdir. İdmanın bütün növləri yeniyetmə və gənclərin nəinki fiziki cəhətdən bərkiməsində, həm də onların fəal həyat mövqeyinin təmin olunmasında, onların əməyə və vətənin müdafiəsinə hazırlanmasında ən önəmli, ən vacib vasitədir. Bu gün ölkə əhalisinin sosial tərkibinə nəzər salsaq, əhalinin yeni strukturunda gənclərin artımının sürətləndiyini görərik. Öz asudə vaxt büdcəsindən düzgün istifadə etməyən, bəlkə də heç istəməyən

yeniyetmə və gənclər həyətlərdə boş-boşuna vaxt öldürdüyünü, əlində siqaret küçələri, dalanları dolaşan, çayxanalarda saatlarla vaxt keçirən, küçə və bazarlarda saqqız, siqaret, çörək, dondurma, müxtəlif şirniyyat satan, yaxud ictimaiyyətin gözü qabağında, metro girəcəyində, həyət və küçələrdə üzüklə, zərlə, kartla qumar oynayan görəndə xəcalət çəkməyə bilmirsən. Bir qisim yeniyetmə və gənclərin tüfeyli həyata meyli nəticəsində getdikcə onların mənəvi dünyalarının kasıblaşması, milli əxlaq və mədəniyyətimizdə mənfi ünsürlərin özünü açıq-aydın biruzə verməsi hallarına tez-tez rast gəlirik. Axı, bu gün xalqımızın ağıllı, savadlı, sağlam düşüncəli, həm də sağlam və güclü, qeyrətli, namuslu, əməksevər, vətən-pərvər övladlarına daha çox ehtiyacı var.

Yeniyetmə və gənclərin bədən tərbiyəsi və idmanla müntəzəm məşğul olmaları üçün həm şəhərlərdə, həm də bölgələrdə idman qurğuları, komplekslər, hovuzlar, nişan-gahlar, idman dərnəkləri və bölmələri fəaliyyət göstərir. Təhsil Nazirliyi sistemində yüz əlli yeddi gənclər idman və şahmat məktəbi mövcuddur. Bu bölmələr yeniyetmə və gənclər arasında yarışlar keçirir, onlar respublika və beynəlxalq səviyyəli yarışlarda iştirak edir. Onlardan iyirmisi Olimpiya idman (ağır atletika, akrobatika, boks, badminton, basketbol, bədii gimnastika, idman gimnasti-kası, üzgüçülük, velosiped idmanı, voleybol, futbol, sərbəst və Roma güləşi, cudo, sambo, karate, stolüstü tennis, şahmat, dama) növüdür.

Yeniyetmə və gənclərin asudə vaxtlarının düzgün, səmərəli təşkil edilməsində muzeylər də mühüm rol oynayır. Muzeylər tariximizin mühafizəçisi olmaqla yana-şı, həm də milli ənənələrimizin, keçmişimizin fəal təb-

liğatçısıdır. Muzeylərdə həm də dövlətin mühüm sənədləri, qanun və qərarları nümayiş etdirilir ki, bu da buraya gələn yeniyetmə və gənclərin biliyinin artmasına köməklik edir, onlara ideya-siyasi mətinliyi verir, keçmiş mədəni irsə, bədən tərbiyəsi və idman tarixinə məhəbbət hissinin tərbiyə edilməsinə şərait yaradır. Çalışmaq lazımdır ki, muzeylər qiymətli zinət əşyalarının, sadəcə toplanması yerinə yox, böyük əhəmiyyəti olan tərbiyə məktəbinə çevrilsin. Muzeylər tərbiyə işində böyük rol oynayır, yeniyetmə və gəncləri öz milli idealları uğrunda xalqımızın mübarizəsini işıqlandıran qəhrəmanlıq tariximizin əsil yadigarları ilə tanış edir. Ölkəmizdə muzeylərin miqyası, coğrafiyası getdikcə genişlənir, onların işinin formaları daha da müxtəlifləşir. Bakı şəhərində yerləşən «Tarix muzeyi», «İncəsənət muzeyi», «Təhsil muzeyi», «Kənd təsərrüfatı muzeyi», «İdman muzeyi», «Velosiped muzeyi» və s. muzeylər yeniyetmə və gənclərin ideya-siyasi, mənəvi tərbiyəsində, onlarda mənəvi əqidənin, vətəndaşlıq hisslərinin formalaşmasında, keçmiş mədəni irsə maraq və məhəbbətin tərbiyə edilməsinə şərait yaradır.

Muzeylər maddi mədəniyyətin qoruyucusu kimi çıxış edərək yeniyetmə və gəncləri öz xalqının həyatının mühüm bir sahəsilə tanış olmalarına şərait yaradır. Muzeylər əyani ensiklopediyalardır. Muzeylərdəki eksponantlar milli hissləri oyadır, hisslər vasitəsilə elmi, əxlaqi-etik biliklərlə yeniyetmə və gənclərin silahlanmasını təmin edir. Muzeylər hər bir xalqın sağlamlığını (bədən tərbiyəsi və idman muzeyləri), onun keçmişini və gələcəyə baxışlarını (tarix, diyarşünaslıq, ədəbiyyat və incəsənət, təhsil muzeyləri və s.) əks etdirən canlı mənəviyyat ocaqlarıdır.

Əlbəttə, muzeyə gələn yeniyetmə və gənclərin hər birinin fərdi idrak və mənimsəmə təcrübəsi, müxtəlif fəaliyyət motivləri vardır. Buna görə də yeniyetmə və gənclərin fakt və hadisələri mənimsəmə keyfiyyətlərinin yüksəldilməsində başlıca amil muzey bələdçisinin üzərinə düşür. Bələdçinin professional hazırlığı, məharət və ustalığı, bacarıq və eləcə də nitq mədəniyyəti səviyyəsinin yüksək olması zəruridir.

Yeniyetmə və gənclərin asudə vaxtının məzmunlu və dolğun təşkilində teatrların rolu da inkar edilməzdir. Teatr tamaşaçıya böyük emosional, mənəvi təsir qüvvəsinə malikdir. Yeniyetmə və gəncləri teatra cəlb etməyin xüsusi əhəmiyyəti vardır. Respublikamıza xeyli sayda uşaq-gənclər teatrı işləyir. Uşaq və gənclər teatrının ən mühüm mənəvi əhəmiyyəti gənc tamaşaçının qəlbinə yol tapmaqdan, onlara yaxşı nə varsa, hamısını müdafiə etməyi, pis əməllərə, ədalətsizliyə qarşı mübarizə aparmağı, ölkənin və öz həyatının fəal qurucusu olmağı öyrətməkdən ibarətdir. Gənc Tamaşaçılar Teatrı və bələdiyyə teatrları nəinki gənc, həm də yaşlı tamaşaçılar arasında böyük nüfuz qazanmışdır. Teatr daim repertuar üzərində işləyir, gənclərlə əlaqələrin formalarını genişləndirir.

Gənc tamaşaçılar teatrı nəinki uşaq, gənc, həm də yaşlı tamaşaçılar arasında böyük nüfuz qazanmışdır. Məsələn, Gənc Tamaşaçılar teatrı Dövlət dram teatrı ilə birlikdə «Teatr və uşaqlar» həftəsi keçirir. Həftəyə gənc tamaşaçının ilk dəfə teatra gəlməsi münasibətilə böyük şənliklər təşkil edirlər. Məktəbdə gənc tamaşaçılar teatrı günü keçirilir, bu yeniyetmə və gənclərin tamaşalara cəlb olunmasında müstəsna rol oynayır. Bütün bu tədbirlər

təsadüfdən təsadüfə deyil, daim və hər ili aparılır. Valideynlərin və uşaqların teatra birlikdə getməsi üçün nəzərdə tutulan «ailə abonementləri» ailənin, məktəbin və teatrın tərbiyə sahəsindəki səylərini birləşdirməsinə kömək edir. Teatrlarda yeniyetmə və gənclərin mənəvi-estetik tərbiyəsi problemləri geniş müzakirə olunur. Teatrın fəaliyyətinin müxtəlif formaları gənclərin tərbiyəsində onun rolunu xeyli artırır.

Yeniyetmə və gənclərin asudə vaxtının təşkilində və mənəvi tərbiyəsində klubların və mədəniyyət saraylarının böyük imkanları vardır. Klub və mədəniyyət sarayları elə mürəkkəb mədəniyyət kompleksləridir ki, burada yaradıcılıq və maariflənmək, istirahət və əyləncələr, kütləvi şənliklər və şəxsi görüşlər keçirmək üçün sosial şərait mövcuddur. Mədəniyyət sarayları bədii özfəaliyyətin, elmi-texniki yaradıcılığın, tətbiqi sənətin inkişafına kömək edir, marağa görə klublarda birləşirlər. Klublar və müəssisələr, klublar və ümumtəhsil məktəbləri arasında mədəni əməkdaşlığını bir çox formaları üzrə kollektiv müqavilələr bağlanmışdır.

Klub işlərində yeniyetmə və gənclər məqsədyönlü iştirak etməli, bu fəaliyyət prosesində öz şəxsiyyətlərinin dəyərli olduğunu hiss etməli, özünütəsdiq sevinci duymağı, bu fəaliyyətin müsbət nəticələrindən təmənnasız məmnunluq hissi keçirməlidirlər. Klubun, yeniyetmə və gənclər bölməsi dərnəklərinin, studiyalarının, kollektivlərinin, həvəskar birliklərinin işi həqiqətən o zaman pedaqoji məna kəsb edir ki, məktəblilər bu işi sosial sərvət kimi dərk etsinlər. Klublarda tərbiyə işi, istirahət məhdud xarakter daşımamalı, səmərəliliyə doğru yönəldilməlidir.

Klubların fəaliyyəti həm də bədii xüsusiyyətə malik olub yeniyetmə və gənclərin həyata mənəvi-estetik münasibətinin formalaşmasına daha müstəqim kömək edə bilər.

Klublarda yeniyetmə və gənclər emosional xoşbəxtlik halı keçirir, özünün əhəmiyyətli, insanlara gərəkli olduğuna möhkəm inanırlar, yeni sosial münasibətlər tərbiyəsi əldə edirlər. Klublarda keçirilən mühazirə, söhbət, tematik gecə və digər mədəni tərbiyə tədbirləri, bədii özfəaliyyət konserti tamaşalar yeniyetmə və gənclərin mənəvi tərbiyəsində böyük əhəmiyyət kəsb edir.

Yeniyetmə və gənclərin asudə vaxtının və istirahətinin mənalı təşkilində, onlarda fəal həyat mövqeyinin və ictimai fəallığının artırılmasında kitabxanaların üzərinə də böyük iş düşür. Kitabın məzmunu, bir qayda olaraq, insanın əqlinə, onun hisslərinə, emosiyalarına da güclü təsir edir, bir növ intellektual-emosional kompleks yaradır. Bundan başqa, mütaliə prosesində oxucuda çox vaxt özünü qəhrəmanlarla eyniləşdirmək, özünü onların ən yaxşıları ilə bərabər tutmaq kimi bir hal baş verir.

Yeniyetmə və gənclər öz tələbatlarına uyğun olaraq kitabı da özü seçir, mütaliənin şərtlərini, sürətini özü müəyyənləşdirir, əsərin məzmununu təxəyyülündə yenidən canlandırır. Ona görə də kitab mütaliəsi daha yaradıcı və fərdiləşdirilmiş prosesdir, fəal, düşünən şəxsiyyətin tərbiyə olunmasına daha artıq dərəcədə kömək edən prosesdir. Mütaliə heç də əyləncə vasitəsi deyil, insanların ictimai-faydalı fəaliyyəti, əmək və siyasi fəallığı üçün çox mühüm stimuldur.

Yeniyetmə və gəncləri kitaba cəlb etməkdən əsas məqsəd ictimai inkişafın mürəkkəb məsələlərini müstəqil

surətdə və müvəffəqiyyətlə həll etmək iqtidarında olan fəal şəxsiyyət formalaşdırmaqdır.

Müasir dövrdə elmi-texniki inqilab, yeni texnologiyaların, kompüter və internetin mövcudluğu kitabla canlı ünsiyyəti ikinci pilləyə endirmişdir. Toplanmış materiallar və verilən proqnozlar yenə mütaliənin yüksək sosial mövqe tutduğunu sübut edir. Mütaliənin rolunun yenə artacağına inananların (70 faiz) üstünlük təşkil etməsi göstərir ki, mütaliə daha çox yayılmış asudə vaxt forması olmasa da (məsələn, televiziya verilişlərinə, kinoya tamaşa, internet və kompüter, fəaliyyətsiz istirahətə az vaxt ayrılması və s.) indi də çox yüksək dərəcəli sərvət kimi başa düşülür. Kitabla ünsiyyəti gündəlik zərurət hesab edən daimi oxucuların sayı, ümumiyyətlə, oxucuların sayından, təəssüf ki, azdır. Bu işdə təkcə kəmiyyət göstəricilərini artırmaqdan deyil, həm də mütaliənin məzmun cəhətinə diqqəti gücləndirməkdən ibarətdir. İdeya-siyasi biliklər sistemi verən elmi dünyagörüşünü formalaşdıran kitablar mütaliənin mərkəzində durmalıdır.

Müasir oxucunu daha çox maraqlandıran bədii ədəbiyyat əsərləri sırasında Qarabağ müharibəsi haqqında kitablar, tarixi romanlar və dedektiv əsərlər üstünlük təşkil edir. Bu maraq təbiidir. Maraqlıdır ki, yeniyetmə və gənclər daha çox ictimai-siyasi problemləri işıqlandıran kitablara, jurnal və qəzetlərə müraciət edir, bu da təəccüblü deyil, ictimai həyatın özünün siyasiləşməsinin təzahürüdür. Bu gün oxucuların müxtəlif marağı fonunda mütaliənin mövzu diapazonunun müəyyən məhdudluğu müşahidə olunur ki, bu da bütöv şəxsiyyətin tərbiyə olunmasına kömək edə bilmir. Oxucuların marağı əsasən bəzi başlıca mövzular, problemlər, müəyyən ədəbi janrlar

ətrafında təmərküzləşir. Bu, görünür, təkcə oxucuların marağının müəyyən mənada birtərəfli olması, onların müəyyən dərəcə inkişaf etməməsi ilə deyil, həm də kitabın oxucuya çatdırılmasının təşkilində olan nöqsanlarla, oxucuların tələb etdiyi kitabların yoxluğu ilə, habelə kitablardan kifayət qədər yüksək elmi-bədii səviyyədə olmaması ilə bağlıdır.

İstər məktəb, istərsə də mərkəzi kitabxanaların işçilərinin təşəbbüsü ilə hər yerdə oxucuların əmək qəhrəmanları, Qarabağ müharibəsi döyüşçüləri, elm xadimləri ilə görüşləri keçirilir. Müxtəlif bədii, ictimai-siyasi və başqa mövzularda disputlar yeniyetmə və gənclər arasında çox müvəffəqiyyətlə keçir.

Buna görə də kitabxana işini elə təşkil etmək lazımdır ki, kitabxanalar bütün oxucuların, xüsusən, inkişaf etməkdə olan yeniyetmə  və gənclərin tərbiyəsinə, onların asudə vaxtının şən və mənalı keçməsinə kompleks halında yanaşılsın, həm də işin praktikada özünü doğrultduğu müxtəlif formalarından istifadə olunsun, konkret sosioloji tədqiqatların nəticələri daha operativ nəzərə alınsın.

Dövlət və özəl kitabxanalar yeniyetmə və gənclərin dünyagörüşünün formalaşmasında fəal iştirak edirlər. Vətənpərvərlik və beynəlmiləlçilik tərbiyəsi sahəsində daim iş aparırlar. Yeniyetmə və gənc oxucularla aparılan işdə tərbiyəmizə yad ünsürlərə, onun ideologiyası və əxlaqının tənqidinə çox fikir verilir. Əməyə vicdanlı münasibətin tərbiyə edilməsi, milli əxlaqi normaların formalaşdırılması və bərqərar edilməsi, yeniyetmə və gənclərin şüurunda və davranışında mühüm yer tutur.

Kitabxana işçilərinin və məktəblilərin iştirakı ilə

«İctimai fəal gənci sən necə təsəvvür edirsən?», «Həyatda nəyə ən çox dözə bilmirsən?», «Dünyada sən hər işə qarışa bilərsənmi?», «2026-cı ilin gənci sən kimsən?», «Öz dövrünə layiq olmaq nə deməkdir?», «Kiməsə gərək olmaq nə deməkdir?», «Yer üzündə gərək insan olasan?», «Sən və hünər?», «Sən istirahət etmək mədəniyyətinə sahibsənmi?» və s. mövzularda keçirilən disputlar yeniyetmə və gənclərdə mənəvi-əxlaqi keyfiyyətlərin tərbiyəsində əvəzsiz rol oynayır.

Kitabın köməyilə yeni bilikləri yaradıcılıqla seçib toplamaq, müntəzəm surətdə təhsil almaq qabiliyyətinin tərbiyə olunmasına, ətraf mühiti, fasiləsiz dəyişikliyi qavramağa və öz sosial və mənəvi davranışını müvafiq surətdə qurmağa kömək edir.

Kitabxanaların rolunu və tərbiyə prosesini gücləndirmək üçün onların hər biri işi yeniyetmə və gənclərin asudə vaxt və istirahəti ilə daha sıx uyğunlaşdırmalı, kitabxanalardakı fəaliyyəti ideoloji işin digər vasitələri ilə əlaqələndirilməlidir.

Yeniyetmə və gənclərin asudə vaxtlarının və istirahətinin səmərəli təşkilində, həm Bakıda, həm də bölgələrdə yaradılan şəhər parkları böyük mədəni-maarif işi aparırlar. Bakının dənizkənarı Milli Parkında, Bakının rayonlarında və bölgələrdə yaradılan parklarda bütöv rəngarəng kütləvi tədbirlər kompleksi, tədbirlər, yeniyetmə və gənclərin mənəvi tərbiyəsinə yönəldilmiş şənliklər, tematik gecələr, şifahi jurnallar, kino gecələri və maraqlı sərgilər, ictimai siyasi mühazirələr, peşəkar kollektivlərin və özfəaliyyət kollektivlərinin yaradıcılıq hesabatları keçirilir. Yeniyetmə və gənclərin bu parkların həyata keçirdiyi tədbirlərdə fəal iştiraka cəlb edilməsi,

onların mənalı istirahətinə səbəb olur. Artıq bu parklar ölkənin bütün sahələrdə əldə etdiyi nailiyyətləri təbliğ edən mərkəzə çevrilmişdir. Burada əmək şöhrəti günləri qeyd olunur, həmin günlərdə qabaqcıl əmək müəssisələrinin hesabatları dinlənilir. İstehsalat qabaqcıllarının və yenilikçilərinin toplanışları keçirilir, ayrı-ayrı müəssisələrin buraxdığı keyfiyyət nişanlı məmulatlardan ibarət sərgilər təşkil olunur, əmək şöhrəti xiyabanları tərtib edilir.

Bayram günlərində, həftənin hansı günündə isə uşaqlar, yeniyetmə və gənclərə pulsuz xidmət göstərilir, şəhər məktəblilərinin kollektiv gəzintiləri təşkil edilir. Mərkəzi Milli parkda «Sağlam yay», «Əməkçi gənclər», «Qızıl payız», «Qış gecəsi» kimi səhnələşdirilmiş şənliklər artıq ənənəvi hal almışdır. Novruz bayramları günlərində Milli Parkın həyatı daha nurlu, işıqlı və coşğun olur.

Ümumiyyətlə, asudə vaxt gərək elə təşkil edilsin ki, o yeniyetmə və gənclərin həm fiziki inkişafına, həm də ideyaca zənginləşməsinə, yüksək mədəni tələbat və estetik zövqün formalaşdırılmasına, bütün dünya mədəniyyətinin ən yaxşı nailiyyətlərinə qovuşmasına kömək etsin.

**Tələbə gənclərin asudə vaxtının səmərəli təşkili və ondan istifadə.**

Bu günün tələbəsi sabahın müəllimi, həkimi, alimi və ictimai xadimidir. Onların gələcəkdə bu müqəddəs və bəşəri vəzifələri bir vətəndaş kimi məsuliyyətlə yerinə yetirmələrinə, ali məktəb partalarından başlayaraq onları bu işi icra etmələri üçün sosial-pedaqoji və psixoloji hazırlıq tələb olunur. Yeni pedaqoji təfəkkür baxımından, müasir dinamik inkişaf şəraitində iş vaxtından və işdənkənar vaxtdan səmərəli istifadə edilməsinin zəruriliyi ön plana keçir.

Cəmiyyətin sosial strukturunda xüsusi qrup olan tələbə ali təhsil müddətində öz asudə vaxtını düzgün bölməyi və ondan ağılla, mənalı və dolğun istifadə etməyi bacarmalıdır. Bu keyfiyyət onların məhsuldar işləmələri, fəal ictimai iş aparmaq iqtidarında olmalarına bir növ təkan verə bilər.

İşdə səmərəlilik və keyfiyyət xətti, hər şeydən əvvəl, tələbələrin asudə vaxtdan səmərəli istifadə etmələri ilə üzvü surətdə bağlıdır. Ali məktəblərdə tələbələr (xüsusən müəllim qrupunda oxuyan tələbələr) elmlərin əsaslarına yiyələndikcə, həyat təcrübələri zənginləşdikcə onların nəzəri getdikcə özünün daxili aləminə, daxili qüvvələrini dərk etməyə yönəlir və idrak imkanı gücləndikcə, uşaqlarla işləmək metodikasına sahib olduqca rəftarlarının tənzimlənməsi arasında münasibət yaranır. Bu, getdikcə biliklərin mənəvi əqidəyə, mənəvi motivlərə, mənəvi hisslərə və vərdişə, mənəvi borca, şərəf və ləyaqət, mənəvi ideala çevrilir. Səriştəli müəllim yeniyetmə və gənclərin əxlaqi şüuruna təsir etməklə onlar qarşısında hər hansı fəaliyyət məqsədi qoyur və onları həmin fəaliyyətə yönəldir.

Məktəbliləri, xüsusən, yeniyetmə və gəncləri fəaliyyətin istiqamətləri baxımından formalaşdırmaq o qədər də asan məsələ deyildir. Bu sahədə orta məktəbdə müəllim kimi fəaliyyət göstərəcək tələbələrin idarəetmə bacarığına yiyələndirilməsi mühüm məsələdir.

Ali məktəbdə qazanılmış biliyi orta məktəb təcrübəsində tətbiq etmək bacarığı tələbələrdə böyük məsuliyyət hissi tələb edir. Tələbələr ali məktəblərdə ixtisasları ilə bağlı bilikləri məktəb təcrübəsində sınaqdan keçirir, həqiqiliyini yoxlayır, pedaqoji təcrübədə daha da möhkəmlən-

dirirlər. Onlar seçdikləri ixtisasa olan məhəbbətini, sevincini, məktəbdə şagirdlərinə də sevdirməyi bacarmalıdır. Bu, özünü, həm tərbiyəçi müəllim və sinif rəhbəri kimi aparmaq məsuliyyətini formalaşdırır, eyni zamanda, özünə tələbkarlıqla yanaşmaq, rəftarına, geyim tərzinə, hərəkətlərinə ciddi fikir vermək hissləri aşılayır. Ona görə ki, o, ilk növbədə, öz şəxsi timsalında şəxsiyyət tərbiyə edir. Bu vacib məsələləri tələbələr auditoriyada nəzəri cəhətdən mənimsəyirlər.

Yeniyetmə və gənclərin tərbiyə işini aparmaq metodikasını isə pedaqoji təcrübə müddətində əldə edirlər. Pedaqoji təcrübə vaxtı tələbələr ixtisasları ilə bağlı aldıqları nəzəri bilikləri sinif rəhbəri kimi təhkim olunduqları siniflərdə həyata keçirirlər. Tələbələr, ilk növbədə, pedaqoji təcrübə zamanı yeniyetmə və gəncləri ictimai işlərə cəlb etmək, sinifdənkənar vaxtda mütəmadi olaraq əmək veteranları, elm adamları, şair və yazıçılarla, Qarabağ döyüşçüləri, ictimai maarif işçiləri ilə görüşlər keçirməyə, ekskursiyalar aparmağa hazırlanmalıdırlar.

Tələbələri bədii yaradıcılıqla məşğul olmaqla, yeniyetmə və gənclərlə bədii əsərlərin müzakirəsini keçirməsinə, özfəaliyyət dərnəklərində fəaliyyət göstərmələrinə, rollu oyunlarda həvəslə iştirak etmələrinə böyük təsir göstərə bilər.

Yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili, əməli bacarıq və vərdişlərə yiyələnmələri onların mənəvi və intellektual inkişafı, potensial tədqiqatçılıq qabiliyyətlərinin formalaşdırılması baxımından çox faydalıdır.

## 13. Yeniyetmələrin təlim-tərbiyə prosesində yaranan problemlər

Son zamanlarda uğursuz ailələrdən olan yeniyetmələrlə aparılan təlim-tərbiyə işi ilə əlaqəli bütün problemlər nəinki ölkəmizdə, həmçinin bütün dünyada həlli əsas olan vacib məsələlərdən biridir. Ailə qan qohumluğuna söykənən kiçik qrupdur. Ailə üzvləri bir-birinə mənəvi cavabdehlik, məişət birliyi, eləcə də, qarşılıqlı köməklə sıx bağlıdır.

Ailə yaxın qohumların, ailə üzvlərinin (valideyinlərin və uşaqların, kişi və qadının, və s.) birlikdə yaşadıqları kiçik qrupdur. Buna baxmayaraq bu qrupa sıradan, adi bir qrup kimi yanaşmaq doğru deyildir. Buradan belə bir nəticə çıxartmaq olar ki, ailə kiçik bir sosial qrup olub, eyni zamanda cəmiyyətin başlıca özəyini təşkil edir.

Müxtəlif ailə tipləri mövcuddur ki, bu tiplərdən biri də uğursuz ailələrə aiddir. Hazırda uğursuz ailələrlə bağlı yaranan ən aktual məsələ, eyni zamanda ən ciddi problem bu tip ailələrdən olan yeniyetmələrin təlim-tərbiyə məsələsi, həmçinin ünsiyyət, problem, psixoloji durum və sairdir. Uğursuz ailələrdən olan yeniyetmələrin təlim-tərbiyəsi problemi vacib müzakirələrə səbəb olur və müxtəlif müəlliflər bu mövzu ilə bağlı apardığı tədqiqatlarda, yazdıqları kitablarda müxtəlif mövqelərdən çıxış edirlər.

Aparılan təcrübələr onu göstərir ki, təlim - təhsil prosesində iştirakçıların hansı ailə tipinə aid olmasından asılı olaraq onların həm təlim, həmdə də tərbiyəsi ilə əlaqədar keyfiyyət göstəriciləri haqqında fikirlər də müxtəlifdir. Uğursuz ailələr müxtəlif səbəblərdən meydana gələ bilir.

Son zamanlar boşanmalar nəticəsində yaranan uğursuz ailələrlə daha çox rastlaşırıq. Boşanma çətin, eyni zamanda bəzən uzunmüddətli proses olur. Qarşıdurma, ziddiyət və problemlərlə davam edə bilən bu prosesdə tərəflərdən daha çox uşaqlar, xüsusən də keçid dövründə olan yeniyetmələr əziyyət çəkir. Həm mənəvi, həm də psixoloji cəhətdən yeniyetmələri dərin şəkildə sarsıdan, eyni zamanda zərər verən bu halların sonu necə olursa olsun yeniyetmələr bu vəziyyətdən ən çox sarsılmış, məğlub olmuş və yara almış şəkildə çıxırlar. Uğursuz ailələrdən olan yeniyetmələr ailə daxilində baş verən münaqişələr səbəbindən əsasən özünəqapalı və aqressiv olurlar. Bu isə yeniyetmənin ətrafındakı insanlarla (dostları, müəllimləri, qohumları, ailə üzvləri və digər şəxslərlə) ünsiyyət prosesində daim problemlərə səbəb olması ilə nəticələnir. Onlar digər insanlara qarşı münasibətdə daha səbirsiz və kobud olurlar. Bu yeniyetmələr məhz bu cür mühitdə formalaşdıqları, ailədə daim kobudluq, münaqişə gördükləri üçün çox zaman etdikləri hərəkətlərin, davranışların yanlış olduğunun fərqinə varmırlar. Bu cür uşaqlar yanlış hərəkət etdiyini dərk etdiyi zaman belə üzr istəməkdən utanır və çəkinirlər. İstər uğursuz ailələrdən olan uşaqların, istərsə də digər ailələrə mənsub uşaqların təlim-tərbiyəsində təhsil ocağının, müəllimin və valideynin qarşılıqlı əlaqəsi daim olmalıdır.

Nəzərə almaq lazımdır ki, uşağın bir şəxsiyyət kimi formalaşmasına və inkişaf etməsinə təsir edən əsas amillərdən biri və ən başlıcası ailə və təlim prosesidir. Məhz buna görədir ki, müəllimlər və digər təhsil nümayəndələri uğursuz ailələrdən olan yeniyetmələrə və onların valideynlərinə daim kömək etməli, eləcə də, onlara

xüsusi üsul və metodlarla təsir göstərməli, eyni zamanda yeniyetmələrin davranışlarındakı mənfi halların qarşısının alınması üçün bir sıra tədbirlər görməlidir. Təbii ki, bu prosesdə müəllimlərin üzərinə olduqca böyük məsuliyyət düşür.

Ustad müəllimlər bu cür ailələrdən olan yeniyetmələrlə işin təşkili və həyata keçirilməsi yollarını dərindən bilməli, həmçinin lazım olan zaman öz pedaqoji fəaliyyətini doğru şəkildə təşkil etməlidir.

Uğursuz ailələrdə yeniyetmələrlə aparılan tərbiyə işinin məzmununun və əsas istiqamətlərinin müəyyənləşirilməsində ailə, bir insanın bütün həyatı boyunca təsirini hiss etdiyi ilk təhsil müəssisəsi kimi çıxış edir. Məhz ailədə insan əxlaqının əsasları qoyulur, davranış normaları formalaşır, insanın daxili dünyası və fərdi keyfiyyətləri üzə çıxır. Ailə bir insanın özünü təsdiq etməsinə kömək edir, onun ictimai və yaradıcılıq fəaliyyətini stimullaşdırır. Başqa sözlə, ailədə uşağın sosiallaşmasının əsası qoyulur. Ailə bir sosial qurum olaraq bir sıra funksiyaları (reproduktiv, məişət, təhsil, sağlamlaşdırma, psixoterapevtik və s.) yerinə yetirir və müəyyən bir sosial statusa malik olur. Ailənin sosial vəziyyəti, struktur və funksional parametrləri ilə fərdi xarakterli ailə üzvlərinin məcmusudur.

Psixoloji və pedaqoji ədəbiyyatda 4 ailə statusu təsvir olunur

1. *Sosial-iqtisadi vəziyyət (ailənin maddi vəziyyəti, yaşayış şəraiti, əmlak təminatı);*

2. *Sosial-psixoloji vəziyyət (əlverişli psixoloji iqlim), - rol statusu (uşağa və onun problemlərinə münasibət);*

3. *Sosial-mədəni status (ümumi ailə mədəniyyəti, yetkin üzvlərin təhsil səviyyəsi);*

*4. Situativ - rol statusu (uşağa və onun problemlərinə münasibət).*

Müəyyən bir ailənin sosial statusunun spesifikliyi onun təhsil potensialını və valideyn-övlad münasibətlərinin xarakterini müəyyənləşdirir. Ailə tərbiyəsinin bir sıra danılmaz üstünlükləri var. Bunlara əlverişli emosional və mənəvi-psixoloji iqlim, sevgi, qayğı və dəstək atmosferi, valideyn təsirinin yaxınlığı, böyüklərin davamlı nümunəsi, dəyərlər sistemi, ailə ənənələri, davranış və ünsiyyət stereotipləri və s aiddir. Bununla birlikdə, bir qayda olaraq, uşağın fərdi inkişafına, tərbiyə prosesinə mənfi təsir göstərən funksional olmayan, uğursuz ailələr var. Bundan əlavə, funksional olmayan ailələr yeniyetmələrdə 6 sosial uğursuzluqların əsas mənbəyi hesab olunur.

Uğursuz ailələrdən olan yeniyetmələrin sosial həyat problemlərini araşdıran tədqiqatçılar (V.V.Çeçet, L.İ.Smagina, A.K.Vodneva, L.M.Şpitsina və.s) əlverişsiz ailə vəziyyətini təyin edən və ya valideyn himayəsindən məhrum olan uşaqların sayının artmasına təsir edən bir sıra amilləri aşağıdakı kimi qruplaşlaşdırıblar:

- *Aşağı yaşayış standartları, işsizlik və az ailə gəlirləri, uşaqlar üçün yaşayış şərtlərinin pisləşməsi;*
- *Ailələrdə struktur dəyişiklikləri - tək valideynli ailələrin, habelə tək ana və yaxud yetkinlik yaşına çatmayan anaların nikahdan kənar dunyaya gətirdiyi uşaqların sayının artması və bu səbəbdən tərk edilmiş uşaqların sayınən çoxalması;*
- *Ailələrdə emosional, məxfi ünsiyyətin olması və ya olmaması, yetkin ailə üzvləri arasındakı münasibətlərdə*

*və valideyn-övlad münasibətlərində yüksək səviyyədə qarşıdurma, ümumiyyətlə xoşagəlməz emosional fon, valideynlərin pedaqoji səriştəsizliyi və s.;*

- *Ailənin mənəvi təməllərinin sarsılması, valideynlərin alkoqolizm və narkomaniya alüdəliyi, uşaqlara qarşı mənəvi və fiziki zorakılıq, uşaqların maraqlarına və ehtiyaclarına qarşı etinasızlıq.*

Müasir elmdə ailənin bir çox tipologiyası var. Müəyyən bir ailənin xüsusiyyətləri uşaqlarda təhsil fəaliyyətinin, sosial həyatının uğurlu və ya uğursuz olmasına, yeniyetmələrin davranışında çətinliklərin yaranmasına bu və yaxud digər dərəcədə təsir göstərir. İstənilən tipə mənsub ailə sosial və pedaqoji dəstəyin obyektinə çevrilə bilər. Bununla birlikdə, ehtiyacın dərəcəsi və dəstəyin məzmunu da dəyişəcəkdir.

Müəyyən bir ailəyə göstərilən sosial və pedaqoji dəstəyin xüsusiyyətlərini ən dəqiq müəyyənləşdirən ailələ tipologiyalarını nəzərdən keçirək. M.A.Qaliquzova ailələrin tipologiyasını sosial uyğunlaşma səviyyəsinə görə aşağıdakı kimi ayırır:

1) *Uğurlu ailələr.*

Maddi təminatı qənaətbəxş olan uğurlu ailələr öz funksiyalarının öhdəsindən lazımınca gəlir və praktik olaraq sosial dəstəyə ehtiyac duymurlar. Bu cür ailələrdə problem yaranarsa, qısa müddətli iş modelləri çərçivəsində birdəfəlik yardım onlar üçün kifayətdir;

2) *Risk qrupuna daxil olan ailələr.*

Bu cür ailələr normalardan bir qədər kənarlaşma olması ilə xarakterizə olunur, məsələn, natamam bir ailə, az gəlirli bir ailə və s. Belə ailələr böyük səy göstərərək

uşaq böyütmək vəzifələrinin öhdəsindən gəlməyə çalışırlar.

3) *Uğursuz ailələr.*

Həyatın hər hansı bir sahəsindəki sosial statusu aşağı olan uğursuz ailələr onların üzərinə düşən məsuliyyətin öhdəsindən gələ bilmirlər. Problemlərin xarakterindən asılı olaraq sosial pedaqoq bu cür ailələrə uzunmüddətli iş formaları çərçivəsində psixoloji, vasitəçi yardım göstərir.

4) *Asosial ailələr.*

Bu tipə valideynlərin qeyri-etik, əxlaq normalarından kənar, qeyri-qanuni həyat tərzi sürdüyü və yaşayış şərtlərinin əsas sanitariya və gigiyenik tələblərə cavab vermədiyi ailələr aid edilir. Bir qayda olaraq, bu cür ailələrdə uşaq tərbiyəsi ilə heç kim məşğul olmur. Sosial pedaqoqun bu ailələrlə işi hüquq-mühafizə və qəyyumluq orqanları ilə sıx təmasda aparılmalıdır.

B.N. Almazov uğursuz ailələrdən olan "çətin" yeniyetmələrin meydana çıxmasına əsas verən dörd növ funksional olmayan ailə tiplərini ayırd edir:

1) *Tərbiyə resurlarının çatışmazlığının müşahidə edildiyi natamam ailələr.*

Belə ailələrə uşaqlarına təhsillərində kömək edə bilməyən, kifayət qədər təlim-təhsili olmayan, ümumi inkişaf səviyyəsi kifayət qədər yüksək olmayan, əsasən maddi rifahı qorumaq üçün çox vaxt sərf edən və bununla da uşaq böyütmək üçün arzuolunmaz bir zəmin yaradan valideynləri olan ailələr daxildir;

2) *Münaqişəli ailələr.*

Bu cür ailələrdə uşaqlar, bir qayda olaraq, nümayişkaranə şəkildə ziddiyyətli, düzgün təşkil edilməmiş

şəkildə tərbiyə edilirlər. Mövcud münaqişəyə etiraz edən uşaqlar belə hallarda əsasən valideynlərdən birinin tərəfini tuturlar.

3) *Mənəvi cəhətdən funksional olmayan uğursuz ailələr.*

Belə bir ailənin üzvləri arasında ümümi dünyagörüşü və həyat prinsiplərində fərqliliklər, başqalarının mənafelərinə ziyan vuraraq hədəflərinə çatmaq istəyi, başqalarını öz iradələrinə tabe etmək istəyi və s. hökm sürür.

4) *Pedaqoji cəhətdən səriştəsiz ailələr.*

Bu cür ailələrə tərbiyənin nəticələrinə laqeydlik, təşəbbüskarlığın olmaması, kor itaət və s. aiddir.

Sosial və pedaqoji iş təcrübəsində uğursuz ailələrlə işləmək üçün müəyyən bir fəaliyyət modeli işlənmişdir. Hal-hazırda sosial pedaqoq və psixoloqlar aşağıdakı ailəni dəstəkləmə modellərindən fəal şəkildə istifadə edirlər:

- *Pedaqoji;*
- *Sosial;*
- *Psixoloji;*
- *Diaqnostik;*
- *Tibbi.*

Bu və ya digər modelin istifadəsi valideyn-övlad münasibətləri probleminə səbəb olan münasibətlərin təbiətindən asılıdır.

Pedaqoji model valideynlərin yetərli olmayan pedaqoji səriştəsinə əsaslanır. Burada şikayətin subyekti kimi uşaq çıxış edir. Sosial psixoloq və pedaqoqlar bu modeldən istifadəyə əsaslanaraq valideynlərin fərdi bacarıqlarına deyil, psixologiya və pedaqogika baxımından əlverişli olan təhsil metodlarına önəm verirlər.

Sosial model ailə çətinlikləri əlverişsiz həyat şəraitinin nəticəsi olduqda istifadə olunur. Buna görə, problemin həllində həyat vəziyyətini təhlil etməklə yanaşı, xarici qüvvələrin (müavinətlər, birdəfəlik ödəmələr və s.) köməyi də lazımdır.

Psixoloji model yeniyetmənin çətinliklərinin səbəbləri ünsiyyət sahəsində, ailə üzvlərinin şəxsi bacarıqlarında olduğu zaman istifadə olunur. Bu model əsasən şəxsiyyətin psixodiaqnostikasını, ailə vəziyyətinin təhlilini eyni zamanda ailə münasibətlərinin diaqnozunu ehtiva edir. Praktik kömək vasitəsi ilə ünsiyyət maneələrini eyni zamanda ünsiyyət pozğunluqlarının səbəblərini müəyyənləşdirmək və onları aradan qaldırmaq mümkündür.

Diaqnostik model valideynlərin uşaq və ya ailəsi haqqında olan xüsusi biliklərinin yetərsizliyi fərziyyəsinə əsaslanır. Diaqnozun obyekti ünsiyyət pozuqluğu olan uşaqlar, ailələr və yeniyetmələrdir.

Tibbi model ailədəki çətinliklərin kökündə xəstəliklərin dayandığını düşünür. Yardım psixoterapiyanın aparılmasından ibarətdir (xəstəni müalicə etmək və sağlam ailə üzvlərini xəstənin problemlərinə uyğunlaşdırmaq).

Bir qayda olaraq, sosial pedaqoq valideynlərlə işləyərkən pedaqoji modeldən istifadə edir. Qeyd edilənlərə əsasən, bu model, valideynlərin uşaq tərbiyə etməsinə, eyni zamanda bacarıq, bilik və vərdişlərin çatışmazlığı olması fərziyyəsinə əsaslanır. Bu model valideynlərin pedaqoji və psixoloji mədəniyyətinin artırılmasına, eyni zamanda ailənin təhsil potensialının artmasına və gücləndirilməsinə yönəldildiyinə görə əsasən profilaktik xarakter daşıyır. Qeyd etmək lazımdır ki, əsasən də uğursuz ailələrin buna tələbi yaranır və buna ehtiyac duyurlar.

Bu məqsədlər üçün pedaqoji model çərçivəsində uğursuz bir ailə ilə işin aşağıdakı formaları istifadə olunur:

- *Mövzular üzrə psixoloji və pedaqoji məsləhətləşmələr: "Uşağın inkişafında ailə fenomeninin rolu", "Ailə mühiti", "Ailə münasibətləri və uşağın emosional durumu", "Uşaq-valideyn mübahisələri və onların aradan qaldırılması üsulları", "Ailənin amansızlığı" və s.;*
- *Pedaqoji tapşırıqlar, məsələn, ailə işinin təşkili, ailə tətili, uşağın gün rejimi, birgə fəaliyyət və ya uşağınıza bir məktub yazmaq və s.;*
- *Sadalanan mövzularda pedaqoji seminarlar: "Siz necə bir valideynsiniz", "Övladınıza necə kömək edə bilərsiniz", "Necə uşağınız var", "Övladım haqqında iddialar" və s.*

Ailənin bütün yetkin üzvləri, ailənin özü, uşaqlar kollektiv olaraq sosial pedaqoqun təsir obyekti ola bilər. Uşağın mənfəətləti uğrunda fəaliyyət göstərən sosial pedaqoq uğursuz ailələrlə iş zamanı istər ailə üzvlərinə, istərsə də bu vəziyyətdən ən çox əziyyət çəkən yeniyetmələrə lazımi kömək və dəstəyi göstərir. Onun vəzifələrinə iş apardığı uğursuz ailələlər ilə əlaqə qurmaq, bu ailələrin problemlərini və çətinliklərini müəyyənləşdirmək, ailə üzvlərini birgə fəaliyyətlərdə iştiraka təşviq etmək, digər mütəxəssislərlə (psixoloqlar, tibb işçiləri, hüquq mühafizə orqanlarının və qəyyumluq orqanlarının nümayəndələri və s.) təmas qurmaqda vasitəçi xidmətlər göstərmək daxildir.

Sosial pedaqogika sahəsindəki mütəxəssislər (M.A. Galaguzova, U.N.Galaguzova, E.Y.Tishchenko, V.P Dyakonov və s.) sosial pedaqoqun uğursuz ailələrlə fəaliyyətinin üç istiqamətdə inkişaf etdiyini bildirirlər:

1. *Maarifləndirici;*

2. *Psixoloji;*

3. *Vasitəçi.*

Adı çəkilən fəaliyyət sahələrinə nəzər salaq.

**Maarifləndirici istiqamət.**

Bu istiqamətə valideynlərə təlim prosesində və tərbiyədə yardım daxildir. Təlim yardımı valideynlərin pedaqoji mədəniyyətinin eyni zamanda onların təlim səviyyəsinin formalaşdırılmasına yönəldilmişdir. Təhsildə yardım istiqaməti ailənin təhsil gücünü artırmaq üçün xüsusi təhsil situasiyaları yaratmaqla reallaşdırılır. Bu istiqamət əsasən ailəyə yardımın pedaqoji modelinin tətbiqinə əsaslanır.

**Psixoloji istiqamət.**

Bu istiqamətə sosial-psixoloji dəstək və korreksiya daxildir. Psixoloji istiqamət diaqnostik və psixoloji modellərə əsaslanır. Sosial pedaqoq tərəfindən göstərilən bu cür dəstək əsasən ailədə əlverişli psixoloji atmosfer yaratmağı hədəfləyir. Bir psixoloqla ittifaqda dəstək təmin etmək ən təsirli üsuldur. Münasibətlərin psixoloji korreksiyası ailədə uşağa psixoloji təcavüz (təhqir, aşağılama, maraqlarına və ehtiyaclarına etinasızlıq) faktları olduqda reallaşdırılır.

**Vasitəçi istiqamət.**

Bu sahə aşağıdadakı komponentləri özündə cəmləşdirir:

- Təşkilatçılıq;
- Koordinasiya;
- Məlumatlandırma.

Təşkilatı kömək uğursuz ailələrin boş vaxtının düzgün təşkil edilməsindən ibarətdir (tətillər, sərgilər, yarmar-

kalar və s. təşkil etmək və ailə üzvlərinin hər birinin bu prosesdə iştirakını təmin etmək).

Koordinasiyadakı yardım müxtəlif sosial xidmətlər, şöhbələr, sosial yardım və dəstək mərkəzləri ilə uğursuz ailələrdə əlaqələrin yaradılmasına və yenilənməsinə yönəlib.

Məlumatlandırma istiqaməti uğursuz ailələrin sosial müdafiə məsələləri haqqında məlumatlandırılmasına yönəldilmişdir. Bu istiqamət sosial və tibbi modelin istifadəsinə əsaslanır.

Ümumiyyətlə uğursuz bir ailə ilə çalışarkən sosial pedaqoq üç əsas rolu icra edir:

- Məsləhətçi;
- Konsultant;
- Müdafiəçi.

Məsləhətçi - uğursuz ailələrdə valideynlər və uşaqlar arasında qarşılıqlı əlaqələrin əhəmiyyəti və düzgün təşkil edilməsinin mümkünlüyü barədə ailəni məlumatlandırır; yeniyetmənin inkişafının xüsusiyyətləri haqqında danışır; onun doğru şəkildə təlim və tərbiyəsini təmin etmək üçün pedaqoji məsləhətlər verir.

Konsultant - uğursuz ailələrə ailə hüququ məsələlərində məsləhət verir; ailədəki şəxsiyyətlərarası qarşılıqlı əlaqə məsələləri: valideynlərə bir ailədə uşağın normal tərbiyəsi və inkişafı üçün lazımi şəraitin yaradılmasını izah edir.

Müdafiəçi - uğursuz ailələrdə valideynlərin qəyyumluq prosesindən kənarlaşdırılması vəziyyətində uşağın hüquqlarını qoruyur.

Uğursuz ailələr ilə sosial və pedaqoji iş praktikasında əsasən qısa və uzunmüddətli iki iş forması istifadə olunur.

Qısa müddətli formalar arasında *böhran müdaxiləsi* və *problem yönümlü* qarşılıqlı modellər seçilir. Uğursuz ailələrlə iş zamanı böhran müdaxilə modeli, ailənin həyat vəziyyətinin ani və ya təsadüfi travmatik vəziyyətlə əlaqədar dəyişikliklərə səbəb ola biləcək böhran hallarında birbaşa yardım etməyi nəzərdə tutur. Problem istiqamətli model, uğursuz ailələr tərəfindən evvəlcədən bildirilmiş və tanınan konkret praktik məsələlərin həllinə yönəldilmişdir, yəni bu modelin mərkəzində yardım göstərən mütəxəssislərin səylərini ailənin bildirdiyi və üzərində işləməyə hazır olduğu tələb dayanır. Bu model məsələni ortaq səylərlə aradan qaldırmağı təklif edir. Problemlərin uğurla həlli daha sonrakı problem vəziyyətlərini tək həll etmək üçün müsbət bir təcrübə yaradır.

Uzunmüddətli iş formalarına sosial-pedaqoji himayə və nəzarət daxildir. Həm qısa, həm də uzunmüddətli iş formalarında istifadə olunduğu üçün məsləhət işi və konsultant təlimi çox yönlüdür. Ailə diaqnostikası, ailənin dəstək və yardım sisteminin əsas hədəf kimi götürdüyü sosial pedaqoqun iş fəaliyyətinin ayrılmaz və daimi tərkib hissəsidir.

Diaqnostik prosedurların aparılması bir sıra prinsiplərə riayət etməyi tələb edir

- *Mürəkkəblik;*
- *Obyektivlik;*
- *Yetərlilik;*
- *Əsaslılıq və s.*

Bunun üçün lazımi meyarlar olmadıqda diaqnozu genişləndirmək məqbul hesab edilmir. Yeni tədqiqat yalnız əvvəlki diaqnostik məlumatların təhlili əsasında həyata keçirilə bilər. Uğursuz ailələrdə diaqnostik iş zamanı prosedura valideyn şikayətlərinin ilkin diaqnozundan başlamaq, daha sonra bu şikayətlərin etibarlılığını öyrənərək bu pozuntuların səbəblərini müəyyənləşdirmək lazımdır.

Bəzi alimlər (A.A.Bodalev, V.V.Stolin) uğursuz ailənin və ailə tərbiyəsinin diaqnozunun iki müddəaya əsaslandığına inanırlar:

1. *Nəzəri istiqamət* - uşaqların inkişafında və davranışında olan pozuntuların səbəblərini valideyn-övlad münaibətlərinin özündə, tərbiyə üslubunda, eləcə də bu inkişaf prosesinin daha çox təhrif olunmasında ola bilməsini ehtiva edir;

2. *Praktik istiqamə*t - bir "budaqlanan ağac" prinsipinə əsaslanan diaqnostikanın qurulmasını ehtiva edir. Bu da öz növbəsində növbəti diaqnostik addımın yalnız öncəki mərhələdə uyğun nəticə əldə edilməsi ilə əldə edilir. İlkin diaqnoz zamanı əsaslı, qismən tutarlı və əsassız ola biləcək problemin və ya şikayətin mahiyyətini anlamaq vacibdir. Valideynlərin yeniyetmələrin tərbiyə prosesinin təşkilində meydana gələn problemlemləri necə dərk etdikləri, səbəblərini düzgün anlayıb-almamaqları, bir mütəxəssisdən hansı kömək gözlədiklərini bilmək vacibdir.

Diaqnostikanın əsas məqsədi, müəyyən bir ailənin vəziyyəti və müəyyən bir ailənin özünə məxsus meylləri barədə rəy hazırlamaqdır. İstifadə edilən diaqnostika üsulları ənənəvidir: müşahidə, sorğu anketləri, testlər, söhbətlər və s.

Beləliklə, qeyd etmək lazımdır ki, uğursuz ailənin təsiri altında psixoloji qeyrisabitliyi, şəxsiyyətin deformasiyası erkən uşaqlıqdan başlayır. Məhz bu mərhələdə əlverişsiz, bəzən təsadüfi, əhəmiyyətsiz görünən amillərin təsiri gələcək inkişaf üçün zərərli nəticələrə səbəb olur.

Ailə tərbiyəsi sevgi və qarşılıqlı hörmət hisslərinə əsaslanmalıdır. Məhz bu insanı doğuşdan yetkinliyə qədər müşayiət edən ailədəki mənəvi atmosferi, ailə üzvlərinin münasibətlərini təyin edən əsas faktordur. Bu belə də olmalıdır. Ancaq təəssüf ki, müəyyən heyfsləndirici istisnalar da mövcuddur. Ailədə hisslərin harmoniyası yoxdursa, əxlaqi bir atmosfer yaradılmırsa, böyüklər öz ehtiraslarının əsiri olursa, bu şəxsiyyətin inkişafına mane olur. Ailə tərbiyəsi qeyd-şərtsiz olaraq yalnız müsbət amillərin təsiri ilə formalaşır.

Görkəmli psixoloq L.S.Vıqotski, dəfələrlə vurğulamışdır ki, bir uşağın psixikasının formalaşması prosesi, uşağa və onu əhatə edən sosial fəaliyyətlərə münasibətdə başa düşülən inkişafın sosial vəziyyəti ilə müəyyən edilir. Sosial-iqtisadi və psixoloji-pedaqoji risk zonasında olan bir ailə tez-tez destruktiv tərbiyə formaları və metodlarından istifadə edir ki, bu da nəticədə uşaqda təhrif olunmuş bir daxili dünyanın formalaşmasına səbəb olur, onun digər insanlarla (müəllimlər, məktəbdəki həmyaşıdları və s. ilə) davranış formalarına pis təsir edir:

Uğursuz ailələrdən olan uşaqlar bir çox səbəbdən özlərini psixoloji və pedaqoji risk altında hiss edirlər. Akademik uğursuzluq nəzarətsiz valideynlər fonunda dərslərin başdansovdu buraxılması ilə əlaqələndirilir. Yaranan bəzi xəstəliklər sağlam həyat tərzi normalarına uyğun gəlməməyin nəticəsi olduğu kimi, uğursuz ailələr-

dən olan yeniyetmələrin ziddiyyətli davranışı ailədaxili mübahisələrin, qəzəbin və qəddarlığın proyeksiyasının nəticəsidir.

Uğursuz ailələrdən olan yeniyetmələrin seçimlərindəki qeyri dəqiqlik, öz müqəddəratını təyinetmə və özünü dərk etmə bacarıqsızlığı, öz seçimlərini nümunə gətirməyən, seçdiyi peşənin üstünlüklərini izah etməyən valideynlərin günahı səbəbindən meydana çıxır. Nəticə etibarilə pedaqoji baxımdan yetərsiz qalan bir uşaq, uğursuz bir ailədə böyüdüyünə görə, məktəbdə həmyaşıdlarından geridə qalır, ikili standartlar, amansızlıq, qəzəb, başqalarına nifrət, ictimai qarşılıqlı əlaqələr sisteminə daxil olmaqda (oxumaq, işləmək) çətinliklərlə üzləşir.

Ən acınacaqlısı odur ki, uğursuz ailələrdən olan gənclər, gələcəkdə ailə qurduqları zaman böyük çətinliklərlə üzləşirlər, bunun da başlıca səbəbi onların öz ailələrini böyüdükləri ailənin imicinə bənzətməkləridir. Bu problemin ən vacib tərəflərindən biri ailənin bir sosial institut kimi struktur və funksional çevrilmə prosesi nəticəsində əlverişsiz şərtlərin təsiri altında böyüməkdə olan uşağa təsiridir. Ailədəki uğursuzluqlar uşaqların zehni travmalarına, aqressiyaya, ünsiyyətdəki balanssızlığa, cinayətkarlıqların sayının artmasına səbəb olur. Bununla yanaşı, başqa heç bir sosial-ictimai qurum, ailənin uşağa verə biləcəyi qədər zərər verə bilməz.

Bütün bunlar deməyə əsas verir ki, ailə təlim-təhsildə əsas, uzunmüddətli və mühüm rol oynayan xüsusi bir qurumdur. Elmi ədəbiyyatda "sağlam olmayan ailə" - uğursuz ailə anlayışı açıq şəkildə müəyyənləşdirilməyib. Əsasən elmi ədəbiyyatlarda bu konsepsiyanın sinonim-

lərindən istifadə olunur: dağıdıcı ailə, funksional olmayan ailə, risk qrupu, disharmonik ailə.

Bənzər ailələrin qarşılaşdıqları problemlər uşağın həyatının müxtəlif tərəflərinə təsir edir: sosial, hüquqi, maddi, tibbi, psixoloji, pedaqoji və s. Eyni zamanda, bir ailədə yalnız bir problemə nadir hallarda rast gəlinir, çünki problemlərin hamısı bir-birilə bağlıdır və bir-birlərini istisna edirlər. Məsələn, sosial qeyri-sabitlik ailədaxili münaqişələrə səbəb olan psixoloji stresə səbəb olur; maddi məhdudiyyət mövcud ehtiyacların ödənilməsinə imkan vermir, böyüklərin və uşaqların fiziki və zehni sağlamlığına mənfi təsir göstərir və.s.

Hər bir pedaqoqun fəaliyyətinin təməl obyekti uşaq şəxsiyyətidir. Uşaq ilk olaraq ailədə dünyaya göz açır və ilk gündən birgə yaşayış nornalarını öyrənir, öz ailəsindən pisi və yaxşını, ümumiyyətlə, demək olar ki, o ailəyə xas olan bütün əlamətləri, xarakterik xüsusiyyətləri, bir sözlə, hər şeyi götürür. Bunun nəticəsidir ki, uşaq böyüdükdə öz ailəsində uşaqlıqdan görüb götürdüklərini təkrar edir. Ailədə uşağın ətraf aləmə qarşı münasibəti tənzimlənir, buarada o, mənəviyyat, əxlaq və mədəni davranış normalarını mənimsəyir və həyat təcrübəsi qazanır.

Ailə cəmiyyətin özəyini, əsas təməlini təşkil edir. Hər bir insanın həyatında, gələcək seçimlərinin və davranışlarının formalaşmasında ailəsi mühim rol oynayır. Ailə məsələsi elə böyük və dərin bir mövzudur ki, o, uzun illər ərzində müxtəlif tədqiqatçıların əsas araşdırma obyekti olmuşdur. Elmi-pedaqoji ədəbiyyatlara diqqət yetirdikdə bu məsələ ilə bağlı fərqli fikirlərə rast gələ bilərik.

A. Abbasov qeyd edir ki, hər bir dövlətin vəziyyəti ailənin mövcud vəziyyətindən asılıdr. Mütləqdir ki, ailədə

uşaqlarla valideynlər arasında, mənəvi bağlılıq olsun. Bununla belə, dövlətin özəyini təşkil edən bütün ailələr ilə digər fərqli ailələr arasında da müəyyən bağlılıqlar mövcuddur. Hər bir ailənin mənəviyyatı, həmin dövlətin mənəviyyatının, istənilən ailənin sosial vəziyyəti həmin dövlətin sosail vəziyyətinin, eyni zamanda istənilən ailənin iqtisadi durumu həmin dövlətin iqtisadi durumunun göstəricisidir.

Sosial vəzifələri yerinə yetirməkdən savayı, ailə eyni zamanda öz mədəni, əxlaqi, sosial və mənəvi səviyyəsinə uyğun şəkildə şəxsiyyət yetişdirir. Ailədə sosiallaşma prosesi ailənin tərkibindən asılıdır. İndiki dövrdə artıq əvvəlki dövrlərdəki kimi geniş ailələr, yəni baba, nənə, dayı, bibi, əmi, xala və s. olan ailələr demək olar ki, azdır. Şəxsiyyətin ailə daxilində formalaşması prosesi birbaşa olaraq ailə üzvləri arasında olan münasibətlərdən asılı olaraq dəyişir.

Uşaq üçün valideyn evi ilk, əsas və əvəzolunmaz həyat məktəbidir. Şəxsiyyətin inkişafına həlledici təsir göstərən, insani keyfiyyətlərin təməlini qoyan məhz ailədir. Bu təməlin möhkəm və sarsılmaz olması üçün ailə firavan olmalıdır. Ailənin rifahı əsasən ailənin tam və ya yarımçıq olmasından asılıdır.

Pedaqoji ədəbiyyatlarda yalnız ananın uşağı böyütməkdə iştirak etdiyi ailələr haqqında çox ziddiyyətli fikirlər var. Bəziləri bunun hər zaman pis olduğuna inanır, başqaları uşağın onu böyüdənə qarşı tamamilə laqeyd olduğunu, bəziləri də uğursuz bir ailənin tam bir ailəyə nisbətən müəyyən üstünlüklərə sahib olduğunu iddia edirlər, çünki uşaqlarla birlikdə qalan valideyn, baş verən hər şey üçün şəxsən məsuliyyət daşıyır, ailəsində öz

uğursuzluqları, səhv hesablamaları və ya səhvləri üçün günahı digər ailə üzvlərinə yükləməyə çalışmır.

Şübhəsiz ki, uğursuz ailələrlə bağlı bu baxışların hər biri eyni dərəcədə qəbul edilə və təkzib edilə bilər. Heç də bütün tam ailələr uşağın hərtərəfli inkişafı və tərbiyəsi üçün normal bir mühit hesab edilə bilməz. Buna baxmayaraq, hər iki valideynin ailədə olması uşağın zehni sağlamlığının qorunması ilə əlaqəli bir çox problemi daha uğurla həll etməyə kömək edir. Bu, tək valideynli ailələrin problemini araşdıran mütəxəssislər tərəfindən dəfələrlə qeyd edilmiş və göstərilmişdir. Xüsusilə, uğursuz bir ailədəki yeniyetmələrin tərbiyəsi ilə sonrakı uğursuz ailə həyatı arasında müəyyən bir statistik əlaqə var. Nikahın pozulması ehtimalı uğursuz və natamam bir ailədə böyümüş ərlər üçün daha çoxdur. Gələcək həyat yoldaşı olmağa namizədlər üçün uğursuz bir ailədə əsas şey əskikdir - evlilik nümunəsi. Buna görə bu cür uşaqların - gələcək həyat yoldaşlarının və valideynlərin ər və arvad münasibətlərinə xas olan hisslər, münasibətlər mədəniyyətinin formalaşdırılması üçün müəyyən bir fürsət yoxdur.

Atasız böyüdülən gələcək ərlər tez-tez qadın davranış növünü mənimsəyir və ya kişilərin davranışlarına dair təhrifedici, sərt və qəddar kimi təhrif olunmuş bir fikir inkişaf etdirirlər. Bununla belə atasız böyüyən gələcək xanımlar, gələcək həyat yoldaşı - idealları haqqında daha pis fikirlərə sahibdirlər və onlar üçün ailə həyatında ərlərini və oğullarını lazımi dərəcədə başa düşmək daha çətindir. Buna görə də, bu cür ailələrdə açıq-aşkar münaqişə, boşanma səbəbləri üstünlük təşkil edir.

Qədim zamanlardan bəri valideyn evinin ata evi adlandırılması, uşağın şəxsiyyətinin tərbiyə və formalaş-

masında atanın mühüm rolunu təyin edən dərin bir məna daşıyır. Ancaq atalıq hissi və xoşbəxtliyi öz-özünə yaranmır və nəsilədn - nəsilə miras olaraq ötürülmür.

Fransız filosofu və müəllimi J.J. Russo "Uşağın dünyaya gəlməsinə vəsilə olaraq, onu bəsləyərək, ata vəzifəsinin yalnız üçdə birini yerinə yetirir. O, bəşəriyyətə, insanlara, cəmiyyətə, dövlətə xeyirli vətəndaşlar verməlidir. Bu üçlü vergini ödəyə bilən və etməyən hər kəs günahkardır və onun yarısını ödəyəcəyi təqdirdə daha çox günahkar ola bilər. Bir ata vəzifəsini yerinə yetirə bilməyənin ata olmaq haqqı da yoxdur."

A.S. Makarenko tədqiqatlarında ailənin quruluşuna xüsusi əhəmiyyət verirdi. O, atası və ya anası olmayan bir ailə mənasını verən "tam" və "natamam ailə" anlayışını təqdim etmişdir. Uşağın tərbiyəsi və uğurlu sosiallaşması ailənin quruluşundan asılıdır. Tək valideynli və uğursuz ailələrdən olan uşaqlar, xüsusən də yeniyetmələr bir qayda olaraq daha həssasdırlar və bir sıra komplekslərə sahibdirlər. Ana boşanmış bir qadın kimi sosial vəziyyətindən narahatdır və psixoloji dəstəyi, övladı üçün məsuliyyəti bölüşəcək kimsəsi yoxdur.

A.S. Makarenkoya görə uğursuz bir ailə, bir və ya daha çox azyaşlı uşağı olan tək bir valideyndən ibarət olan və ya yarım boşanmış bir ailədir. İ.E. Kalabixinaya görə uğursuz ailələr əksər hallarda, valideynlərin boşanması və bir qadının nikahdan kənar uşaq doğması nəticəsində meydana gəlir. Pedaqoji ədəbiyyatlarda aparılan araşdırmalara əsasən uğursuz bir ailənin təhsil imkanları da məhduddur: uşaqlara nəzarət və diqqət ayırmaq çətinləşir, atanın olmaması uşaqları müxtəlif ailə münasibətləri ilə tanış olmaq fürsətindən məhrum edir və zehni inkişafın

birtərəfli inkişafına səbəb olur. Bu, gələcəkdə təqlid edilə biləcək yetkin cinsi davranış nümunələrinin olmaması ilə əlaqədardır.

Ananın "qoruyucu" himayəsi altında təhsil alan, formalaşan bir oğlan vacib kişi xüsusiyyətlərindən məhrum olur: xarakterin gücü, nizam-intizam, müstəqillik, qətiyyət və s. Qız üçün atası ilə ünsiyyət bir kişi imicinin formalaşmasına kömək edir. Ailədə ata yoxdursa, bir insanın obrazının təhrif olunduğu ortaya çıxır - pislənmiş və ya tam tərsinə ideallaşdırılmış. Bu da uğursuz ailələrdə tərbiyə alan yeniyetmə qızların psixologiyasına ciddi təsir göstərir. Bunun nəticəsidir ki, bu cür ailələrdə böyüyən qızlar gələcəkdə şəxsi münasibətlərdə anlaşılmazlıqlar və aşılmaz çətinliklərlə qarşılaşırlar.

Uğursuz ailələrdə formlaşan gələcəyin valideynləri ailəsinin mənfi təcrübəsinə əsaslanaraq, öz ailələrindədə qarşıdurmalarla, problemlərlə daha çox rastlaşır və onlar üçün nikahın pozulmasına qərar vermək daha asandır. Pedaqoqlar və psixoloqlar belə hesab edirlər ki, əhalinin və hər şeydən əvvəl yeniyemələrin cinsi təhsili, mənəvi və cinsi mədəniyyətlərini artıraraq ailə fəlakətlərinin sayını azalda bilər. Bundan əlavə, uğursuz ailələrin analarının orta təhsil səviyyəsi dolayısı ilə gələcəkdə yeniyetmələrin peşə seçiminə və həya yolunda irəliləməsinə birbaşa təsir göstərir. Çox zaman boşanma nəticəsində meydana gələn uğuruz ailələr maddi çətinliklərlə qarşılaşırlar. Bütün bunlar, yetkinlik yaşına çatmayan cinayətkarın uğursuz bir ailədən gəldiyini izah edir.

Pedaqoji ədəbiyyatda funksional cəhətdən uğursuz ailələr ifadəsi də var. Bu kateqoriyada iki valideyn var, lakin peşə və ya digər səbəblərdən onlara ailəyə vaxt

ayırmaq üçün az vaxt qalır. Belə ailələrdə uşaqlarla ünsiyyət, ümumiyyətlə, yalnız həftə sonları mümkün olur və hətta bu günlər də bir neçə saatla məhdudlaşır. Üstəlik, bu cür uğursuz ailələrdə bəzi valideynlər tərbiyə öhdəliklərini tamamilə unudurlar. Öz düşüncələrinə görə övladlarının iqtisadi rifahının qayğısına qalaraq ata, ana ən çox nadir hallarda ailədə olur və beləliklə, uşaq yalnız anası ilə, ya da yalnız atası ilə böyüyür. Ailə, uşağın ictimailəşməsində ilk və ən əhəmiyyətli amil olmaqla yanaşı, hər şeydən əvvəl üzvlərinin qohumluğuna əsaslanan və həyatının ortaqlığı, qarşılıqlı mənəvi məsuliyyət və qarşılıqlı yardım ilə şərtlənən, müəyyən bir sosial inkişaf vəziyyəti kimi xarakterizə olunan sosial münasibətlər sistemidir.

Ailə şəxsiyyətin intellektual və emosional əsaslarını təşkil edir, uşağa cəmiyyətdəki həyat, xeyir və şər haqqında ilk fikirləri verir, dünyaya bu ailənin gündəlik həyatında tanıdığı və tətbiq etdiyi dəyərləri təqdim edir. Nəticədə ailədə əsas əxlaqi fikirlər və etik prinsiplər formalaşır.

Beləliklə, hər bir fərdi ailə keyfiyyəti uşağın ailədəki inkişafının müəyyən bir sosial vəziyyətini təyin edən müəyyən bir sosial münasibətlər sistemidir. Çox vaxt, ailədaxili münasibətlər ailənin tərbiyə potensialının ən vacib komponentləri kimi göstərilir, bu da öz növbəsində valideynlərin əxlaqi nümunəsi, ailənin tərkibi, həyatı, valideynlərin təhsil səviyyəsi və pedaqoji mədəniyyət və uşaq böyütmək üçün məsuliyyət dərəcəsi ilə müəyyən edilir. Bundan əlavə, ailədaxili münasibətlərin əhəmiyyəti, həm də uşağın doğulduğu andan bəri qarşılaşdığı və bunun nəticəsində həm nitq, həm düşünmə bacarığı, həm də ünsiyyət təcrübəsi qazandığı sosial münasibətlərin ilk

spesifik obrazı olması ilə əlaqədardır. Eyni zamanda, ailədaxili münasibətlər sistemində, ailənin bu və ya digər emosional və mənəvi mühitini formalaşdıran və müəyyən bir ailənin təhsil imkanlarını müəyyənləşdirən valideynlər arasında tərbiyə imkanlarının olması üstünlük təşkil edir.

Uğursuz ailələrdə yeniyetmələrin təlim-tərbiyə problemlərini araşdıran pedaqoqlar qeyd edirlər ki, tam bir ailənin özü də bir övlad böyütməsində müvəffəqiyyət təmin etmir, yalnız şəxsiyyətinin uğurlu formalaşması üçün ilkin şərtlər yaradır. Buna baxmayaraq, uğursuz bir ailədə tərbiyə prosesində valideyn daha çox çətinliklərlə qarşılaşır. Uğursuz bir ailə müasir ailənin əsas sosial-demoqrafik növlərindən biridir.

Uğursuz bir ailə, bir valideyndən və onunla birlikdə yaşayan uşaqlardan ibarət olan kiçik bir sosial qrupdur. Bu cür ailələrdə mənəvi münasibətlərə, qohumluq bağları, və qarşılıqlı mənəvi məsuliyyətə daha az təsadüf olunur. Uğursuz bir ailə, valideynlərdən birinin ölümü, boşanma, nikahdan kənar uşaqların doğulması, qanuni hallarda qorunmasına baxmayaraq ailə münasibətlərinin faktiki olaraq dağılması nəticəsində yaranır.

V.M. Tseluyko da, "heç də hər bir tam ailə uşağın hərtərəfli inkişafı və tərbiyəsi üçün lazımı imkanlarını səfərbər etmir" fikrini irəli sürmüşdür. Ancaq buna baxmayaraq, hər iki valideynin ailədə olması onun zehni sağlamlığının qorunması ilə əlaqəli bir çox problemi daha uğurla həll etməyə kömək edir. Bu, 20 valideynli ailələrin problemini araşdıran mütəxəssislər tərəfindən dəfələrlə qeyd edilmiş və göstərilmişdir. Xüsusilə, uğursuz bir ailədə formalaşan yeniyetmələrin tərbiyəsi ilə sonrakı uğursuz ailə həyatı arasında müəyyən bir statistik əlaqə var.

Nikahın pozulması ehtimalı uğursuz bir ailədə böyümüş uşaqlar üçün daha xarekterikdir.

E.A.Tuqaşevaya görə, uğursuz ailələrin sayının artması cütlüklərin birbaşa nikah və ailə münasibətləri ilə əlaqəlidir:

- *Gender münasibətləri sahəsində dəyişən əxlaqi standartlar;*
- *Evlilik öncəsi əlaqələrin sağlam qurulmaması;*
- *Kişi və qadınların ənənəvi rollarının (ailəsinin) dəyişdirilməsi;*
- *Gənclərin evlənməyə hazır olmaması;*
- *Evlilikdə şişirdilmiş tələblər;*
- *Alkoqolizm və narkomaniya.*

Uğursuz ailələrin yaranması üçün bir neçə qaynaq var. Bunlardan ən geniş yayılmışı, ər-arvadın boşanması səbəbindən ailənin dağılması ilə əlaqələndirilir.

Tədqiqatçılar tərəfindən toplanan sosioloji məlumatlar boşanmanın ən çox yayılmış səbəblərinin alkoqolizm, xarakterlərin qeyri-bərabərliyi, xəyanət və ya başqa bir ailənin yaradılması olduğunu göstərir. İşlərin böyük əksəriyyətində boşanmanın təşəbbüskarının bir qadın olduğuna diqqət çəkilir. Erkən nikahlara gəldikdə, onlar adi evliliklərdən daha az dözümlü hesab olunurlar. Bu proses, şübhəsiz ki, ər-arvadın sosial və vətəndaş kimi tam olaraq formalaşmaması, ailəyə qarşı məsuliyyətsiz, qeyri-ciddi münasibəti, habelə hamiləlik və doğuş səbəbi ilə məcburi nikah sayının artması ilə stimullaşdırılır.

Uğursuz ailələrin formalaşmasına son illərdə əmək qabiliyyətli kişilər arasında qeyri-təbii səbəblərdən (zəhərlənmə, istehsalat xəsarətləri, hərbi əməliyyatlar və s) ölüm

nisbətinin artması ilə müşahidə olunan natamam ailələrin yaranmasınıda aid edə bilərik.

Pedaqoji ədəbiyyatlarda ən uğursuz ailəyə verilən ən geniş yayılmış təriflərdən biri də boşanma, nikahdan kənar bir uşağın doğulması, valideynlərdən birinin ölümü və ya ayrılması nəticəsində meydana gəlməsidir. Bu baxımdan, uğursuz ailələrin aşağıdakı növləri seçilir:

- *Tənha;*
- *Qeyri qanuni;*
- *Boşanmış;*
- *Faktiki olaraq dağılmış.*

Valideynlərdən hansının uşağın tərbiyəsi ilə məşğul olmasından asılı olaraq uğursuz ailələrin iki forması ayırd edilir:

1. *Uşağın ananın himayəsində olduğu uğursuz ailə;*
2. *Uşağın atanın himayəsində olduğu uğursuz ailə.*

İ.E. Kalabikina, uğursuz ailələrin dövlətin sosial dəstəyindən, asılılıq baxımından ümumilikdə asılı olduqları üçün ciddi maddi problemlərlə daha çox qarşılaşdıqlarını qeyd edir. Uğursuz ailələrin əksəriyyətinin ananın himayəsində olduğunu nəzərə alsaq, bu sahədə qadınlar ailənin iqtisadi rifahını təmin etmək üçün uşaqlarla daha az vaxt keçirməli olur, bu da xüsusən yeniyetməlik dövründə olan uşaqların tərbiyə işinin düzgün formalaşmamasına səbəb olur.

Uğursuz bir ailəyə cəmiyyətin diqqətini tələb edən növbəti sosial xüsusiyyət, bu ailələrdə formalaşan yeniyetmələrin sağlamlıqlarının keyfiyyəti ilə əlaqələndirilir. E.V. Andruşina uğursuz ailələrdə böyüyən yeniyetmələrin sağlamlıq səviyyəsini araşdırarkən, məyus bir nəticəyə gəldi: uğursuz ailələrin uşaqlarının, uğurlu ailələrin uşaqlarına

nisbətən kəskin və xroniki xəstəlikləri daha ağır formada keçirmə ehtimalı daha yüksəkdir.

Amerikalı pedaqoq və psixoloqlar uğursuz bir ailədə tərbiyə problemlərinin xüsusiyyətlərini təhlil edərək, bu problemləri birbaşa atanın olmaması ilə əlaqələndirməmələri barədə xəbərdarlıq etmələri diqqət çəkir. Onların fikrincə, uğursuz bir ailənin tərbiyə xərcləri ilk növbədə maddi imkanların məhdudluğu və bu cür ailənin aşağı sosial statusunun nəticəsidir, dolayı yolla orada həyat yoldaşının - atanın olmaması ilə əlaqəlidir.

Demoqrafik ədəbiyyatın müqayisəli təhlili boşanma hadisəsinin əsas etibarilə ələxsus uşaqların yeniyetməlik dövrünə təsadüf etdiyini göstərir. Yeniyetməlik yaşı uşaq şəxsiyyətinin formalaşmasının ən mürəkkəb, ən kritik dövrlərindən biridir. Yaşlılıq hissi və "mən" meylinin təşəkkülü həmin dövrün ən başlıca məziyyətidir. Bu dostluq və məhəbbət yaşında yeniyetmənin mənlik şüurunun, həmçinin əxlaqi dəyərlərinin forrmalaşması uşaq şəxsiyyətinin inkişafında ən ümdə hadisə kimi təsvir edilir.

C. Kelli və C. Vallerşteynin tədqiqatlarına əsasən, boşanmanın ağır nəticələri formalaşmaqda olan yeniyetmənin şəxsiyyətinə, mədəni aləminə, mənəviyyatına, onun dostları, qohumları, həmçinin insanlarla ünsiyyətinə, ən başlıcası isə ana və ata ilə olan münasibətinə olduqca mənfi təsir göstərir. Sadalanan amillər: yeniyetmələrdə qorxu, inamsızlıq və güvənsizlik kimi mənfi keyfiyyətlərin təşəkkül tapmasına və formalaşmasına səbəb olur. Elə bu səbəbdəndir ki, boşanma uşağın yeniyetmə yaş dövründə baş verdiyi teqdirdə bu prosesinin fəsadları daha da çətin və ağır olur. Belə hallarda yeniyetmələrin məktəb

və evdəki davranış formaları arasında nəzərə çarpacaq dərəcədə kəskin fərqlər özünü göstərir. Bu zaman yeniyetmələrin yalnız təlim-təhsil göstəricilər deyil, həmçinin ətrafındakı insanlarla ünsiyyəti və münasibəti də pisləşir.

Müasir dövrdə Azərbaycanda da uğursuz ailələr üçün bu problemin maddi və maliyyə, yəni sosial-iqtisadi tərəfləri, yaşayışın təmin edilməsi problemləri daha çox özünü biruzə verir. Qazanılan maaş ən yaxşı halda iki, bəzən isə üç nəfəri belə təmin edə bilmir. Əgər ata maddi dəstəyini uşağın üzərindən çəkərsə, belə olan halda uğursuz ailə ciddi çətinliklərlə qarşılaşar. Görkəmli rus pedaqoqu P.Pavlenov tədqiqatlarında qeyd edir ki, maddi və maliyyə təhlükəsizliyinin aşağı dərəcəsi birbaşa olaraq qida keyfiyyətinin aşağı enməsinə səbəb olur. Bununla belə, qidanın keyfiyyət göstəricisinin sağlam həyat tərzinin başlıca komponentlərindən biri olduğunu unutmamalıyıq. Qidalanma keyfiyyəti formalaşmaqda olan bir orqanizm üçün - əsasən də bir yeniyetmə üçün ən önəmli məsələlərdən biridir.

Ailələrdə yeniyetmələrin tərbiyə prosesində yol verilən bir sıra yalnış addımları qeyd edək:

1. Uşağa qayğıkeşliyin həddindən artıq çoxalması, davranışına, dərsləri öyrənməsinə, qazandığı nailiyyətlərinə və s. nəzarətin həddən artıq gücləndirilməsi;

Bu münasibətdə uşağa qarşı şişirdilmiş sevgi, qayğı məhəbbət göstərilir. Bu isə öz növbəsində uşaqda məsuliyyətsizlik və ərköyünlük kimi mənfi keyfiyyətlərin yaranmasına və formalaşmasına təsir göstərir;

2. Əjdər Ağayevin fikrinə əsasən, uğursuz ailələrdə valideynin diqqəti yeniyetmənin maddi tələbatını tamami-

lə təmin etməyə yönəlir. Valideyn övladının heç kimdən, xüsusilə həmyaşıdlarından geri qalmaması üçün onun ehtiyacının olmasından asılı olmayaraq istədiyi və ya tələb etdiyi hər şeyi ona almağa çalışır. Belə olan halda isə valideyn bir müddət sonra çox böyük problemlərlə qarşılaşır. Uşağın ehtiyacları isə daim böyüyür. Artıq valideyn yeniyetmənin artan istəklərini yerinə yetirməkdə çətinlik çəkdiyi və ya tamamilə edə bilməyəcəyi bir hala gəlib çıxır. Belə olduğu halda isə valideyn və övlad arasında çoxsaylı münaqişələr yaranır;

3. A.İ. Kravçenkonun zənnincə ananın uşağın ata ilə ünsiyyətinə maneə törətməsi uğursuz ailələrdə yeniyetmələrin tərbiyə işində atılan ən səhv addımlardan biridir;

4. Ailə həyatının qeyri-sabitliyi, həmçinin ailə münaqişələri zəmnində formalaşan yeniyetmədə ikili münasibət formalaşır. Uşağa aşılanmış qıcıqlanma, düşmənçilik və s. kimi mənfi cəhətlər artıq onun xarakterində özünü biruzə verməyə başlayır;

5. Valideynin yeniyetmənin qabiliyyətlərini, istək və arzularını nəzərə almadan onu sadəcə öz istədiyi kimi, öz düşüncəsinə əsasən nümunəvi etmək istəyi tərbiyə işində rastlanan ən böyük problemlərdən biridir. Bu istək əsasən, ayrıldığı həyat yoldaşına öz tərbiyə üsulunu sübut etmək istəyindən baş verir. Ana (və ya ata) ayrılmış və ya boşanmış olduğu yoldaşına o olmadan da, tək başına necə nümunəvi uşaq böyüdüb, tərbiyə etdiyini göstərməyə çalışır. Bu hal isə öz növbəsində, yeniyetməyə öz mənfi təsirini göstərir;

6. Uğursuz ailələrdə bəzən elə hallar olur ki, valideynlərin başı həddən artıq öz problemlərinə qarışır və

bununla da uşaqlarını tamamilə diqqətdən kənarda qoyurlar. Belə həssas dövrdə qayğı və sevgi əksikliyi onlarda depressiv halların yaşanmasına səbəb olur. Belə uşaqlar, əsasən, melanxolik olur, özlərinə tez qapanırlar;

Sadalanan bütün bu problemlər əslində bir-birilə əlaqəli olur. Hətta bir çox hallarda uğursuz ailələrdə bu cür probleməlırin sadəcə birinə deyil, eyni anda bir neçəsinə də təsadüf olunur. Pedaqoji ədədbiyyatların təhlili onu göstərdi ki, ailənin sosial bir qurum kimi tarixi təkamülü müxtəlif tipli ailələrin meydana gəlməsinə səbəb oldu. Ötən 150 ildə ailə institutu nəzərəçarpacaq dəyişikliklərə məruz qaldı və bunun nəticəsində müasir insanların ailə quruluşu və evlilik barəsində fikirləri daha fərqli forma almağa başladı. XX əsrin son rübü əsasən ailənin sosial institut olaraq böhranın başlaması ilə xarakterizə edilir, bu da özündə aşağıdakı meyillərdə əks etdirir:

- *Ailələr arasında qohumluq münasibətlərinin zəifləməsi;*

- *Subay qadın və kişi sayının çoxalması;*

- *Qadınların sosial istehsalda məşğulluğunun nəzərəçarpan artması;*

- *Ailənin yeni formalar və növlərinin meydana gəlməsi, ənənəvi ailənin tipindən imtina oluması və s.;*

- *Evlilik institutunun köhnəlməsi və nigahdankənar ailələrin sayının çoxalması və s.*

Bütün bu sadalanlar isə öz növbəsində uğursuz ailələrin meydana gəlməsinə və sayının günü-gündən artmasına səbəb oldu.

Tək valideynli uğursuz ailələrdə əsasən analar yeniyetmələri böyüdüb tərbiyə edərkən bu yolda qarşısına çıxacaq problemlərdən və maneələrdən qorxurlar. Onların

narahatlıq keçirdikləri başqa bir mövzu isə sosial və maddi həyatda qarşılaşacaqları problemlər, çətinliklərdir. Analar belə vəziyyətlərdə övladları, onların qayğıları və ailələri ilə bağlı yaranan çətinliklərlə qarşılaşdıqda bu problemləri paylaşa, dərdini danışa biləcəyi biri olmadığından ciddi narahatlıq keçirirlər. Bir ailənin uğursuz ailəyə çevrildiyi ilk zamanlarda yeniyetmələr ayrı yaşadığı valideynini bir daha görə bilməyəcəyindən qorxur, valideynlərindən birirni itirmiş yeniyetmələr isə ondan ötrü darıxdığı, və onu bir daha görə bilmədiyi üçün özünü tənha edir. Xüsusilə, 11-15 yaş aralığında olan uşaqlar yaxınlarına və ətrafdakılara qarşı daha əsəbi və aqresiv olurlar. Valideynlərin boşanması nəticəsində özünə qapanan və müəyyən sosial problemlərlə qarşılaşan yeniyetmə digər bir tərəfdən valideynlərinin onlara qarşı sevgi, qayğı və diqqətinin azalacaqlarını düşünürlər.

Yaşı daha kiçik olan uşaqlar isə valideynlərinin niyə ayrıldığını anlamaqda çətinlik çəkirlər. Əgər uşaq valideynlərinin boşanmasını və ona qədər baş verən prosesləri, hadisələri xatırlamayacaq yaşdadırsa, o zaman məktəbə başladıqdan sonra sözügedən çətinlikləri yaşamağa başlayacaq. Uğursuz ailələrdən olan yeniyetmələrin özünü xoşbəxt hiss etməmələrinin başqa bir səbəbi də, əvvəl valideynləri ilə birlikdə gördüyü işləri artıq sadəcə atası ilə və ya sadəcə anası ilə görə bilməsidir. Əsasən də, öz həmyaşıdlarının ailəsi ilə birlikdə vaxt keçirdiyini gördüyü zaman, bu cür alilərdən olan uşaqlar valideynlərinin birinin yoxluğunu daha qabarıq şəkildə hiss edir və keçirdiyi bu hiss yeniyetməyə olduqca pis təsir edərək bir çox hallarda onu depresiyaya salacaq həddə gətirib çıxarır.

Zaman keçdikcə uğursuz ailənin taleyi ilə barışan, bunu qəbul edən uşaqlara da rast gəlinir. Bu hal əsasən valideynlərinin birini itirmiş yeniyetmələrdə rast gəlinir. Bir çox hallarda isə yeniyetmə valideynlərinin nə zamansa yenidən bir araya gələcəyi, hər şeyin dəyişəcəyi ümidi ilə yaşayır. Unutmamalıyıq ki, sosial problem dedikdə ilk ağıla gələn yoxsulluq və kasıblıq yalnız zəif bəslənmə, köhnəlmiş paltar deyil, həm də davamlı bir əskiklik hissidir.

Yoxsulluq yalnız sosial status deyil, həm də psixikanın xüsusi bir vəziyyəti adlandırıla bilər. İllərdir tələb olunan ehtiyacları ödəmək üçün çalışan valideynin əsas qayğısı yeniyetmənin ən sadə sosial ehtiyaclarını ödəmək barədə olur. Yoxsulluq ruhun əzabı ucbatından dəhşətlidir. Sosial çətinliklər yaşayan 27 uğursuz ailələrin uşaqları çox vaxt valideynlərinin yolunu tuturlar. Onlar hətta illər sonra belə turistik biletlər almır, taksilərdən istifadı etmir və hətta ictimai nəqliyyatdan istifadə zamanı belə pula qənayət etməyə çalışırlar.

Üzvlərinin yalnız əlavə ehtiyaclarını ödəməkdə problemi olan orta təbəqədən fərqli olaraq, ciddi sosial problemlərlə üzləşən uğursuz ailələr daim ilkin ehtiyaclarını ödəmək üçün vəziyyətdən necə çıxmağı düşündükləri üçün uşaqların digər ehtiyacları ilə maraqlana bilmirlər. Bu hal özünü əsasən yeniyetməlik yaşında olan uşaqların tərbiyə işində özünü göstərir. Belə ki, uşaqlıqdan sosial problemlərdə yaşayan yeniyetmə üçün başlıca məqsəd evin maddi ehtiyaclarının ödənməsinə yönəlir. İlk baxışdan ədalət, tək valideynli ailələrin əksəriyyətinin obyektiv iqtisadi çətinliklərini müəyyən maddi müavinətlərin ödənilməsi ilə kompensasiya edilməsini tələb edir.

Ancaq bu vəziyyətdə sosial siyasət sahəsindəki mütəxəssislər çətin bir dilemma ilə qarşılaşırlar, hansı ki yeri gəlmişkən, həlli Qərbdə də indinin özünə qədər hələ də tapılmamışdır. Bir tərəfdən, humanizm prinsiplərinə uyğun olaraq uğursuz ailələr dövlətdən və cəmiyyətdən müəyyən maddi dəstək almalıdırlar. Digər tərəfdən, uğursuz ailərdən olan tənha valideynlərin iqtisadi yüklərini yüngülləşdirmək üçün ayrıca imtiyazların yaradılması onlarda ataya qarşı birmənalı münasibətlərinin inkişafına kömək edə bilər.

11 yaşdan 18 yaşa qədər olan dövr, fəal şəkildə inkişaf edən bir şəxsiyyət dövrüdür, bir yeniyetmənin özünə yeni bir şəkildə baxdığı, getdikcə daha müstəqil olduğu, özü üçün yeni hədəflər təyin etdiyi və onlara çatmağın yeni yollarını axtardığı vaxtdır. Bu dövr "keçid", "dönüş nöqtəsi", "çətin", "kritik" dövr olaraq da xarakterizə edilir.

Yeniyetməlik, uşaqlıqdan yetkinliyə keçiddir ki, bu da bir-biri ilə sıx əlaqəli iki cəhətə malikdir:

- *uşağın yetkinliyinin formalaşması;*
- *uşaqların yetkinliyə hazırlanması.*

Bu dövrdə yeniyetmədə ictimai keyfiyyətlər inkişaf edir, yeni rollara və funksiyalara yiyələnir, başqaları ilə münasibət qurmağın yeni yollarını yaşayır və müstəqilliyini təsdiqləmək üçün yeni yollar axtarır. Yeniyetməlik yalnız bədəndəki fizioloji dəyişikliklərlə deyil, həm də emosional və zehni qeyri-sabitlik ilə xarakterizə olunur və bu səbəbdən yetkinlik yaşında uğursuz ailələrdə formalaşan yeniyetmələr bu və ya digər meyara görə sosial vəziyyəti olmayan "risk qrupu" daxil insanlar kateqoriyasına daxil olma "şanslarını" artırdılar.

Uğursuz ailələrin həyatlarında yaranan çətinliklərin öhdəsindən hər hansı nəzəri müddəalara əsaslanaraq gəlmək praktik olaraq qeyri-mümkündür. Bir çox hallarda isə yetkinlik yaşında uğursuz ailələrdə düzgün təşkil olunmamış tərbiyə usullarının tətbiqi sonradan yeniyetmələrin gələcək həyatında mənəvi dəyərlərlərin itirilməsinə gətirib çıxara bilər.

Uğursuz ailələrdə yeniyetmələrin problemləri dedikdə hansı amillər nəzərə alınır?

Birincisi, uğursuz ailələrdə keçid dövrünün daxili çətinlikləri hiss olunduğu üçün psixo-hormonal proseslərdən başlayaraq özünütəsdiqlə başa çatır.

İkincisi, sosial nəzarət mexanizminin yenidən qurulmasından qaynaqlanan ziddiyyətlər hiss olunur: uşaqların nəzarət formaları haqqında xarici normalara və davranış qaydalarına riayət etmək artıq işə yaramır. Şüurlu intizam və özünü idarə etməyi əhatə edən yetkin metodlar istifadəsi isə nəticə vermir. Bu səbəbdən, uğursuz ailələrdən olan 12 ilə 17 yaş arasında yeniyetmələrin "risk qrupu" kateqoriyasına düşmə ehtimalı daha yüksəkdir. Uğursuz ailələrdən olan "risk qrupu" daxil yeniyetmələr "bu və ya digər meyara görə sosial mövqedə sabitliyə sahib olmayan, həyatlarında ortaya çıxan çətinlikləri aradan qaldırmaqda çətinlik çəkən və nəticədə həyatlarında sosial əhəmiyyətin itməsinə səbəb olan insanlar kateqoriyası"dır. Bir daha demək lazımdır ki, uğursuz ailələrdən olan yeniyetmələr funksional ailələrdən olan yeniyetmələrlə nisbətdə müxtəlif deviasiya formalarına daha çox həssasdırlar. Buna alkoqolizmə, narkotikə aludə olma, erkən yaşda yaşanan cinsi problemlər, qanun

pozuntuları və cinayətlər törətmə aiddir. Bunların hamısı gec-tez onların sonrakı taleyinə təsir göstərir.

Uğursuz ailələrdən olan yeniyetmələrin davranışlarının antisosial təbiəti yalnızca konkret olaraq dərhal müəyyən nəticə ilə xarakterizə olduğu üçün təhlükəli deyil, o yeniyetmənin şüuru və dünyagörüşünü formalaşdırdığı və gələcəkdə bu hərəkətlərə və davranışlara uyğun vahid münasibətlər və həyat istiqamətləri, vərdişlər və bacarıqlar yaratdığı üçün təhlükəli hesab olunur. “Normal” bir yeniyetmənin devianta çevrilmə mexanizmi mürəkkəb və çox dəyişkəndir, ona görə də bu cür davranış formalarına uğursuz ailələrdən olan valideynlər daha gec fərqinə varırlar.

Uğursuz ailələrdən olan “çətin” yeniyetmələr davranışlarına görə üç qrupa bölünə bilər: Birinci qrup fiziki və cinsi inkişafda yaşıdlarından geri qalan zehni olaraq qeyri-sabit yeniyetmələri əhatə edir. Onlarda emosional-iradi sferanın inkişafının geriliyi, artan təklifə, maraqların qeyri-sabitliyinə, istəkləri mane ola bilməmə kimi hallara təsadüf edilir.

Çətin yeniyetmələrin ikinci qrupu, cinsi inkişafı sürətlənmiş, təsir qabiliyyəti, həyəcanverici və aqressivliyi artan məktəblilərdən ibarətdir. Onların etirazı ən çox valideynlərin və ya müəllimlərin qadağalarınadır və ən çox buna reaksiya verirlər.

Üçüncü qrupa daxil olan yeniyetmələrdə təmkin çatızmazlığı, cinsi azadlıq, avaralıq, alkoqol istehlakı və s. açıq şəkildə ifadə edilir. Uğursuz ailələrdən olan bu cür yeniyetmələrin valideynlərinin özləridə bir qayda olaraq, düzgün olmayan bir həyat tərzi sürürlər. Təəssüf ki, uğursuz ailələrin sayı gün-gündən artır və bir çox

yeniyetmə “risk” qrupu altındadır. Əlbəttdə ki, bu qrupa daxil olanlar yalnız funksional olmayan, uğursuz ailələrdən olan yeniyetmələr deyil, funkisonal ailələrdən olan bu qrupa aid bir çox yeniyetmələrə də təsadüf olunur.

Cəmiyyətimizdə, ümumən bütün dünyada baş verən kəskin dəyişikliklər dövründə, təıssüf ki uğursuz ailələrdən olan yeniyetmələrin sosial problemlərinin həlli ikinci plana atıldı, üstəlik bir çox hallarda cəmiyyətin özünü də onların antisosial davranışlar sərgiləməsinə təhrik etdi. Bir çox hallarda valideynlərin özü ilə yanaşı, cəmiyyət özü də gec dərk edir ki, belə bir problem mövcuddur və bu problem bütün səviyyələrdə həll olunmalıdır.

Sosial işçilərin, yetkinlik yaşına çatmayanların müfəttişlərinin, müəllimlərin və valideynlərin diqqət mərkəzində olan obyekt uğursuz ailələrdən olan yeniyetmələrdir. Dövlətin siyasəti yeniyetmələrin problemlərinin həllində böyük rol oynayır. Prioritet bir dövlətin gənc şəxsiyyətinin formalaşması və inkişafı prosesinin təmin edilməsinə yönəlmiş, dövlətin qurumları şəxsində məqsədyönlü bir fəaliyyəti olan gənc nəslin sosial müdafiəsi, mənfi amillərin şəxsiyyətə təsirinin nəzərə alınması və yolların axtarışı həyatda öz müqəddəratını təyinetmə və öz təsdiqi üçün imkanlar təmin edən onların zərərsizləşdirilməsi əsas vəzifədir.

Sosial müdafiə sosial-iqtisadi və hüquqi kateqoriyadır. Sosial müdafiə proqramı hazırlayarkən, ilk növbədə, yeniyetmələrin tarixi fəaliyyətin subyekti kimi tanınmasından, işləmək hüququnun tanınmasından irəli getmək lazımdır, çünki yeniyetmələr yalnız bu günün deyil, sabahın da potensialıdır.

Uğursuz ailələrdən olan yeniyetmələrin problemlərinin həllində mühüm rol risk altındakı ailələrə və uşaqlara sosial və hüquqi, tibbi, psixoloji və sosial pedaqoji yardım tədbirləri sistemini təmsil edən yetkinlik yaşına çatmayanların deviant davranışının sosial qarşısının alınmasına və sosial reabilitasiyasına yönəlmişdir.

Uğursuz ailələrdən olan yeniyetmələrin deviant davranışının sosial profilaktikası ilə məşğul olan ailə və uşaqların sosial müdafiəsi şöbələri aşağıdakı funksiyaları yerinə yetirirlər:

1. *Sosial infrastrukturu, onun rayonda, şəhərdə yaşayan müxtəlif yaşda əhalinin real ehtiyaclarına uyğunluğunu müəyyənləşdirmək;*

2. *Ailənin, uşaqların, yeniyetmələrin iş, təhsil, asudə vaxt təşkili ehtiyaclarını ödəməklə bağlı sosial-iqtisadi və sosial-pedaqoji xarakterli tədbirlər barədə yerli və yuxarı orqanlara təkliflər hazırlamaq;*

3. *Uşaqların sosial müdafiəsi və qorunması tədbirlərini və sosial profilaktika tədbirlərini həyata keçirmək üçün digər şöbələrin (xalq təhsili, səhiyyə, hüquq mühafizə orqanları) fəaliyyətlərini əlaqələndirir və nəzarət edir;*

4. *Sosial problemləri olan yeniyetmələri dərhal müəyyənləşdirmək, bu kateqoriyalı yetkinlik yaşına çatmayanlar üzərində sosial himayə həyata keçirmək, onlara lazımi sosial-hüquqi, sosial-pedaqoji və tibbi-psixoloji yardım göstərmək, lazım gəldikdə uşaq və yeniyetmələrə dəstək üçün digər qurumları və sosial qurumları cəlb etmək.*

Reabilitasiya proqramı valideynlər, yeniyetmələr və müəllimlər üçün psixoloq və pedaqoqların məsləhətləşmələrini əhatə edir. Bu zaman yeniyetmələr və valideynlərlə fərdi və qrup məşğələləri təşkil edilir. Bu xidmətin üstünlüyü ondadır ki, eyni zamanda müxtəlif mütəxəssislərin köməyindən istifadə etmək mümkündür.

Bir çox xarici ölkələrdə (Almaniya, Niderland, Belçika və s.) uğursuz ailələrdən olan valideynlər və yeniyetmələrlə reabilitasiya xidmətinin nəticəsi uğurlu irəliləyişlərlə müşaiət olunub. Əlavə olaraq bu xidmət zamanı anonim etiraf prinsipinə əməl olunur və müraciət olunan gəncin özünü açıqlaması üçün daha rahat şərait yaradılır. Bu funksiyaları yerinə yetirən reabilitasiya xidmətinin özlərinin "kömək xətti" - əlaqə telefonu var. Uğursuz ailələrdən olan yeniyetmələrlə iş zamanı sosial reabilitasiya mərkəzlərində bu ailələrdən olan yeniyetmələrə yardım göstərən ixtisaslı psixoloqlar, sosial pedaqoqlar, həkimlər və hüquqşünaslar çalışır. Qrup pozuntularının qarşısını almaq üçün komissiyalar yeniyetmələr üçün bir şəbəkə hazırlayır. Əhəmiyyətli bir məqam, yaşayış yerindəki yeniyetmələrlə işdir, çünki yaşayış yerinin bir fərdin sosiallaşmasında güclü bir amil olduğu sosial mühit olduğu məlumdur. Hazırda bir çox yaşayış yerindəki yeniyetmələr klubları praktik olaraq dağıdılıb və qalanlardan yalnız bir neçəsi yeniyetmələrə giriş imkanı əldə edir. Bu cür işləri yalnız böyük şəhərlərdə deyil, bölgələrdə və kəndlərdə də aparmaq vacibdir, çünki yeniyetmələr mahiyyət etibarilə hər yerdə eynidir və qarşılaşdıqları problemlər yetkinlik yaşına çatmayanların əksəriyyəti üçün tipikdir. Ancaq mənfi təzahürlərin qarşısının alınması və uğursuz ailələrdən olan yeniyetmələrin sosial problem-

lərinin qarşısının alınması, digər dövlət və ictimai strukturlar və qurumlar, o cümlədən yeniyetmələr və gənclər klubları da daxil olmaqla, yaxın vaxtlara qədər olduğu kimi və bir çox cəhətdən bu gün də aktual qaldığı üçün hüquq mühafizə orqanlarının da ən çox fəaliyyət sahəsinə çevrilməkdədir. Uğursuz ailələrdən olan yeniyetmələr üçün gənclər mərkəzlərinin, gənclərə sosial xid-mət müəssisələrinin inkişaf müddətini stimullaşdırmaq və optimallaşdırmaq, lazımi dinamika vermək üçün yığılmış problemlərin funksional səviyyədə həllinə proqram məqsədli bir yanaşma tələb olunur.

Bu kimi mərkəzlərin fəaliyyəti aşağıdakı prinsiplərə əsaslanmalıdır:

- *Yeniyetmələrin sosial problemlərini həll etməyin tibbi-psixoloji və sosialpedaqoji metodları ilə birlikdə yeniyetmələr arasında deviant davranışın qarşısının alınması;*

- *Yeniyetmələrin törədə biləcəkləri hüquq pozuntularının erkən qarşısının alınması, yeniyetmələrin sosial-psixoloji uyğunlaşması tədbirləri;*

- *Eyni adlı ünsiyyət klubları təşkil edərək yaşayış yerində yeniyetmələr üçün sosiallaşmanın və ünsiyyət mühitinin yaradılması.*

Bununla yanaşı, uğursuz ailələrdən olan yeniyetmələr arasında alkoqolizm, narkomaniya, cinayətkarlıq kimi mənfi hadisələrin böyüməsi və yayılması ilə yanaşı, maddi təminatı az olan ailələrdən olan yeniyetmələrin sayının artması ilə əlaqədar olaraq, antisosial davranışlı yeniyetmələrə hərtərəfli yardım göstərmək üçün xüsusi qurumların yaradılması zərurətə çevrilir.

Əsasən, bir çox ölkələrdə hüquq-mühafizə orqanları yuxarıda sadalanan halların müşahidə olunduğu yeniyetmələrlə məşğul olur və mövcud sosial xidmətlər yalnız minimum səviyyədə bu işə yardım göstərir. Ancaq bir çox ölkələrdə, o cümlədən, Azərbaycanda aşağıdakıları ehtiva edən belə mərkəzlərə ehtiyac var:

- *Praktik yardım göstərmək üçün bölmələri olan profilaktik iş;*
- *Uğursuz ailələrə və uşaqlara sosial yardım mərkəzi;*
- *Eemosional və zehni böhranın qarşısının alınmasına, münaqişələrin aradan qaldırılmasına kömək edən yeniyetmələrə psixoloji və pedaqoji yardım mərkəzi;*
- *Təcili telefon xidməti ("yardım xətti");*
- *Kritik bir həyat vəziyyətinə düşən, yeniyetmələrə yardım və dəstək vermək üçün sosial reabilitasiya mərkəzi;*
- *Yetkinlik yaşına çatmayanlar üçün sosial və hüquqi müdafiə və hüquqi yardım xidməti;*
- *Küçə uşaqlarına, qaçaqlara və s. qoşulan yeniyetmələr üçün sosial sığınacaq.*

Buna əsasən, dövlətin və ümumiyyətlə, cəmiyyətin uğursuz ailələrdən olan uşaqlar və yeniyetmələrə münasibətdə bütün proqramlarının uğurlu icrası, yetkinlik yaşına çatmayanlarla iş mərkəzləri və xidmətlərinin yaradılması, məqsədyönlü işlərin mövcudluğu və yaşaması üçün əlverişli şəraitin yaradılmasına gətirib çıxara biləcəyi qənaətinə gəlmək olar. Əhalinin bu kateqoriyasının cəmiyyətdə düzgün inkişafını və gələcəyini təmin etmək nəinki valideynlərin, eyni zamanda cəmiyyətin borcudur, çünki

yeniyetmələr ölkəmizin gələcəyi, insan nəslinin davamçılarıdır.

Adaptasiya hər bir şagirdin həyatında çətin və xüsusi bir uyğunlaşma dövrüdür. Bütün uyğunlaşma dövrlərində uşaqlar yeni bir fəaliyyət növünə yiyələnir, yeni bir rol alır. Adaptasiya problemi uğursuz ailələrdən olan yeniyetmələrin və valideynlərinin ən sıx qarşılaşdığı problemlərdən biridir. Bu zaman yeniyetmə istər təhsil sahəsində, istərsə də sosial mühitdə ona yad olan yeni normalarla üzləşə bilər. Bu əsasən ailənin yaşadığı mühiti, təhsil ocağını dəyişməsi hallarında baş verir. Bu zaman yeniyetmə üçün başqa bir məktəb, yeni müəllimlər, sinif yoldaşları, yeni həyat tərzi onun üçün dəyişən böyük bir sosial qrup kimi görünür. Yeni bir fəaliyyət növünə yiyələnmə, adaptasiya prosesi, sosial mühitdəki dəyişikliklər, sosial rolla əlaqələndirilir. Uğurlu uyğunlaşma, qrupda inteqrasiyanı fərdi unikallığa və muxtariyyətə aid fərdiləşdirmə ilə birləşdirməyə kömək edir. Son vaxtlar 11-15 yaş arası uşaqların adaptasiya problemlərinə çox diqqət yetirilir. Bu məsələdə ən vacib məqamlardan birini inkişafın keçid mərhələsi məsələsi tutur. Müasir inkişaf vəziyyəti uşağın inkişafına yeni tələblər qoyur. Pedaqoji ədəbiyyatlarda ən çox rastl gəlinən problemlərdən biri uğursuz ailələrdən olan yeniyetmələrin təhsil mühitinə uyğunlaşmasında meydana gələn çətinliklərdir. Əsasən boşanmış ailələrdən olan yeniyetmələrdə, hər iki valideyni ilə yaşayan uşaqlara qarşı yaranan qeyri ixtiyari aqressiya, həmyaşıdları ilə ünsiyyətdə yaranan çətinliklər öz növbəsində təhsil keyfiyyətinə təsirsiz ötüşmür.

Bu mərhələdə ən azı iki qlobal problem önə çıxır:

- *Müəllimlərin yeni həyat standartlarına keçid almış yeniyetmə ilə davranışa psixoloji hazırlığı;*

- *Yeniyetmənin həmyaşıdlarının, sinif yoldaşlarının intellektual və fərdi inkişaf göstəriciləri.*

Müasir dövrdə təhsilə qoyulan tələblərin dəyişməsi ilə əlaqədar olaraq təhsil prosesinin təşkilinə dair tələblər də dəyişir. Şagirdlərin fəaliyyəti önə çıxır və müəllimin funksiyası şagirdləri yeni biliklərə yiyələnməyə yönəltməyə yönəlmişdir. Müasir məktəblinin, hər zaman özünü-təkmilləşdirmək, təhsilini uğurla davam etdirməsi üçün adaptasiya probleminin həllində istər valideynlərin, istərsə də müəllimlərin işi vəhdət təşkil etməlidir.

Pedaqoqikada "uyğunlaşma" anlayışı sosial mühitlə fərd arasında harmonik əlaqələrin qurulmasının nəticəsi və prosesi kimi qəbul edilir. I.F. İsaev, V.A. Slastenin, E.N. Şiyanov adaptasiya termininin mənşəyinin biologiyadan keçərək insanın sosial mühit şərtlərinə uyğunlaşma prosesi anlamına gəlməsi fikrini irəli sürüblər. "Sosial uyğunlaşma" anlayışı da belə meydana gəlmişdir. Adaptasiya fərdin müxtəlif sosial vəziyyətlərə, mikro və makroqruplara "uyğunlaşması" dır. Sosial uyğunlaşma fərdin və sosial mühitin qarşılıqlı əlaqəsi nəticəsində onları dəyişir, vasitəçilik edir və uyğunlaşmanın bioloji formalarını özündə əks etdirir.

Pedaqoji yanaşma çərçivəsində "uyğunlaşma" konsepsiyasının 5 təfsiri var. Onları nəzərdən keçirək.

Davranışçı istiqamət. B.F. Skinner, A. Bandurka uyğunlaşma üçün əsas şərtlərin tərbiyə şərtləri olacağına inanırlar. Onlar şəxsiyyətin inkişafının əsas mənbəyinin ətraf mühit olduğunu hesab edirlər. Uyğunlaşmanın in-

teraktiv konsepsiyasında, İ. Fillips, T. Şibutaninin əsərlərinə görə uyğunlaşma ətraf mühitin təsirlərinə iki növ reaksiya ilə ifadə olunur:

- Cəmiyyətin norma və dəyərlərinin uyğun qəbul edilməsi. T.Şibutani bu tip sosial yetkinlik haqqında yazmışdır.
- Daha spesifik bir mənada uyğunlaşma yalnız sosial normaları qəbul etmək deyil: potensial təhlükəli və yeni şərtlərlə işlərdə səmərəli və çevik olmaq, habelə hadisələrə istədikləri istiqaməti vermək bacarığı deməkdir. Bu mənada uyğunlaşma, bir şəxs tərəfindən dəyərlərinin, istəklərinin, məqsədlərinin reallaşması üçün yaradılan şəraitdən uğurlu istifadə deməkdir.

Koqnitiv istiqamətin nümayəndələri J.Piaje, L.Festinger yeniyetmələrdə zəkanın adaptiv xüsusiyyətlərini təhlil etmiş və inkişaf etmiş intellektual qabiliyyətlərin şəxsiyyət uyğunlaşması üçün bir şərt ola biləcəyi qənaətinə gəlmişlər. A.V. Petrovskinin konsepsiyasında uyğunlaşma bir yeniyetmənin həyatında gələcək fərdi inkişafının xarakterindən asılı olduğu xüsusi bir məqam kimi qəbul edilir. A.A. Nalçadjian yeniyetmələrin adaptasiyasını tipik bir problem vəziyyətində, quruluşunda patoloji dəyişikliklər etmədən, eyni zamanda şəxsiyyətin fəal olduğu sosial qrupun normalarını pozmadan şəxsiyyətin sabit uyğunlaşmasına gətirib çıxaran bir proses kimi başa düşür. Uyğunlaşmadakı problemlər çox vaxt onların sosial mühitinin fəaliyyətindəki kardinal dəyişiklik dövrləri ilə əlaqələndirilir. Buna görə yuxarıda qeyd olunan hər şey haqlı olaraq bir təhsil mühitində bir yeniyetmənin formalaşması və inkişafı prosesinə aid edilə bilər.

Təhsil mühitinə uyğunlaşma, yeniyetmənin psixi sağlamlığını qorumaqla yanaşı faktiki ehtiyaclarını ödəməsinə imkan verən məktəb mühitinin dəyişən şərtlərinə fəal uyğunlaşma prosesi və nəticəsi kimi başa düşülür. Yeniyetməlik dövründə uşaqların həmyaşıdları və böyüklər ilə əlaqələrin və təməl təhsil münasibətlərinin yeni formaları inkişaf etməyə başlayır, hansı ki, bu münasibətlər gələcəkdə onun ünsiyyət tərzinin effektivliyini, uğurunu, məktəb mühitində fərdi özünü dərk etmə imkanlarını əhəmiyyətli dərəcədə müəyyən edəcək olan uşağın dünya və özü ilə münasibətlərinin təməli hesab olunur.

Y.L. Kolominskiy və E.A. Panko uğursuz ailələrdən olan yeniyetmələrin uyğunlaşma səviyyələri üçün aşağıdakı meyarları müəyyənləşdiriblər:

- *Təlimin uğuru; akademik performans, əsas fənlər üzrə bacarıq, bacarıq və biliklərə yiyələnmə, təlimə münasibət;*
- *Şəxsiyyətlərarası münasibətlər quruluşundakı mövqe: status, emosional rifah, ünsiyyətlilik;*
- *Sosial fəaliyyət: ictimai faydalı fəaliyyətlərdə iştirak, müstəqillik, təşəbbüs.*

Uğursuz ailələrdən olan yeniyetmələrin məktəbdəki problemləri ən çox uyğunlaşma səviyyələrinə əsaslanan şəxsiyyətin fərdi xüsusiyyətləri ilə əlaqələndirilir. G.M. Çutkina uğursuz ailələrdən olan yeniyetmələrin məktəbə uyğunlaşmasının üç səviyyəsini müəyyən etmişdir:

1. *Yüksək səviyyədə uyğunlaşma.*

Şagird məktəbə müsbət münasibət bəsləyir, təqdim olunan şərtləri adekvat qəbul edir; onun üçün təlim materialını öyrənmək asandır; proqram materialını dərindən və

tamamilə mənimsəyir; mürəkkəb problemləri həll edir, müəllimin təlimatlarını, əsaslarını diqqətlə dinləyir, xarici nəzarət olmadan təlimatları icra edir; həvəslə və vicdanla sosial tapşırıqlar verir; sinifdə əlverişli bir status, mövqeyi tutur. Bu vəziyyətdə yeniyetmədə özünüidarənin, təhsil motivasiyasının, məktəbə qarşı müsbət münasibətin və inkişaf etmiş ünsiyyət bacarıqlarının əlamətləri mövcuddur;

2. *Orta uyğunlaşma səviyyəsi.*

Şagird məktəbə müsbət münasibət bəsləyir, onu ziyarət etmək mənfi təcrübələrə səbəb olmaz, müəllim onu ətraflı və aydın izah edərsə, tədris proqramının əsas məzmununu mənimsəsə, standart problemləri müstəqil həll edə bilər. Bununla belə, yetkin bir şəxsdən aldığı tapşırıqları, təlimatları yerinə yetirərkən ehtiyatlı və diqqətli davranmağı üçün nəzarət tələb oluna bilər. Belə olan halda yeniyetmənin fikrini yalnız onun üçün maraqlı bir şeylə məşğul olduqda cəmləmək mümkün olur. Bütün bunlara baxmayaraq, yeniyetmə ictimai tapşırıqları vicdanla yerinə yetirir və bir çox sinif yoldaşı ilə dostluq münasibəti qurur;

3. *Aşağı uyğunlaşma səviyyəsi.*

Yeniyetmənin məktəbə mənfi və ya laqeyd münasibəti var; sağlamlıqdan şikayətlər var; depressiv əhval-ruhiyyə üstünlük təşkil edir; intizam pozuntuları var; müəllimin izah etdiyi materialı hissə-hissə başa düşür; dərsliklə müstəqil işləmək çətindir; müstəqil təhsil tapşırıqlarını həll edərkən maraq göstərmir; dərslərə intizamsız və sistemsiz hazırlaşır, müəllimdən və valideynlərdən davamlı nəzarət, davamlı xatırlatmalar və motivasiya lazımdır; istirahət fasilələrindən sonra fikrini cəmləyə

bilmir iş qabiliyyətində və diqqətində problemlər yaranır; yeni şeyləri anlamaq və problemləri modelə uyğun həll etmək üçün müəllimin və valideynlərin əhəmiyyətli təhsil köməyi lazımdır; sosial tapşırıqları nəzarət altında, çox istəksiz, passiv şəkildə yerinə yetirir; yaxın dostu yoxdur. Əslində, bu, artıq yeniyetmənin təhsil pozğunluqları, davranış, münaqişə münasibətləri, agressiv reaksiyalar, yüksək narahatlıq səviyyəsi, fərdi inkişafdakı təhriflər şəklində məktəbə uyğunlaşma mexanizmlərinin qeyri-adekvat formalaşması kimi ifadə olunan "məktəb dezataptasiyasının" göstəricisidir.

Uğursuz ailələrdən olan yeniyetmələrin məktəbə əlverişli uyğunlaşmasının əsas göstəriciləri bunlardır:

- *Şagirdlərlə, müəllimlərlə əlaqə qurmaq;*
- *Adekvat davranışın formalaşması;*
- *Təhsil fəaliyyətinin bacarıqlarına yiyələnmək.*

Məktəbə uğurlu uyğunlaşma prosesinin meyarı ilk növbədə zehni və fiziki sağlamlığın lazımi səviyyədə olmasından qaynaqlanır. Dezataptasiya uşağın idrak, fərdi və sosial sahəsindəki mənfi dəyişikliklərindən qaynaqlanır.

Uyğunlaşma probleminə əsas iki yanaşma müəyyən edilmişdir: bioloji və sosial mövqedən. A.V. Petrovskinin konsepsiyasında uyğunlaşma bir insanın həyatında gələcək fərdi inkişafının xarakterindən asılı olduğu xüsusi bir məqam kimi qəbul edilir. A.A. Nalçadjian adaptasiyanı tipik bir problem vəziyyətində quruluşunda patoloji dəyişikliklər etmədən, eyni zamanda şəxsiyyətin fəal olduğu sosial qrupun normalarını pozmadan şəxsiyyətin sabit uyğunlaşmasına gətirib çıxaran bir proses kimi başa düşür. G.M. Çutkina məktəbdə uğursuz ailələrdən olan

yeniyetmələrin uyğunlaşma səviyyəsini təsvir edərkən, öyrənmə səviyyəsindən asılı olmayaraq bu göstəricilərin dəyişkən olduğuna diqqət çəkmişdir. Yüksək öyrənmə motivasiyası, məktəbə qarşı müsbət münasibət və inkişaf etmiş ünsiyyət bacarıqları ilə xarakterizə olunan, yüksək səviyyədə xarakterizə edilən yeniyetmə valideynləri tərəfindən diqqətsiz və nəzarətsiz qalarsa çox keçməz ki, təhsil prosesinə bitərəf münasibət, ünsiyyət bacarıqları orta səviyyədə olan inkişaf səviyyəsinə enər. Aşağı səviyyədə yer alan bir yeniyetmənin isə məktəbə qarşı mənfi münasibət, nizam-intizamın pozulması, dostluq edə bilməmək kimi problemlərinin öhdəsindən gəlməsi üçün valideynlərin uğurlu tərbiyə metodları seçməsi, müəllim valideyn işinin birgə vəhdəti lazımdır.

Bütün bu göstəricilərə əsasən uğursuz ailələrdən olan uşaqların məktəbdə uğurlu başlanğıcı və yeniyetmələrin gələcək təhsil və həyat yolundakı adaptasiya problemlərinin həll olunması yalnız uşağın intellektual inkişaf səviyyəsindən asılı deyil. Uğursuz ailələrdən olan yeniyetmələrin adaptiv resurslarının inkişaf modeli bu prosesin meyarlarını, göstəricilərini və mərhələlərini aydın şəkildə təsvir edən dinamik bir sistem kimi qəbul edilir. Məqsəd uyğunlaşma mənbələri və onlarla əlaqəli uğursuz ailələrdən olan yeniyetmələrin şəxsiyyət xüsusiyyətləri üçün bir alqoritm hazırlamaqdır.

Aktiv həyat strategiyasının formalaşması, konstruktiv qarşılıqlı fəaliyyətə yönəlmiş davranışın inkişafı, təhsil fəaliyyətinin səmərəliliyinin artması, sosial dəyərlərin aktuallaşdırılması və.s. bu resursların əsasını təşkil edir. Emosional, kommunikativ-davranış, motivasiya və idrak-dəyər sferalarındakı dəyişikliklərin səviyyəsi, uğursuz

ailələrdən olan yeniyetmələrin adaptiv resurslarının inkişafının əsas meyarı kimi qəbul edilir. Uğursuz ailələrdən olan yeniyetmələrin adaptiv resurslarının inkişafı üçün hazırlanmış model, uyğunlaşma prosesinin psixoloji, psixofizioloji və sosial-pedaqoji komponentlərinin qarşılıqlı əlaqəsini təmin edən motivasiya, emosional, idrak-dəyər və kommunikativ davranış xarakterli blokları əhatə edir.

Seçilmiş meyarlar və bloklar, uğursuz ailələrdən olan yeniyetmələrin adaptiv resurslarının inkişaf prosesinin səviyyətlərinə cavab verməlidir. Uğursuz ailələrdən olan yeniyetmələrin adaptiv resurslarının inkişafı modelinin hər bir meyarı öz göstəricilərinə malikdir.

Motivasiya meyarına uyğun olaraq, özünə hörmət və arzuların səviyyəsi təsir obyektləridir. Emosional meyara, astenik reaksiyalara və vəziyyətlərə uyğun olaraq, bir gəncin ruhi sağlamlıq səviyyəsi təsir obyektləri kimi çıxış edir. Yeniyetmənin idrak-dəyər meyarına, psixotik reaksiyalarına və hallarına uyğun olaraq, əxlaqi normativlik təsir obyektləri çıxış edir.

Kommunikativ - davranış meyarına uyğun olaraq isə fərdi uyğunlaşma potensialı, kommunikativ potensial, uyğunlaşma pozuntusu və davranış tənzimlənməsi təsir obyektləri kimi çıxış edir. Uğursuz ailələrdən olan yeniyetmələrin adaptiv resurslarının inkişafı üçün əhəmiyyətli psixoloji və pedaqoji şərtlər bunlardır:

- *Uyğunlaşma prosesinin psixoloji, psixofizioloji və sosial-pedaqoji komponentlərinin tamamlanması;*

- *Bu prosesin motivasiya, emosional, idrak - dəyər və kommunikativ davranış meyarlarının qarşılıqlı əlaqəsi prinsipi;*

- *Mərhələli xarakter daşıyan və yeniyetmənin adaptiv resurslarının artırılmasına və onlarla əlaqəli şəxsiyyət xüsusiyyətlərinin dəyişdirilməsinə yönəlmiş sistematik fəaliyyətin təşkili;*

- *Yeniyetmələrin təhsil və asudə fəaliyyətində adaptiv mənbələrin formalaşmış xüsusiyyətlərinin həyata keçirilməsi üçün imkanların mövcudluğu.*

Yeniyetmələrlə iş ailələri ilə sosial və psixoloji fəaliyyətləri də əhatə etməlidir. Pedaqoji tədqiqatlardan əldə edilmiş nəticələrin müqayisəsi, uğursuz ailələrdən olan yeniyetmələrin uşaq - valideyn münasibətlərində kommunikativ davranış sahəsindəki pozuntuları göstərən və fərdi xüsusiyyətlərin müəyyən inversiyalarına səbəb olan bir sıra xüsusiyyətlərin olduğunu göstərir:

- *Uğursuz ailələrdən olan yeniyetmələr, emosional və idrak - dəyər meyarı bariz uyğunlaşma pozğuntuları ilə xarakterizə olunur;*

- *Həm bu, həm də digər göstəricilərin əhəmiyyətli dərəcədə təsiri deaptasiya pozuntularının şiddətinə və kommunikativ - davranış meyarına görə təsir göstərir.*

Uğursuz ailələrdən olan yeniyetmələr aşağıdakılarla xarakterizə olunur:

- *İnkişaf etmiş kommunikativ potensialın və fəaliyyət müddətində sosial mühit və ətrafdakılarla qarşılıqlı əlaqələrini kifayət qədər tənzimləmək qabiliyyətinin olmaması (bu, əhəmiyyətli insanlardan sosial dəstək çatışmazlığı ilə müşayiət olunur);*

- *Uğursuz ailələrin yeniyetmələri, firavan ailələrin yeniyetmələrindən daha az dərəcədə mənəvi normalara və sosial qaydalara riayət etməyə meyillidirlər.*

Uğursuz ailələrdən olan yeniyetmələr qrupunda, fərdi uyğunlaşma potensialının inkişaf səviyyəsi aşağı olan çox sayda insan müəyyən edilmişdir. Bu göstəricilər sadalanan sosial uyğunlaşma prosesinin bariz pozuntularını göstərir:

- *Yeniyetmənin sosial hadisələrə qeyri-adekvat reaksiyaları;*
- *İnsanlara və hadisələrə ziddiyyətli münasibətlər;*
- *Fərdi inanclar sisteminin sosial normalar və dəyərlər sistemi ilə uyğunsuzluğu;*
- *Yeniyetmələrin davranışının zehni normalardan açıq kənarlaşma halları;*
- *Şəxsiyyətlərarası qarşılıqlı münaqişələr və s.*

Uğursuz ailələrdən olan yeniyetmələr arasında özünə hörmətsizlik və arzuların səviyyəsinin birtərəfli olması meyli aşkar olunmuşdur. Bu tip ailələrdən olan yeniyetmələrin özünü təsdiqləmək üçün səy göstərə bilmədiklərini, sabit həyat planlarının mövcudluğu ilə xarakterizə edilmədiklərini, mahiyyət etibarilə həddindən artıq özlərini tənqid etdiklərini göstərir. Öz növbəsində, bu hallar yeniyetmənin adaptiv qabiliyyətlərinin və ehtiyatlarının pozulması ilə müşayiət olunur.

Uğursuz ailələrdən olan yeniyetmələrin adaptiv resurslarını inkişaf etdirməyə yönəlmiş proqramda adaptiv mənbələrin dinamikasında müxtəlif xüsusiyyətlər aşkar edilmişdir:

- Astenik reaksiyalar və şərtlər;
- Ünsiyyət potensialının səviyyəsi;
- Davranış tənzimləməsinin səviyyəsi;
- Əxlaqi normativlik səviyyəsi;
- Fərdi uyğunlaşma potensialının səviyyəsi.

Adaptiv mənbələr dəyişən şəraitdə şəxsi resursları, özünütənzimləmə və özünü həyata keçirmə proseslərini birləşdirən kompleks bir fenomendir. Eyni zamanda, sosial-psixoloji uyğunlaşma, insanın adaptiv resursların ən dolğun həyata keçirilməsinə töhfə verən sosial qarşılıqlı əlaqələrin təşkili prosesi kimi qəbul edilir.

Adaptiv resursların aşağı səviyyədə inkişafı dezataptasiyanın meydana gəlməsinə səbəb ola bilər. Elmi ədəbiyyatda "funksional olmayan ailə", "uğursuz ailə" anlayışlarının dəqiq bir tərifi yoxdur. Bu konsepsiyanın sinonimlərindən daha çox istifadə olunur: dağıdıcı ailə, funksional olmayan ailə, risk qrupuna daxil olan ailələr, ahəngdar olmayan ailə. Belə bir ailənin qarşılaşdığı problemlər həyatın müxtəlif aspektləri ilə əlaqəlidir: sosial, hüquqi, maddi, tibbi, psixoloji, pedaqoji və s. Məsələn, sosial problemlər ailədaxili münaqişələrə səbəb olan psixoloji stresə səbəb olur; maddi məhdudiyyət təcili ehtiyacların ödənilməsinə imkan vermir, yetkinlərin və uşaqların fiziki və zehni sağlamlığına mənfi təsir göstərir.

Elmi ədəbiyyatda uğursuz ailələrin və bu ailələrdə tərbiyə alan yeniyetmələrin davranış strategiyası və müasir cəmiyyətin şərtlərinə uyğunlaşma perspektivlərinin seçilməsi, ailələrin öz imkanlarını realizə etməyə və ya ehtiyaclarının səviyyəsini dəyişdirməyə hazırlıq və ya tam əksi nəzərə alınmaqla, müasir cəmiyyətin şərtlərinə uyğunlaşma perspektivinin seçilməsi barədə fikir mövcuddur.

Məlumdur ki, bir uşağın uğursuz bir ailədə yaşamasının özü onun üçün bir sıra ciddi həyat problemlərinin, o cümlədən, adaptasiya problemlərinin yaranması üçün bir şərtdir. Tək valideynli ailələrdən olan yeniyetmələr arasın-

da həm kəskin, həm də xroniki formaların (daha ağır gedişlə xarakterizə olunan) xəstəlikləri əhəmiyyətli dərəcədə yüksəkdir.

Çoxsaylı tədqiqatlar ümumiyyətlə, uğursuz ailələrdə tərbiyə olunan uşaqların tam ailələrin uşaqlarına nisbətən zehni və emosional pozğunluqlarla yanaşı sosial adaptasiya ilə əlaqədar daha çox əziyyət çəkdiklərini göstərmişdir. Yeniyetmələrin adaptasiya problemlərinin səbəbini tədqiq etmək və onları aradan qaldırmaq üçün ailədaxili problemlərin təhlili, bunun üçün isə valideynlər, əsasən də valideynlər və uşaqlar arasındakı əlaqəni qiymətləndirmək xüsusilə vacibdir. Məlumdur ki, yetkin yaşa çatmış və öz ailəsini qurmuş bir uşaq, əslində, istər-istəməz onda valideynlər arasındakı münasibətlərin təbiətinin təsiri altında uşaqlıqda formalaşmış ünsiyyət tərzini təkrarlayır.

Müasir psixologiya və pedaqoqikada adaptasiya problemi pedaqoq - psixoloqlar tərəfindən tərəfindən geniş və hərtərəfli tədqiq olunur. Elmi ədəbiyyatların təhlili göstərir ki, yeniyetmələrin uyğunlaşma problemi psixoloji, fəlsəfi, tibbi, bioloji və sosial baxımdan nəzərdən keçirilir.

B.G. Ananyevin, V.A Petrovskinin əsərləri yeniyetmələrin adaptasiya probleminin metodoloji aspektlərinə həsr olunmuşdur. S.A. Şapkin və L.G. Dikaya uğursuz ailələrdən olan yeniyetmələrin adaptiv problemləri ilə əlaqəli bu və ya digər dərəcədə üç əsas tədqiqat istiqamətləri ayırırlar:

1. Birinci istiqamət tibbi və psixoloji aspektlərdir. Bu istiqamətda tədqiqat fərdi proseslərin ön plana çıxdığı müxtəlif stresli şəraitlərdə yeniyetmələrin tibbi və psixoloji uyğunlaşma komponentləri ilə əlaqələndirilir (fərdin

ehtiyac motivasiya sferasının dinamikası və harmoniyası, uyğunlaşma mövzusunun öz "mən"i ilə təmas qurması və.s). Bu sahədəki uyğunlaşma, stresli bir vəziyyətdən yaranan mənfi təsirləri əks etdirən, eyni zamanda bu təsirləri aradan qaldırmaq üçün əhəmiyyətli bir qaynaq olan və bu səbəbdən adaptiv mexanizmlərin anlaşılmasında əhəmiyyətli bir rol oynayan müəyyən bir mövzu və peşə fəaliyyəti kontekstindən kənarda öyrənilir;

2. Müəlliflərə görə psixofizyoloji aspekt uyğunlaşma fenomeninin tədqiqatlarının ikinci istiqaməti, ətrafdakı sosial və peşə mühitindəki dəyişikliklər (peşəkar işlərin həyata keçirilməsi zamanı yüksək iş yükü, səs-küy fonu) şəraitində fərdi orqanların (orqan sistemlərinin) və onların təmin etdikləri zehni proseslərin psixofizioloji təsviri ilə əlaqələndirilir. Bu istiqamət çərçivəsində adaptasiya daxili homeostazın əldə edilməsinə və qorunmasına yönəldilmiş bədənin müxtəlif psixofizioloji sistemlərinin balanslaşdırılması, yenidən qurulması prosesi kimi çıxış edir. Yeniyetmələrin tədqiq olunan fəaliyyəti zamanı psixofizioloji göstəricilərdə və onların dinamikasında obyektiv qeydə alınan dəyişikliklər uyğunlaşma mərhələlərini müəyyənləşdirmək üçün əsas rolunu oynayır;

3. Şərtlərin hərtərəfli öyrənilməsi sahəsinə əmək fəaliyyəti zamanı yeniyetmələrin zehni və funksional vəziyyətinin hərtərəfli öyrənilməsi üzərində aparılan tədqiqatlar daxildir. Məsələyə bu kontekstdən yanaşdıqda, adaptasiyanın həm insanın xaricində, həm də daxilində mövcud olan "alt sistemli" və "metasistemli" ziddiyyətlərin qarşılıqlı təsiri kimi görünür. Bu mərhələdə adaptasiyanın quruluşu və dinamikası açıq sistemdə tarazlaş-

dırma prosesi kimi öyrənilir və bu müddət ərzində yeni sistem keyfiyyətləri əldə edilir.

D.V.Olşanskinin fikrincə, yeniyetmələrin sosial adaptasiyası fərdi və ya sosial qrupun sosial mühitlə qarşılıqlı tələb və gözləntilərinin əlaqələndirildiyi qarşılıqlı əlaqə növüdür. Eyni zamanda, uyğunlaşmanın ən vacib komponenti, subyektin özünə hörmət və iddialarının onun imkanları və sosial mühitin gerçəkliyi ilə uzlaşmasıdır, o cümlədən, ətraf mühitin və subyektin inkişaf meyilləri nəzərə alınmaqla psixoloji uyğunlaşma səviyyəsi şəxsiyyətin fəaliyyət səviyyəsi ilə müəyyənləşdirilir.

A.A. Rean bu tərifi belə izah edir: "Uyğunlaşma fərdi daxili mövcud dəyişikliklər, xarici aktiv uyğunlaşma və özünü dəyişdirmə prosesi və nəticəsidir". Üstəlik, uyğunlaşma fenomeninin ən mürəkkəb və heteroqen cəhətləri adaptasiya prosesinin psixofizioloji, davranış, idrak və subyektiv - fərdi komponentlərinin ayırd edilə biləcəyi çoxşaxəli yeniyetmə fəaliyyətində və davranışında özünü göstərir.

A.B. Georgievski hesab edir ki, "uyğunlaşma xarici və daxili mühitin təsiri sistemləri tərəfindən əks olunan xüsusi bir formadır, bu da onlarla dinamik bir tarazlıq qurma meylindən ibarətdir". S.İ.Stepanovaya görə, uyğunlaşma inteqral və eyni zamanda ziddiyyətli həyat prosesinin keyfiyyət sabitliyinin əsasında dayanır. Müəllif uğursuz ailələrdən olan yeniyetmələrin adaptasiya prosesinin uyğunsuzluğunun daxili və xarici tərəflərini vurğulayır, çünki adaptasiya prosesi ətraf mühitlə razılaşma və onunla uyğunsuzluğin dialektik birliyidir. Adaptasiya müddəti ərzində əsas sosial və psixoloji uyğunlaşma prosesləri baş verir.

Yeniyetmənin özünəməxsusluğunun əsasını təşkil edən psixososial şəxsiyyətin formalaşması üç əsas inkişaf vəzifəsini əhatə edir:

- Yeniyetmənin uşaqlıq keçmişi və yetkin gələcəyi daxil olmaqla "mən" konsepsiyasının dərk edilməsi;
- Özünün valideyn şəkillərindən fərqli olaraq tanıma;
- Fərdin gələcəyini təxmin edən seçimlər sisteminin həyata keçirilməsi.

Uğursuz ailələrdə formalaşan uşaqların yeniyetməlik dövründə fərdin adaptiv resurslarının formalaşmasına və inkişafına təsir göstərən dominant, onu tez-tez müəyyən edən amillərdən biri, ailədə yeniyetmənin inkişafının sosial vəziyyətidir. Ailədəki tərbiyə işləri gücləndirmə mexanizmi əsasında həyata keçirilir - böyüklərin düzgün hesab etdikləri davranışı təşviq etmək və müəyyən olunmuş qaydaları pozduğuna görə cəzalandırmaqla, valideynlər uşağın ağlına müəyyən normalar sistemini tətbiq edirlər ki, bunlara riayət etmək tədricən vərdişə və uşağa daxili ehtiyaca çevrilir; identifikasiya mexanizmi - uşaq valideynlərini təqlid edir, onların nümunəsinə diqqət yetirir, eyni olmağa çalışır. Valideynlərin təlim-tərbiyə fəaliyyətlərini nəzərdən keçirərkən, bir yeniyetmənin adaptiv mənbələrini təsir edən aşağıdakı cəhətlər fərqlənir: müxtəlif tərbiyə üslubları; tərbiyə təsirinin amilləri; valideynlərin tərbiyə mövqeyi və s.

Valideynlər tərəfindən həyata keçirilən şüurlu, məqsədyönlü tərbiyə ilə yanaşı, yeniyetməyə bütün ailə mühiti, ailə şəraiti təsir edir. Bu siyahıya sosial vəziyyət, məşğuliyyət, maddi səviyyə, təhsil səviyyəsi, ailə üzvlərinin dəyər istiqamətləri və.s aid edilir. Baxılan bütün

məsələlər, uğursuz ailələrdən olan yenitemələrin adaptasiya xüsusiyyətlərini təhlil edərkən xüsusi əhəmiyyət qazanır.

Yeniyetmənin adaptiv mənbələri onun fərdi resurslarını, sosial mühitin dəyişən şəraitində özünütənzimləmə və özünü dərk etmə proseslərini birləşdirən kompleks bir fenomendir. Öz növbəsində, uğursuz bir ailədə tərbiyə alan yeniyetmənin inkişafı onun adaptiv potensialının azalmasına səbəb olur. Uğursuz ailələrdən olan yeniyetmələrin adaptiv resurslarının inkişafı modeli, yeniyetmənin həyatının xarici və daxili komponentlərinin qarşılıqlı təsirinə əsaslanır və aşağıdakı elementləri əhatə edir:

- *Adaptasiya mənbələrinin inkişafı üçün motivasiya meyarına uyğunlaşma, uyğunlaşma prosesinin psixoloji komponenti;*

- *Adaptasiya resurslarının inkişafı üçün emosional meyara uyğunlaşma, uyğunlaşma prosesinin psixofizioloji komponenti;*

- *Adaptasiya resurslarının inkişafı üçün idrak-dəyər meyarına uyğunlaşma, uyğunlaşma prosesinin sosial-pedaqoji komponenti;*

- *Adaptiv resursların inkişafı üçün kommunikativ-davranış meyarına uyğun olan şəxsiyyətlərarası qarşılıqlı əlaqə sahəsi.*

Uğursuz ailələrdən olan yeniyetmələrin adaptiv resurslarının inkişafı prosesinin effektivliyi aşağıdakı psixoloji və pedaqoji şərtlərin birləşməsi ilə müəyyən edilir:

- *Uyğunlaşma prosesinin psixoloji, psixofizioloji və sosial-pedaqoji komponentlərinin bir-birini tamamlaması;*

*- Bu prosesin motivasiya, emosional, idrak-dəyər və kommunikativ-davranış meyarlarının qarşılıqlı əlaqə prinsipinə əməl edilməsi;*

*- Mərhələli xarakter daşıyan və yeniyetmənin adaptiv resurslarının artırılmasına və onlarla əlaqəli şəxsiyyət xüsusiyyətlərinin dəyişdirilməsinə yönəlmiş sistematik fəaliyyətin təşkili.*

Qeyd etmək lazımdır ki, uğursuz ailələrdən olan yeniyetmələrdə adaptiv resursların psixoloji məzmununu müəyyən etmək üçün valideynlərlə aparılan iş sosial və psixoloji fəaliyyətləri əhatə etməlidir. Yalnız aparılan kompleks yanaşmalarla, yeniyetmənin valideynlərinin və ailə üzvlərinin hər biri ilə aparılan fərdi işlərlə bu məsələnin gələcək həllində düzgün metodların seçilməsinə və onların praktikada tədbiqinə nail olmaq mümkündür.

Uğursuz ailələrdə hüquqi sənədlərdən şagirdlərin tərbiyə işinə uyğun istifadə imkanı, yüksək səviyyədə təhsil alan peşəkar kadrlar ölkənin intellektual potensialının əsasını təşkil edir. İndiki mərhələdə ölkələrin uğurlu və davamlı iqtisadi böyüməsi insan kapitalının məqsədyönlü inkişafı sayəsində əldə edilmişdir. Bütün bunlar tədricən dövlət xərclərində təhsilin prioritetini artırır. Dövlətin təhsilə xərclədiyi vəsait cəmiyyət üçün yüksək iqtisadi bir gəlirə malikdir. Təhsilin iqtisadi həyatda rolu xeyli artmışdır. Hazırda təhsil iqtisadiyyatda tələb olunan bilik və bacarıqları aşılamaqla yanaşı, bir vətəndaşı gələcək həyata və cəmiyyətə inteqrasiya üçün hərtərəfli hazırlamaq kimi bir vəzifəni yerinə yetirməlidir.

Bir insanın ömür boyu təhsil almaq ehtiyacının ödənməsi iqtisadi həyatda təhsilin rolunu artıran amillərdən ən vacibidir. Eyni zamanda sürətli texnoloji tərəqqi

bilik və bacarıqların mütəmadi olaraq yenilənməsini tələb edir. Bu da öz növbəsində yeni və daha məqbul bir ixtisasa yiyələnmək və səriştələrin inkişaf etdirilməsinə olan tələbi artırır.

Orta gəlirli ölkələr arasında artan rəqabət, sürətli texnoloji tərəqqi nəticəsində ixtisaslarda tez-tez dəyişikliklər təhsilin keyfiyyətinə olan tələbi daha da artırdı. Digər tərəfdən, yalnız təhsildə iştirak səviyyəsinin artırılması və təhsil infrastrukturunun genişləndirilməsi insanların bilik və bacarıqlarının artırılmasına tam zəmanət vermir. Təhsilin infrastrukturu zəruri bir amil olmasına baxmayaraq, bilik və bacarıqları təhsil müəssisələrinin sayı və təhsil müddəti ilə deyil, təlim prosesinin keyfiyyəti ilə əldə edirlər. Son vaxtlar bir sıra ölkələrdə təhsilin inkişafı üçün təhsil infrastrukturuna, yeni avadanlıqlarla təchiz olunmasına xeyli vəsait xərclənmişdir, lakin bu ölkələrdə təhsilin nəticələrində müsbət irəliləyiş yoxdur. Ümumi təhsilini başa vurmasına baxmayaraq saymaq, oxumaq və yazmaq bacarığı olmayan çox sayda insan var.

Buna görə də təhsilin keyfiyyətini təmin etmək ən başlıca strateji prioritet olmalıdır. Təhsilin keyfiyyəti və əhatə dairəsinə dair yeni tələblər "təhsil sistemi"anlayışına baxışı və uğursuz ailələrdən olan uşaqların tərbiyə işində istifadəsinidə yenilənib. Bildiyimiz kimi müasir təhsil sistemində rəsmi təhsil forması ilə yanaşı (dövlət təhsili sənədinin təqdimatı ilə bitən) qeyri-rəsmi (özünütəhsil yolu ilə bilik əldə etmə, müxtəlif kurslarda, dərnəklərdə və fərdi dərslərdə əldə edilən və təhsil haqqında dövlət sənədinin təqdimatı ilə müşayiət olunmayan) təhsil forması da fəaliyyət göstərir. Təməl bacarıqları uşaqlığın ilk illərində inkişaf etdiyindən, uşaqların zehni qabiliy-

yətlərini kiçik yaşlarından inkişaf etdirmək vacibdir. Buna görə məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur. Bu sahədə əsas diqqətin isə uğursuz ailələrdən olan uşaqların təlim-tərbiyə işinin məktəbin ilk günlərindən etibarən düzgün formalaşdırılmasına və hüquqi sənədlər çərçivəsində aparılmasına yönəldilməsi labüddür.

Uşaq Hüquqları Konvensiyasının preambulasında qeyd edilib ki, cəmiyyətin əsas təməl vahidi ailənin, həmçinin onun bütün üzvlərinin, əsasən də uşaqlarının gələcəyi və rifahı üçün lazımi qoruma və dəstək göstərilməlidir ki, təlim-tərbiyə prosesinin məsuliyyətini tam olaraq öz üzərinə götürə bilsin. Bununla belə, uşaq şəxsiyyətinin ahəngdar və tam inkişafı üçün onun ailə mühitində, sevgi, xoşbəxtlik və anlayışla əhatə olunan atmosferdə böyüməsi labüddür.

Ailə qanunvericiliyində ailənin möhkəmləndirilməsi, bütün ailə üzvlərinin bir-birinə olan qarşılıqlı hörmət, sevgi, qarşılıqlı yardım və məsuliyyət hisslərinə söykənən ailə münasibətlərinin qurulması, bununla belə ailə işlərinə kiminsə qeyri etik, özbaşına müdaxiləsinin yolverilməzliyi, həmçinin ailə üzvlərinin hüquqlarından yer alan bu hüquqların məhkəmə qarşısında müdafiəsi imkanlarını özündə cəmləşdirir.

Ailə münasibətlərinin tənzimlənməsi qadın ilə kişinin nikahının könüllülük prinsipləri, həmçinin ailədə ər-arvadın hüquq bərabərliyi, o cümlədən ailədaxili məsələlərin qarşılıqlı anlaşma yolu ilə həlli, gələcəkdə uşaqların təhsilinin prioriteti, eyni zamanda onların rifahının təmin olunması və inkişafına qayğı, həmçinin ailədə yetkinlik yaşına çatmayanların, o cümlədən əlil ailə

üzvlərin hüquq və mənfəətlərinin qorunmasının təmin edilməsi qaydalarına uyğun olaraq həyata keçirilir. Vətəndaşların ailədəki hüquq və öhdəlikləri sadəcə ailə məcəlləsində, o cümlədən yalnız digər ailə üzvlərinin və vətəndaşların sağlamlığını, əxlaqını, hüquqlarını və qanuni mənafelərini qorumaq naminə lazım olan dərəcədə və qaydada məhdudlaşdırıla bilər.

Azərbaycan Respublikasının Ailə Məcəlləsi, ailə üzvlərinin hüquqlarını həyata keçirmələri və vəzifələrini yerinə yetirmələri, digər ailə üzvlərinin və digər vətəndaşların hüquqlarını, azadlıqlarını və qanuni maraqlarını pozmamalı olduğunu vurğulayır. Analıq, atalıq, tərbiyə, uşaqların təlim-tərbiyəsi və ailə həyatının digər məqamları ər-arvad bərabərliyi prinsipindən irəli sürülərək ər-arvad tərəfindən birlikdə həll olunur. Həyat yoldaşları ailədəki mövcud münasibətlərini qarşılıqlı hörmət anlayış və qarşılıqlı yardım əsasında qurmağa, ailənin gələcək rifahını və möhkəmlənməsini sövq etməyə, uşaqlarının inkişafına qayğı göstərməyə borcludurlar. Ailədəki uşaqların hüquq və azadlıqları və onların sağlam inkişafı üçün məsuliyyəti istər beynəlxalq, istərsə də ölkə səviyyəsində bir sıra tənzimləyici sənədlə tənzimlənir.

Uğursuz, problemli ailələrdən olan uşaqlarda yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi üçün əsas beynəlxalq hüquqi sənəd Uşaq Hüquqları Konvensiyasıdır. BMT-nin Uşaq Hüquqları Konvensiyası 20 Noyabr 1989-cu il tarixində BMT Baş Məclisi tərəfindən təsdiq edilmişdir. Bu sənədin 5-ci maddəsində iştirakçı dövlətlərin valideynlər, qəyyumlar və ya uşağa görə qanuni məsuliyyət daşıyan digər şəxslərin məsuliyyətlərinə, hüquqlarına və öhdəliklərinə hörmət göstərə-

cəkləri, bu Konvensiya tərəfindən tanınmış hüquqların həyata keçirilməsində uşağı düzgün idarə etmək, uşağın qabiliyyətlərini inkişaf etdirmək və rəhbərlik etməli olduqları vurğulanır.

Maddə hər iki valideynin uşağın tərbiyəsi və inkişafı üçün ümumi və bərabər məsuliyyət prinsipini qəbul edir. 27-ci maddə hər uşağın (funksional olmayan, yeni uğursuz ailələr daxil olmaqla) fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün zəruri olan bir həyat səviyyəsində hüququnu müəyyənləşdirir. Valideyn və ya uşağı böyüdən digər şəxs, bacarıqları və maddi imkanları daxilində uşağın inkişafı üçün zəruri olan yaşayış şərtlərini təmin etmək üçün əsas məsuliyyət daşıyır. Uşaq Hüquqları Konvensiyasında uşağın beynəlxalq səviyyədə tanınmış hüquqları sadalanır. Uşaq Hüquqları Konvensiyasının təsdiqlənməsi ilə əlaqədar qurumlar, yetkinlərin unutmağa meyilli olduqları nüansları vurğulamağa çalışdılar: bir uşaq da bir yetkin kimi bütün yetkin hüquqlara sahib bir insandır.

Uşaq Hüquqları Konvensiyası uşağı bir hüquq subyekti hesab edir. Bu o deməkdir ki, uşaq öz hüquqları olan bir insandır və heç kimin, hətta valideynlərinin də uşağa sahib olmaq hüququ yoxdur. Uşağın hüquqları-insan haqqıdır. Bu hüquq yaşından, cinsindən, milliyyətindən və digər xüsusiyyətlərindən asılı olmayaraq hər kəsə aiddir. Beləliklə, uşaq bir çox cəhətdən böyüklər ilə eyni hüquqlara malikdir. Uşağın hüquqları dedikdə, elə birbaşa insan hüquqları nəzərdə tutulur.

Müxtəlif yaş və ailə tiplərinə mənsub uşaqlar fərqli maraq və ehtiyaclara sahibdirlər. Bütün fərqlərdən asılı

olmayaraq, uşaqlar eyni hüquqa malikdirlər. Onların hamısının bərabər rəftara haqqı var.

Əlbəttə ki, cəmiyyətin bütün yetkin üzvləri kimi uşaqların da öz öhdələrinə düşən vəzifələri var. Bir uşağın hüququ başqa bir uşağın və ya bir yetkinin hüququ başladığı yerdə bitir. Bu o deməkdir ki, hüquqların sərhədləri var və uşaq hüquqlarından istifadə edərkən digər uşaqların və böyüklərin də hüquqlarını nəzərə almalıdır. Hüquq və vəzifələr əl-ələ verir. Hər bir uşağın, o cümlədən, uğursuz ailələrdə böyüyən uşaqların təhsil almaq hüququ var, onlar eyni zamanda məktəbə getməyə borcludurlar.

Uşağın sağlamlığını qorumaq hüququ var, eyni zamanda öz sağlamlığı ilə maraqlanmağa borcludur.

Uşaq söz azadlığı hüququna malikdir, lakin söz azadlığı hüququndan istifadə edərkən digər uşaqların və böyüklərin hüquqlarına və hər şeydən əvvəl şərəf və ləyaqətin qorunması hüququna hörmət etməlidir.

Uşaq Hüquqları Konvensiyası bütün uşaqlara öz hüquq və vəzifələrini müstəqil şəkildə həyata keçirmək hüququ verir. Bu o deməkdir ki, uşaq inkişaf etdikcə onun müstəqil qərar vermək hüququ və məsuliyyət dairəsi də artacaqdır. Uşaq öz hüquqlarından təkbaşına istifadə edə bilməyincə, valideynləri və ya qəyyumları bunu onun üçün edəcəklər.

Bütün bunlar hər zaman uşağın maraqlarına əsaslanmalıdır. Uşaqlar hər zaman öz hüquq və mənafelərini təkbaşına qoruya bilmədikləri üçün böyüklərin köməyinə və müdafiəsinə ehtiyac duyurlar.

Uşaq zehni və fiziki və cinsi istismardan, ədalətsizlikdən, baxımsızlıqdan və digər təhlükələrdən qorunmalı-

dır. Bütün valideynlər (uğursuz ailələrdən olan valideynlər də daxil olmaqla) qoruma ilə yanaşı uşağa həyat üçün lazım olan hər şeyi təmin etməli və uşağın qabiliyyət və maraqlarının inkişafı üçün uyğun şərait yaratmalıdırlar. Bütün insanların bir-biri ilə hesablaşdığı bir mühitin təməli qarşılıqlı hörmət və şərəfdir. Uşaqlar böyüklərə (valideynlərə, babaya, nənəyə, müəllimlətə və s.) və digər uşaqlara hörmət göstərdiyi kimi, böyüklər də öz növbəsində uşaqlara hörmət etməlidirlər. Bir-birimizə hörmət və ətrafımızdakı insanların istəklərini nəzərə almaq cəmiyyətin müxtəlif üzvlərinin birlikdə yaşaması üçün ən vacib şərtlərdən biridir.

Uşaq Hüquqları Konvensiyası dörd ümumi əsas prinsipi sadalayır

- Uşaqlara qarşı bərabər olmayan davranışların qadağan edilməsi;
- Uşağın yaxşı mənafeyinin təmin edilməsi;
- Yaşam və inkişafının təmin edilməsi;
- Uşağın fikirlərinə hörmət.

Sadalanan prinsiplərin nələri özündə ehtiva etdiyinə nəzər yetirək:

- *Qeyri-bərabər davranışın qadağan edilməsi.*

Bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaq, cinsi, mənşəyi, milliyəti, irqi, sağlamlıq vəziyyəti və ya başqa bir səbəbə görə digər uşaqlardan daha pis müalicə edilməməli, daha pis davranışa məruz qalmamalıdır;

- *Uşağın maraqları.*

Uşaq Hüquqları Konvensiyasının əsas prinsiplərindən biri də uşağın maraqlarını hər şeydən üstün tutmaqdır. Uşaq dostu olan bir cəmiyyəti gücləndirmək üçün qanunverici orqanlar, hökumətlər, təşəbbüskarlar,

dərnəklər və icma üzvləri qərar və fəaliyyətlərinin uşaqlara təsirini qiymətləndirməlidirlər. Qərarlar qəbul edərkən və fəaliyyət planlaşdırarkən uşağın ən yaxşı maraqları həmişə nəzərə alınmalıdır. Uşağın mənafeyini üstün tutmaq həm də uşağı dinləmək və fikirlərini nəzərə almaq deməkdir. Bu məsələ xüsusən risk qrupuna daxil olan, uğursuz ailələrdə böyüyən, bir valideynini itirən ailələrdən olan uşaqlara aiddir. Bu zaman onların hər birinə fərdi şəkildə yanaşmalı, emosional vəziyyəti nəzərə alınmalıdır;

- *Yaşamaq və inkişafın təmin edilməsi.*

Hər bir uşağın yaşamaq və inkişaf etmək hüququ vardır. Valideynlərin ən əsas vəzifəsi, uşağa öz qabiliyyətlərini və bacarıqlarını inkişaf etdirmək və həyata keçirmək imkanları təmin edəcək bir yaşayış mühiti yaratmaq üçün mümkün olan hər şeyi etməkdir. Eyni zamanda, dövlət valideynlərə hər cür yardım, dəstək və məsləhət verməlidir. Dövlətin hərtərəfli köməyinə baxmayaraq, valideynlər uşağa inkişaf üçün lazımi şərtləri təmin edə bilmirlərsə, dövlət bu öhdəliyi üzərinə götürməlidir;

- *Uşağın fikirlərinə hörmət.*

Uşaqla əlaqəli məsələlərdə uşağın fikri dinlənilməli və nəzərə alınmalıdır. Bu prinsip uşağın həyatının hər sahəsində tətbiq olunmalıdır.

Bu dörd prinsip Konvensiyanın əsaslarını təşkil edir və istər natamam və uğursuz ailələrdən, istərsə də funskional ailələrdən olan hər bir uşağın bütün bacarıqlarını həyata keçirərək harmonik şəkildə inkişaf edə biləcəyi bir cəmiyyətin standartını təşkil edir.

## 14. Uğursuz ailələrdə formalaşan yeniyetmələrin tərbiyə işinin imkan və yolları

Məlumdur ki, ailənin üzərinə düşən ən vacib vəzifə bu onun bütövlüyünün qoruyub saxlamaq və cəmiyyətə sağlam övlad bəxş etməkdir. Lakin bəzi hallarda bir çox evliliklərdə bir sıra xoşagəlinməz və arzuolunmaz hallarla qarşılaşırıq. Məsələn, atanın və ya ananın ölümü, yaranan anlaşılmazlıqlar səbəbiylə valideynlərin boşanması və ya yaranmış hər hansı bir səbəbdən dolayı həyat yoldaşının uzun müddət ailəni tək qoyması zamanı ailə öhdəsinə düşən bu vacib vəzifə və öhdəlikləri yerinə yetirməkdə çətinlik çəkir. İstər valideynlər, istərsə də uşaqlar yaranmış bu vəziyyətdən olduqca mənfi təsirlənirlər. Uşaqlar, əsasən yeniyetməlik yaşı dövründə şəxsiyyətin inkişafı prosesi zamanı və özlərini müstəqil şəkildə formalaşdırmağa çalışdıqları zaman cəmiyyətə adaptasiya üçün valideynlərin dəstəyinə ehtiyac duyurlar.

Ailənin dağılması nəticəsində meydana gələn bu kritik dövrdə ana-atadan yetəri qədər dəstək ala bilməyən uşaqlar cəmiyyətə uyğunlaşma və sonrakı yaş dövrlərində vəzifə və öhdəliklərini yerinə yetirməkdə çətinlik çəkirlər. Bu yeniyetmələrin psixoloji, sosial və məktəb həyatında bir çox problemlərin yaranmasına səbəb olur.

Bütün meydana gələn proseslər öz növbəsində yeniyetmələrin tərbiyəsinə də bilavasitə təsir göstərir. Məktəb tərbiyə işlərinin həyata keçirilməsində əsas mərkəzdir. Müasir dövrdə məktəbin rolunun və funksiyasının gün-gündən artması danılmaz faktdır. Məкtəb, ailə və ictimaiyyətin həyata keçirtdiyi tərbiyəvi işlərin əlaqə-

ləndirilməsi günümüzdə də ən aktual məsələlərdən biri kimi özünü büruzə verir.

Ailə ilə məktəbin əlaqə formaları aşağıdakılardır:

• Məktəblə ailə arasında təzahür edən kollektiv əlaqə formaları:

1. Pedaqoji mühazirələr;
2. Sual-cavab axşamları;
3. Valideyn iclasları;
4. Elmi praktik konfranslar;
5. Disputlar;
6. Yığıncaqlar və s.

• Məktəblə ailə arasında təzahür edən fərdi əlaqə formaları;

1. Açıq qapı günləri;
2. Valideynlərin məktəbə dəvət olunması;
3. Fərdi və ya qrup halında padaqoji məsləhət saatları;
4. Müəllimin ailəni ziyarəti və s.

• Məktəbin valideynlərlə ilə apardığı iş;

1. Məktəbin valideynlər arasında həyata keçirdiyi maarifləndirici fəaliyyəti;
2. Valideynlər arasında pedaqoji təbliğat.

Ümumtəhsil məktəbində tərbiyə prosesinin başlıca məzmunu - tərbiyəçinin həyata keçirtdiyi tərbiyəvi fəaliyyətdə tərbiyə olunanın ictimai, idraki, əmək, fiziki, bədii, estetik tərbiyəsi və eyni zamanda fəal, sərbəst ünsiyyət mövqeyinin formalaşdırılması, həyata keçirilməsi kimi başa düşülür.

Uğursuz ailələrdən olan yeniyetmələrin ailədə və məktəbdə tərbiyə işinin təkmilləşdirilməsi zamanı sadalanan pedaqoji prinsiplərə əməl edilməlidir:

1. *Yeniyetmələrin yaş, cinsi və psixoloji keyfiyyətlərinin nəzərə alınması prinsipi.*

Bəzi valideynlər və pedaqoqlar yeniyetmənin həssas yaş dövründə olduğuna fikir vermir, onlara qarşı münasibətdə digər uşaqlar kimi, eyni tələbkarlıqla yanaşırlar. Əgər yeniyetmələr evdə və ya məktəbdə sözə baxmır, heç cür sakitləşmirsə, belə halda istər valideyn, istərsə də pedaqoq yaranmış mübahisəni kəsmək üçün onlara qarşı rəftarda eyni tərzdə ciddi bir şəkildə təsir göstərməlidir. Bütün bunlara baxmayaraq münasibətdəki bu ciddilik təbii olaraq yeniyetmələrin hər birinə heçdə eyni dərəcədə təsir göstərmir. Bəzi yeniyetmələr bu münasibəti adi qarşıladığı halda, bəziləri bu vəziyyətə etiraz edir, məsləhət və ya töhmətlə barışmaq istəmitlər. Buradan da aydın olur ki, tərbiyə prosesində tələb yaşa uyğun olmalıdır;

2. *Fərdi yanaşma prinsipi.*

Bu bir çox sahədə özünü büruzə verdiyi kimi tərbiyə işini həyata keçirdikdə vasitələr seçərkən yeniyetmənin fərdi keyfiyyətlərini nəzərə almaq lazımdır. Bəzən fərdi tərbiyə anlayışı və fərdi yanaşma prinsipi bir-biri ilə eyniləşdirilir, amma bu anlayışlar heç də eyni deyil, bu anlayışlar arasında bir neçə fərqlər mövcuddur. Fərdi tərbiyə dedikdə təklikdə tərbiyə etmək prosesi nəzərdə tutulur, fərdi yanaşma prinsipi dedikdə isə yeniyetmənin fərdi xüsusiyyətlərinin nəzərə alınması nəzərdə tutulur;

3. *Hörmət və tələbkarlıq prinsipi.*

Müəllim və valideynlər - hər kəs, uşağın yaşından asılı olmayaraq ona hörmət etməyi, eyni zamanda onun fikir və düşüncələrini qiymətləndirməyi bacarmalıdır. Bəzi hallarda valideynlər yeniyetmələrə qarşı həddən artıq

tələbkarlıq nümayiş edir, bəzən onların maraqlarını unudurlar. Bütün hallarda valideyn və müəllimlər yeniyetmələrlə nəzakətli və mədəni davranmalı, eyni zamanda pedaqoji etikanın tələblərini pozmamalıdır. Bu qaydalara əməl olunmadığı halda uşaq daha da aqressivləşə və kobud ola bilər;

4. *Tərbiyəvi proseslərdə vahidliyin gözlənilməsi prinsipi.*

Bir çox məqamlarda tələblər üst-üstə düşməyə bilər. Müəllim tərəfindən verilən tapşırıqlar, bir çox hallarda valideynlər tərəfindən pozulur və bu da öz növbəsində tərbiyə işinin təkmilləşdirilməsində təsirliyin vahidliyi prinsipini pozur. Təkcə təlim fəaliyyətində deyil, eyni zamanda ailədə də yeniyetməyə hər kəs vahid tələbkarlıqla yanaşmalıdır;

5. *Sistemlilik və ardıcıllıq prinsipi.*

Təlim fəaliyyəti zamanı tərbiyə prosesləri müəyyən sistem və ardıcıllıq əsasında aparılmalıdır. Bu proseslə hər gün, hər saat, hətta hər an, müntəzəm olaraq məşğul olmaq lazımdır. Sistemsizlik, tərbiyə prosesinin uğurla həyata keçirilməyinə maneçilik törədir. Sistemlilik və ardıcıllıq dedikdə, həyata keçirilən hər istənilən bir tədbirin bir-birini tamamlaması nəzərdə tutulur. Sistemlilik zamanı tərbiyə işləri həyata keçirilən zamanı vahidlik prinsipinə də əməl olunmalıdır;

6. *Tərbiyə edilən uşağa qayğıkeş və humanist münaibət prinsipi.*

Müəllim hər bir yeniyetməyə humanist, qayğıkeş münasibət bəsləməlidir. Müəllimlərlə yanaşı valideynlər də uşaqlarının xoşbəxt və sağlam formalaşmağı üçün

onlara hər bir zaman humanist və qayğıkeş münasibətdə olmalıdırlar;

7. *Yeniyetmələrin hamısını bərabərhüquqlu görmək və mövcud təlim proseslərinə onları cəlb etmək prinsipi.*

Təlim fəaliyyətində iştirak edən bütün yeniyetmələr, istər uğursuz istər tam ailələrdən olan uşaqlar bərabərhüquqludurlar. Müəllim yeniyetmələr arasında ayrıseçkilik etməməli, ailə vəziyyətinə görə birini, o birindən üstün tutmamalı, birini tərif edib, o biri şagirdə məzəmmət etməməli, bütün uşaqlara eyni rəftar, eyni münasibət göstərməlidir. Bu prinsiplərə ciddi şəkildə riayət edilməsi tərbiyə işinin düzgün qurulmasına səbəb olar.

Uğursuz ailələrdə valideynlərin yeniyetmələri tərbiyə etmə prosesi çağdaş dövrdə getdikcə çətinləşir. Bu cür ailələrdə münasibətlər pozulduqda, valideynlər tərbiyə prosesində çox vaxt əks mövqe sərgiləyirlər ki, bu da öz növbəsində yeniyetmələrə mənfi təsir göstərir.

Tərbiyə prosesinin düzgün təşkili birbaşa olaraq onun məqsədinin, məzmununun və metodlarının düzgün şəkildə müəyyənləşdirilməsindən və həyata keçirilməsindən asılıdır. Buna əsasən deyə bilərik ki, tərbiyə formaları konkret pedaqoji situasiyalardan asılıdır və buna görədir ki, onlar çox müxtəlif, yaradıcı eyni zamanda da fərdi xarakter daşıyırlar.

Uğursuz ailədə böyüyən yeniyetmələrlə tərbiyənin aşağıda sadalanan üsullarından istifadə etmək olar:

1. *Məsləhət və ya təklif;*
2. *Şəxsi nümunə üsulu;*
3. *Təşviq üsulu (tərif, hədiyyələr, mükafatlar və.s);*
4. *Cəza üsulu.*

Tərbiyə metodlarının öz xarakterik cəhətləri var: uşağa fərdi təsir, müəyyən davranışlara əsaslanaraq şəxsi uyğunlaşdırma.

Ailədə də yeniyetmənin tərbiyə edilməsində bir sıra metodlardan istifadə edilir. Bu da öz növbəsində yeniyetmələr və valideynlər arasında olan münasibətə öz təsirini göstərir.

Məlumdur ki, valideyn - övlad münasibətlərin qurulmasında da bir çox üsullardan istifadə olunur. Məhz buna görədir ki, ailə tərbiyəsi metodları özündə valideyn şəxsiyyətinin parlaq izini ehtiva edir. Məsələn, övlad - valideyn bir-birinə qarşı münasibətdə səmimi, isti, yaxın olduqda burada əsas tərbiyə metodu təşviqdir. Soyuq, yad bir münasibətdə isə, təəssüf ki, şiddət və fiziki cəza metosu üstünlük təşkil edir. Metodlar valideynlərin təməlini qoyduğu prioritetlərdən çox asılıdır: bəzi valideynlər yeniyetmələrə itaət hissi aşılamaq istəyirlər və bunun nəticəsidir ki, onların metodları yeniyetmənin böyüklərin tələblərinə mütləq şəkildə uyğunlaşmasını təmin etməyə yönəlmişdir. Digər valideynlər isə uşaqlarına müstəqil düşünməyi və təşəbbüskarlığı aşılamağı daha vacib hesab edirlər ki, buna görə də daha uyğun metodlar tapırlar.

Valideynlərin pedaqoji mədəniyyəti tərbiyə vasitələrinin, üsullarının və formalarının seçimində mühüm rol oynayır. Tədqiqatçılar hələ qədim dövrlərdən etibarən təhsilli insanların, tərbiyəçilərin ailələrində uşaqların müqayisədə hər zaman daha yaxşı təlim-tərbiyə aldıqlarını diqqətə çatdırmışdır.

Müasir Azərbaycanda cəmiyyətin mənəvi həyatının əsası olan gənc nəslin vətənpərvərlik tərbiyəsinə, Azərbaycan xalqının birliyini təmin etməyə böyük diqqət

yetirilir. Yeniyetmələrdə vətənpərvərlik hisslərinin aşılanması problemi yalnız valideynlərin, dövlət orqanlarının işçilərinin və bütün növ təhsil müəssisələrinin birgə səyləri ilə həll edilə bilər. Bunun üçün:

- Yeniyetmələrə əxlaqi bilik və inancların formalaşması üçün intellektual əsas olan zəruri dərin və davamlı biliklər verilməli;
- Yeniyetmələrə mənəvi, estetik və sivil hisslər aşılanmalı;
- Ətrafdakı gerçəkliyi qiymətləndirmək, münasibətini və fikrini ifadə etmək üçün yeniyetmələrin lazımi bilik və bacarıqları inkişaf etdirilməlidir.

Hazırda məktəblər dövlət təhsil standartlarına uyğun olaraq vətənpərvərlik tərbiyəsinin əhəmiyyətli potensialını ehtiva edən humanitar, mülki, əxlaqi və etik yönümlü fənlərin öyrənilməsi üçün daha çox tədris vaxtı ayırırlar.

Vətənpərvərlik tərbiyəsinin məqsədi, yeniyetmələrin həyatın əsası olaraq vətənlərinin xeyrinə hərəkət etmək istəklərini inkişaf etdirməyi qarşısına qoyur və bu işdə müəllimin əsas vəzifəsi yeniyetmələrə vacib keyfiyyətlərinin inkişafı və təkmilləşdirilməsində kömək etməkdir.

Yeniyetmələrdə vətənpərvərlik hisslərinin tərbiyəsi yalnız məktəb fənlərinin tədrisi prosesində deyil, təhsil müəssisələrində əlavə dərslər zamanı da baş verir, hansı ki, onlar tədris prosesinin məntiqi davamıdır. Bu sistem həm də şəxsiyyətin bütöv formalaşması və inkişafı vəzifələrini də özündə ehtiva edir. Vətənə sevgi, insanlara, işlərinə qürur hissi, Vətən düşmənlərinə nifrət, Vətənin

çiçəklənməsi üçün fəal mübarizə hisslərinin aşılanması vətənpərvərlik tərbiyəsinin əsasını təşkil edir.

Tərbiyə metodlarından biri və deyə bilərik ki, ən vacibi humanist tərbiyə metodlarıdır. Humanist tərbiyə metodlarına:

- Uşaqlarla daim söhbətin aparılması;
- Fziki cəzanın qadağan olunması;
- Uşaqlara dost münasibətin göstərilməsi;
- Uşaqların istəklərini anlayışla qarşılamaq və s.

aiddir.

Ümumiyyətlə, tərbiyə dedikdə müəyyən psixoloji xüsusiyyətlərə malik və insanlarda davranış formalarını yüksəltmək üçün müəyyən insanların - təhsil işçilərinin, həmçinin valideynlərin digər şəxslərə - şagirdlərə qarşı tədbiq edilən mütəşəkkil və qeyri-mütəşəkkil təsir vasitələri başa düşülür.

Tərbiyə vasitələri və imkanları atanın, ananın, müəllimin və yeniyetmənin həyatında bu kimi digər vacib şəxslərin fərdi nümunəsi, habelə ətrafdakıların sərgilədiyi davranış nümunələri, eyni zamanda bədii, pedaqoji və digər ədəbiyyatlarda, həmçinin kütləvi informasiya vasitələrində təqdirəlayiq hərəkətlər ola bilər.

Uğursuz bir ailədə uşaq tərbiyə etmək üçün xüsusi şərtlər mövcuddur. Aydındır ki, ailənin bütövlüyünün dağılması valideynlər və uşaqlar arasındakı mövcud münasibətlərə mənfi təsir göstərir, eyni zamanda emosional atmosferin sabitliyini pozur. Valideynlər bu dövrdə öz həyatlarında mənfi emosional hisslər keçirtdiklərinə görə, əsasən uşaqların həyatında meydana gələn problemlərin həll edilməsində, onların valideynlərin dəstək və sevgisinə olan ehtiyaclarını ödəməkdə çətinlik çəkirlər.

Mənəvi cəhətdən zərərlərə məruz qalan övlad heç də həmişə cəmiyyətə sağlam bir insan olaraq qarışa bilmir. Əksər hallarda bu uşaqların aldıqları mənəvi zərərlər gələcəkdə digər cəmiyyət üzvlərinə qarşı aqressiya şəklində ötürülür. Ailədə baş verən problemlər səbəbindən yeniyetməlik yaşında müəyyən mənəvi zədələr almış şəxs nəinki zaman keçdikcə özünü doğrulda bilmir, hətta belə insanlar başqalarına da zərər yetirmək riski daşıyır. Hər hansı bir uşağın gözü qarşısında uşaq yaşlarından ailədaxili münaqişələr baş verirsə, bu hadisələr təbii ki, onun gələcək həyatına təsirsiz ötüşmür.

Hət bir yaş dövrünün özünəməxsus keçid dövrləri olur və bu keçid dövrlərində yaşananlar insanın gələcək həyat və fəaliyyətinə öz təsirini göstərir.

Uşağın aid olduğu ailədə natamamlıq və bundan qaynaqlanan uğursuz ailə modeli meydana gəldiyi üçün uşaq cəmiyyətdə özünü hərtərəfli və tam şəkildə rahat hiss edə bilmir.

Uğursuz ailələrdən olan yeniyetmələrlə təlim-tərbiyə prosesi heç vaxt birtərəfli şəkildə öz həllini tapa bilməz. Bu məsələnin düzgün şəkildə həll edilməsi üçün müəllim və valideynlər daim qarşılıqlı fəaliyyətdə olmalı, əməkdaşlıq etməli, habelə tələblərdə vahidlik prinsipi saxlanılmalı, valideyn və müəllimlər bu işdə bir-birinə dəstək olmalı və ehtiyac yaranarsa yeniyetməyə psixoloji dəstək almaq üçün mütəxəssislərdən kömək alınmalıdır.

# ƏDƏBİYYAT



| | |
|---|---|
| 1 | Azərbaycan Respublikasının Təhsil Qanunu |
| 2 | Azərbaycan Respublikasında ümumi təhsilin inkişafı üzrə Dövlət Proqramı |
| 3 | Azərbaycan Respublikasının Təhsil Konsepsiyası (Milli Kurikulum) |
| 4. | Azərbaycan Respublikasında ali təhsili inkişafı üzrə Dövlət Strategiyası |
| 5 | Pedaqogika elminin inkişafında yeni mərhələ. (Beynəlxalq konfrans materialları) |
| 6 | Təhsilin inkişaf strategiyası və onun reallaşdırılması. Respublika elmi konfransının materialları |
| 7 | Abbasov A.N., Əlizadə H.Ə., Pedaqogiкa |
| 8 | Abbasov A.N., Ailə |
| 9 | Abbasov A.N., Milli əxlaq və ailə etikası |
| 10 | Abbasova A.N., Pedaqogika |
| 11 | Abdulov R., Məktəbdə sosial-pedaqoji işin əsasları |
| 12 | Abdulov R., Aktual sosial problemlər |
| 13 | Ağayev Ə., Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi |
| 14 | Ağayev Ə.Ə., Rzayeva Y.T., Hüseynova T.M., Vahabova T.Ə., Sosial Pedaqogika |
| 15 | Aslanlı M., Fiziki mədəniyyət və mənəvi kamillik |
| 16 | Bayramov Ə.S., Əlizadə Ə.Ə., Psixologiya |
| 17 | Bayramov., Ə, Əlizadə Ə., Sosial psixologiyanın aktual məsələləri |
| 18 | Dadaşova T. Pedaqoji-psixoloji düşüncələr |
| 19 | Əhmədov B.A., Rzayev.A.Q., Pedaqogikadan mühazirə konspektləri |
| 20 | Əhmədov Ə., Mənəviyyat, gözəllik, tərbiyə |
| 21 | Əliyev B., Əliyeva K., Cabbarov R., Pedaqoji psixo-logiya |
| 22 | Əliyev P.B., Əhmədov H.H., Gənclərin milli-mənəvi dəyərlər əsasında tarbiyasi |
| 23 | Əliyev R.İ., Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları |
| 24 | Əliyeva G.B., Yeniyetmələrin mənəvi tərbiyəsində cinsi xüsusiyyətlərin nəzərə alınması |
| 25 | Əliyeva G.B., Yeniyetmələrin yenidəntərbiyəsində cinsi xüsusiyyətlərin nəzərə alınmasının psixoloji əsasları |
| 26 | Əlizadə Ə.Ə, Əlizadə H.Ə., Yeni pedaqoji təfəkkür, psixouyğunluq |

| | |
|---|---|
| 27 | Əlizadə Ə.Ə., Abbasov A.N., Aila hayatının etika va psixologiyasının tədrisinə dair |
| 28 | Əlizadə Ə.Ə., Ailənin psixoloji iqlimi |
| 29 | Əlizadə H., Tərbiyənin demoqrafik problemləri |
| 30 | Əlizadə H.Ə., Mahmudova R., Sosial pedaqogika |
| 31 | Əlizadə H.Ə., Sosial pedaqogikanın aktual problemləri |
| 32 | Haşimov A.Ş., Sadıqov F.B., Azərbaycan xalq pedaqogikasinin antalogiyası |
| 33 | Həmzəyev M. Atalıq borcu |
| 34 | Həmzəyev M., Yaş və pedaqoji psixologiya |
| 35 | Həsənli S.Q., Ailə tərbiyəsində etnopedaqoji materiallardan istifadə imkanları |
| 36 | Həsənov A.M, Ağayev Ə.Ə., Pedaqogika |
| 37 | Həşimov Ə.Ş., Sadıxov F. Azərbaycan Xalq Pedaqogikası |
| 38 | Hüseynzadə R., Mahmudov V., Hüseynova N., Mahmudova N., Hüseynova G., Ağabəyov C., Aslanov Z., Pedaqoji prosesdə situasiyalar, metodlar, öyüd və nəsihətlərdən istifadə |
| 39 | Hüseynzadə R.L., Ailə pedaqogikası |
| 40 | İbrahimov F., Hüseynzadə R., Pedaqogika |
| 41 | İbrahimov F.N., Hüseynzadə R.L., Pedaqogika |
| 42 | İsmixanov M., Pedagogika |
| 43 | İsmixanov M., Pedaqogikanın aslanı |
| 44 | İsmixanov M., Vəliyeva S., “Sosial Pedaqogika |
| 45 | Qasımova L.N., Mahmudova R.M., Pedaqogika |
| 46 | Qasımova L.N., Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən |
| 47 | Quliyev S.M., Ailə pedaqogikasının ümumi problemləri |
| 48 | Quliyev S.M., Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və itimaiyyətin birgə fəaliyyəti |
| 49 | Mahmudov V., İmamverdiyeva N., Həsənova E., Əlizadə S., Mahmudova S., Həsənov A., Praktik pedaqogika |
| 50 | Mehrabov A.O., Müasir təhsilin konseptual problemləri |
| 51 | Rüstəmov F.A., Dadaşova T.Y. Ali məktəb pedaqogikası |
| 52 | Азаров Ю.Р., Семейная педагогика |
| 53 | Аллахвердиева И.Р., Социально-психологический анализ супружеского конфликта в азербайджанской семье |
| 54 | Бешенков А.К. и др., Семья и дети: воспитание трудолюбия |
| 55 | Васков И.В. Психологический тренинг |

# *Vəsaiti hazırlayanlar haqqında məlumat*





## *Nəzakət Bəylər qızı İmamverdiyeva*

1952-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1975-ci ildə BDU-nun filologiya fakültəsini bitirmişdir. Filologiya elmləri namizədidir və Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının dosentidir. 140-dan artıq elmi əsərlərin (kitab, metodik vəsait, proqram, elmi məqalə), o cümlədən, «Pedaqogika kursu üzrə seminar məşğələlərinin aparılması metodikası», «Məktəb və ailə», «Pedaqogika (nəzəri-əyləncəli)» kitablarının həmmüəllifidir. Bir sıra Respublika və Beynəlxalq konfransların iştirakçısı olmuşdur.

## *Nərminə Seyfəl qızı Mirzəliyeva*

1995-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2016-ci ildə BDU-nun kimya fakültəsini bitirmişdir. 2018-ci ildə ildə isə ADPU-nin Pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə magistraturanı bitirmişdir. 2019-cu ildən BDU-nun Doktorantıdır və dissertasiya mövzusu ”Yeniyetmələrin sosiallaşmasında ailədaxili münasibətlərin imkan və yolları” adlanır. 2018-ci ildən BDU-nun Pedaqogika kafedrasının da əməkdaşıdır. Bir çox respublika və Beynəlxalq konfransın iştirakçısı olmuş, məruzələrlə çıxış etmişdir.